MƏHƏMMƏD SALİH

# ŞEYBANİNAMƏ

MƏHƏMMƏD SALİH

# ŞEYBANİNAMƏ

Naxçıvan - 2021

*Müqəddimə, şərhlərin müəllifi və*
*Cağatay dilindən tərcümə edən:* **Əbülfəz Quliyev**

*Redaktor:* **Asim Yadigar**
*Naxçıvan MR Yazıçılar Birliyinin sədri*

*Orta əsrlərdə Çingiz xanın ölümündən sonra Çin Türküstanından Buxara və Səmərqəndə qədər olan ərazi,bölgə Cağatay ulusu adlanırdı.Bu ulusun istifadə etdiyi Cağatay türkcəsi XIV əsrdən etibarən Orta Asiya türklərinin ümumi ədəbi dili mənasını ifadə etməyə başlamışdır(*bu dilin *əsasında müasir özbək dili təşəkkül tapmışdır). Bu dövrdəki Cağatay ədəbiyyatının əsas nümayəndələrindən biri şair Məhəmməd Salih (1455-1534) olmuşdur. M.Salihin ən böyük əsəri hökmdar Şeybani xanın (1451-1510) zəfərlərini tərənnüm edən irihəcmli "Şeybaninamə" məsnəvisidr. "Şeybaninamə" poemasında o dövrün tarixi hadisələri realist boyalarla təsvir edilmişdir. Dilimizə ilk dəfə tərcümə edilən bu bədii əsər ədəbiyyatçı, dilçi və tarixçilər, eyni zamanda geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

***Məhəmməd Salih. Şeybaninamə.*** *Naxçıvan-2021 "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 436 səh.*

4700000000
053-2021

© "Əcəmi" 2021

# M Ü Q Ə D D İ M Ə

***(Şah İsmayılın öldürdüyü hökmdar haqqında dastan)***

Çingiz xan dünyadan köçəndə öz mal-mülkünü övladları arasında böldü. Onun böyük oğlu Cağatay xanın payına düşən ərazi uyğurların yaşadığı yerlərdən Buxara və Səmərqəndə qədər olan əraziləri əhatə edirdi. Bu ərazi Cağatay ulusu adlanırdı. Bu ulus etnik və dini cəhətdən qarışıq idi. Bu əraziyə eyni zamanda Mavərənnəhr deyilirdi. Cağatay türkcəsi XIV əsrdən Orta Asiya türklərinin ümumi ədəbi dili mənasını ifadə etməyə başlamışdır. Cağatay türkcəsinin ən görkəmli nümayəndəsi Əlişir Nəvaidir (XV əsr). O, Cağatay ədəbiyyatının klassik dövrünü təmsil edir.

Cağatay ədəbi dili və ədəbiyyatı Şeybani xan, Zəhirəddin Babur, Ubeydi, Molla Bənnai, Kamran Mirzə, Məhəmməd Salih, Bayram xan kimi önəmli şairlərlə XVIII əsrə qədər davam etdirildi.

Məhəmməd Şeybani xana(1451-1510) mənsub şahzadələrin idarəsindəki köçəri özbəklər XVI əsrin əvvəllərində Xarəzm və Mavərənnəhri, Hüseyn Bayqaranın ölümündən (m.1438-1506) sonra da Xorasanı ələ keçirərək Teymurilərin hakimiyyətinə son verdilər.

Məhəmməd Şeybani xanın adı orta əsr qaynaqlarında çox zaman Şeybak, Şaybak şəklində işlənmiş, onun öz şeirlərində isə Şıban, Şibani şəklində çıxış etmişdir. Şeybani sözü ehtimal ki, Şahi-baxt adının təhrif olunmuş formasıdır. Onu da qeyd edək ki, son araşdırmalarda Şeyybani sözünün qədim türk sözü olan "çoban"dan gəldiyi haqqında fikirlər səslənməkdədir (Əkbər Nəcəf). Şaybak və ya Şeybani xan (1451-1510) Əbülxeyır xanın (1428-1468) nəvəsidir.

Ümumi olaraq Məhəmməd Salihin yaradıcılığa başladığı bu dönəmdə Mavərənnəhr və Xorasanda qarışıq sosial və iqtisadi şərtlər meydana gəlmiş və siyasi çəkişmələr ən yüksək həddə qalxmışdı. Bir yandan Teymurilərin öz aralarındakı taxt qovğaları davam edərkən, digər tərəfdən Əbül-xeyr xan və övladları başçılığında köçəri özbəklərin Teymurilərə qarşı savaşları hər keçən gün artmaqdaydı. Məhz belə bir zamanda Teymurilərin zəifliklərindən faydalanan Şeybani xan köçəri özbəklərin bir çox qəbiləsini öz komandanlığında birləşdirərək Mavərənnəhrə hücuma başlamış və bu hücumlarda qalib gəlmişdi.

Şeybani xan mahir bir savaş adamı olaraq həm də maarif və mədəniyyətə qayğı göstərmiş, öz dövrünün ruhundan çox xəbərdar və zamanındakı şairlərindən seçilən qələm sahibi olmuşdur. Sultan Hüseyn Bayqaranın vəfatından sonra bir ovuc taxıla möhtac qalan bir çox üləma Məhəmməd Şeybani xandan himayə gördülər. O, üləmaları xidmətə alıb münasib vəzifələr verdi. Buxara, Səmərqənd, Daşkənddə məscidlərin, mədrəsələrin abadlaşdırılmasını əmr etdi. Hətta səfərlərində də ətrafında bir çox üləma

olmuş və bunlar ona hörmət və sədaqət gözüylə baxmışlar.

Məhəmməd Şeybani xan ərəbcə və farscanı yaxşı bilirdi və diqqətəşayan türkcə əsərləri də vardı. Şeirlərində Şeybani təxəllüsündən istifadə edən bu hökmdar divan tərzi şeirləri ilə yanaşı, Xoca Əhməd Yəsəviyə böyük bir hörmətlə bağlılığı səbəbiylə hikmət tərzində, heca vəznilə dördlüklər halında poetik nümunələr də yaratmışdır. Şeybanilər dövründə ədəbi fəaliyyətlə bərabər, dini fəaliyyətlər də önəmli bir yer tuturdu. Bu dönəmdə hazırlanan Quran tərcümə və təfsirləri, Şeybani xanın "*Bəhrü'l-Xuda"* adlı məsnəvisi, fiqhə aid risaləsi də bunu açıqca göstərməkdədir.

Dövrünün tanınmış hökmdarı və hərb adamı Məhmməd Şeybani xan haqqında müxtəlif bədii-tarixi əsərlər yazılmışdır.Bu əsərlərdən biri də Məhəmməd Salihin "Şeybaninamə" məsnəvisidir. "Şeybaninamə", tarixdə Şeybani xan haqqında yazılmış tək əsər deyildir. Molla Sədinin farsca "Fəthnameyi-Xani", Molla Bənnainin "Şeybani xan"(farsca "Şeybaninamə"), Ruzibek xanın "Səfərnameyi- Buxara"sı kimi əsərlərdə də Şeybani xan, köçəri xanların həyatları, məqsədləri və ideologiyaları təsvir edilmiş, amma Məhəmməd Salihin "Şeybaninamə"sindəki qədər geniş və dərin şəkildə işlənməmişdir. "Şeybaninamə*"* dastanı bu cəhətdən Orta Asiyanın XVI əsr tarixinin öyrənilməsində ən dəyərli qaynaqlardan biri kimi də diqqəti çəkir.

XVI əsr Cağatay şairləri arasında Qərb elm aləminə ən çox tanınmış olanı (Şeybani xanın zəfərlərini təsvir üçün yazılmış) Məhəmməd Salihin "*Şeybaninamə"* adlı mənzum xronikasıdır . XV əsrin ikinci yarısı və XVI əsrin ilk yarısında yaşayaraq əsər verən Cağatay şairlərindən Məhəmməd Salih, 1455-ci ildə Xarəzmdə doğulmuşdur. Atası Nur Səid bəy Əbu Səid Mirzə dövründə Xarəzm hakimi olub, Teymuri hökmdarlarından Hüseyn Bayqaranın (1438-1506) hücumuna müqavimət göstərdiyi üçün Herata çağrılaraq İxtiyarü'd-din qalasında həbs edilmişdir. Çox keçmədən Əbdürrəhman Caminin xahişilə sərbəst buraxılmış və Mərvə hakim olaraq göndərilmiş, ancaq orada öldürülmüşdür.

Erkən yaşlarda yetim qalaraq həyatın bir çox çətinliklərinə məruz qalmış Məhəmməd Salih də eynən atası Nur Səid bəy kimi Teymurilərdən mürüvvət və şəfqət görməmişdir. Nəvai və Əbdürrəhman Cami kimi böyük ustadların tövsiyələrindən və ədəbi söhbətlərindən yararlanmaq ona huzur versə də, Hüseyn Bayqara sarayından getməyə məcbur olmuşdur.

Özbək alimi E.Şadiyev Məhəmməd Salih haqqında yazır ki, "Məhəmməd Salih, hakim təbəqəyə mənsub bir ailə içində doğulub-böyüdüyü üçün yaxşı tərbiyə almışdır. İbtidai təhsilini aldıqdan sonra Heratda Əbdürrəhman Caminin yanında təhsil görmüş, orada ərəb və fars ədəbiyyatını öyrənmiş, tarix və fəlsəfə ilə məşğul olmuşdur. Xəttatlıq sahəsində də mühüm nailiy-

yətlər əldə etmişdir”. Məhəmməd Salih atasının ölümündən (1469) sonra maddi və mənəvi çətinliklər çəkir, təhsili buraxır. Hüseyn Bayqara taxta çıxınca bir müddət onun sarayında (sonra da Buxara və Səmərqənddə), başqa hakimlərin sarayında xidmətdə olur. Hüseyn Bayqara tərəfindən də çox iltifat görməyən Məhəmməd Salih saraydakı vəzifəsindən ayrılaraq təxminən 1499-cu ildə Şeybani xanın yanına gəlir. Mavərənnəhri ələ keçirməyə çalışan bu hökmdarın xidmətinə girir. Şeybani xan onu səmimi qarşılayir və ona “əmirül-üləma” və “məliküş-şüəra” titullarını verir. O zamandan etibarən Məhəmməd Salih Şeybani xan tərəfində yer alaraq Teymurilərə qarşı mübarizəyə girişir. Bunun ən önəmli səbəblərindən biri şairin Teymurilərdən atasının öldürülməsinin intiqamını almaq idi. Məhəmməd Salih Şeybani hüzurunda saray şairi və tarixçisi(salnaməçi) olaraq yer almış, eyni zamanda savaşçı və komandir olaraq döyüşlərdə də uştirak etmişdir.

O,1504-cü ildə Şeybani xanın kiçik qardaşı Sultan Mahmud ilə Qunduz şəhərində yaşayırdı. Sultan Mahmudun vəfatından sonra isə öz istəyi ilə Buxaraya qayıtdı. Hicri 909-cu ildə Buxaraya hakim təyin edildi. Bu barədə tarixçi Xandəmir "Həbibü's-siyər" əsərində ətraflı məlumat vermişdir.

Şeybani xan Daşkənd, Fərqanə, Səmərqənd, Buxara, Hisar, Qunduz kimi şəhərləri alınca, Mərv və Xarəzmi almaq, ardından da Herata hücum etmək məqsədi ilə 1505-ci ldə Xarəzmə doğru yürüş etdi. Məhəmməd Salih bu savaşlarda komandir və dövlət adamı olaraq iştirak etdi. Bu əsnada ona Carcou hakimliyi verilmişdi. O, Carcouda qayda-qanun yaratdıqdan sonra Xarəzmə getdi.Məhəmməd Salih 1505-ci ilin sonlarında, yaxud 1506-cı ilin əvvəllərində Şeybani xan tərəfindən Nisa şəhərinə hakim təyin edilmişdir. Onun burada neçə il hakimlik etdiyi məlum deyil. Böyük ehtimalla, 1510-1511-ci ilə qədər, yəni Şeybaninin Şah İsmayıl tərəfindən öldürülməsinə qədər hakimlik etmişdir, sonra isə Buxaraya gəlmiş və orada hicri 941-ci ildə( 1534-1535 miladi) vəfat etmişdir. Bir başqa qaynağın verdiyi bilgiyə görə isə Şeybani xan Buxaranı ələ keçirincə Məhəmməd Salihi orada hakim olaraq qoyur və sonrakı hərbi yürüşlərdə onun da iştirakını təmin edir. 1505-1506-ci ilə qədər Məhəmməd Salih Xarəzmdə Şeybani xanın hüzurunda olur.

Məhəmməd Salih, lirik şeirləri ilə şöhrət qazanmışdır. Onun yaradıcılığına Əlişir Nəvai, Zahirəddin Məhəmməd Babur, Sam Mirzə, Lütfəli İbn Ağaxan *(Atəşkədə),* Xoca Həsən Nisari kimi zamanının məşhur şair və ədəbiyyatçıları yüksək qiymət vermişlər. E.Şadiyev Məhəmməd Salihin ədəbi mirası haqqında çeşidli və bir-birinə zidd fikirlərin olduğundan söz edərək, araşdırmaçıların bəzilərinin şairin *“Məcnun və Leyla”, “Naz və Niyaz”* adlı əsərlərinin olduğundan söz etdiklərini, bəzilərinin isə bu fikrə şübhə ilə baxdıqlarını, yenə müəllifi müəyyən olmayan “*Tarixi- Qozide-*

*Nüsrətnamə"nin* M. Salihə aidliyinin mübahisəli olduğunu göstərir .

Baburun "Xatirat"ında göstərdiyi kimi, Məhəmməd Salih cağatayca və farsca şeirlər yazmış, bunları toplayaraq bir divan hazırlamışsa da, divanı indiyə qədər aşkar olunmamışdır. Onun günümüzə qədər gəlib çıxan yeganə əsəri "*Şeybaninamə"məsnəvisidir.* Bu məsnəvi Cağatay ədəbiyyatı tarixində mühüm hadisə sayıla bilər. Çünki dövrünə aid hadisələri əks etdirən realist xarakterli bir poemadır. Əsər Şeybani xanla Teymurilər arasındakı qanlı vuruşmaları əks etdirir. M.Salih Şeybani xanın yürüşlərində iştirak etmiş və gördüyü dəhşətli hadisələri qələmə almışdır. Bu baxımdan əsər bir cəngnamə səciyyəsi daşımaqdadır. Burada ordular arasında toqquşmalar, xalqın başına gətirilən müsibətlər realist boyalarla ifadəsini tapmışdır. Əruzun rəməl bəhrində qələmə alınmış məsnəvi Şeybani xanın dövrünə və fəaliyyətlərinə işıq tutması baxımından önəmlidir.

*"Şeybaninamə"* 80 babdan ibarət böyük bir məsnəvi olub dastanın birinci babı minacatdır. 5 babı lirik mənzumələrdir və qalan bablar da tarixi hadisələrin təsvirinə ayrılmışdır. Dastanın digər dastanlardan əsas fərqi budur ki, burada əsərin əsasına əfsanəvi hadisələr deyil, əksinə, şairin öz gözü ilə gördüyü hadisələr alınmışdır. Beləliklə, bəhs edilən hadisələr uydurma olmadığı kimi, əfsanəvi qəhrəmanların həyatı və hərəkətləriylə də əlaqəli deyildir. Qəhrəmanlar həyatda yaşamış insanların özləridir. Əsərdəki bu obrazları iki qrupa ayrılmaq olar:

Birinci qrupda biz Şeybani xan rəhbərliyində Sultan Mahmud, Teymur Sultan, Can Vəfa, Urus bəy kimiləri görərkən, ikinci qrupda Hüseyn Bayqara rəhbərliyində Zəhirəddin Babur, Baki Tarxan, Bədüz-zaman, Sultan Əli, Xosrov şah, Əbu'l-Muhsin, Çın Sufi kimi Teymuriləri görürük. Bunların vasitəsilə hicri tarixlə 905-dən 911-ə, miladi tarixlə 1499-cu ildən 1506-cı ilə qədər olan vuruşmalar, xalqın yaşadığı dəhşətli hadisələr anladılmaqdadır. Qeyd edildiyi kimi,müəllif Şeybani xanın bütün həyatını deyil, hicri 905-ci (m. 1499-1500) ildə xanın Buxaraya qarşı səfərə çıxmasından hicri 911-ci ildə (m. 1505-1506) Xarəzmi fəth etməsinə qədər olan dövrdəki fəthlərini,fəaliyyətlərini qələmə almışdır. Məlumdur ki,Şeybani xan Səfəvi dövləti və Şah İsmayıl Xətai ilə düşmənçilik edirdi.Ona təhqiredici məktublar yazırdı. O qədər özündən razı idi ki,deyirdi Bağdad, Misir mənimdir. Şeybaninin şıltaqlığına, hədə-qorxusuna əvvəl əhəmiyyət verməyən Şah İsmayıl ən sonunda müharibə etmək qərarına gəldi. İki qüdrətli ordu Mərv qalası ətrafında qarşılaşdı. Şah İsmayıl qalib gəldi, Şeybani xanı əsir alıb edam etdirdi. Tarixçilərin yazdığına görə Şah İsmayıl onun kəlləsindən şərab qədəhi hazırlatmışdı.

Dastan, yuxarıda qeyd edildiyi kimi, Şeybani xan ordusunun Buxara üzərinə hücuma hazırlaşması ilə başlayır. Şeybani xan bu yürüşdə Buxara-

nın qapısına böyük bir qüvvə ilə hücuma keçir və dəhşətli vuruşmalar nəticəsində Buxara əmiri Baki Tarxanın əsgərlərilə Debüsi qalası yaxınlığında üz-üzə gəlir. Baki Tarxan Buxaraya sığınır və Şeybani xan tərəfindən orada mühasirəyə alınır. Ardından təkrar üç gün vuruşurlar. Sonunda Baki tarxan təslim olmağa məcbur olur. Şeybani xanın ordusu Buxaranı yağmalayır. İnsanları kütlələr halında öldürür.

Bundan sonra Şeybani xan, Səmərqəndə doğru yürüş edir. Buxarada öz hakimiyyətini quran Şeybani xan Səmərqənd yolunda Qara göl, Karşı şəhərlərini də ələ keçirir. Bu əsnada Xəzər vilayətini də özünə tabe edir. Ardından Şeybani xan Səmərqənd şəhərini mühasirə edərək Teymurilərdən yardım alan Babur Mirzə ilə çox böyük müharibə edir. Mühasirə sırasında şəhər xalqı çox çətin günlər yaşamağa başlayır. Çox sayda günahsız insan aclıqdan və susuzluqdan ölür. Şeybani xan şəhər xalqının yardım yollarını kəsir, uzun sürən mühasirədən sonra Babur Mirzəyə qalib gəlir. Babur Səmərqəndi tərk edib gedir. Babura yardım etmək üçün gələn dayıları Tənbəl və Xanikə xan Şeybani xanın əsgərlərindən qorxaraq yoldan geri qayıdır. Ardından Şeybani xan Şahruxiyyə və Uratipeyə doğru yürüş edir.

Əsərin son hissələrində Şeybani xan tərəfindən Bəlx şəhərinin mühasirə edilməsi və Xosrov şahın qaçışı, Əndicandakı Tənbələ qarşı əsgər yollanması və nəhayət, Xarəzmdə Çın Sufi ilə sürdürülən cənglər anladılmışdır. Əsər Şeybani xanın Xarəzm üzərində qazandığı qələbənin təsvir və tərənnümü ilə tamamlanmışdır.

“Şeybaninamə”nin əldə bir əlyazması qalmışdır. 1510-cu ildə üzü köçürülən bu nüsxə Vyanada Avstriya Milli kitabxanasında 1156-cı nömrədə qorunmaqdadır. Həmin nüsxəni German Vamberi alman dilinə tərcüməsi ilə 1885-ci ildə nəşr etdirmişdir. Daha sonra türkoloq P.M.Melioranski bu nüsxəni 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirmişdir. Bunun əsasında 1961-ci ildə əsəri Nəsrulla Dövran, 1989-cu ildə isə Erqaşali Şadiyev Daşkənddə nəşr etdirmişlər. 1990-cı illərin sonlarında Türkiyədə Yıldız Kocasavaş İstanbulda əsərin elmi-tənqidi mətnini nəşr etdirmişdir.

Azərbaycan Resublikası  ikinci dövlət müstəqilliyinə qovuşduqdan sonra ölkəmizin türk dünyası ilə ədəbi əlaqələri xeyli genişlənmişdir. Bu istiqamətdə biz də bir neçə ildir Məhəmməd Salihin “Şeybaninamə” məsnəvisi üzərində tədqiqat aparmaqda,əsərin dilimizə tərcüməsi üzərində çalışmaqdayıq. Uzun illərin çalışmalarından sonra, nəhayət, “Şeybaninamə”nin P.M.Melioranski, E.Şadiyev və Y.Kocasavaş nəşrləri əsasında bu möhtəşəm bədii əsərin dilimizə tərcümə işini başa çatdırdıq.Belə bir tərcümə nümunəsinin işıq üzü görməsində öz diqqət və qayğısını əsirgəməyən Naxçıvan Ali Məclisi Sədrinə minnətdarlığımı bildirməyi özümə borc bilirəm.

P.S.1. Mətnin transkripsiyasında türk dillərinin tarixi üçün xarakterik

olan sağır nun fonemi latın qrafikasının ng hərf birləşməsi ilə ifadə edilmişdir. Eyni zamanda əsər klassik ədəbiyyat nümunəsi olduğuna görə burada apostrof işarəsindən də istifadə edilmişdir. Tərcümədə müasir dilimizdəki monqol etnoniminin klassik dildəki variantı(moğol) verilmişdir.

P.S.2. Əsərin tərcüməsində faydalı məsləhətləri ilə bizə kömək etmiş İstanbul Universitetinin Türkiyyat İnstitutunun keçmiş müdiri, professor Osman Fikri Sərtqayaya təşəkkür edirəm.

## ŞEYBANİNAMƏ

## MƏTNİN TRANSKRİPSİYASI və TƏRCÜMƏSİ

| | |
|---|---|
| 1.Hamd anga kim tilim itti guya<br>Hamd anga kim közüm itti bina | 1. Həmd ona (Allaha) ki dilimi açdı. Həmd ona ki, gözümü açdı |
| 2.Hamd anga kim tenime can birdi<br>Hamd anga kim manga iman birdi | 2. Həmd ona ki tənimə can verdi. Həmd ona ki, mənə iman verdi. |
| 3.Hamd anga kim manga ışk itti nasib<br>Kılmadı 'akl diyarıda ğarib | 3. Həmd ona ki mənə eşq etdi nəsib. Həmd ona ki, məni ağıl diyarında etmədi qərib (məni ağıldan məhrum etmədi). |
| 4.Eyledi ışk ile canımnı yar<br>Kılmadı akl kolıda meni zar | 4. Canımı eşqə etdi yar. Məni əql əlində etmədi zar. |
| 5. Işkdın eyledi canımnı şad<br>Işkdın kıldı revanımnı şad | 5. Eşq ilə canımı şad etdi. Eşq ilə ruhumu şad etdi. |
| 6.Işkdın kıldı tilimni guya<br>Işkdın kıldı közümni bina | 6.Eşq ilə dilimi söylətdi (danışdırdı). Eşq ilə gözümü gördürdü. |
| 7.Şükr kim ışk ile lutf eyledi can<br>Şükr kim ışk ile birdi iman | 7. Şükür ki eşq ilə lütf eylədi can. Şükür ki eşq ilə verdi iman |

| | |
|---|---|
| 1.Işk eger kılmasa irdi in'am<br>Bar idi barça işim na-fercam | 1. Əgər mənə eşq nəsib etməsəydi; Bütün işlərim nəticəsiz qalardı. |
| 2.Mezze tapmas idim bu candın<br>Lezzeti kılmas idim imandın | 2. Eşq olmasaydı, bu candan bir dad tapmazdım; və imandan bir ləzzət almazdım. |
| 3.Işksız ni kireki bardur can<br>Işksızge ni kirektür iman | 3. Eşqsiz canın nə gərəyi var; Eşqsiz olana imanın nə gərəyi var. |
| 4.Zahiren can digenim ışk özidür<br>Belki iman digenim ışk özidür | 4. Zahirən can deyilən eşqin özüdür; Bəlkə iman deyilən də eşqin özüdür. |
| 5.Işk andındur u hem can andın<br>Can ara lezzeti- iman andın | 5. Eşq də, can da Ondandır (Allahdandır); Candakı iman ləzzəti də Ondandır (Allahdandır). |
| 6.Işknıng meyleri andın pür-şür<br>Işk meyxanesi andın ma`mur | 6. Eşqin şərabı o səbəbdən çox acıdır; Eşq meyxanəsi o səbəbdən abaddır. |
| 7.Mestler anda anıng zikri bile<br>Rindler barça anıng fikri bile | 7. Məstlər orada daima Onu (Allahı) zikr edərlər; Rindlərin hamısı da Onu (Allahı) fikir edərlər. |
| 8.Xum anıng şevki bilendür pür-cüş<br>Yoksa kaydındur anga munça xuruş | 8. Şərab küpü onun (eşqin) şövqü ilə coşğun haldadır; Yoxsa onun belə coşması nədəndir? |
| 9.Xum anıng şevki bilen çün toldı<br>Barça meyxane uluğı boldı | 9. Şərab küpü onun şövqü ilə dolduğu üçün; Bütün meyxananın ən ulusu oldu. |
| 10.Payitaxtı boluban meyxane<br>Kürege birle tüzüp peymane | 10. Başkəndi meyxana olub; Onu içki qədəhləri ilə bəzədi. |
| 11.Padşahane esasi kurdı<br>Barçağa feyz tigüre turdı | 11. Şahanə bir nizam qurdu; Hər kəsi feyzə yetirdi. |

| | |
|---|---|
| 1.Kim ki yitkürdi özin xıdmetiğa<br>Xıdmet eylep yürüdi hazretiğa | 1. Kim ki özünü verdi onun xidmətinə; Xidmət edib çatdı (qovuşdu) həzrətinə. |
| 2.Ol anı koymadı hergiz mahrum<br>Bu işi barçağa boldı ma"lüm | 2. O onu qoymadı məhrum; Onun bu işi hamıya oldu məlum. |
| 3.Her kim öz havsalasığa yaraşa<br>Her kim öz silsilesiğa yaraşa | 3 Hər kim öz hövsələsinə layiq; Hər kəs öz silsiləsinə layiq. |
| 4.Taptı anıng keremidin in'am<br>Çi yaman yaxşı çi has u çi 'avam | 4. Pis və ya yaxşı, xas və ya avam hər kəs; Onun kərəmindən bəhrələndi. |
| 5.Kim ki kiltürdi kaşığa kuze<br>Kıldı anga yaraşa deryüze | 5.Onun (Allahın) hüzuruna kuzə gətirən kimsə; Ona (Allaha) layiq şəkildə sədəqə dilədi. |
| 6.Ol anıng kuzesini toldurdı<br>Zarfı- deryuzesini toldurdı | 6. O (Allah), onun kuzəsini doldurdu; (Yəni) sədəqə qabını doldurdu. |
| 7.Kim surahi bile körgüzdi niyaz<br>Anga layık tarabın eyledi saz | 7. Sürahi ilə niyazda olan kimsə; Niyazına uyğun şəkildə sevindi. |
| 8.Kim piyale bile kani boldı<br>Zarfı halığa yaraşa toldı | 8. Kim ki piyalə ilə qane oldu; Onun qabı öz halına layiq doldu. |
| 9.Çün anıng feyzini kördiler 'am<br>Kalmadı hiç kişige aram | 9. Hər kəs Onun (Allahın) feyzini gördüyü üçün; Heç kimdə sükunət qalmadı. |
| 10.Kildiler barça anıng xıdmetiğa<br>Aferinler dip anıng himmetiğa | 10. Hər kim ki, gəldi onun xidmətinə; afərin dedi onun himmətinə. |
| 11.Her kişi tapkanını kiltürdi<br>Özi[ning] xıdmetiğa yitkürdi | 11. Hər kəs tapdığını gətirdi; Özünü onun xidmətinə yetirdi. |

| | |
|---|---|
| 1.Kaysı çini kadeh alıp kildi<br>Könglini anıng ile xoş kıldı | 1. Bəzisi çini qədəh alıb gəldi; və könlünü onunla xoş etdi. |
| 2.Kaysı kiltürdi Haleb şişesini<br>Ni Haleb ‘ayş u tarab şişesini | 2.Bəzisi Hələb şüşəsini gətirdi; Nə Hələb, eyş və nuş şüşəsini gətirdi. |
| 3.Kaysı altun ayağ aldı kolığa<br>Koydı mestane başını yolığa | 3.Bəzisi qızıl qədəh aldı qoluna( əlinə); məst olmuş başını qoydu onun yoluna. |
| 4.Kaysı peyda kılıban nukreyi- xam<br>Xamlıkdın yasadı andın cam | 4.Bəzisi gümüş külçəsi peyda etdi; və o xam gümüşdən qədəh düzəltdi. |
| 5.Kaysı işkeste sifali taptı<br>Barıp anıng bile halı taptı | 5.Bəzisi qırıq bir çanaq tapdı; və onunla varıb bir hal tapdı. |
| 6.Ol körüp barçalarınıng zarfın<br>Dimedi hiç melalet harfin | 6.O hər kəsin qabını görüb; Məlalət hərfini əsla demədi. |
| 7.Barçanıng zarfığa koydı bade<br>Kıldı ‘işretlerini amade | 7.Hamısına süzdü badə; Eyş-işrətini etdi amadə(təmin etdi). |
| 8.Mayeyi- ‘ayş u tena`umdur bu<br>Allah Allah ni ‘aceb xumdur bu | 8.Həyat və nemətin mayəsidir bu; Allah, Allah, nə əcaib şərab küpüdür bu. |
| 9.‘Aceb uşbu ki eger deryayi<br>Eylese cilvegehin sahrayi | 9.Qəribə olan budur ki; əgər bir dərya daşdığı (örtdüyü) yeri bir səhra etsə, |
| 10.Birev anıng yakasığa kilse<br>Bir arık fikrini anda kılsa | 10.Bir kimsə onun (dənizin) sahilinə gəlsə; Orada bir arx(açmaq) fikrinə düşsə, |
| 11.Arığını kazıban alsa su<br>Arığığa yaraşa salsa su | 11.Arxını qazaraq su alsa; Və arxına layiq su salsa; |

| | |
|---|---|
| 1.Ni kadar suv ki arıkka salur ol<br>Ni kılıban ni kadar kim alur ol | 1. O şəxs arxa nə qədər su salarsa (nə qədər iş görərsə); etdiyi iş qədər əvəzini alar. |
| 2.Ol kadar suv kem olur deryadın<br>Anga suv hemdem olur deryadın | 2. O qədər su(arxa saldığı qədər) dəryadan olar kəm(əksik); Dərya-dan aldığı su ona olar həmdəm. |
| 3.Uşbu xumdın nice kim alsa kişi<br>Kadeh ü cam içige salsa kişi | 3.Adam bu küpdən nə qədər (şərab) alsa; Və onu qədəhinin içinə qoysa; |
| 4.Hiç kem bolmas uşol xumdın hiç<br>Öksümes hiç ‘‘tena`umdın hiç | 4. O küpdən heç bir şey əksilməz; və Nemətindən də heç bir şey azalmaz. |
| 5.Bu ne xumdur bu ne meydür bu ne cam<br>Bu ne lutf u bu ne cud u in‘am | 5. Bu nə küpdür, bu nə şərabdır, bu nə cam(qədəh); Bu nə lütfdür, bu nə səxavət, bu nə ənam. |
| 6.Bu xum u bu mey ü cam andındur<br>Barçanıng ‘ayşı tamam andındur | 6. Bu küp, bu şərab və bu qədəh Ondandır (Allahdan); Hər kəsin yaxşı ruzisi də tamam Ondandır (Allahdandır). |
| 7.Birining batınıdın xum yasadı<br>Sebebi- ‘ayş u tena`um yasadı | 7. Birinin içindən şərab küpü yapdı; Beləcə yaxşı eyşi-nuşa səbəb verdi. |
| 8.Öz şarabı bile toldurdı anı<br>Anı ol nakd bile kıldı ğani | 8. Onu öz şərabı ilə doldurdu; Onu o sərmayə (pul, nağd, əmtəə) ilə zəngin etdi. |
| 9.Anı kılğaç ğani vü sahibi- tac<br>Eyledi ehli- talebni muhtac | 9. Onu zəngin və tac sahibi edincə; İstək sahibiərini ona möhtac etdi. |
| 10.Ol körüp ehli- tarabnı ol tavr<br>Canları içre şeğabnı ol tavr | 10. O (Allah), tarab əhlini (zövqə düşkünləri) bu cür görüb; Canları içində fitnəni bu cür görüb, |
| 11.Her kişining talebiğa yaraşa<br>Taleb içre hasebiğa yaraşa | 11. Hər kəsin tələbinə uyğun; və Tələb içində soyuna (əsl-nəsəb) uyğun |

| | |
|---|---|
| 1.Ol musaffa meyidin yitkürdi<br>Anı hem hükm bile xub kördi | 1.O saf şərabından yetirdi; Onu da hökm ilə gözəl gördü (gözəl olduğuna qənaət gətirdi). |
| 2.Hükm anıng talib anıng pir anıng<br>Ray anıng sağış u tedbir anıng | 2. Hökm Onun, talib Onun, pir Onundur; Rəy Onun, düşüncə və tədbir də Onundur (Allahındır). |
| 3.Hakimi- cümleyi- hükkam oldur<br>Menşeyi- cümleyi- ahkam oldur | 3. Bütün hakimlərin hakimi Odur; Bütün hökmlərin qaynağı yenə Odur (Allahdır). |
| 4.Ol eger eylemese lutf izhar<br>Lutf tapmak bolur asru düşvar | 4. O əgər lütf göstərməsə; Lütf tapmaq (lütfə çatmaq) çox çətin olar. |
| 5.Cüdıdın barça cihandur ma`mur<br>Cüdıdın barça ulusdur mesrur | 5.Səxavətindən bütün dünya xoşdur; Səxavətindən bütün xalq xoşbəxtdir. |
| 6.Cüd anıng, lutf ile in'am anıng<br>Xum anıng, bade anıng, cam anıng | 6.Səxavət Onun, lütf ilə nemət Onundur; Şərab küpü Onun, şərab Onun, qədəh Onundur (Allahındır). |
| 7.Xumıdın teşne-cigerler sirab<br>Badesidin tarab erbabı xarab | 7.Şərab küpündən susamış ciyərlər qane olar; Şərabından zövq ərbabı xarabdır. |
| 8.Xumıdın suxte-diller xoş-hal<br>Meyidin başları yolda pamal | 8.Şərab küpündən ürəyi yananlar xoşhaldır; Meyindən başları yolda pamaldır (ayaqlar altına düşmüşdür). |
| 9.Xumıdın xasta yürekler kanlığ<br>Meyidin dil-şüdeler armanlığ | 9.Şərab küpündən xəstə ürəklər qanlıdır; Şərabından aşiqlər bitkindir. |
| 10.Xumıdın hırs u heva zarfı tehi<br>Meyidin az u heves harfi tehi | 10.Şərab küpündən hirs və həvəs qabı boşdur; Şərabından az (hirs) və həvəs hərfi boşdur. |
| 11.Xumıdın fakr u fena camı tola<br>Meyidin derd ü bela camı tola | 11.Şərab küpündən (dolayı) fəqr və fəna qədəhi doludur; Şərabından dərd və bəla qədəhi doludur. |

| | |
|---|---|
| 1.Xumığa hacet imes peymane<br>Meyige hacet imes meyxane | 1. Şərab küpünə peymanə (qədəh) gərəkli deyil; Şərabına meyxanə gərəkli deyil. |
| 2.Xum u peymane sözi köp boldı<br>Mey ü meyxane sözi köp boldı | 2.(Şərab) küpü və badə sözü çox oldu; Mey və meyxanə sözü çox oldu. |
| 3.Kayda kim bade bolur söz köp olur<br>Bolsa hem bade bile söz xub olur | 3.Harada içki çox olsa, söz çox olar; İçki ilə söz birlikdə olarsa, gözəl olar. |
| 4.Xasse bu bade ki bar ol xumdın<br>Barçağa nüktegüzar ol xumdın | 4.Özəlliklə o şərab küpündə olan bu içki; Hər kəsi hikmət söyləyən etdi. |
| 5.Men hem ol xumdın olupmen pürcüş<br>Ol sebebdin tura alman xamüş | 5.Mən də o şərab küpündən dolayı coşğunluq doluyam; O səbəbdən dolayı səssiz dura bilmərəm. |
| 6.Men hem ol meydin olupmen guya<br>Ne didim mest bolupmen guya | 6.Mən də o şərabdan çoxdanışan olmuşam; Nə dedim, sanki məst olmuşam. |
| 7.Mest boldum manga ta`zır kilür<br>Sahibi- şer ‘ munga hükm kılur | 7.Məst oldum, tövbə etməm gərəkir; Şəriət əhli olanlar tövbəyə (üzr diləmənin gərəkliliyinə) hökm edərlər. |
| 8.Sahibi- şerdür ol xum digenim<br>Sebebi- ‘ayş u tena‘um digenim | 8.O şərab küpü dediyim, şəriət əhlidir; Eyş-nuş dediyimin səbəbidir. |
| 9.Hak bile bende ara vasıta ol<br>Nazımı- ka‘ide vü zabıta ol | 9. Allah ilə qul arasında vasitə odur; Nizam və qayda sahibi odur. |
| 10.Mey digen feyzi- ilahi angla<br>İşreti- namütenahi angla | 10.Şərab deyilən şey ilahi feyz, anla; Və sonsuz işrət olduğunu anla! |
| 11.Feyzler barça anga fayiz olur<br>Feyzler barça anga ok ökülür | 11.Feyzlərin hamısının mənbəyi odur; Feyzlərin hamısı şəxsən onda toplanar. |

| | |
|---|---|
| 1.Andın özge yayılur ‘alemğa<br>Yitişür barça beni ademğa | 1. Ondan başqa aləmə yayılır; bütün insanlara yetişir. |
| 2.Barça 'alemdin anı sileptür<br>Özige anı habib eyleptür | 2.Bütün aləmdən Onu üstün tutmuşdur; Özünə Onu həbib etmişdir. |
| **II**<br>**Hazreti- kadi’l-hacat dergahığa minacat kılğanı** | **II**<br>**Diləklərin yerinə gətiricisi Allahın dərgahına minacat etməyi** |
| 3.Ey Habibi- arabiğa aşık<br>Hüsnini 'ışkığa bilgen layık | 3.Ey ərəb əsilli həbibə (Hz. Peyğəmbərə) olan aşiq; Gözəlliyini eşqinə bilən layiq! |
| 4.Kadir ü muktedir ü xalıksin<br>Ey xoş ol kim sin anga 'aşıksin | 4.Sən qadir, müqtədir və xaliqsən; Xoş olan bu ki, sən Ona aşiqsən. |
| 5.Çün anıng nurını kıldıng maxluk<br>Özünge eyleding anı ma`şuk | 5.Onun nurunu (nuri- Məhəmmədi) məxluq etdin; Onu özünə məşuq etdin. |
| 6.Kıldıng araste melek ü melekût<br>Yığdıng esbabı- celal ü ceberüt | 6.Mələk və ruhlar aləmini bəzədin; Və cəlal və cəbərut səbəblərini (orada) topladın. |
| 7.Hüsnning sırrı hüveyda boldı<br>Işknıng sözleri peyda boldı | 7.Gözəlliyinin sirri hüveyda (faş) oldu. Eşqin sözləri peyda oldu. |
| 8.Eyleding ‘arşı- mürevveh peyda<br>Eyleding ferşi- musattah peyda | 8. Gözəl qoxulu ərşi və səth halındakı; Yer üzünü peyda etdin. |
| 9.Kılıban payeyi- Kürsini bülend<br>Eyleding asru anı bi-manend | 9.Kürsünün payəsini uca qılaraq; Onu bənzərsiz eylədin. |

| | |
|---|---|
| 1.Nakşperdazı- vücud oldı kalem<br>Ol kalemdin behr alıp levhi- adem | 1. Qələm varlığı nəqş edici oldu; və o qələmdən yoxluq lövhəsi nəsib aldı. |
| 2.Munça ervahı- mukaddes yaratıp<br>Munça eyvanı- mukarnes yaratıp | 2.Bunca müqəddəs ruhları yaradıb; Bunca göy qübbəsini yaradıb, |
| 3.Cirmi- xurşidni ruşen kıldı<br>Nurıdın dehrni gülşen kıldı | 3.Günəşin cismini rövşən(aydın) etdi; Onun nurundan dünyanı gülşən etdi. |
| 4.Eyleding eyni ‘alem-efrüz<br>Boldı aydın kiçe andak kim ruz | 4.Ayı, aləməfruz eylədin; və aydan (dolayı) gecə gündüz kimi oldu. |
| 5.Barçasın tüzdüng anıng ışkı üçün<br>İlge körgüzdüng anıng ışkı üçün | 5.Hər şeyi tənzim etdin onun eşqi üçün; Xalqa göstərdin onun eşqi üçün. |
| 6.Xani‘a sin bu bina kılğanda<br>‘Alem ü arz ü sema kılğanda | 6.Ey yaradan, sən bu binanı (kainatı) yaradanda; Aləmi, ərzi və səmanı yaradanda, |
| 7.Çün burun ‘ışk nevasın tüzdüng<br>Işkıng renglerin körgüzdüng | 7.Öncə eşq ahəngini tənzim etdin; Və eşqin rənglərini göstərdin. |
| 8.Her ne kim eyledi sun‘ung zahir<br>Ey Xudavendi- Kerim ü Kadir | 8.Ey kərim və qadir olan Allah; Sənin yaradıcı qüdrətin nəyi göstərdisə, |
| 9.Bar idi barçasıda ışk eseri<br>Bar idi barınıng andın xaberi | 9.Hamısında eşqin əsəri vardı; hamısının ondan xəbəri vardı. |
| 10.Her kişi ışkığa layık hüsni<br>Taptı vü kördi muvafık hüsni | 10.Hər kəs eşqinə layiq gözəlliyi tapdı; Və onu gözəlliyinə uyğun gördü. |
| 11.Enbiya kim il alarğa ükülüp<br>Işkıng sırrıdın agah olup | 11.Ətrafında xalqın toplandığı nəbilər; Eşqin sirrindən agah olub. |

| | |
|---|---|
| 1.Sürmeyi- ışk çekip közlerige<br>Kabili közlediler özlerige | 1.Gözlərinə eşq sürməsi çəkərək; Özlərinə qabil olanları gözlədilər. |
| 2.Evliya kim kiçiben dünyadın<br>Kıldılar fakr u fena irşadın | 2.Övliyalar ki dünyadan keçərək; fəqr və fəna irşadında bulundular. |
| 3.Işk yolıdın öte almadılar<br>Işknı özlerige salmadılar | 3.Eşq yolundan vaz keçmədilər; Eşqi özlərindən uzaq tutmadılar. |
| 4.Her kişi kerem kılıp bazarı<br>Taptı özige münasib yari | 4.Hər kəs kərəmini ortaya qoyub (göstərib); Özünə münasib bir yar tapdı. |
| 5.Kaysı a`li idi kaysı safil<br>Her kim öz hüsniğa boldı mayil | 5.Bəzisi ali idi, bəzisi səfil; hər kəs öz gözəlliyinə olmuşdu mayil. |
| 6.Kaysığa hüsn ü melahat birding<br>'Alem ehlidin anı ayırdıng | 6.Bəzisinə hüsnü məlahət verdin; və dünya insanlarından onu ayırdın. |
| 7.Kaysığa ışk 'inayet kıldıng<br>Anı meşhürı- velayet kıldıng | 7.Bəzisinə eşq inayət etdin; Və onu vəliliklə məşhur etdin. |
| 8.Kayu xoş-dil kayu mahzun boldı<br>Kayu Leyli kayu Mecnun boldı | 8.Bəzisi xoşdil, xoşbəxt, bəzisi məhzun oldu; Bəzisi Leyla, bəzisi Məcnun oldu. |
| 9.Kaysını hüsn ile 'Azra kıldıng<br>Kaysını 'ışk ara şeyda kıldıng | 9.Bəzisini gözəlliklə Əzra etdin; bəzisini də eşqdə şeyda etdin. |
| 10.Atadıng ışk ara atın Vamık<br>Boldı dünyide mukarrer 'aşık | 10.Eşqdə adını qoydun Vamiq; o, dünyada oldu misilsiz (hər kəsin həmrəy olduğu) aşiq. |
| 11.Kaysını 'ışk ile Ferhad itting<br>Xatırın derd bile şad itting | 11.Bəzisini eşq ilə Fərhad etdin; Könlünü dərd ilə şad etdin. |

| | |
|---|---|
| 1.Kaysını hüsn ile Şirin kıldıng<br>Hüsnini kabili-tahsin kıldıng | 1.Bəzisini gözəlliklə Şirin etdin; Gözəlliyini qabili-təhsin etdin. |
| 2.Hüsn ile ‘ışknı çün bar itting<br>Taleb ehlini giriftar itting | 2.Gözəlliklə eşqi var etdin ; Tələb əhlini ona giriftar etdin. |
| 3.Işkı- xod hüsnini zahir kıldı<br>Munça efsaneleri aytıldı | 3.Onun eşqi gözəlliyini ortaya çıxardı; bunca əfsanələri söyləndi. |
| 4.Yaxşı fikr itse kişi sözni bilür<br>Kıssanıng başığa söz birle kilür | 4.İnsan gözəl düşünsə, sözü bilər (nə dediyini bilər); hekayətin başına söz ilə gəlinər (hekayətə sözlə başlanar). |
| 5.Işk u hüsn ikkelesi birdürler<br>Kim tüşer dehrde mundakdurlar | 5.Eşq və gözəllik hər ikisi birdir; Ki bunlar dünyada bir-birinə uyğundur. |
| 6.Bir imiş ikkelesining aslı<br>Veh ne xoşdur ol ikevning vaslı | 6. İkisinin də birmiş əsli; Bax o ikisinin nə xoşdur vəsli (qovuşması). |
| 7.Işklar pertevi ışkıng barı<br>Hüsn hem sindin imiş ey Barı | 7.Eşqlər işığı həmişə sənin eşqindəndir; Ey uca Allah, gözəllik də səndəndir. |
| 8.Işknıng neş‘esi sindin irmiş<br>Barı hüsn hem cilveğa sindin kirmiş | 8.Eşqin nəşəsi səndən imiş; Gözəllik də səndən dolayı cilvəyə girmiş. |
| 9.Kayda kim boldı ‘ayan ışk eseri<br>Bar idi barınıng andın xaberi | 9.Eşq əsəri harada ortaya çıxdı isə; Hər kəsin ondan xəbəri vardı. |
| 10.Ol sening neş’eyi- ışkıngdur cezm<br>Kim anıng canı üçün tüzdi bezm | 10.Niyyət sənin o eşqinin nəşəsidir; Onun canı üçün məclis qurdu. |
| 11.Kayda kim hüsnğa cevlan boldı<br>Bir peri- çihre nümayan boldı | 11.Gözəllik harada ortaya çıxdı isə; Bir pəriüzlü şəklində göründü. |

| | |
|---|---|
| 1.ʻAksi- xürşid cemalıngdur ol<br>Pertevi- şemʻi- visalıngdur ol | 1.Günəşin əksi sənin camalındır; Şamının işığı Sənin vüsalındır. |
| 2.Kim bolur talib ü matlub digen<br>Kim bolur ʻaşık u mahbub digen | 2.Talib və tələb dediyin kimdir; Aşiq və məhbub dediyin kimdir. |
| 3.ʻAşık özüngsin ü mahbub özüng<br>Talib özüngsin ü matlub özüng | 3.Aşiq də sənsən, məhbub də sənsən; İstəyən də sənsən, istənən də sənsən. |
| 4.Ol ki özünge habib itting anı<br>Xasta dillerge tabib itting anı | 4.Kimi ki,özünə həbib etdin (Hz. Peyğəmbəri); onu da xəstə könül-lərə təbib etdin. |
| 5.Nurını ayine kıldıng özünge<br>Baktıng ol ayinede öz yüzünge | 5.Onun nurunu ayna etdin özünə; O aynada baxdın öz üzünə (üzünü gördün). |
| 6.Özünge ışk sürudın tüzdüng<br>Öz yüzüngni özünge körgüzdüng | 6.Eşq nəğməsini özün üçün düz-dün; Və öz üzünü özünə göstərdin. |
| 7.Ğayeteş ayine kıldıng anı<br>Mazharı- nurı- ezel bilding anı | 7.Onu böyük bir güzgü etdin; Əzəl nurunun məzhəri bildin. |
| 8.Çün anı kıldıng özünge közgü<br>Yüzini tuttung özünge utru | 8.Onu özünə güzgü etdiyin üçün; Üzünü də özünə qarşı tutdun (əksini orada gördün). |
| 9.Barça esma vü sıfatıng birle<br>Cilveyi- cevheri- zatıng birle | 9.Bütün isimlər və sifətlərin ilə; Zatının cövhərinin cilvəsi (təcəllisi) ilə, |
| 10.Boldung ol ayine içre zahir<br>Anı mazhar kılıban ey Kadir | 10. Onu məzhər (zühur yeri) qılaraq Ey Qadir (Allah),; O ayna içində oldun zahir. |
| 11.Aşık olsang özünge ʻaşıksin<br>Közgüge yok özünge ʻaşıksin | 11.Aşiq olsan, özünə aşiqsən; Güzgüyə deyil, özünə aşiqsən. |

| III<br>**Hazreti- Risalet-penah na`tı üçün nazm silkige tartkan la`lidür** | III<br>**Risalət-pənah həzrətlərinin na'tı üçün nəzm ipliyinə düzülən incilərdir** |
|---|---|
| 1.Ey risalet çemenining semeni<br>Vey nübüvvet semenining çemeni | 1.Ey risalət çəməninin yasəməni; ey nübüvvət yasəməninin çəməni! |
| 2.Ene emlah çemenining güli-sin<br>Ene efsah gülining bülbüli-sin | 2. "Mən ən melihəm" çəməninin gülüsən; "Mən fəsahat sahibiyəm" gülünün bülbülüsən. |
| 3.Enbiya barça sanga medh-güzar<br>Evliya barça sanga xıdmet-kar | 3.Nəbilərin hamısı sənin mədhgüzarındır; Övliyaların hamısı sənin xidmətkarındır. |
| 4.Xatm boldı sanga payğamberlik<br>Yaraşa tüşti sanga serverlik | 4. Səninlə sona çatdı Peyğəmbərlik; və sənə uyğun düşdü (öndərlik) sərvərlik. |
| 5.Ümmeting içre besi alimler<br>Millet ü dining ara salimler | 5.Ümmətin içində bir çox alimlər; millət və dinin içində salimlər; |
| 6.Enbiya dik bolup irdi mümtaz<br>Boldılar 'ilm bile cevlan-saz | 6. Nəbilər(peyğəmbər) kimi mümtaz olub; Elm ilə hərəkət etdilər. |
| 7.Sin nübüvvetğa kadem urğanda<br>Yetip ol mertebede turğanda | 7.Sən nəbiliyə qədəm basanda; O mərtəbəyə çatıb duranda; |
| 8.Su vü tofrak ara irdi Adem<br>Tenige can imes irdi hem-dem | 8.Hz. Adəm su və torpaq arasında idi (su və torpaqdan ibarət idi); Təninə hələ can həmdəm deyil idi (bədəninə can girməmişdi). |
| 9.Sin beka camını nüş itkende<br>Kurbnıng gülşenige yitkende | 9.Sən əbədiyyət badəsini nuş edəndə; və Tanrının gülşəninə yetişəndə; |

| | |
|---|---|
| 1.Ne nebi bar idi anda ne resul<br>Ne furuğ u ne hikayatı- usul | 1. Orada (Tanrı qatında) nə nəbi, nə də rəsul vardı; nə füruq vardı, nə də hekayəti- üsul vardı. |
| 2.Ne felek sakfi müdevver irdi<br>Ne melek şekli musavver irdi | 2.Nə fələyin damı yuvarlaq idi (bə-lirsizdi); nə də mələk şəkli təsəvvür edilir idi (göylər və mələklər yara-dılmadığı üçün şəkilləri yoxdu). |
| 3.Ne kuyaş bar idi ne asarı<br>Ne kamer bar idi ne envarı | 3.Nə günəş vardı, nə də əsəri; nə ay vardı, nə də nurları. |
| 4.Ne Zühal bar idi vü ne Behram<br>Ne müneccim bar idi ne ahkam | 4.Nə Zühal vardı, nə Bəhram vardı; nə münəccim vardı və nə də ehkam vardı. |
| 5.Ne ‘Utarid bar idi ne Bircis<br>Ne dünb bar idi vü ne tesdis | 5.Nə Utarid vardı, nə Bercis vardı; nə dünb(quyruqlu ulduz) vardı və nə də təsdis vardı. |
| 6.Zühre ‘ning çengige yok irdi tar<br>Tarıdın can imes irdi efğar | 6.Zöhrənin çənginə də tel yoxdu; telindən də can hələ yaranmış deyildi. |
| 7.İmes irdi ot ile su vü semen<br>Ne tamuğ bar idi vü ne gülşen | 7.Su və od hələ yoxdu; nə cəhən-nəm vardı və nə (də) gülşən (cən-nət) vardı. |
| 8.Yilge tofrak savurulmaydur idi<br>İl bu yanglığ kavurulmaydur idi | 8.Küləklə torpaq sovrulmurdu; Xalq bu cür qovrulmurdu. |
| 9.Cevher ü cism ü ‘araz yok irdi<br>Sıhhat u renci- maraz yok irdi | 9.Cövhər, cisim və afət yox idi; səhhət və mərəz dərdi yox idi. |
| 10.Yok idi ma ‘den ü hayvan u nebat<br>Yok idi xalq ile mevt ü hayat | 10.Mədən, heyvan və nəbat yoxdu; Xalq, ölüm və həyat yoxdu. |
| 11.Ne temeyyüz ehli idi ne nadan<br>Bar idi yaxşı yamanı yeksan | 11.Nə seçkin kimsələr vardı; nə də cahil kimsələr vardı; yaxşısı, pisi bir səviyyədə idi (hələ bir-birin-dən). |

| | |
|---|---|
| 1.Enbiyağa yok idi kurb henuz<br>Evliyağa yok idi derd ile suz | 1.Nəbilər hələ Tanrıya yaxın deyildi; övliyalar da hələ dərd ilə yanmırdı. |
| 2.‘İlm xalk içre yayılmaydur idi<br>Nutk gülzarı açılmaydur idi | 2.Elm xalq içində yayılmamışdı; Nitq (danışma) gülzarı açılmamışdı (Hələ heç kim danışmağa başlamamışdı). |
| 3.Yok idi bağı- safada güller<br>Güller etrafıda hem bülbüller | 3.Səfa bağında güllər yoxdu; Güllər ətrafında da bülbüllər yoxdu. |
| 4.Hiç kim şah imes irdi henuz<br>‘Adl sözini dimes irdi henuz | 4.Heç kim hələ şah deyildi; hələ ədalət sözündən də agah deyildi(bəhs edilməzdi). |
| 5.Ne vezir bar idi vü ne şahi<br>Ne fiğani bar idi vü ne ahi | 5.Nə vəzir və nə də onun şahı vardı; Nə bir fəğan vardı və nə (də) bir ahı vardı. |
| 6.Yok idi zalim ü mazlum anda<br>Yok idi hakim ü mahkum anda | 6.Orada zalım və məzlum yoxdu; orada hakim də, məhkum da yoxdu. |
| 7.Ne şeri'at ne tarikat bar idi<br>Ne mecaz u ne hakikat bar idi | 7.Nə şəriət, nə də təriqət vardı; nə məcaz və nə (də) həqiqət vardı. |
| 8.Yok idi silsile vü pir anda<br>Bar idi yaxşı yaman bir anda | 8. Silsilə və pir yoxdu orada; Yaxşı və pis birdi (eyni idi) orada. |
| 9.Yok idi Tingridin özge mevcud<br>Kim cemalıng anga boldı meşhud | 9.Sənin camalını görən kimsə; Yəni Tanrıdan başqa mövcud deyildi kimsə . |
| 10.Sini öz nurığa tuttı utru<br>Kıldı nurungnı özige közgü | 10.Səni öz nuruna qarşı tutdu; və nurunu da özünə güzgü tutdu. |
| 11.Körgeç ol közgüde öz didarın<br>Eyledi közgü tufeyli barın | 11.(Tanrı) o güzgüdə öz didarını görüncə; bütün xalq etdiklərini (mahlüka) güzgü halına gətirdi. |

| | |
|---|---|
| 1.Her ne kim bar idi ilmide ‘ayan<br>Eyledi közgüge ışarı- revan | 1. Elmində açıqca var olan nə varsa; hamısını aynaya comərdcə əks etdirdi. |
| 2.Hasıla mebde’yi- alem sinsin<br>Hasılı- ‘alem ü adem sinsin | 2.Vəlhasil (xülasə) aləmin başlanğıcı sənsən; Aləmin və insanın hasılı (səbəbi) sənsən. |
| 3.Menşe’yi- xalqı- xalayık zatıng<br>Mazharı- kudreti- Xalık zatıng | 3.Xalq və xəlayiqin mənşəyi sənin zatındır; Xaliqin qüdrətinin məzhəri (zühur yeri) yenə zatındır. |
| 4.Tingrining barça sıfatı sinde<br>Barçanıng xasiyyet atı sinde | 4.Tanrının bütün sıifətləri səndədir; Bütün xasiyyətləri,adı səndədir. |
| 5.Ğayr vacıblığınıng tavsifi<br>Birliki vü kıdemi ta’rifi | 5.Qeyrisi (Haqdan qeyrisi) sənin vacibliyinin təvsifidir; Birliyi və öncəliyinin tərifidir; |
| 6.Ol ki evvellığı ta’yın dirler<br>Kim beyan ittiler atıng irler | 6.Təyin deyilən o öncəliyi; ariflər sənin adınla bildirdilər. |
| 7.Boldı ruşen ki sening nurung-dur<br>Xutbeyi defteri- meşruhungdur | 7.Aydın oldu ki, onlar sənin nurundur (nurunun əsəridir); Xutbə dəftərinin başlanğıcıdır (yaratdığın hər şeyin başlanğıcıdır). |
| 8.Na`tınga munça rivayet ni kirek<br>Arada munça hikayet ni kirek | 8.Vəsfin üçün bunca rəvayətə nə gərək var; Bu arada bunca hekayətə nə gərək var. |
| 9.Tingri talibdür ü sin matlubı<br>Tingri aşıkdur u sin mahbubı | 9.Tanrı talibdir (istəyən) və sən də mətlubusan(istənən); Tanrı aşiqdir, sən də məhbubusan(sevdiyi). |
| 10.Kim ki bilmes sini Hak’nı bilmes<br>Qonçeyi- ma‘rifeti açılmas | 10.Səni bilməyən kimsə, Haqqı da bilməz; Və o kimsənin mərifət qönçəsi açılmaz (həqiqətləri qavraya bilməz). |
| 11.Sini bilmekke besi hal kirek<br>Sini vasf itküçi til lal kirek | 11.Səni bilmək üçün gərəkdir bir çox hal; və səni vəsf edən dilin olması gərəkdir lal (sənin vəsflərini sözlə anlatmaq mümkün deyildir). |

| | |
|---|---|
| 1.Sini bilür kişi ashabıngdur<br>Al ile ‘izzet ahbabıngdur | 1.Səni bilən şəxs əshabındır; al ilə izzət (ucalıq) ahbabındır. |
| 2.Biri Bü Bekrdür ü biri Ömer<br>Biri ‘Osmandur u biri Hayder | 2.Biri Əbubəkr, biri Ömərdir; Biri Osman və biri də Heydərdir (Hz. Əli). |
| 3.Sini bilgen üçün ol tört ‘azız<br>Boldılar padişehi- ehli- temiz | 3.O dörd əziz səni bildikləri üçün; təmyiz(seçmə) əhlinin padşahı oldular. |
| 4.Sening atıng biledür atları<br>Kabili- medh ü sena zatları | 4.Adları sənin adınladır (adınla birliktə anılır); Və zatları mədh və sənaya qabildir. |
| 5.Kayda kim bar sening atıng mestur<br>Bolur ol törtning atı mezkür | 5.Sənin adının yazıldığı hər yerdə; O dördünün adı da anılır. |
| 6.Birisi sıdk u safanıng kanı<br>Birisi ‘adl ü sexanıng kanı | 6.Birisi sidq və səfanın mədənidir; Birisi əhd və səxanın mədənidir. |
| 7.Birisi ‘ilm ü haya gülzarı<br>Birisi mihr ü vefa gülzarı | 7.Birisi elm və həyanın gülzarıdır; Birisi mehr və vəfanın gülzarıdır. |
| 8.Birisi sıdk ile arastedür<br>Birisi ‘adl ile nev-xastedür | 8.Birisi sədaqət ilə bəzənmişdir; birisi ədalət ilə yetişmişdir. |
| 9.Birisi cami‘yi- Kur’an boldı<br>Birisi maniyi- tuğyan boldı | 9.Birisi Quranı cəm edən oldu; birisi daşqınlığa mane oldu. |
| 10.Birisi kıldı sanga mal feda<br>Birisi boldı yolungda şeyda | 10.Birisi sənin üçün malını fəda etdi; birisi yolunda şeyda oldu. |
| 11.Birisi şevk meyidin toldı<br>Birisi lahmiğa lahmi boldı | 11.Birisi şövq şərabı ilə doldu; birisi.......... oldu. |

| | |
|---|---|
| 1.Birisi boldı sanga ğarda yar<br>Birisi boldı sanga xıdmetkar | 1.Birisi sənə mağarada yar oldu; Və birisi sənə xidmətkar oldu. |
| 2.Birisini atadıng Zi‘n-nureyn<br>Birisi taptı Hasan birle Hüseyn | 2.Birisini Zinnureyn(iki nur sahibi - Hz. Osman)deyə adlandırdın; Birisi Həsən ilə Hüseyn sahibi (Hz. Əli) oldu. |
| 3.Ümmetingde yok alar dik merdüm<br>Raziya‘llahu te‘ala ‘anhüm | 3.Ümmətində onlar kimi kimsə yoxdur; Allah onlardan razı olsun. |
| **IV**<br>**Söz ta‘rifide aytılğan ebyatdur ve söz takribi bile suxandanı- Padşahı- ‘ali-şan İmam Muhammad Şibani xannıng medhi** | **IV**<br>**Söz tərifində söylənilən beytlərdir və söz gəlişi ilə gözəl söz söyləyən və şanlı padşah İmam Məhəmməd Şeybani xanın mədhi** |
| 4.Sebebi- ‘izzeti- adem sözdür<br>Hasıl u bakiyi- ‘alem sözdür | 4.İnsan ucalığının səbəbi sözdür; Aləmin əbədi olmasının hasili də sözdür. |
| 5.Tingrini söz bile bildiler xalk<br>Din sarı söz bile kildiler xalk | 5.Xalq (hər kəs) tanrını söz ilə bildi; və dinə sarı yenə söz ilə gəldi (din sahibi oldu). |
| 6.Ol cema‘at ki resul oldılar<br>Sahibi- mülki- kabul oldılar | 6.O camaata rəsul oldular; O insanlar qəbul mülkünün sahibi oldular (yəni digər insanlar tərəfindən qəbul edildilər); |
| 7.Boldılar Tingri sözi birle resul<br>Kıldılar sözlerini xalk kabul | 7.Onlar tanrı sözü ilə oldular rəsul; Və xalq sözlərini etdilər qəbul. |
| 8.Söz bile boldı bu alem peyda<br>Söz bile boldı bu ‘adem peyda | 8.Söz ilə bu aləm yarandı; Söz ilə bu adəm yarandı. |
| 9.Söz ile ‘akl u hüner zahir olur<br>Belki ‘akl u hüner anga ökülür | 9.Ağıl və hünər söz ilə zahir olar; Bəlkə də ağıl və hünər onunla toplanar. |

| | |
|---|---|
| 1.Söz bile ‘alem işiki açılur<br>Söz bile munça cevahir saçılur | 1.Söz ilə aləmin qapısı açılır; Söz ilə bunca cəvahirlər saçılır. |
| 2.Söz bile zahir olur nurı- yakin<br>Söz bile ziynet tapar millet ü din | 2.Söz ilə bəlli olar nuri-yəqin; Söz ilə bəzənər millət və din. |
| 3.Söz irür şer‘ge revnak birgen<br>Söz irür camı- mürevvak birgen | 3.Şəriətə rövnəq verən sözdür; Süzülmüş şərab qədəhini verən (də) sözdür. |
| 4.Söz bile pir kılıptur irşad<br>Öz müridiğa birip genci- murad | 4.Söz ilə pir irşad edər; Öz müridinə (beləcə) xəzineyi- murad verər (müridini istəyinə qovuşdurar). |
| 5.Söz bile cilve kılıp zibalar<br>Bu çemen içre bolup ra‘nalar | 5.Gözəllər söz ilə cilvə qılarlar (görülür hala gələrək); bu çəmənlikdə rəna olarlar. |
| 6.Söz bile 'aşık iterler kişini<br>Hiç kim bilmes alarnıng işini | 6.İnsanı söz ilə aşiq edərlər; və heç kim onların işini bilməz (sözün nə dərəcə önəmli olduğunu bilməzlər). |
| 7.Söz bile xanlık iterler xanlar<br>Her tarafğa yiberip fermanlar | 7. Xanlıq edərlər söz ilə Xanlar; hər tərəfə göndərərlər fərmanlar. |
| 8.Söz bile xalk tapar emn ü eman<br>Müşkil işler bolur andın asan | 8.Söz ilə insanlar əmin-amanlıq tapar; və müşkül işlər onunla asan olar. |
| 9.Söz bile feth bolur kişverler<br>Söz bile cem ‘ bolur leşkerler | 9.Ölkələr söz ilə fəth edilər; və əsgərlər söz ilə cəm olarlar. |
| 10.Söz digen asru ‘azimü'ş-şandur<br>Anı bilmek digenim asandur | 10.Söz deyilən şey çox alişandır; Onu bilmək deməyim asandır. |
| 11.Bilgil ey sami‘i -hazır söz ara<br>Ki tekellüm sıfatı birle Xuda | 11.Ey hazırda olan dinləyici; bil ki, söz arasında təkəllüm sifəti ilə Xuda, |

| | |
|---|---|
| 1.Ta ki batınğa tecelli kılmas<br>Zahiran xalk ara söz aytılmas | 1. Batində təcəlli qılmadığı müddətcə; Zahirdə xalq arasında söz söylənməz. |
| 2.İmdi bu sözdin uk, eyle kıyas<br>Özni il içre suxandan bilmes | 2.İndi bu sözdən (nə demək istədiyimi) anla və müqayisə et; xalq içində hər gözəl söz söyləyən özünü bilməz! |
| 3.Bende xod sözni çendan bilmes<br>Kim ne yanglığ boladur sözge esas | 3.Bəndə öz sözünü o qədər bilməz; Belə ki, sözə əsasın nə olduğunu da bilməz. |
| 4.Barı uş munçağına söz bilürem<br>Kim bu takrib ile xanğa kilürem | 4.Bildiyim həmişə bu qədərcik sözdür; və bu şəkildə xanın hüzuruna gəlirəm. |
| 5.Xan irür padişehi- alemi- söz<br>Xan irür irte kiçe hemdemi- söz | 5.Xan söz aləminin padşahıdır; xan səhər-axşam sözlə həmdəmdir. |
| 6.Xan sözi ‘ışk cihanıdındur<br>Xan sözi ğayb lisanıdındur | 6.Xan sözü eşq dünyasındandır; xan sözü qeyb lisanındandır (qeyb aləminə aid lisandandır). |
| 7.Xan özi ‘aşık irür ‘arif hem<br>Barça söz canibidin vakıf hem | 7.Xanın özü həm aşiq, həm də arifdir; Söz baxımından da hamısına vaqifdir. |
| 8.Xan özi sözni besi xub aytur<br>Nazm ile nesrni merğub aytur | 8.Xanın özü sözü gözəl söylər; Nəzm ilə nəsri bəyənilən şəkildə söylər. |
| 9.Kaysı xandur bu mu`ayyen bilgil<br>Aytayın min sanga ruşen bilgil | 9.Xan ki, xandır, bunu yaxşıca bil; Onu mən sənə söyləyim, açıqca bil. |
| 10.Tingrining sayesi Şibani xan<br>Kim anı koydı xalife Rahman | 10.Tanrının kölgəsidir Şeybani xan; ki onu xəlifə  qoydu Rəhman (taxta oturtdu). |
| 11.Ğaybdın atı Muhammed boldı<br>Kabili- devleti- sermed boldı | 11.Qeybdən adı Məhəmməd oldu; və əbədi dövlət sahibi oldu. |

| | |
|---|---|
| 1.Barçanıng yaxşılık anıng kaşıda<br>Barçanıng devleti anıng başıda | 1.Hər şeyin yaxşılığı onun hüzurun-dadır; və hər şeyin dövləti (səadəti) onun başındadır. |
| 2.Sivüben asrağanı Kur'andur<br>Yigirip kavlağanı şeytandur | 2.Sevərək uyduğu Qurandır; nifrətlə qovduğu şeytandır. |
| 3.Nefsini özige düşmen bildi<br>Düşmen öltürmekini fen bildi | 3.Nəfsini özünə düşmən bildi; düşmən öldürməyi də fənn bildi. |
| 4.Nüktesi nükteyi- Kur'anıdür<br>Meclisi meclisi- ruhanidür | 4.Nüktəsi Quran nüktəsidir; məclisi ruhani məclisidir. |
| 5.Derd-mendane çikiben avaz<br>Kılsa Kur' an okumaknı ağaz | 5.Dərdli şəkildə avazla; Quran oxumağa başlasa; |
| 6.Yığlatur Tingri siver kullarnı<br>Bağlatur div kilür yollarnı | 6.Tanrı sevdiyi qullarını ağladar; və divin gəldiyi yolları bağladar. |
| 7.'İlm ehlini 'acayib ister<br>Cehl kılğannı beğayet kıstar | 7.Elm sahibiərini çox istəyər; cahillik edəni də çox qısdırar. |
| 8.İşi vü küçi barı hilm bile<br>Sözi vü üni barı 'ilm bile | 8.İşi, gücü həmişə yumşaqlıq ilədir; sözü və səsi həmişə elm ilədir. |
| 9.Tün ü kün ay u kuyaş dik tınmay<br>Mihnet ü tefrikadın kayıtmay | 9.Gecə-gündüz, ay və günəş kimi durub dincəlmədən; möhnət və təfriqədən dönmədən, |
| 10.Gah şahra vü beyabanı kizip<br>Geh Samarkand ü Xorasannı kizip | 10.Gah səhra və biyabanı gəzər; Gah Səmərqənd və Xorasanı gəzər. |
| 11.Köp uruş birle alıp Türkistan<br>Bakturay dip Arab ü Hindistan | 11.Çox vuruşaraq Türküstanı alıb; Ərəbistan və Hindistanı özümə tabe edim deyər. |

| | |
|---|---|
| 1.Az kişi birle kalın cavğa kirip<br>Tingri nusret birip ol cavnı kırıp | 1.Az insan ilə çox düşmən içinə girib; Tanrı nüsrəti ilə o düşmən əsgərini qırar. |
| 2.Xasm anga kasd okını şibelep<br>Ol yörüp din kılıçını yibelep | 2.Düşmən ona qəsd oxunu tuşlayınca; O, din qılıncını ona yönəldərək sancar, |
| 3.Ğarazı bu ki yörüp din açkay<br>Düşman ölgey kaşıda, ya kaçkay | 3.Məqsədi yürüyüb dini yaymaqdı; önündəki düşmən ya öləcək, ya qaçacaqdı. |
| 4.Niyyeti şer ‘ğa ziynet birmek<br>Ehli- islamğa kuvvet birmek | 4.Niyyəti şəriətə zinət verməkdir; Əhli- islama qüvvət verməkdir. |
| 5.Körsetip 'adlnı ihsan birle<br>Tingri emrin eşitür can birle | 5.Ədaləti lütflə göstərib; Tanrı əmrini canla eşidir (candan bağlıdır). |
| 6.Bilmes il dehrde bardur bisyar<br>Bilmeyin anga kılurlar inkar | 6.Məmləkət (və) dünyada (onu) bilməyən çoxdur; onu bilmədən inkar edənlər çoxdur. |
| 7.Öz yamanlıklarını bilmesler<br>Bu sıfatlık kişige kilmesler | 7.Öz pisliklərini bilməzlər; bu vəsfləri daşıyan insana (şəriətə bağlı olan insana) gəlməzlər. |
| 8.‘Ömrler çarx kizer ser-gerdan<br>Ta bir axter bolur andak raxşan | 8.Belə parlaq bir ulduz (Şeybani xan) meydana gələnə qədər; Fələk ömür boyu özündən xəbərsiz dönər. |
| 9.Padişah oldur u andın özge<br>Kainat içre körünmes közge | 9.Padşah odur və ondan özgə; başqası kainatda görünməz gözə. |
| 10.Ol yörüp Ka'begeçe alğusıdur<br>Ehli- inkar bakıp kalğusıdur | 10.O yürüş edib Kəbəyə qədər alacaqdır; inkar əhli (də) baxa-baxa qalacaqdır (bir şey edə bilməyəcəkdir). |

| | |
|---|---|
| **V**<br>**Hazreti- İmamü'z-zaman Xalifetü'r- rahman Muhammed Şibani xannıng aklınıng ta'rifidür** | **V**<br>**Zamanın İmamı və Allahın xəlifəsi Məhəmməd Şeybani xan həzrətlərinin ağlının tərifidir** |
| 1.'Akl ile bu Aliyi- asrdur ol<br>Şah irmes veliyi- asrdur ol | 1.Ağıl ilə o, bu əsrin Əlisidir; padşah deyil, o, əsrin vəlisidir. |
| 2.Akldındur bu ki devlet barıda<br>Barça esbabı- ferağat barıda | 2.Dövlətin varlığı ağıldandır (əsl dövlət ağıldandır); və bütün fərağət (dünyəvi və keçici şeylərdən qurtuluş) səbəbləri ağıldandır. |
| 3.Özge xanlar kibi meclis kurmas<br>'Ayş u 'işret sarıdın dem urmas | 3.Özgə xanlar kimi eyş-işrət məclisi qurmaz; Eyş-işrətdən də dəm vurmaz. |
| 4.Bir zaman işidin olmas ğafil<br>Bade içmek sarı bolmas mayil | 4.Şərab içməyə olmaz mayil; bir an belə işində (padşahlıq işində) olmaz qafil . |
| **VI**<br>**Ol Hazretning Tingri inayet kılğan ilmining tavsifi** | **VI**<br>**O həzrətin tanrı lütf etdiyi elminin vəsfləri** |
| 5.İlmi bar ança ki bir kişverde<br>Bolmasa 'ilm sözi defterde | 5.Bir ölkədə elmin sözü dəftərdə qeydli olmasa da(elmdən söz edilməsə); onun elmi vardır. |
| 6.Her nime xalkka müşkil bolsa'<br>İlmdin her nice sayil bolsa | 6.Xalqa hər nə müşkül olsa; və elmdən hər nə qədər sual olsa; |
| 7.Ol kılur hal barı müşkillerni<br>Sakit eyler barı sayillerni | 7.O bütün müşkülləri həll edər; bütün sual edənləri də susdurar (bütün sual edənlərin cavabını verər). |
| 8.Asru köp mes'eledür yad anga<br>İlmdin can irür abad anga | 8.Bir çox məsələ onun xidmətindədir; elmdən dolayı can evi abaddır. |

| | |
|---|---|
| 9.Kirse Tevhid ü Tasavvuf sözige<br>Yoktur hiç tevakkuf sözige | 9.Tovhid və təsəvvüf sözünə başlasa; sözündə bir durub dayanmaq yoxdur (söyləyəcək çox şeyi vardır). |
| 10.Xan anıng sözlerini xub bilür<br>Bir risale ki kişi yad kılur | 10. Bir kimsənin yada saldığı risalənin; sözlərini xan yaxşı bilər. |
| **VII**<br>**Ol Hazretning fakrnıng beyanı ve sülükning dasitanıdur** | **VII**<br>**O həzrətin fəqrinin (Tanrı qarşısındakı acizliyinin) bəyanı və sülukunun (Tanrı yoluna girməsinin) dastanıdır** |
| 1.Evliya sohbetiğa yitkendür<br>Etkıya xıdmetiğa yitkendür | 1. Övliya söhbətinə çatmışdır; və etkiyə (təkva sahibiərinin) xidmətinə çatmışdır. |
| 2.Könglide zikr ile meşğultur ol<br>Kim ki zakir anga makbultur ol | 2. O, qəlbində zikr ilə məşğuldur; Allahı zikr edən kimsə də onun üçün məqbuldur. |
| 3.Eylemes fevt seher-hızlığın<br>Eylemes terk güher-rizlığın | 3.Səhər vaxtı (erkən) qalxmağı ihmal etməz; və cövhər saçmağı da tərk etməz. |
| 4.Derd birle kiçeler yığlar zar<br>Kiçeler yığlamağıda iş bar | 4.Dərd ilə gecələri zar-zar ağlar; və gecələri ağlamasında bir iş (hikmət) var. |
| 5.Xalknı uyku zebun kılğanda<br>Başların baxt nigun kılğanda | 5.Xalqı yuxu pəncəsinə aldıqda; və bəxt onların başlarını əydikdə, |
| 6.Bolur ol padişehi- din bidar<br>Ta seher vakti kılur istiğfar | 6. O din padşahı oyaq olar; və səhər vaxtına qədər tövbə(istiğfar) edər. |

| VIII<br>**Ol Hazretning hilmining hikayetidür** | VIII<br>**O həzrətin yumşaq xasiyyətliliyinin hekayətidir** |
|---|---|
| 7.Hilm ile kuhı- giran-sengdür ol<br>Sahibi- daniş ü ferhengdür ol<br><br>8.Hilm birle ki nümayan boldı<br>Saniyi- Hazreti- 'Osman boldı<br><br>9.Her ne kilse kiçürür hilm bile<br>Lutf camın içürür hilm bile | 7.Yumşaqlığı ilə o, ağır bir dağdır; elm və hünər sahibidir.<br><br>8.Yumşaqlığı ilə tanındığından; ikinci həzrəti- Osman oldu.<br><br>9.Hər nə olsa onu yumşaqlıqla qar-şılayar; və lütf badəsini yumşaqlıqla içirər. |

| | |
|---|---|
| 1.Bu sıfat asru kavidür anda<br>Nuri- hilmi- nebevidür anda | 1. Bu vəsf çox güclüdür onda;<br>peyğəmbər yumşaqlığının nuru<br>vardır onda. |
| **IX**<br>**Ol Hazretning Kur'an okurınıng rivayetidür** | **IX**<br>**O həzrətin Quran oxumasının rəvayətidir** |
| 2.Çün tilavet bile meşğul bolur<br>Anga ervahı- mukaddes ökülür | 2.Tilavətlə məşğul olduğu zaman;<br>müqəddəs ruhlar ətrafında toplaşar. |
| 3.Asru mahrecni ri`ayet eyler<br>Anı bilgenge inayet eyler | 3.Məxrəcə (hərflərin tam<br>tələffüzünə) çox riayət edər; və onu<br>bilənə inayət edər . |
| 4.Bolsa yüz hafızı- ferxunde-kelam<br>Barısı vakıfı- medd ü idğam | 4.Gözəl kəlam sahibi yüzlərlə hafiz<br>olsa da; və hamısı mədd və idğama<br>(şəddə ilə oxuma) vaqif olsa da, |
| 5.Ol kılur bolsa kıra'at ağaz<br>Çıkmas ol xayldın asla avaz | 5. O, oxumağa başlayanda; o<br>xalqdan əsla etiraz səsi yüksəlməz<br>(qüsur tapa bilməzlər). |
| 6.Barça şermende bolur katıda<br>Sıdk ile bende bolur katıda | 6. Hamısı hüzurunda şərməndə<br>(xəcalətli) olar; və sidq ilə<br>hüzurunda bəndə olar. |
| 7.Katıda kim ki mülazim boldı<br>Cannı vakf itmeki lazım boldı | 7.Hüzurunda xidmət edən kimsələr;<br>canlarını bağışlamağı lüzumlu gör-<br>dülər. |
| 8.Hak sözin ol okur olsa el-hak<br>Anı ozar kişi yoktur mutlak | 8.O, Haqq sözünü (Qurani- Kərimi)<br>oxusa; doğrusu, onu keçəcək kimsə<br>yoxdur. |
| 9.Tingrining ayeti- rahmetdür ol<br>Xalqdın dafi'yi- zahmetdür ol | 9.Odur tanrının rəhmət ayəti; və<br>xalqdan uzaq edəndir zəhməti. |

| X<br>**Ol Hazrət tab'ınıng maddahlığı** | X<br>**O həzrətin təbinin tərifi** |
|---|---|
| 1.Tab birle mutasarrıfdur özi<br>Hal birle mutasavvıfdur özi | 1.Təbi ilə özü mütasarrifdir (təsərrüf sahibidir); hal ilə də özü mütəsəvvifdir (təsəvvüf əhlidir). |
| 2.Tab\`ıdur asru biyik himmeti dik<br>Sözüni yaxşı barı niyyeti dik | 2. Təbi himməti kimi çox böyük-dür; səsi də niyyəti kimi gözəldir. |
| 3.Şe\`rni xub tanır zevk bile<br>Özi hem xub aytur şevk bile | 3.Şeiri zövqlə, gözəl tanıyar; özü də şövqlə gözəl oxuyar. |
| 4.Türkı ebyatı irür şerbeti- nab<br>Farisi şe\`rleri hem sir-ab | 4.Türkcə beytləri təmiz, saf şərbət-dir; və farsca şeirləri də gözəldir. |
| 5.Barça sir-ab u selis ü dil-keş<br>Tab' ehliğa celis ü dil-keş | 5.Hamısı gözəl, səlis və dilkeşdir; təb sahibiərinə (yaradılışında məziyyət olanlar üçün) cəlis və dilkeşdir (onlarla bir arada və könül alıcıdır). |
| 6.Asru meşhur mu\`ammaları bar<br>Türkçe til bile imaları bar | 6.Bir çox məşhur müəmmaları var; və Türkcə ilə də imaları var. |
| 7.Kalemi dağı irür müşk-feşan<br>Xattı dik birmediler hiç nişan | 7.Qələmi də müşkəfşandır; yazısı kimi heç kimsə nümunə göstərmədi. |
| 8.Derd-mendanedür avazı anıng<br>Bardur ol şivede i\`cazı anıng | 8.Onun avazı dərdli kimidir; və o şivədə onun icazı (az sözlə çox məna ifadə etmək) vardır. |
| **XI**<br>**Ol Hazretning kılıçınıng medh-güzarlığı** | **XI**<br>**O həzrətin qılıncının tərifi** |
| 9.Kılıçı kahr otıdın bir şu'le<br>Her kişi körse anı dir şu'le | 9.Qılıncı qəhr atəşindən bir alov-dur; hər kəs onu gördükdə deyər alovdur. |
| 10.Kayda kim boldı uşol şu'le bülend<br>Yok turur hiç nime allıda bend | 10.Harada o alov olsa bülənd (yüksəlsə); önündə dura bilməz heç bir bənd. |

| | |
|---|---|
| 1.Kılıçın çikse muxalif yüzige<br>Körünur ot u yalın dik közige | 1. Müxalifin üzünə qılıncını çəksə; gözünə od və alov kimi görünər. |
| 2.Ot imes abı- revandur kılıçı<br>Tiğ imes merhemi- candur kılıçı | 2.Qılıncı od deyil, axan sudur; qılıncı qılınc deyil, can məlhəmidir. |
| 3.Fitnening otını söndürgen ol<br>Kim ki ser-keş anı köndürgen ol | 3.Fitnənin atəşini söndürəndir; dik-başlıq edəni doğru yola gətirəndir. |
| 4.Kim yamanlıknı anga yavutadur<br>Boğzıdın abı- revan dik ötedür | 4.Kim pisliyi ona yaxınlaşdırırsa; kim ona pislik etmək istəsə canın-dan olar. |
| 5.Katili- düşmani- gümrahdur ol<br>Zülfıkarı- Esedullahdur ol . | 5.O,azğın düşmənlərin qatilidir; və Əsədullahın (Allahın aslanı Hz. Əli) zülfüqarıdır (qılıncıdır). |
| **XII**<br>**Cibesining sıfatı**<br>6.Cibesidür zırıhı- Davudi<br>Anga layık başı üzre xudi | **XII**<br>**Qalxanının vəsfi**<br>6.Qalxanı Davudun zirehi kimidir; və başının üzərində ona layiq bir miğfər vardır. |
| 7.Hergiz oknı özige yavutmas<br>Yavusa hem anga hergiz ötmes | 7.Əsla oxu özünə yaxınlaşdırmaz; yaxınlaşsa da, ona əsla kar etməz. |
| 8.Düşmen okını özige almaş<br>Hergiz ok sarı közini salmas | 8.Düşmən oxunu özünə almaz (düş-mən oxuna hədəf olmaz); əsla ox tərəfinə baxmaz. |
| 9.Okdın ol cibege ni ğam bolğay<br>Kim munung dik kişi hemdem bolğay | 9.Bunun kimi insan olsa həmdəm; oxdan o qalxana nə qəm. |
| 10.Xodining suretidür ğonçe-misal<br>Bergi- gül yanglığ uzanğusıdur al | 10.Miğfərinin görünüşü qönçə kimi-dir; gül yarpağı kimi qırmızılıq onun əlamətidir. |

| | |
|---|---|
| 1.Zırh işlerde irür ol Davud<br>Ruhı- Davudu eyler xoşnud | 1. Zireh işləmədə o bir Davud;<br>Hz. Davudun ruhunu eylər xoşnud . |
| 2.Bir zırıhger barıp irkendür anga<br>Kim buyurğıl zırıh işini manga | 2.Bir zireh ustası zireh işini mənə həvalə et; deyə ona getmişdir. |
| 3.Xan buyurğandur anga bir zırıhı<br>Bolğu dik rezm çağı cilve-dihi | 3.Savaş zamanında istifadə etsin deyə; xan ona bir zireh düzəltməsini buyurmuşdur. |
| 4.Ol zırıhger anga bolgaç meşğul<br>Bolmamış xan katıda ol makbul | 4.Zirehgər düzəltməklə olmuş məşğul, amma düzəltdiyi Xan nəzərində olmamış məqbul. |
| 5.Özi alıp yasamış niçe zırıh<br>Zülfning xalkası dik piç ü girih | 5.Özü alıb saçın qıvrımları kimi; qıvrım-qıvrım bir çox zireh düzəltmişdir. |
| 6.Ol körüp anı çıkıp sıktar imiş<br>Sıktaban uşbu hikayetni dimiş | 6.O (zirehgər) onu görüb ağlayırmış; ağlayaraq bu hekayəti deyirmiş: |
| 7.Kim huner körsete kildim munda<br>Hiç bilmen ki ne kıldım munda | 7.”Buraya hünər göstərmək üçün gəldim; burada nə etdiyimi heç bilmədim. |
| 8.Xan işin kördüm ğamdın toldum<br>Öz işim babıda hayran boldum | 8.Xanın işini (zireh düzəltmədəki ustalığını) gördükdə qəmlə doldum; və öz işim (məsləyim) barəsində heyrət etdim (tərəddudə düşdüm). |
| 9.Dir idim min kibi yoktur hergiz<br>Meni xan eyledi mundak aciz | 9Mənim kimisi əsla yoxdur, deyərdim; fəqət xan məni belə aciz etdi”. |
| 10.Her huner-mend kaşıga kilse<br>Xan alıp işini özi kılsa | 10.Hər hünər sahibi onun hüzuruna gəlsə; Xan alıb onun işini görsə, |
| 11.Bolur ol cibeçi yanglığ giryan<br>Özining halığa miskin hayran | 11.Öz halına o miskin heyrət edib; o zireh düzəldən kimi ağlayar. |

| | |
|---|---|
| 1.Bardur anıng sözi bes bisyar<br>Kaysını men sanga aytay ey yar | 1.Onun çox hünəri var; Hansını mən sənə söyləyim, ey yar (dost)! |
| 2.Ta cihan bar beka bolsun anga<br>Sağarı- feth ü zafer tolsun anga | 2.Dünya var olduqca o,əbədi olsun; Onun saysız fəth və zəfər badəsi dolsun. |
| **XIII**<br>**Kitab nazmınıng sebebi** | **XIII**<br>**Kitab nəzminin səbəbi** |
| 3.Işk sahrasıda mecnun bolğan<br>Derd birle içi taşı tolğan | 3.Eşq səhrasında Məcnun olan; içi çölü dərd ilə dolan; |
| 4.Şevk bazarıda sevda kılğan<br>Uşbu sevdanı temenna kılğan | 4.Şövq bazarında sevdalanan; və bu sevdanı arzu edən; |
| 5.Hecrning otıda canı köygen<br>Suz ü ğam birle nişanı köygen | 5.Hicr odunda canı yanan; və qəm yanğısı ilə gizlicə (için-için) yanan |
| 6.Lakabı Salih vü özi talih<br>Nur Sa'id oğlı Muhammed Salih | 6. Ləqəbi Salih və özü talih; Nur Səid oğlu Məhəmməd Salih |
| 7.Mundak aytur ki Xudadın takdir<br>Çün atam işige birdi tağyir | **7.**Belə deyər ki, xudadandır təqdir; çünki atamın işini (həyatını, fəaliyyətini) o etdi təğyir. |
| 8.Çıktı Xvarezm diyarı kolıdın<br>Hayuk u Kat hisarı kolıdın | 8 Xarəzm diyarı əldən getdi; Xivə və Kat qalası(atamın) əldən getdi. |
| 9.Tüşti andın güzeri Merv sarı<br>Anda savruldı iv ili barı | 9.O səbəbdən Mərvə güzarı düşdü; evi və eli tamam dağıldı. |
| 10.Eyledi nuş şehadet camı<br>Anga nuş oldı sa'adet camı | 10.Şəhadət qədəhini içdi; və şəhadət qədəhi ona şirin gəldi. |

| | |
|---|---|
| 1.Meni gerdun sitemi kıldı yetim<br>Eyledi kişveri- ğam içre mukim | 1.Məni fələyin zülmü yetim qoydu; və qəm ölkəsi içinə sakin etdi. |
| 2.Xorluklar bile ostum bisyar<br>Zarlığlar bile kördüm azar | 2.Zəhmətlərlə böyüdüm; əzab-əziyyət gördüm. |
| 3.Her felaket ki bolur dünyada<br>Hiç kaysıdın imen azade | 3.Dünyada olan fəlakətlərin; heç birindən qurtulmuş deyiləm. |
| 4.Geh Xorasan ara kıldım menzil<br>Geh Semerkandğa boldum mayil | 4.Bəzən Xorasanda etdim mənzil; bəzən də Səmərqəndə etdim meyil (yönəldim). |
| 5.Koyun ayini bile ser-gerdan<br>Her niçük bolsa yörüdüm her yan | 5.Qoyun kimi sərgərdan halda; hər tərəfdə gəzdim. |
| 6.Xıdmet ittim barı mirzalarğa<br>Bendelik andağı danalarğa | 6.Bütün mirzələrə xidmət etdim; oradakı alimlərə qulluq etdim. |
| 7.Körmedim xayrı mirzalardın<br>Tiledim rayi danalardın | 7.Mirzələrdən xeyir görmədim; və alimlərdən dəstək dilədim. |
| 8.Didiler barça manga danalar<br>Kim adem bolğusıdur mirzalar | 8.Alimlər hamısı mənə mirzələrin də; (günü gələndə) yox olacağını söylədilər. |
| 9.Devleti- Ali- Timür kitküsidür<br>Nevbet özge kişige yitküsidür | 9.(Dedilər)Teymur oğullarının dövləti də köçəcəkdir; və növbə bir başqa adama keçəcəkdir. |
| 10.Ol kişi bardur Şibani xan<br>Xanı- Şibandur u Mehdiyi- zaman | 10. O kişi Şeybani xandır; və Şeybani xan  Mehdiyi-zamandır. |
| 11.Hali, anıng yiri Türkistandur<br>Özbek ilige mu‘azzam xandur | 11.İndi onun yeri Türküstandır; özbək ölkəsinə ulu xandır. |

| | |
|---|---|
| 1.Xan Ebu'l-xayrğa ferzend irür<br>Cahınıng şaxığa peyvend irür | 1.Əbül-xeyr xanın oğludur; və onun sülaləsinə bağlıdır. |
| 2.Yuci xan oğlı vü Cengiz torunı<br>Barça xanlardın a'la orunı | 2.Yuci xan oğlu olub Çingiz soyundandır; və bütün xanlardan payəsi ucadır. |
| 3.Ol alur uşbu vilayetlerni<br>Körsetür ilge 'inayetlerni | 3.O, bu vilayətləri alar; və xalqa inayət göstərər. |
| 4.Bardur anıng işi Kur'an birle<br>Olturuptur niçe sultan birle | 4.Onun işi zikrdir Quran ilə; Bir arada olmuşdur çox sultan ilə. |
| 5.Ol bolup barçağa candın mayil<br>Ol selatın anga andın mayil | 5.O, hər kəsə candan bağlıdır; və sultanlar ona ondan çox bağlıdır. |
| 6.Bu cema'at ki körer-sin hala<br>Tenne tirne bile başlap ğavğa | 6.İndi gördüyün bu camaat; hay-huyla davaya başlamışdır. |
| 7.Içedürler kiçe kündüz bade<br>Din ü iman sarıdın azade | 7.Gecə-gündüz qaldırırlar badə;din və imandan olmuşlar azadə. |
| 8.Bir biri birle muxalif barça<br>Bir biridin takı xayif barça | 8.Hər kəs bir-biri ilə müxalifdir; və bir-birindən qorxmaqdadır. |
| 9.Atadın bardur oğul na-xoşnud<br>Atanı oğul itey dir na-bud | 9.Atasından xoşnud olmayan oğul vardır; atamı yox edim deyən oğul vardır. |
| 10.Ata hem bardur oğuldın bizar<br>Öltürür oğlını yığlatıp zar | 10. Ata da var oğuldan bizar; və oğlunu ağladaraq (öldürər) zar-zar. |
| 11.Sözleri yiride mezkur bolur<br>Uşbu defter ara mestur bolur | 11.Onların sözləri (hadisələri) yerində (yeri gəldikcə) zikr ediləcək; və bu dəftərdə göstəriləcək. |

| | |
|---|---|
| 1.Şeridin yoktur alarğa perva<br>Şeri sözini dimesler asla | 1.Onların şəriətdən qorxusu yoxdur; və şəriət sözünü əsla ağıza almazlar. |
| 2.Fikr kıl mülkni kim alğusıdur<br>Kusi- ikbalnı kim çalğusıdur | 2.Mülkü kimin alacağını düşün; iqbal təbilini kimin çalacağını düşün! |
| 3.Kayda kim çaderini tikti nifak<br>Kalmas ol tiğrede asarı- vifak | 3.Münafiqlik çadırının qurulduğu yerdə; anlaşma,barışın izi qalmaz. |
| 4.Mülk iligdin çıkar u taxt ile tac<br>Taxt u tac ehlin iterler ixrac | 4. Əldən çıxar məmləkət və taxt ilə tac; taxt ilə tac sahiblərini edərlər ixrac. |
| 5.Bolsa yüz ming kişi barça bu tavr<br>İvrülür barçasığa axir devr | 5.Yüz min nəfər olsa da bu tövr; sonunda onlara da gələr dövr. |
| 6.Yene bir devr kilür taze vü xeş<br>İttifak ehli dik asru dil-keş | 6.İttifaq edən kimsələr kimi yenə; təzə və gözəl bir dövr gələr. |
| 7.İttifak ehliğa devlet kilişür<br>İttifak ehli hem anı bilişür | 7.İttifaq edənlər dövlətə qovuşar; və ittifaq əhli bir-birini tanıyar. |
| 8.Ming kişi müttefik itse işini<br>Basar elbette bu yüz ming kişini | 8.Min nəfər işində ittifaq etsə; əlbəttə, yüz min nəfəri hökmü altına alar. |
| 9.İİttifak anda vü din ü iman<br>Darbı-Şemşir ü namaz u Kur`an | 9.Din və iman, qılınc zərbəsi; namaz və Quran ittifaqdadır (birləşmədədir). |
| 10.Mülk ol almasa kim alğusıdur<br>Barça afak anga kalğusıdur | 10.Mülkü o almasa, kim alacaqdır; bütün üfüqlər (hər yer) ona qalacaqdır. |
| 11.Akl eger bar sanga iş kıla kör<br>Bu selatin yolıdın ayrıla kör | 11.Əgər ağlın varsa iş görməyə davam et; bu sultanların (Şeybani xan xaricin-dəkilərin) yolundan ayrıl. |

| | |
|---|---|
| 1.Özni ol xan kademiğa yitkür<br>Başnı sultan kademiğa yitkür | 1.Özünü o xanın (Şeybani xanın) xaki-payinə yetir; başını sultanın ayağına qoy (ona tabe ol). |
| 2.Çün bu sözlerni işittim fil-hal<br>Eyledim xalvet özüm birle xayal | 2.Bu sözləri eşidər-eşitməz; o an öz xəyalımla baş-başa qaldım. |
| 3.Barça ma`kul idi vü barça savab<br>Tüzdüm ahengi- seferğa esbab | 3.Hamısı məqbul və doğru idilər: Səfər hazırlığını görməyə başladım. |
| 4.Yörüp ahengi- Semerkand ittim<br>Yörüp ol şehrğa bat ok yittim | 4.Yürüyüb Səmərqəndə getdim; və tezliklə o şəhərə çatdım. |
| 5.Niyyetim bu ki kirip kurğanğa<br>Barğa-min andın Türkistanğa | 5.Niyyətim kurqana girmək; və oradan Türküstana getməkdi. |
| 6.Ya eger xan bu sarılar kilse<br>Bende xan sarı 'azimet kılsa | 6. (Şeybani),ya da xan bu tərəflərə gəlsə; Mən bəndə, Xana doğru gedəm. |
| 7.Manga niyyet bu idi lik Xuda<br>Eylegendür manga bu nev' kaza | 7.Mənim niyyətim bu idi; Lakin Xuda mənə bu cür qəza etdi. (başıma bunu gətirdi): |
| 8.Kim yitişken dem ol kurğanğa<br>Bendelik eylegemin ol xanga | 8.O kurqana yetişdiyim zaman; (Şeybani) xana qulluq edəcəyəm. |
| 9.Çün yitiştim keliben niçe kazak<br>Barçası rahm tarıkıdın ırak | 9.Çatanda bir çox kazak (quldur kimi dolanan sərsəri) gəldi; hamısı rəhm yolundan uzaqdı. |
| 10.Kahr ile kildiler andağ ki meger<br>Bendedin koymağusıdurlar eser | 10.Qəhrlə birlikdə gəldilər; məgər qulluqdan əsər buraxmayacaqlar. |
| 11.Bir niçe hemdem ü hemrah manga<br>Bar idiler barı dilxah manga | 11.Bir çox dostum və yoldaşım vardı; hamısı da mənim istədiyim kimsələrdi. |

| | |
|---|---|
| 1.Barçanı tonadılar amma<br>Manga körgüzmediler hiç cefa | 1. Hamısını soydular; fəqət mənə heç cəfa etmədilər. |
| 2.Ol cema'at ki bu iş kıldılar<br>Başıma devlet ile kildiler | 2.Bu işi edən camaat; yanıma (başıma) səadətlə gəldi. |
| 3.Bar imişler barısı ong kolda<br>Can Vefa Biy bile koldaş yolda | 3.Hamısı sağ tərəfdə imiş; və Can Vəfa bəy ilə eyni tərəfdə imiş. |
| 4.Can Vefa Biy meni körgeç fi'l-hal<br>Körüşüp eyledi yarane makal | 4.Can Vəfa bəy məni görəndə tez; dostca danışmağa başladı. |
| 5.Can Vefa Biy imiş ong kolda uluğ<br>Anga Durman ulusıdun köp uruğ | 5.Can Vəfa bəy sağ qolda ulu adam imiş; onun Durman ulusundan çox soyu varmış. |
| 6.Çün bu sözler bile öttüm andın<br>Xan yolın can bile tuttum andın | 6.Bu sözlər ilə ondan ayrıldım; və oradan xan yolunu candan tutdum. (Xan yoluna candan bağlandım) |
| 7.Meni xan allığa yitkürdiler<br>Belki can allığa yitkürdiler | 7.Məni xanın hüzuruna çıxardılar; bəlkə də can hüzuruna çıxardılar. |
| 8.Min yitişkende uşol xan katığa<br>Başnı koyğanda anıng xidmetiğa | 8.Mən o xanın hüzuruna yetişdikdə; onun xidmətinə baş qoyduqda, |
| 9.Salıp irdi uruş ol kurğanğa<br>Salıban velveleler devranğa | 9.Kurqana hücum etmişdi; və dövrana vəlvələlər salmışdı. |
| 10.Asru ğavğa vü kapakı irdi<br>Hey hey ü 'arbede çakı irdi | 10.Bir çox dava və hay-küy; Hay-küy və qovğa çağı idi. |
| 11.Olturup irdi özi fariğ-bal<br>Hey hey ü 'arbede birle xoş-hal | 11.Özü hüzurla oturmuşdu; hay- huy və dava ilə xoş haldaydı. |

| | |
|---|---|
| 1.İgnide bir zırıhı- davudi<br>Zırıhığa yaraşa hem xudı | 1.Əynində Davudi bir zireh; və o zirehə uyğun bir dəbilqə vardı. |
| 2.Sadağı bilide yayı kolıda<br>Bigleri ongıda hem solıda | 2.Sadağı belində, yayı əlində idi; bəyləri də sağında və solunda idi. |
| 3.Bir yanıda basa eylep cevalan<br>Olturup irdi karaçın divan | 3. Bir tərəfində cövlan edirdilər; bir tərəfində də divan əhli oturmuşdu. |
| 4.Kim atalığ idi ol xanğa<br>Hem mürebbi bu şehi- devranğa | 4.Onlar o xana ata kimiydilər; və dövranın şahına mürəbbi idilər. |
| 5.Kolını lutf bile kıldı dıraz<br>Min tüzüp can ara ahengi- niyaz | 5.Əlini lütflə uzatdı; mən candan niyaza başladım. |
| 6.Korka korka kademiğa yit-tim<br>Baş koyup allıda şükri ittim | 6.Qorxa-qorxa hüzuruna yeridim; baş qoyub önündə şükr etdim. |
| 7.Eyledi lutf sorup halımnı<br>Bildi yekser mening ahvalımnı | 7.Lütf edib halımı soruşdu; mənim əhvalımı bütünlüklə bildi. |
| 8.Şefkat birle meni şad itti<br>Kayğudın bendeni azad itti | 8.Şəfqəti ilə məni şad etdi; qayğıdan bəndəni azad etdi. |

| | |
|---|---|
| 1.Çün yanıp tüşti uruşdın ol xan<br>Tiledi bendeni ol şahı- zaman | 1.Xan döyüşdən dönüb gəldikdə; o zamanın şahı mən bəndəni hüzuruna dilədi. |
| 2.Eyledi lutf u inayet bisyar<br>Eyledi resmi- mürüvvet izhar | 2. Etdi çox lütf və inayət; və göstərdi xeyli mürüvvət. |
| 3.Çün anıng şiveyi- lutfın bildim<br>Bende hem arzı- niyazi kıldım | 3.Onun lütf tərzini bildiyim üçün; mən bəndə niyazımı ərz etdim. |
| 4.Ol niyazımnı kabul eyledi xan<br>Yene bisyar kerem kıldı ayan | 4.Xan niyazımı qəbul etdi; Əyanlar da çox kərəm etdi. |
| **XIV**<br>**Molla Abdu'r-rahimning tarifi ve mu'amma bile atını aytmak ebyatı** | **XIV**<br>**Molla Əbdürrəhimin tərifi və müəmma ilə adını söyləmə beytləri** |
| 5.Bar idi xan kaşıda danayi<br>Daniş ü 'ilm yektayi | 5.Xanın hüzurunda bilik və elmdə; bərabəri olmayan bir alim vardı. |
| 6.Bar idi barça fününda mahir<br>Bolup irdi barı işke nazir | 6.Bütün fənlərdə mahirdi; və hər işə də nazirdi(baxardı). |
| 7.Bar idi ilmi- Tasavvuf anga hal<br>Ehli-hal irdi vü hem ehli- kemal | 7.Təsəvvüf elmi onun halı idi; həm hal əhliydi, həm də kamal əhli idi. |
| 8.Uşbu üç beyt ki bolur merkum<br>Bolur anıng atı mundın ma'lum | 8.Yazılan bu üç beytdən; onun adı məlum olur: |
| 9.Ger anıng naxlı- hayatı solğay<br>Alemi- ' ilm perişan bolğay | 9.Onun həyat ağacı əgər solarsa; elm aləmi də pərişan olar. |
| 10.Atını bende disem Hayyı-kadim<br>Saladur könglüme kim 'Abdu'r-Rahim | 10.Mən bəndə adını desəm hayyi-qədim (uca Allah); könlümə düşür Əbdür-rəhim. |

| | |
|---|---|
| 1.Lik könglüm kibi yoktur ol ara<br>Kim anıng atığa bolğay şeyda | 1.Lakin onun adına könlüm kimi dəli-divanə olacaq; xalq arasında kimsə yoxdur. |
| 2.Hasılı- kıssa manga ol nida<br>Kim yar irür fazlı- Xuda | 2.Sözün hasili, o müdrik; Allahın fəzli (lütfü, lütfkarlıq) ilə mənə yar idi. |
| 3.Didi ayrıılma bu xandın zinhar<br>Kim sanga terbiyet eyler bisyar | 3.Mənə dedi: "Bu xandan əsla ayrılma; çünki səni çox tərbiyə edəcəkdir, |
| 4.Hiç xavfi bu çirigde yoktur<br>Taxt almağlığı hem yavuktur | 4.Bu orduda heç qorxu yoxdur; və taxtı ələ keçirməsi də yaxındır". |
| 5.Kıldı ol hem manga bu nev' irşad<br>Xan kulı boldum u ğamdın azad | 5.O da mənə bu cür doğru yol göstərdi; Xanın qulu olub qəmdən qurtuldum. |
| 6.Kildi xatırğa ki tapsam fursat<br>Tileben hazreti- xandın nusret | 6.Könlümdən keçdi ki, bir fürsət tapım; xan həzrətlərindən kömək diləyim. |
| 7.Eylesem xan atığa tasnifi<br>Belki ülfet sebebi te'lifi | 7.Bəlkə də onun adına bir əsər yazım;təlifə ülfət səbəb olar. |
| 8.Fikirler eyledüm özüm birle<br>Fikrni siledüm özüm birle | 8.Öz-özümə düşündüm; və bir fikri özümə uyğun gördüm. |
| 9.Akıbet fikr munga taptı karar<br>Kim anıng medhin itip virdi-şi'ar | 9.Nəticədə qərar verdim ki;onun mədhini özümə virdi-şüar edim. |
| 10.Eylegen işlerini nazm kılay<br>Mesnevi şivesini dağı biley | 10.Onun gördüyü işləri nəzmə çəkim; məsnəvi tərzində söyləyim. |
| 11.Ol zamandın kim anga yol saldım<br>Uşbu xidmetni özümge aldım | 11.Onun hüzuruna getdiyim andan bəri; bu xidməti öz üzərimə aldım . |

| | |
|---|---|
| 1.Her ni kördüm çirigide bir bir<br>Barçasın nazm ile kıldım tahrir | 1.Xanın ordusunda hər nə gördümsə; hamısını bir-bir nəzm ilə yazdım. |
| 2.Bar ümidim ki munga köz salğay<br>Belki köz salıp ilige alğay | 2.Ümidim var ki, bu yazdığım əsərə nəzər salacaq; bəlkə də göz atıb əlinə alacaq. |
| 3.Körüp öz işlerini bolğay şad<br>Eylegey bendeni hem gahi yad | 3.Öz etdiyi işləri orada görüb şad olacaq; və mən bəndəni də bəzən yada salacaq. |
| 4.Nagehan kildi bu esnada xaber<br>Kim yığıp Bakı Tarxan leşker | 4.Bu əsnada nagəhan gəldi xəbər; Ki Baki Tarxan yığıb xeyli əsgər. |
| 5.Kildi Debusi digen kurğanğa<br>Bu xaberdin ferah oldı xanğa | 5.Debusi adlı kurqana gəldi; bu xəbərdən xan çox sevindi. |
| **XV<br>Hazreti-Imamü'z-zaman Semerkand üstide atlanıp Bakı Tarxan üstiğe barurda bende Salihka aytkan 'inayet sözleri** | **XV<br>İmamü'z-zaman həzrətlərinin Səmərqənd üzərinə yürüyüb Baki Tarxan üstünə gedəndə bəndə Salihə söylədiyi inayət sözləri** |
| 6.Çün seher kevkebesi boldı' ayan<br>Atlanurnıng yarağın eyledi xan | 6.Səhər ulduzu göründüyü zaman; xan atlanma hazırlığını tamamladı. |
| 7.Atlanıp Bakığa utru bardı<br>Çirigin kal'a sarı ötkerdi | 7.Atlanıb Bakiyə qarşı getdi; qoşununu qala tərəfinə sövq etdi. |
| 8.Atlanıp yörügeç ol xanı-zaman<br>Mini çarlap didi ey ser-gerdan | 8. Zamanın xanı atlanıb gedəndə; mənə səslənərək: «Ey sərgərdan, |
| 9.Niçe yıldur ki atang fevt oldı<br>İl ulusı ivi savuruldı | 9. Neçə ildir ki, atan öldü; ölkəsi, ulusu, evi sovruldu»- dedi. |

| | |
|---|---|
| 1.Didim ottuzğa yavuştı, xanım<br>Kim bu mihnet ara köydi canım | 1. Dedim: «Otuzuma yaxınlaşdım, ey Xanım; və bu möhnətdə yandı canım », |
| 2.Didi ol xan lebi nuş-efşandın<br>Kim bizing hem atamız ölgendin | 2.Dodağından bal saçan o xan dedi; «Bizim də atamız öləndən bəri, |
| 3.Ötti bir kırk vü tükendi mihnet<br>Yene yüz koydı bu sarı devlet | 3.Qırx il keçdi və tükəndi möhnət; təkrar bizə nəsib oldu dövlət. |
| 4.Ey yetim imdi sanga hem ğam u renc<br>Tükeniben yolukur bolğay genc | 4.Ey yetim! İndi sənin üçün də qəm, əziyyət tükənərək; xəzinə (xoşbəxtlik) rastlamış olacaq. |
| 5.İşimiz üstige kilding imdi<br>İşimiz sırrını bilding imdi | 5.İndi işimizin üzərinə gəldin; və işimizin sirrini bildin. |
| 6.Yörü merdanelık eyle katlan<br>Eygülük tevseni üzre atlan | 6.İndi mərd şəkildə yeri, səy göstər; və yaxşılıq atının üzərinə min”. |
| 7.Mini bu lutf bile şad eylep<br>Mihnet ü kayğudın azad eylep | 7.Məni bu lütflə şad etdi; möhnət və qayğıdan azad etdi. |
| 8.Xanı- devran u Süleymanı-zaman<br>Boldı Bakı çerigi sarı revan | 8.Dövranın xanı və Süleymanı-zaman; Bakinin ordusuna doğru oldu rəvan. |
| 9.Bir konup kal'a sevadın kördi<br>Özni ol nahiyeğa yitkürdi<br>**XVI**<br>**Bakı Tarxannıng dasitanı ve İmamü'z-zaman çirigige basturğanı ve İmamü'z-zaman Buxaranıng alğannıng beyanı** | 9.Bir düşərgə salıb qalanın mənzərəsini gördü; və o yerə yetişdi.<br>**XVI**<br>**Baki Tarxanın dastanı və zamanın İmamının (Şeybani xan) əsgərinə basqın etməsi və zamanın İmamının Buxaranı almağının bəyanı** |

| | |
|---|---|
| 1.Kim idi Bakı Tarxan bilingiz<br>Biliben kıssa başıga kilingiz | 1.Baki Tarxanın kim olduğunu bilin; bilərək hekayətin başına gəlin (hekayəti başından dinləyin). |
| 2.Özi ‘Abdü’l-‘Ali Big ferzendi<br>Kurretü’l-‘ayn u ciger-peyvendi | 2.Özü Əbdül Əli bəy oğludur; gözünün nuru və ciyər parasıdır. |
| 3.Atası devletide mirzayi<br>Her zaman başıda bir sevdayi | 3Atasının dövlətində o bir mirzə idi; hər zaman başında bir sevda var idi. |
| 4.Yimek içmek bile dayim xoş-hal<br>Kuşlap avlap yörügen fariğ-bal | 4.Yemək-içməkdən daim xoşlanardı; və quş quşlayıb ov ovlayıb (sıxıntıdan uzaq bir şəkildə) yaşardı. |
| 5.Atası kiçti ise alemdin<br>Anga yok irdi xaber matemdin | 5.Atası köçdükdə bu aləmdən; Xəbəri belə yox idi o matəmdən. |
| 6.Ol cihetdin kim anga zahir idi<br>Kim yene bir atası hazır idi | 6.Buna səbəb başqa bir atasının; yanında hazır olması idi. |
| 7.Ol ata kim idi bil imdi ‘ayan<br>Mir Derviş Muhammed Tarxan | 7.İndi açıqca bil ki, o ata əyan: idi Mir Dərviş Məhəmməd Tarxan. |
| 8.Şahı- key-mertebe Sultan Ahmed<br>Kim anga yar idi baxtı- sermed | 8.Özünə bəxtin daima yar olduğu; uca mərtəbəli padşah Sultan Əhməd |
| 9.Ol dağı anga karındaş irdi<br>Barça ‘alemğa bu söz faş irdi | 9. Də ona qardaş idi; bu söz bütün aləmə faş idi. |
| 10.Bu cihetdin anga matem yok idi<br>Atası ölgenidin ğam yok idi | 10.Bu səbəblə ona matəm yox idi; və atasının ölməsindən ona qəm yox idi. |
| 11.Atanıng nökeri kaldı bisyar<br>Biglik esbabı bile mülki- Buxar | 11.(Ona) atasının bir çox əsgəri qaldı; bəylik əshabı (vasitələri) ilə Buxara mülkü qaldı. |

| | |
|---|---|
| 1.Boldı bu halet ara çikmey can<br>Barınıng iyesi Bakı Tarxan | 1.Bu halda sıxıntı çəkmədi; çünki qalan hər şeyin sahibi Baki Tarxan idi. |
| 2.Atası ornıda big boldı fakir<br>Lik bar irdi heves birle esir | 2.Fəqir atasının yerinə bəy olmaqla bərabər; bəzi həvəslərə də əsir idi. |
| 3.Bar idi söz üni nadandır dik<br>Kılığı yaşğına oglanlar dik | 3.Danışığı cahillər kimiydi; davranışı gənc oğlanlar kimiydi. |
| 4.Körmedi renc veli taptı genc<br>Taptı ol dünyide künci- birenc | 4.Əziyyət görmədən xəzinə tapdı; o dünyada zəhmətsiz bir guşə tapdı. |
| 5.Ol zaman şehri- Semerkand ara<br>Boldı sultan ‘Ali atlık mirza | 5. Səmərqənd şəhərində o zaman; Əli adlı mirzə oldu sultan. |
| 6.Uşbu Tarxan anga birse idi aş<br>Kıla alur idi mirzası ma‘aş | 6.Bu tarxan ona  versəydi aş(yemək); o mirzəsi ala bilərdi maaş. |
| 7.Yoksa biçare yörür irdi nehar<br>Bu idi hal anga leyl ü nehar | 7.Yoxsa ac-susuz biçarə; belə gecə-gündüz dolanırdı |
| 8.Hem Karaköl soyurğalı anıng<br>Kal‘a keremine pamalı anıng | 8.Həm Qaragöl qəniməti (suyurqal) onun idi; Həm də qala kərəminin ayağı altındaydı. |
| 9.Nökeri hem bolup irdi on ming<br>Hem vilayatı bolup irdi king | 9.Əsgəri də on minə qədərdi; və vilayətləri də geniş idi. |
| 10.Bar idi başıda envayi-ğurur<br>Kılayın dir idi her sarı‘ubur | 10.Başında dürlü qürurlar vardı; hər tərəfi alıb keçim, deyərdi. |
| 11.Uruş esbabını eylep tayyar<br>Kal‘ağa kilip idi ol serdar | 11.O sərdar savaş hazırlıqlarını; tamamlayaraq qalaya gəlmişdi. |

| | |
|---|---|
| 1.Hazreti-xanı-humayun-mevkib<br>Anga hem bar idi asru talib | 1.Hümayun mövqeli xan həzrətləri də; o qalaya çox talibdi. |
| 2.Anı tüzde tapa almaydur idi<br>Leşkerini çapa almaydur idi | 2.Onu düzənlikdə tapa bilmirdi; və əsgərinə qalib gələ bilmirdi. |
| 3.İmdi kim kal'a tüzide anı<br>Taptı andak ferah itti canı | 3.İndi ki qala düzündə onu tapdı; və canı xeyli rahat oldu. |
| 4.İşitip xan kilişin Bakı hem<br>Uruş sözini didi muhkem<br>5.Bar idi pürdil ü nevxaste ol<br>Leşkerin eyledi araste ol | 4.Baki də xanın gəldiyini eşidib; savaş sözünü qüvvətli söylədi (Savaş sözünü dəqiq olaraq dilə gətirdi).<br><br>5.O, cəsur və gənc idi; əsgərini hazır hala gətirdi. |
| 6.Yasaban kal'a tüzinde turdı<br>Hazreti- xan çirigini kördi | 6.Əsgərini nizama düzüb qala düzündə durdu; Xan həzrətlərinin əsgərini gördü. |
| 7.Bende xan allıda irdi ol dem<br>Xan didi asru yakındur axşam | 7.Mən qul o an xanın yanında idim; Xan: Axşam olmaq üzrədir, dedi. |
| 8.Kiçke kıstap uruşur bolsa kişi<br>Kutulup çıkmak olur xasm işi | 8.Bir kimsə düşməninin arxasında gecə vuruşsa; düşmənin işi bu çəmbərdən çıxmaqdan başqa bir şey olmaz. |
| 9.Tüşeli tangla turup rezm iteli<br>Rezm iter da'iyesin cezm iteli | 9.İstirahət edib sabah qalxıb vuruşaq; və döyüş məsələsini qərarlaşdıraq. |
| 10.Hükm kıldı ki bir ikki sultan<br>Tursun at üstide tınglap ferman | 10.Bir-iki sultan at üstündə fərmanımı dinləmək üzrə (növbətçi kimi); gözləsinlər, deyə hökm etdi. |

| | |
|---|---|
| 11.Bolğuça leşker ilige aram<br>Tutsun at üstide ol xayl makam<br><br>12.Xan bu söznü didi yü tüşti özi<br>Barça leşker sorığa (y)etti sözü | 11.Əsgər at üstündə dinləndiyi müddətcə; onlar at üstündə gözləsinlər.<br><br>12.Xan bu sözü dedi, atdan endu;bütün qoşuna xəbər verdilər. |

| | |
|---|---|
| 1.Xan yitişkünçe anı kavladılar<br>Avçı sultanlar anı avladılar | 1.Xan yetişincə onu (Baki Tarxanı) qovladılar; və ovçu sultanlar onu ovladılar (ələ keçirdilər). |
| 2.Haşem ü xaylı kırıldı bisyar<br>Mal ü ordusı çapıldı bisyar | 2.Maiyyəti və adamları qırıldı; mal və ordusu yağmalandı. |
| 3.Aldılar xayme vü xargahların<br>Kırdılar hemdem ü hem-rahların | 3.Çadır və təpələrini aldılar; dost və yoldaşlarını qırdılar. |
| 4.Kirdi kal'a içige özi kaçıp<br>Yüzige ğussa işikini açıp | 4.Özü (Baki Tarxan), qaçıb qala içinə girdi; və üzünə qəm-qüssə qapısını açdı (qəza-qədərinə razı oldu). |
| 5.Ol kiçe kondı uşol tigrede xan<br>Kılıban şükri- cenabı- Yezdan | 5.(Şeybani) xan, o gecə allaha şükr edərək; o çevrədə yerləşdi. |
| 6.Atlanıp kal'asıga kildi sabah<br>Çıkmadı hiç salayı- ıslah | 6.Sabah atlanıb qalasına gəldi; islah xüsusunda səs çıxmadı (söz edilmədi). |
| 7.Xan didi bu sanga bolsun Baki<br>Tingri'din bizge Buxara baki | 7.(Şeybani) xan, dedi; «Bu (qala) sənin olsun Ey Baki; Tanrıdan da bizə olsun Buxara baqi », |
| 8.Kaldı ol kal'ayi- Debusi ara<br>Xan Buxara sarı saldı ğavğa | 8.O (Şeybani xan), Dəbusi qalasında qaldı; Buxara xanına dava saldı (Buxara xanı ilə savaşa başladı). |
| 9.Yörüben kildi Buxar üstiğe<br>Turdı ol turfa diyar üstiğe | 9.Hərəkət edərək Buxara üstünə gəldi; və o türfə diyar üstündə dayandı. |
| 10.Şehr ehliğa yiberdi peyğam<br>Kim irür xas manga xas ile 'am | 10.Şəhər xalqına xəbər göndərdi; «Hər kəs mənə tabedir. |
| 11.Min bu şehr içre okupmen Kur'an<br>Uşbu şehr içre barı yaxşı yaman | 11.Mən bu şəhərdə Quran oxumuşam; və şəhər içində pis, yaxşı nə varsa mənimdir. |

| | |
|---|---|
| 1.Öz kişimdürler imestürler yat<br>Çıkıban kal‘anı birsünler bat | 1.Qaladakılar mənim adamımdırlar, yad deyildirlər; qaladan çıxaraq dərhal təslim etsinlər. |
| 2.Min alarğa şefkat eylermin<br>Barçasın lutf bile silermin | 2.Mən onlara şəfqət göstərərəm; hamısını lütflə oxşayaram. |
| 3.Rahmet ü lutf kılur-min izhar<br>Xoş-dil eylermin alarnı bisyar | 3.Rəhmət və lütf göstərərəm; onların könlünü xoş edərəm. |
| 4.Ger kabul itmeseler bu sözni<br>Uruş eylep sınasunlar özni | 4.Əgər bu sözü qəbul etməzlərsə; vuruşub özlərini sınasınlar”. |
| 5.Xan bu söz birle yibergeç kasid<br>Kıldılar bir niçe fikri- fasid | 5.Xan bu sözlə qasid göndərincə; onlar bir çox fitnə-fəsad düşündülər. |
| 6.Lik hiç iş kıla almay axir<br>Kıldılar ‘aczlarını zahir | 6.Lakin sonunda heç bir şey edə bilmədilər; acizliklərini göstərdilər. |
| 7.Çıktılar xaceleri ile be-hem<br>Kıldılar kal‘anı axir teslim | 7.Xacələri ilə (qaladan) çıxdılar; və sonunda qalanı təslim etdilər. |
| 8.Şehrini çün kolığa aldı xan<br>Şehrning ehliga kıldı ferman | 8.Şəhəri ələ keçirdikdə xan;şəhər əhlinə etdi fərman: |
| 9.Kim ra‘iyyet bile hiç iş yoktur<br>Şehrning ehliğa tartış yoktur | 9.Ki “ Xalq ilə heç işim yoxdur; Şəhər xalqı ilə çəkişməm (alıb verəcəyim) yoxdur. |
| 10.Kayda kim bar sipahi malı<br>Eylengiz maldın anı halı | 10.Harada sipah malı varsa; onu malından yoxsul qoyun”. |
| 11.Uşbu söz birle kirip kildi kazak<br>Her biri bir kişige boldı konak | 11.Elə bu söz ilə kazak gəldi; hər biri bir adama qonaq oldu. |

| | |
|---|---|
| 1.Aldılar tive bile atnı tamam<br>Kıldılar şehr ilige i'lam | 1.Dəvə və atları tamamilə aldılar; şəhər xalqına bildirdilər (ki) |
| 2.Kim sipahi nimesin yaşurmang<br>Kazak ilgide yamanlık körmeng | 2.Sipah malını gizləməyin; və beləcə kazak əlindən pislik görməyin. |
| 3.Şehr içige yörügeç uşbu nida<br>Hiç nime kalmadı maxfi asla | 3.Bu xəbər şəhər içinə yayılınca; heç bir şey gizli qalmadı. |
| 4.Çıkarıp barçasını birdiler<br>Özlerin bimdin ayırdılar | 4.Çıxarıb hamısını verdilər; və özlərini təhlükədən qurtardılar. |
| 5.Boldı bu 'arbede vü fitne ara<br>Bakı Bigning haremi na-payda | 5.Bu qarışıqlıq və fitnə içində; Baki bəyin xanımı qeyb oldu (yoxa çıxdı). |
| 6.Kildi uluğ anası xidmetğa<br>Bir nebire çikiben hazretğa | 6.Baki bəyin anası (Şeybani xan) xidmətinə gəldi; və bir qız nəvəsini hüzuruna gətirdi. |
| 7.Ol nebire on iki yaşıda<br>Lik yüz fitne anıng başıda | 7.O qız nəvə on iki yaşında idi; fəqət başında yüz fitnə var idi. |
| 8.'Akd itip anı kolığa aldı<br>Nakdı- ışkını köngülge saldı | 8.(Şeybani xan) nikahlayıb özünə aldı; onun eşqini könlünə saldı. |
| 9.Ol nebirening atası barlas<br>Boldı Barlasğa xan karındaş | 9.O qız nəvənin atası idi Barlas ; bu səbəblə Xan, Barlasa (Barlas qəbiləsinə) oldu qardaş. |
| 10.Boldı xan köngli besi mayil anga<br>Kögsi üzre yasadı menzil anga | 10.Xanın könlü ona çox meyl etdi (sevdi); və sinəsi üzərində ona bir yer etdi. |
| 11.Geh tutar irdi anıng ğabğabini<br>Geh susar irdi şekerdin lebini | 11.Gah onun çənəsini tutardı; Gah da şəkər dodağını öpmək istərdi. |

| | |
|---|---|
| 1.Geh saçın isler idi gah yüzin<br>Geh kaşın siler idi gah közin | 1.Gah saçını, gah üzünü qoxlayardı; gah qaşını, gah da gözünü oxşayardı, |
| 2.Gah töşi sarı iltür idi kol<br>Geh koyırak takı salur idi yol | 2.Gah belinə əlini dolayardı; gah da əlini döşünə apparardı. |
| 3.Akıbet vasl güli açıldı<br>Her taraf bergleri saçıldı | 3.Sonunda vəsl gülü açıldı; hər tərəfə yarpaqları saçıldı. |
| 4.Vasl gülzarıda xan tuttı makam<br>Naz-perver gülidin aldı kam | 4.Xan vəsl gülzarında tutdu məqam; nazlı gülündən aldı kam. |
| 5.Vasl eyyamıda ol xanı- zarif<br>Kim özi dik bar idi tab'ı latif | 5.O, vəsl günündə zərif xan ki; özü kimi təbi də lətif idi; |
| 6.Külüben bende sarı açtı nazar<br>Didi ey Salihi- fersüde-ciger | 6.Təbəssümlə mən qula doğru baxdı; və dedi ki: "Ey ciyəri parçalanmış Salih, |
| 7.Bir 'aceb fikr köngülge kiledür<br>Mini asru mutefekkir kıladur | 7.Bir əcayib fikir xatirə gəlməkdədir; və məni çox düşündürməkdədir. |
| 8.Uşbu tonlar ki kiyip-min hala<br>Bi-tekellüfdür ü irmes ziba | 8.İndi geydiyim bu libaslar bəsitdir; və gözəl deyildir. |
| 9.Yar nazikdür ü ziba asru<br>Şux u pür-'işve vü ra'na asru | 9.Halbuki yar nazik və çox gözəldir; Şux, çox işvəli və çox lətifdir. |
| 10.Ayb eger kılsa nidür çareyi- kar<br>Mini bu fikr kılıptur efkar | 10.Əgər ayıbdırsa, nə etmək lazım; bu fikir mənim zehnimi məşğul edir. |
| 11.Çün işittim munı men divane<br>Eyledim'arz anga güstahane | 11.Mən divanə bunu eşitdiyim vaxt; ona küstahca ərz etdim: |

| | |
|---|---|
| 1. Ki bu vuslat sanga kutluk bolsun<br>Bu ferağat sanga kutluk bolsun | 1.Bu vüsal sənə qutlu olsun; bu rahatlıq sənə qutlu olsun. |
| 2.Nuşı- ‘işret bile tolsun camıng<br>Hasıl olsun ne ki bardur kamıng | 2.Qədəhin işrət şərabıyla dolsun; nə muradın varsa hasil olsun. |
| 3.Sin bu ton canibidin fikr itme<br>Uşbu tonnıng sözini zikr itme | 3.Sən əlbisələri düşünmə; və əlbisədən söz etmə. |
| 4.Ger bu kulnıng sözini tutsa xan<br>Çaresi bar beğayet asan | 4.Əgər xan bu qulun sözünü tutsa; çarəsi çox asandır. |
| 5.Çare budur ki anga yitkende<br>Vasl bezmide makam itkende | 5.Çarə budur ki, ona yetişdikdə; vüsal məclisində yerləşdikdə, |
| 6.Uşbu tonlarnı çıkarıp fi’l-hal<br>Taşlap inmek kirek ey nik-xisal | 6. Dərhal bu geyimləri çıxarmaq gərək; və fırladıb atmaq gərək. |
| 7.Xan bu sözni işitip küldi besi<br>Uşbu söz yanığa ivrüldi besi | 7.Xan bu sözü eşidib çox güldü; bu sözü çox bəyəndi. |
| 8.Gah ü bi-gah munı yad kılur<br>Külüben xatırını şad kılur | 8.Vaxtlı- vaxtsız bunu yad edir; gülərək könlünü şad edir. |
| 9.Ya Rab ol xannı selamet tutkıl<br>Anga sahbayı- keramet tutkıl | 9.Ya Rəbb, o xanı səlamətdə tut; ona kəramət şərabını nəsib et! |
| 10.Barça maksudığa yitkürgil anı<br>Nazarı- lutf bile körgil anı | 10.Onu bütün istəklərinə çatdır; ona lütf nəzərilə bax. |

| XVII<br>**Hazreti- İmamü'z-zaman u xalifetü'r- rehman Buxaranı alıp Semerkand taxtığa teveccüh kılğanı ve Semerkand ehli kingeş birle Bakı Tarxannı Buxara yibergenleri ve Sultan Mahmud Bahadır ilğarıdın kaçkanı** | XVII<br>**Zamanın İmamı və Allahın xəlifəsi həzrətlərinin Buxaranı alıb Səmərqənd taxtına yönəlməsi və Səmərqənd xalqı ilə görüşüb Baki Tarxanı Buxaraya göndərməsi və Sultan Mahmud bahadır öncülərindən qaçması** |
|---|---|
| 1.Xan Buxara içide fariğ-bal<br>Yarınıng sohbeti birle xoşhal | 1.Xan Buxara içində başı dinc; və yarının söhbəti ilə rahat halda idi. |
| 2.Fitne vü şur Semerkand ara<br>Tüşüp ol şehrğa mundın ğavğa | 2.Səmərqənddə fitnə və qarışıqlıq vardı; (bu səbəblə) şəhərə dava düşmüşdü. |
| 3.Kim bu kün tangla kilip alğusıdur<br>At ayağıda bu il kalğusıdur | 3.Ki, bu gün, sabah gəlib (şəhəri) alacaqdır ;və bu xalq at ayağı altında qalacaqdır. |
| 4.Andağı bigler ile xaceleri<br>Defteri- mülk üze dibaçeleri | 4.Oradakı (şəhərdəki) bəylər ilə xacələri; və mülk dəftərinin dibacələri (ölkənin irəli gələnləri), |
| 5.Bakı Tarxanğa kişiler yiberip<br>Bu yan ol yanga kişiler yiberip | 5.Baki Tarxana adam göndərib; o yana, bu yana adamlar göndərib, |
| 6.Koydılar sözni bu yirge ki eger<br>Xan Semerkand sarı salsa güzer | 6.Sözü bu yerə qoydular ki; əgər xan Səmərqəndə yerisə, |
| 7.Bakı Tarxan ü çerigler barı<br>Eylegey ‘azmı- Buxara sarı | 7.Baki Tarxan və əsgərləri hamısı; Buxara tərəfinə yerisin! |
| 8.Uşbu söz birle birip işke karar<br>Olturup irdiler ol şehr ara zar | 8.Bu söz ilə (bu) işə qərar verdilər; və şəhərdə pərişan halda oturdular. |

| | |
|---|---|
| 1.Kim yene Xanı- Sikender-himmet<br>Ötünüp Hazreti- Hakdın nusret | 1.İsgəndər himmətli xan yenə; uca Allahdan yardım diləyib, |
| 2.Atlanıp bardı Semerkand sarı<br>Didiler ehli- Semerkand barı | 2.Atlanaraq Səmərqənd sarı getdi; Səmərqənd xalqının hamısı dedi ki: |
| 3.Kim ‘acep vaki`a bolğusıdur<br>Şehrimiz Özbek ile tolğusıdur | 3.”Əcəb hadisə olacaqdır; şəhərimiz özbək ilə dolacaqdır. |
| 4.Ol kişi birle uruşur kişi yok<br>Anıng allıda turuşur kişi yok | 4. O adamla (Şeybani xanla) vuruşacaq kimsə yoxdur; ona qarşı duracaq kimsə yoxdur. |
| 5.Bar Sultan ‘Ali Mirza bu tavr<br>Bat öter bolğay anıng canığa cevr | 5.Sultan Əli Mirzə bu halda idi; və canına cövr-cəfa dəyəcəkdi. |
| 6.Biglerimiz bu sıfatlık hayran<br>Xaceler malı bile ser-gerdan | 6.Bəylərimiz bu şəkildə heyrət içində; və xacələr də mal ilə sərgərdan haldadırlar”. |
| 7.İlde bu fikr idi vü xanı- dilir<br>Bardı ol bişege andak kim şir | 7.El bu düşüncədə ikən; cəsur xan o meşəyə şir kimi atıldı. |
| 8.Vehmidin titrediler yaxşı yaman<br>Kaldılar barça ol işdin hayran | 8.Yaxşılar, pislər onun qorxusu ilə titrədilər; və hər kəs işinə heyran qaldı. |
| 9.Seri- pül tigresige yitkende<br>Ol nevahide makam itkende | 9.Səri-pül civarına çatdığı vaxt; o tərəflərdə məqam tutduğu vaxt; |
| 10.Bakıdin eylediler xanğa xaber<br>Kim Buxarağa salur boldı güzer | 10. Xana Bakidən xəbər gətirdilər ki; O, yolunu Buxaraya tərəf salıb. |
| 11.Özidin burna yiberdi ol xan<br>İnisin mülki- Buxarağa revan | 11.Onda xan özündən öncə kiçik qardaşını; dərhal Buxara müklünə yolladı. |

| | |
|---|---|
| 1.İnisi Hazreti- Sultan Mahmud<br>Kildi vü xalknı kıldı xoşnud | 1. Kiçik qardaşı həzrət Sultan Mahmud; gəldi və xalqı etdi xoşnud. |
| 2.Bir tarafdın basa kildi sultan<br>Bir tarafdın takı Bakı Tarxan | 2.Sonra, bir tərəfdən çıxdı Sultan ; və bir tərəfdən də Baki Tarxan. |
| 3.Tört biş ming kişi birle Bakı<br>Kildi vü kaçtı şeca'at çakı | 3.Dörd-beş min adamla Baki gəldi; və şücaət göstərmək məqamında qaçdı. |
| 4.Üç yüz Özbekni yiberdi sultan<br>Körüp ol xaylnı kaçtı Tarxan | 4.Üç yüz özbəyi göndərdi sultan; görüb o qədər adamı qaçdı Tarxan. |
| 5.Bardı Karşığa vü muhkem boldı<br>Mihnet ü rencğa hemdem boldı | 5.Karşıya çatdı və yerləşdi; möhnət və əziyyətə yoldaş oldu. |
| 6.Xan takı kildi yanıp devlet ile<br>Kördi sultan inisin nusret ile | 6.Xan da var-dövlət ilə geri döndü; və Sultanın kiçik qardaşını allahın köməyilə (qalib gəlmiş halda) gördü. |
| 7.Şükr itip Tingrige olturdılar<br>Yene bu fikrni xub kördiler | 7.Tanrıya şükr edib oturdular; və yenə bu fikri uyğun bildilər: |
| 8.Kim Buxaranı kılıp müstahkem<br>Xalknıng xatırın eylep xurrem | 8.Buxaranı möhkəm hala gətirərək; xalqın könlünü xoş edib, |
| 9.Xan Semerkand sarı 'azm itkey<br>'Azmnı taxt sarı cezm itkey | 9.Xan, Səmərqənd tərəfinə niyyətlənəcək; niyyəti taxtı ələ keçirmək olacaq. |
| 10.Uşbu dem kildi birev xan katığa<br>Baş koyup sıdk bile xidmetiğa | 10.Bu sırada biri xanın hüzuruna gəldi; sədaqətlə xidmətinə baş qoyub, |
| 11.Didi Sultan 'Ali Mirza anası<br>Dime mirza şehi- dana anası | 11.Dedi ki: Sultan Əli Mirzənin anası; Mirzə demə, o müdrik şahın anası, |

| | |
|---|---|
| 1.Mini xan xidmetiğa kıldı revan<br>Didi xan allıda kıl munı beyan | 1.Məni dərhal xanın xidmətinə etdi rəvan; Dedi: xanın hüzurunda bunu et bəyan |
| 2.Kim kabul itse kenizidür-min<br>Gerçi bu şehr ‘azizidür-min | 2. “Bu şəhərin əzizi olsam da; qəbul edərsə, kənizi ollam. |
| 3.Kılsun oğlumnı oğullukka kabul<br>Bolmasun xidmetidin köngli melül | 3.Oğlumu oğulluğa etsin qəbul ; (xanın) könlü onun xidmətindən olmasın məlul. |
| 4.Xan Semerkandğa batrak kilsün<br>Sözlerim sıdkını munda bilsün | 4.Xan Səmərqəndə dərhal gəlsin; sözlərimin doğruluğunu burada bilsin”. |
| 5.Çün bu sözlerni sema‘ eyledi xan<br>Didi oldur manga asayişi- can | 5.Xan bu sözləri eşidəndə; «Mənə can huzuru odur»- dedi. |
| 6.İşitip-men sıfatını bisyar<br>Ğayibane min anga ‘aşıkı- zar | 6.“Mən, onun vəsflərini çox eşitdim; ona xəyalən aşiq oldum. |
| 7.Min Semerkandnı ansız niteyin<br>Cesedi- tireni cansız niteyin | 7.Mən Səmərqəndi onsuz nə edim; qara cəsədi cansız nə edim? |
| 8.Oğlı oğlumdur u özi yarım<br>Dil-ber ü hem-nefes ü dil-darım | 8.Oğlu oğlum və özü (də) yarımdır; dilbərim, həmnəfəsim və (də) dildarımdır”. |
| 9.Uşbu sözlerni dip ol kasıdğa<br>Külüşüp ol tama‘ı- fasidğa | 9.Bu sözləri o qasidə dedi; və bu pis tamahla gülüşdü. |
| 10.Yandurup anı yiberdiler bat<br>Özleri songıça bardılar bat | 10.Onu dərhal geri yolladılar; özləri də arxasınca vardılar. |
| 11.Kasıd ol şehrğa kirgeç fi`l-hal<br>Boldı Bigim kadehi mal-a-mal | 11.Qasid o şəhərə dərhal girincə; bəyimin qədəhi dopdolu oldu (xoşbəxt oldu). |

| | |
|---|---|
| 1.Xan digen sözler ile boldı mest<br>Kıldı kasid yolıda başını pest | 1.Xanın dediyi sözlərdən məst oldu; və qasidin yoluna baş qoydu. |
| 2.Çarlap oğlını kingeş kıldı revan<br>Unatıp oğlını boldı şadan | 2.Oğlunu çağırıb dərhal məşvərət etdi; və onu hazırladıb şadlıq etdi. |
| 3.Yitti xandın takı fi'l-hal xaber<br>Kim Semerkand sarı kıldı güzer | 3.Xandan o saat xəbər gəldi ki; o,Səmərqənd tərəfinə yönəlib. |
| 4.Bigim ol vaki'adın şad oldı<br>Sabr kim yok idi ber-bad oldı | 4.Bəyim o hadisədən şad oldu; və səbr edə bilməyib bərbad oldu. |
| 5.Çarlap oğlını didi uşbu zaman<br>Şehrdin çık takı kıl xidmeti- xan | 5.Bu əsnada oğlunu çağırıb «Şəhərdən çıx; və Xanın xidmətini yerinə yetir!»- dedi. |
| 6.Kasıdın oğlığa hemrah itti<br>Anı öz derdidin agah itti | 6. Qasidini oğluna həmrah etdi; və onu öz dərdindən agah etdi. |
| 7.Didi xanğa di ki mundın artuk<br>Firkatıng içre manga takat yok | 7.Xana: «Bundan artıq firqətinə; taqətim qalmadığını söylə!»- dedi. |
| 8.İl sening mülk sening şehr sening<br>Min sening lutf sening kahr sening | 8.Xalq sənin, mülk sənin, şəhər sənindir; mən sənin, lütf sənin, qəhr sənindir. |
| 9.Mening oğlumğa 'inayet körgüz<br>Körmegil yat anı kılğıl öz | 9.Oğluma inayət göstər; və onu yad bilmə, özününkü bil! |
| 10.Bağı- meydan ara irdi ol xan<br>Köngli Bigim ğamı birle hayran<br>11.Kim xaber kildi ki Mirza yitti<br>Toy u cem'iyyet ü ğavğa yitti | 10. Bağı- Meydanda idi xan; və könlü Bəyim qəmi ilə heyran(yanırdı).<br><br>11.Mirzənin yetişdiyi xəbəri gəldi; toy,düyün (quruldu) və gurultu qopdu. |

| | |
|---|---|
| 1.Xan didi oğlum irür ol kilsün<br>Manga fi'l-hal körünüş kılsun | 1.Xan dedi: «Oğlumdur o, gəlsin; və mənə dərhal görünsün». |
| 2.Çün bu söz xan katıda aytıldı<br>Kildi Mirza vü körünüş kıldı | 2.Bu söz xanın hüzurunda söyləndikdə; Mirzə gəldi və hüzura çıxdı. |
| 3.Xan anı kuçtı vü öpti yüzidin<br>Birdi teskin anga şirin sözidin | 3.Xan onu qucaqladı və üzündən öpdü; şirin sözü ilə onu təskin etdi. |
| 4.Didi Mirza manga ferzend oldung<br>Natüvan bağrıma peyvend oldung | 4."Mirzə, mənə oğul oldun; natəvan bağrıma bağ oldun (bağrımı qüvvətləndirdin). |
| 5.Anang imdi kile körsün batrak<br>Şehrdin ayrıla körsün batrak | 5.Anan indi dərhal gəlsin; və dərhal şəhərdən ayrılsın. |
| 6.Min kılayın anı fi'l-hal nikah<br>Kim budur anga vü hem sanga salah | 6.Mən onu dərhal nikahlayım; onun üçün də, sənin üçün də qurtuluş budur". |
| 7.Xan sözi şehrğa barğaç fi'l-hal<br>Çıktı Mirza anası fariğ-bal | 7.Xanın sözü şəhərə çatar-çatmaz; Mirzənin anası rahatladı. |
| 8.Yasanıp çıktı peri yanglığ bat<br>Miceridin yasap özige kanat | 8.Baş örtüyündən özünə qanad edib; pəri kimi süslənərək dərhal çıxdı (yola düşdü). |
| 9.Bağı- meydanğa kirip kildi revan<br>Kilişidin çü xaber taptı xan | 9.Xan gəlişindən xəbər alınca; dərhal Baği- meydana yüyürdü. |
| 10.Anı bir guşede olturğuzdı<br>Allıda bir niçeni turğuzdı | 10.Onu bir guşədə oturtdu; və xidmətində bir neçə qadın qoydu. |
| 11.Şehrning içide tüşti ğavğa<br>Kim kaçıp xanğa tayandı Mirza | 11.Şəhərə səs düşdü ki;Mirzə qaçıb, xana pənah aparıb. |

| | |
|---|---|
| 1.Anasını takı xanğa birdi<br>Anası xan haremiğa kirdi | 1.Anasını da xana verdi; və anası xanın hərəminə girdi. |
| 2.Xace Yahya didi Babur Mirza<br>Kaşki kilgey idi uşbu ara | 2.Xacə Yəhya: «Kaş ki, Babur Mirzə də; buraya gəlsəydi», -dedi. |
| 3.Gerçi xace bu temenna kıldı<br>Şehr xalkı anga ğavğa kıldı | 3.Xacə bu təmənnada olunca; şəhər xalqı ona qarşı çıxdı. |
| 4.Buldura almadı vü boldı xamuş<br>Lik mahzun içide yüz ming cuş | 4.(Babur Mirzəni) tapa bilməyincə susdu; fəqət içində yüz min coşğunluq ilə məhzun oldu. |
| 5.Haceler dağı tura almadılar<br>Hiç tedbir köre almadılar | 5.Xacələr də dura bilmədilər; və heç bir tədbir görə bilmədilər. |
| 6.Hace Yahya bile barça yığılıp<br>Her biri özining işini bilip | 6.Xacə Yəhya ilə hamısı toplanıb; və hər biri öz işini bilib, |
| 7.Kildiler barçaları xan katığa<br>Kıldılar ‘arzı- güneh xıdmetiğa | 7.Hamısı xanın hüzuruna gəldilər; və hüzurunda günahlarını etiraf etdilər. |
| 8.Xacelerni kolığa alğaç xan<br>Eyledi leşker ilige ferman | 8.Xan xacələri ələ keçirincə; əsgərlərinə (belə) buyurdu: |
| 9.Kim yığılıp barısı kilsünler<br>Mülk işide kingeş kılsunlar | 9.”Hamısı toplanıb gəlsinlər; və məmləkət işini məşvərət etsinlər. |
| 10.Cem ‘bolsun barı sultanlar hem<br>Pehlevanlar bile oğlanlar hem | 10. Cəm olsun bütün sultanlar həm; pəhləvanlar ilə oğlanlar həm”. |
| 11.Boldılar cem ‘barı yaxşı yaman<br>Kingeş eylerge zemini- ferman | 11.Xanın buyruğunu məşvərət etmək üçün; yaxşı, pis hər kəs toplandı. |

| | |
|---|---|
| 1.Fikr ile özlerini kıstadılar<br>Xalknıng tınçlığın istediler | 1.Fikr edib çox düşündülər; (sonda) xalqın dincliyini istədilər. |
| 2.Didiler bolsa tirig bu Mirza<br>Hiç kem bolğusı yoktur ğavğa | 2.«Bu Mirzə diri qaldıqca; dava əksik olmayacaqdır»- dedilər. |
| 3.Uşbu söz birle boluban bi-ğam<br>Kıldılar xidmeti- Mirzanı ‘adem | 3.Bu sözü söyləyərək qəmdən qurtuldular; (rahatladılar) və Mirzəyə xidmət etmədilər. |
| 4.Anasın bir kişige birdiler<br>İş sözin dir kişige birdiler | 4.Anasını birinə verdilər; iş sözünü deyə bilən kişiyə verdilər. |
| 5.Ol munung ivide menzil kıldı<br>Bu anıng kamını hasıl kıldı | 5.O, bunun evində mənzil etdi; bu, onun arzusunu yerinə gətirdi. |
| 6.La‘net ol nev‘ anağa kim ol<br>Nefsi üçün ölüme birdi oğul | 6.O cür anaya lənət olsun ki; nəfsi üçün oğlunu ölümə verdi. |
| 7.Kim ki xatun sözi birle bolğay<br>‘Aceb irmes bu ki kanı tolgay | 7.Xatun sözü ilə hərəkət edənin; qanının axmasına çaşılmaz. |
| 8.Kim ki xatun sözige salsa kulak<br>Cay ol bar ki bolğay andak | 8.Xatun sözünə kim qulaq versə; onun yeri (aqibəti) belə olar. |
| 9.Çünki Mirza işi andak boldı<br>Şehr xan kollarığa ivrüldi | 9.Mirzənin işi belə olduğu üçün; şəhər xanın əlinə keçdi. |
| 10.Aldılar mal u ğanimet sansız<br>Barça taracsız u talansız | 10.Yağmasız və talansız çoxlu; mal və qənimət aldılar (ələ keçirdilər). |
| 11.Çün kazak şehr içige köp kirdi<br>Maldın şehr elini ayırdı | 11.Bir çox kazak (soyğunçu) şəhər içinə girib; şəhər xalqını maldan etdi. |

| | |
|---|---|
| 1.Can Vefa Beyni tilep xanı-ğani<br>Eyledi şehrde daruğa anı | 1.(Könlü) zəngin xan, Can Vəfa bəyi diləyib; onu şəhərə daruğa eylədi (təyin etdi). |
| 2.Didi şehr içre kirip eyle nida<br>Bolmasun qaret ü tarac u bela | 2. Dedi:"Qarət, talan və tarac olmasın deyə; şəhərə girib səslən";! |
| 3.Can Vefa şehrga kirgeç fi'l-hal<br>Kıldı baştaklık iterni pamal | 3.Can Vəfa şəhərə girincə dərhal; əvvəl əks davrananı ayaq altına aldı. |
| 4.Taptı daruğa bile şehr aram<br>Tuttı yerlig yerige barça makam | 4.Daruğa ilə şəhər hüzur tapdı; və hər şey yerli-yerinə oturdu. |
| 5.Xacelerni yibere birdiler<br>Barçasın maldın ayırdılar | 5.Xacələri göndərdilər ; və hamısını malından etdilər. |
| 6.Xace Yahyağa 'inayet bile xan<br>Didi ey xaceyi- erbabı- zaman | 6.Xan, Xacə Yəhyaya inayət ilə dedi ki; "Ey zamanının ərbabı xacə! |
| 7.Sanga bu iş ne münasib irdi<br>Kim bu Mirzage musahib irdi | 7.Sənə bu iş namünasib idi;Ki bu Mirzəyə müsahib idi? |
| 8.Sin kim ü mülk işini kılmak<br>Barçadın imdi kirek ayrılmak | 8.Sən hara, məmləkət işini görmək (idarə etmək) hara; indi hər şeydən ayrılmağın gərək. |
| 9.Bar Xorasan sarı kim bu kişver<br>Boldı daxlıng sebebidin ebter | 9.Xorasan tərəfinə get, çünki bu ölkə; sənin müdaxilə etməyin səbəbiylə betər (pərişan) oldu". |
| 10.Birdi öz atını vü didi anga<br>Kim munung fayidesi bar sanga | 10.Öz atını ona verdi; və dedi: "Bunun sənə faydası var, |
| 11.Sindin üç küngeçe ot suv tilemes<br>Yol yörüp ot tilemes suv tilemes | 11.Üç gün qədər yol gedər; səndən ot istəməz, su istəməz. |

| | |
|---|---|
| 1.Sin yörü imdi cihandın azad<br>Kayda kim xatırıng ister bol şad | 1. Get, Sən indi dünyadan azad ol;<br>Harada könlün istərsə orada şad ol"! |
| 2.Xace Yahyağa çü boldı ruhsat<br>Koydı yüz xaceğa yüz ming mihnet | 2.Xacə Yəhyaya bu icazə verilincə,<br>Xacə yüz min möhnətə düşdü. |
| 3.Ehl ü evladı yığıldı barça<br>İl ulus kaşıga kildi barça | 3.Bütün ailəsi və uşaqları toplandı;<br>hamısı xalqın qarşısına gəldi. |
| 4.Tiveler yüklediler niçe katar<br>Tüzdiler yene katar ile mehar | 4. Dəvələr yüklədilər qatar-qatar; və<br>yenə hazırladılar gəm və ovsarlar. |
| 5.Gerçi bisyar salıp çıktılar<br>Asru köp mal alıp çıktılar | 5.Hərçənd ki, bir çox şeyi tərk edib<br>çıxdılar; yenə də çox mal alıb çıxdılar. |
| 6.Körgeç ol mal u yarağını kazak<br>Tama' itti anga vü bardı çak | 6.Kazak (soyğunçu) o mal və əşyanı<br>görüncə; ona tamah etdi və düz ora<br>getdi. |
| 7.Barıban songıça olturdılar<br>Malını koş tapa kiltürdiler | 7.(Xacə Yəhyanın) arxasından çatıb<br>dayandırdılar; və qalan malını əlindən<br>aldılar. |
| 8.Xannıng andın xaberi yok irdi<br>Malığa hem nazarı yok irdi | 8.Xanın bundan xəbəri də yox idi; və<br>(Xacə Yəhyanın) malında gözü də yox<br>idi. |
| 9.Kaldı bir xace ki devri-eyyam<br>Kılıp irdi anı şeyxü'lislam | 9.(şəhər içində) bir xocaya qaldı dövrü<br>əyyam; Onu da etdi şeyxülislam. |
| 10.Bü'l-mekarim atı vü etvarı<br>Napesendide vü naxoş barı | 10.Adı Bül-məkarim idi; adı və<br>rəftarları bəyənilməz və xoşa gəlməz<br>idi. |
| 11.Xan anga eyledi bisyar kerem<br>Kıldı ashabığa izhar kerem | 11.Xan ona da çox iltifat göstərdi; və<br>əshabına da çox lütfkarlıq etdi. |

| | |
|---|---|
| 1.Anı şehr içre salıp çıktı özi<br>Boldı leşker bile bu nev‘ sözi | 1.Özü onu şəhər içində qoyub çıxdı; və qoşunla belə söz etdi: |
| 2.Kim boluban ili sultanı-serdar<br>Eyleben köç ü yarağın tayyar | 2.”Xalqı sərdar olan sultanın; köç və karvanı hazırlayaraq, |
| 3.Tipreseler basa Türkistandın<br>Kilseler Yessi bilen Savrandın | 3.Sonra Türküstandan hərəkət etsələr; və Yessi ilə Savrandan gəlsələr, |
| 4.Mülkning maslahatığa uşbu<br>Yaxşı sözdür bu yaranlar asru | 4.Ey dostlar, bu mülkü idarə etmək üçün; ən yaxşısı bu sözdür (tədbirdir)”. |
| 5.Bu kingeş birle yiberdi ol xan<br>Leşkerini tarafı- Türkistan | 5.O xan bu məsləhətlə; əsgərini Türküstan tərəfinə göndərdi. |
| 6.Leşkerining köpi ol yan bardı<br>Leşker ile iki sultan bardı | 6.Əsgərinin çoxu o yana çatdı; əsgər ilə iki sultan da bərabər idi. |
| 7.Ol iki kim yörüdiler ol yan<br>Boldı Mehdi vü Sivinçik sultan | 7.O tərəfə yürüyən o iki adam; Mehdi və Süyünçək Sultan idi. |
| 8.Bardı Mahmud digen sultan hem<br>Ki Buxar ehlini kılğay xurrem | 8.Buxara xalqı şad olsun deyə; Mahmud Sultan da bərabər gəldi. |
| 9.Kaldı xan allıda eylep cevlan<br>Hamza Sultan bile Timür Sultan | 9.Həmzə Sultan ilə Teymur Sultan; xanın hüzurunda qaldılar. |
| 10.Xan barıp Xace Didar olturdı<br>Anı özige münasib kördi | 10.Xan çatıb Xacə Didarda oturdu; onu özünə uyğun bildi. |
| 11.Can Vefa irdi Semerkand ara<br>Biş yüz Özbek bile xoş biperva | 11.Can Vəfa beş yüz özbək ilə; xoş və xürrəm Səmərqənddə idi. |

| | |
|---|---|
| 1.Uşbu halet bile Şeyxü'lislam<br>Şah Baburğa yiberdi peyğam | 1.Bu halda ikən Şeyxülislam, Babur şaha xəbər yolladı. |
| 2.Kim "irür xan vatanı Hace Didar<br>Özi ol kal'a ara tapay karar | 2.Ki "Xanın vətənidir Xacə Didar; Özü o qalada tutubdur qərar. |
| 3.Can Vefa az kişi birle hasıl<br>Şehr içinde turuptur ğafil | 3.Can Vəfa az adam ilə bərabər şəhərdə; qəflət içində durubdur. |
| 4.Kil filan kiçe filan küçe sarı<br>Kim sining sarı kilür xalk barı | 4.Filan gecə, filan küçəyə sarı gəl; və bütün xalq sənə gələcəkdir (ətrafında toplaşacaqdır). |
| 5.Biz sini şehr içige kivüreli<br>Tutup Özbekni sanga kiltüreli" | 5.Biz səni şəhər içinə salaq; Özbəyi tutub sənə gətirək". |
| 6.Kildi bulcar bile Babur hem<br>Kiriben kal'anı kıldı muhkem | 6.Babur da əsgərləri ilə gəldi; və qalaya girərək onu möhkəm etdi. |
| 7.Can Vefağa çü bu iş boldı 'ayan<br>Şehrdin çapkulaşa çıktı revan | 7.Can Vəfa bu işi öyrənəndə; vuruşaraq şəhərdən çıxdı. |
| 8.Kildi xan allıda vü kıldı eda<br>Her ne kim saldı anga hükmi-kaza | 8.Qəza-qədəri, başına gələn hər şeyi; gəlib Xan hüzurunda danışdı. |
| 9.Kildi xan atlanıp andın fi'l-hal<br>Şehrni eylegeyin dip pamal | 9.Şəhəri yerlə bir edək deyə; padşah atlanıb dərhal gəldi. |
| 10.Lik leşker az idi vü kurğan<br>Muhkem irdi vü ili bi-payan | 10. (Şeybani)xanın qoşunu az idi, ancaq kurqan möhkəm idi; və xalqı da çox idi. |
| 11.Yandı naçar zaruret birle<br>Turdı ol yirde küduret birle | 11.Naçar qalıb döndü zərurət ilə; və orada gözlədi kin- küdurət ilə. |

| | |
|---|---|
| 1.Ança kim köç ile kildi leşker<br>Boldılar barça ‘adavet-güster | 1.Əsgər elə köç ilə gəldi ki; hamısı ədavət göstərdilər. |
| 2.Oxşaş ol boldı ki leşker barı<br>Eylegey ‘azm Buxara sarı | 2.Bu durum ona bənzədi ki,əsgərin hamısı; Buxara sarı yönələcəkdir. |
| 3.Birkitip köçlerini anda<br>Eyle kim Yessi bilen Savranda | 3.Köçlərini orada; Yessi ilə Savranda birləşdirib, |
| 4.Özge her sarı yörüş kılğaylar<br>Her kim uruşsa uruş kılğaylar | 4.Digər tərəflərə yeriyənlər; və kim qarşı qoysa vuruşacaqlar. |
| 5.Hamza Sultan bile Mehdi Sultan<br>Tuttı Kufin ü Feraxinde mekan | 5.Həmzə Sultan ilə Mehdi Sultan; Kufin və Fəraxində saldı məkan. |
| 6.Kıldı xan şehri- Buxarada nüzul<br>Kıldılar xıdmetin il barça kabul | 6.Xan, Buxara şəhərində məskən saldı; və bütün xalq xidmətini qəbul etdi. |
| 7.Kıldı sultanı- Buxara Mahmud<br>Ağası könglin özidin xoşnud | 7.Gəldi Buxara sultanı Mahmud ;və qardaşının könlünü etdi xoşnud. |
| **XVIII**<br>**İmamü’z-zaman xaberlerin eşitip Merv mirzası ve Karaköl ehli ve ba‘zı vilayetlerning tuğyanı** | **XVIII**<br>**Zamanın İmamı xəbərlərini eşidib Mərv mirzəsi ilə Qaragöl xalqı və bəzi vilayətlərin tuğyan etmələri** |
| 8. Xan Semerkandnı aldurğanda<br>Bayağı kal‘ada olturğanda | 8.Xan Səmərqəndi əldən verib; və daha əvvəlki qalada oturanda, |
| 9.Ekser il tartılıp idi xandın<br>Fitne başlap idiler her yandın | 9.Xalqın çoxu xandan uzaqlaşmış idi; və hər yanda fitnə başlamış idi. |
| 10.Karaköl ehli vü Karşı vü Xezar<br>Yağılık eylep idiler izhar | 10.Qaragöl xalqı, Karşı və Xəzər xalqı; düşmənçilik göstərmişdilər. |

| | |
|---|---|
| Kiş ili hem kılıp irdi tuğyan<br>Birkitip irdi ol hem kurğan | 1.Kiş xalqı da iğtişaş etmişdi; o xalq da kurqanı möhkəm etmişdi. |
| 2.Birkitip ehli- Karaköl barı<br>Çiktiler özlerini Merv sarı | 2.Qaragöl xalqı hamısı ittifaq edib; Mərv tərəfinə yönəldilər. |
| 3.Şah Ebul Muhsini- ğafilğa meger<br>Yiberip irdiler ol xayl xaber | 3.Məgər qafil Şah Əbül-Muhsinə; o kimsələr xəbər vermişdilər: |
| 4.Kim bu kün tangla kilür Şeybak xan<br>Zahira da‘iyeyi- Türkistan | 4.Ki: "Bu gün səhər Şeybak xan gələcək; açıqca Türküstan haqqında iddia edəcək. |
| 5.Sin özüngni bu tarafğa yitkür<br>İl ulusnı bu şerefğa yitkür | 5.Sən özünü bu tərəfə yetir; və məmləkət xalqını bu şərəfə yetir. |
| 6.Ger özüng kilmeseng ey xusrevi-‘ahd<br>Eyle ılğar yiberürde cehd | 6.Ey zamanın padşahı, əgər sən gəlməsən; öncü qüvvət göndərməyə səy göstər! |
| 7.Bir kulung kilse bu kişverge yiter<br>Biz biriksek sanga xan xaylı niter | 7.Bu ölkəyə bir qulun gəlsə yetər; biz toplaşsaq, sənə xanın ordusu nə edə bilər"? |
| 8.Çün bu söz yitti Ebu'l-Muhsinğa<br>Asru kar itti Ebu'l-Muhsinğa | 8.Bu söz Əbü'l-Muhsinə çatanda; ona çox təsir etdi. |
| 9.Atlanur boldı Karaköl sarı<br>Boldılar leşkeri tayyar barı | 9.Qaragöl tərəfinə atlandı; və bütün əsgəri hazır oldu. |
| 10.İmdi kim yol başıga kildiler<br>Bigleri barça kingeş kıldılar | 10.İndi yol başına gəldikdə; bəylərinin hamısı məşvərət etdilər: |
| 11.Didiler asru irür düşvar iş<br>Barıp Özbek bile kılmak sançış | 11. Dedilər:"Özbək ilə gedib vuruşmaq; çox çətin bir işdir,. |

| | |
|---|---|
| 1. Padişahidür uluğ asru xan<br>Kaşıda niçe bahadır sultan | 1.Padşahı çox ulu bir xandır ;və hüzurunda neçə igid  sultan vardır. |
| 2.Xan bile bolmasa hiç kim hala<br>Bardur üç ming kişi xod rezm ara | 2.Xan yanında heç kim olmasa belə; ən azından vuruşacaq üç min nəfər vardır. |
| 3.Heridin kilse uluğ mirzamız<br>Köp yığın kılsa uluğ mirzamız | 3.Ulu mirzəmiz Heratdan gəlsə; və çox böyük bir qələbəlik toplasa, |
| 4.Yağıkıp kitken oğullarğa tamam<br>Bitise hatlar u kılsa peyğam | 4.Düşmən olub gedən uşaqlarının hamısına; məktublar yazsa və xəbər göndərsə, |
| 5.Barçasın yığsa özining katığa<br>Kilseler barça anıng xıdmetiğa | 5.Hamısını öz hüzuruna toplasa; və hamısı onun xidmətinə gəlsə; |
| 6.Kıla almaslar uruş xan birle<br>Barçanıng işi tüşer can birle | 6.Xan ilə vuruşa bilməzlər; çünki hamısı canının hayındadır. |
| 7.Biz barıp ni iş ite alğay-biz<br>Basa ni yirge yite alğay-biz | 7.Biz çatıb nə edə bilərik; və hara gedə bilərik? |
| 8.Karaköl ili bile biz niteli<br>Ni kılıp kal'asını birkiteli | 8.Qara göl xalqı ilə biz nə edək; nə edib qalasını bərkidək. |
| 9. Kal'asın bizge ol il birgende<br>Biz barıp kal'asığa kirgende | 9.O xalq qalasını bizə verəndə;və  biz gedib qalasına girəndə, |
| 10.Kalın Özbek darısa nitkey-biz<br>Niçük ahengi- firar itkey-biz | 10.Qələbəlik özbək hücum etsə; nə edəcəyik və necə qaçacağıq? |
| 11. Bizge kim bolğusıdur anda meded<br>Kalğu-mız kal'ada mahbusı-ebed | 11.Bizə orada kim yardımçı olacaq?; Qalada əbədi həbsdə qalacağıq". |

| | |
|---|---|
| 1.Çünki bigler didiler bu sözler<br>Oynata başladı mirza közler | 1.Bəylər bu sözləri dedikdə; mirzə gözlərini oynatmağa başladı. |
| 2.Her sarı tilmüre kaldı mirza<br>Yol başında tura kaldı mirza | 2.Mirzə hər tərəfə həsrətlə (ümidsiz) baxdı; və yol ayrıcında qaldı. |
| 3.Tüşti köngli ara vehm karı<br>Kaytur boldı revan iv sarı | 3.Könlünə qorxu düşdü; və evinə doğru dönüb getməyə başladı. |
| 4.Didiler bigleri kim sabr kılıng<br>Bu kayturda işingizni biling | 4.Bəyləri dedi ki, ″Səbr edin; və bu geri dönüşdə işinizi bilin! . |
| 5. Dimesün sizni xalayık korkak<br>Bir niçe söz aytıng kaytur çak | 5.″Xalq sizə qorxaq deməsin deyə; qayıtdığınız vaxt çox söz söyləyin (dərdinizi danışın). ″ |
| 6.Aytıngız sudın ötermin fi'l-hal<br>Her niçe bolsa ögüz mal-a-mal | 6.″Çay nə qədər daşqın olsa da; mən dərhal sudan keçərəm, deyin″. |
| 7.Barıp Özbek bile rezm eyler-min<br>Rezmning 'azmını cezm eyler-min | 7.Gedib özbək ilə vuruşaram; və vuruşmağa əzm edərəm. |
| 8.Bir niçe laf aytıngız bu yanglığ<br>Bir niçe laf satıngız bu yanglığ | 8.Bu şəkildə bir çox söz söyləyin; və bu şəkildə bir çox söz sərf edin. |
| 9.Kılalı ol ara bizler der-xast<br>Siz bu sözlerge bolungız ser-rast | 9.Bizlər o ara istəyək; siz bu sözləri doğrulayın". |
| 10. Şah Ebu'l-Muhsini- bi-çare revan<br>Çıktı taxtı üze eylep cevelan | 10.Çarəsiz Şah Əbü'l-Muhsin; dərhal taxtı üzərinə çıxıb oturdu. |
| 11.Kildiler yaxşı yaman xıdmetiga<br>Didiler yol sözini hazretiğa | 11.Pis, yaxşı hər kəs hüzuruna gəldi; və yol sözünü o həzrətə ərz etdi. |

| | |
|---|---|
| 1.Karaköl ili dağı kildi barı<br>Barınıng közi Karaköl sarı | 1.Qaragöl xalqı gəldi; və hamısının da gözü Qaragöl tərəfində idi. |
| 2.Taxtınıng allıda körgeç ğavğa<br>Didi bigler sözini ol mirza | 2.Taxtının önündə davanı (gurultunu) görəndə; Mirzə bəylərin sözünü dedi. |
| 3.Kildiler xıdmetiğe bigler hem<br>Barça der-xast sözige muhkem | 3.Bəylər də xidmətinə gəldilər; və hamısı da sözündə möhkəm adamlardı. |
| 4.Didiler bir niçe kün siz turunguz<br>Karakölning işini hem körüngüz | 4. Dedilər: "Siz bir neçə gün durun ;və Qara gölün işini də görün. |
| 5.İl uluğı bile barsun ılğar<br>Kirsün ılğarğa ol mülk ü diyar | 5.Elbəyi ilə öncülər getsin; və o mülk ilə diyar öncülərin əlinə keçsin. |
| 6.Siz takı barıngız andın songra<br>Ol sarı darıngız andın songra | 6.Ondan sonra siz də gedin; və o tərəfə çatın! |
| 7.Atangızge takı barsun bu xaber<br>Kilsün andın takı bizge leşker | 7.Bu xəbər atanıza da çatsın; və ondan da bizə (kömək üçün) əsgər gəlsin!” |
| 8.Kıldı Mirza takı der-xast kabul<br>Özidin kılmadı biglerni melul | 8.Mirzə də bu istəyi etdi qəbul; və bəyləri özündən etmədi məlul(narazı salmadı). |
| 9.Didi könglide ki rahmet sizge<br>Kim bu sözlerni didingiz bizge | 9.Ürəyində dedi ki, rəhmət(əhsən) sizə; ki, bu sözləri dediniz bizə. |
| 10.Çıkıban bigler anıng katıdın<br>Xurrem ü şad anıng xıdmetidin | 10.Bəylər onun hüzurundan və xidmətindən; şad və sevincli bir halda çıxaraq, |
| 11.Yitti yüzçe kişi eylep tayyar<br>Yitdiler Karakölğa ılğar | 11.Yeddi yüz qədər adam hazırlayıb; Qara gölə öncü olaraq(ilqar) göndərdilər. |

| | |
|---|---|
| 1.Karaköl ehli ol ılğar bile<br>Yandılar iv sarı bulcar bile | 1.Qara göl xalqı o öncü ilə birlikdə; yorğun şəkildə evlərinə döndülər. |
| 2.Birdiler bigler alarğa bulcar<br>Didiler şehrğa kirgeç ılğar | 2.Bəylər onlara yer verdilər; və öncü qüvvə şəhərə girəndə, dedilər ki: |
| 3.Kirdiler ılğarları kurğanğa<br>Sözleri yitti cenabi- Xanğa | 3.Öncülər kurqana girdi; və bu xəbər xan həzrətlərinə yetişdi. |
| 4.Karşınıng ili hem itkeç tuğyan<br>Turdı ol kal'ada Baki Tarxan | 4.Karşının xalqı da iğtişaş edincə; Baki Tarxan o qalada qaldı. |
| 5.Anda hem başladılar ğavğanı<br>Boldı her kaysığa baskar anı | 5.Orada da davaya başladılar; və hər biri başçı olmaq sevdasına düşdü. |
| 6.Kişke hem kirdi kılıban cevlan<br>Xıdmeti- Dost Muhammed Tarxan | 6.Dost Məhəmməd Tarxan cövlan edib; Keş şəhərinə girdi. |
| 7.Barça Baburğa boluban mayil<br>Boldılar kulluk iterde yek-dil<br>**XIX**<br>**İmamü'z-zaman Buxaradın Sultan Mahmud Bahadırnı Karakölge yibergeni**<br>8. Xan Buxara ara kılğaç mesken<br>Eylegeç köçleri hem anda vatan | 7.Bütün xalq Babura etdi meyil; və hamısı qulluq etmək istədi yekdil.<br><br>**XIX**<br>**Zamanın İmamının Buxaradan Sultan Mahmud Bahadırı Qaragölə göndərməsi**<br>8.Xan, Buxarada yerləşincə; və köçləri(əsgərləri) orada məskən salınca, |
| 9.Meşveret eyledi sultanlar ile<br>Barça mirzalar u oğlanlar ile | 9.Məşvərət eylədi sultanlar ilə; bütün mirzələr və oğlanlar ilə. |
| 10.Söz munga taptı karar axırı-kar<br>Kim Karaköl yakındur bisyar | 10.Nəhayət, bu qərar oldu ki; Qara göl çox yaxındır. |

| | |
|---|---|
| 1.Tingri birse munı evvel alalı<br>Songra ğavğanı alarğa salalı | 1.Tanrı nəsib edərsə, əvvəlcə buranı alaq; sonra onları davanın içinə çəkək. |
| 2.Uşbu söz birle revan hazreti-xan<br>Eyledi hükm ü yörütti ferman | 2.Bu söz ilə Xan həzrətləri dərhal; hökm etdi və fərman çıxardı: |
| 3.Kim "cihan nazımı Sultan Mahmud<br>Tileben nusret ü fazlı- ma'bud | 3.Ki,"Cahana nizam verən Sultan Mahmud; Allahın köməyini və lütfünü diləyərək, |
| 4.Karaköl sarı çerig atlansun<br>Çerigi yaxşı yörüp katlansun | 4.Qaragölə doğru əsgər atlansın; və onlar yaxşı yürüş edib, əziyyətə qatlansın! |
| 5.Barsun anıng bile tinglep ferman<br>Rüstemi- ahd Süyünçek Sultan | 5.Onunla da fərman gərəyi; zamanın Rüstəmi olan Süyünçək Sultan getsin. |
| 6.Basa barsun Canı Big Sultan hem<br>Özining leşkeridin a'yan hem | 6.Sonra Canı Big Sultan da; əsgərinin irəli gələnləri ilə getsin. |
| 7.Takı Sultan Timuri- ruşen-dil<br>Basa ol rezm ara bolsun hasıl" | 7.Könlü işıqlı Sultan Teymur da; sonra o döyüşdə olsun". |
| 8.Xan özi turdı Buxara içide<br>Yüz tümen fitne vü ğavğa içide | 8.Xan özü Buxara içində qaldı; fəqət yüz min fitnə və dava içində qaldı. |
| 9.Bardı başlap çirigni Sultan<br>Ol yosun birle ki hükm eyledi xan | 9.Sultan əsgərin başına keçib getdi ;və Xanın hökm etdiyi əsaslara bağlı qaldı. |
| 10.Rezmetindin öte tüşkeç leşker<br>Didi Sultanı- pesendide-seyr | 10.Əsgər Rəzmətindən keçib düşərgə salanda; xoşrəftar Sultan dedi ki: |
| 11.Kim yörüp ilgeri bir ming kişi<br>Anglasun kim ni durur xasm işi | 11."Min nəfər irəliyə doğru (öncü olaraq) yürüsün; və düşmənin nə etdiyini öyrənsin! |

| | |
|---|---|
| 1.Bolsun ol xayl u uluska serdar<br>Şah Canı Big Sultanı- kirdar | 1.Şah Canı Big, yəni bacarıqlı Sultan; o xalqa (oranın xalqına) sərdar olsun”! |
| 2.Ol çerig ilgeri kilgeç fi’l-hal<br>Şehr ili eylediler istikbal | 2.O qoşun irəli gəlcək; şəhər xalqı onları qarşıladı. |
| 3.Çıktılar barça yayağ u atlık<br>Yüz bigi birle yasakı atlık | 3.Yüz bəyi ilə vəzifə sahibləri; atlı, piyada olaraq qarşılamağa çıxdılar. |
| 4.Merv ılğarı hem atlandılar<br>Barça öz işide katlandılar | 4.Mərv öncü qüvvələri(ilqarı) də atlandılar; və öz işlərində səy göstərdilər. |
| 5.Mingçe atlık bile üç mingçe yayağ<br>Çıktılar barçasıda ok u sadağ | 5.Mini atlı, üç mini piyada; hamısında ox və yay (olduğu halda) qarşılamağa çıxdılar. |
| 6.Kuçe-bend ağzıda ok turdılar<br>Çirig az u köpini kördiler | 6.Küçə başında ox atdılar ;və əsgərin az ya çox olduğunu gördülər (anladılar). |
| 7.Körgeç ol xaylnı çaptı sultan<br>Kalmadı hiç çapışıdın arman | 7.Sultan o qələbəliyi görəndə, hücum etdi; və onun hücumundan əziyyət çəkməyən qalmadı. |
| 8.Yetiben çaptı özi bir kişini<br>Kördiler barça xalayık işini | 8. Özü çapıb bir əsgəri qılıncladı; və bütün xalq bunu gördü. |
| 9.Kim ki anıng bile barıp irdi<br>Barça bir yolı uruşka kirdi | 9. Kim ki onunla getmişdi;Hamısı bir-bir döyüşə atıldı. |
| 10.Vehmdin Sart çıka almadı hiç<br>Kuçe-bend içre besi eyledi piç | 10. Qorxudan sart heç çıxa bilmədi; və küçə başında çox qıvrıldı (qırıldı, çox öldürüldü). |
| 11.Bir niçe ok atışıp yandılar<br>Tüşken iller takı atlandılar | 11.Qarşılıqlı bir çox ox atıb döndülər; və atından enən adamlar da atlarına mindilər. |

| | |
|---|---|
| 1.Yörüben koş tapa yandı sultan<br>Çirig ehli takı yandı yeksan | 1.Qoşulmaq üzrə Sultan yüyürüb geri döndü; onunla bərabər bütün əsgərlər də geri döndü. |
| 2.Xasm çün kördi çirigning yanışın<br>Rah-ber eyledi kıska sağışın | 2.Düşmən əsgərin geri döndüyünü görüb; qısa hesabı özünə rəhbər etdi (qısa təxmininə aldandı). |
| 3.Küçelerdin çıkıban kildiler<br>Tam u taşnı yıkıban kildiler | 3.Küçələrdən çıxaraq gəldilər; dam-daşı yıxaraq gəldilər (daşı daş üstündə qoymadılar, yerlə bir etdilər). |
| 4.İlgeri atlık u songıda yayağ<br>Belki solıda vü ongıda yayağ | 4.Öndə atlı, arxada piyada; bəlkə solunda və sağında da piyada (olaraq gəldilər). |
| 5.Atkulap kıçkırışa yittiler<br>Songumızdın irişe yittiler | 5.Çarpışaraq, bağırıb-çağrışaraq (çarpışa çarpışa) gəldilər; arxamızdan yetişdilər. |
| 6.Ol çerig songıda istep meydan<br>Bar idi Ak Muhammed Oğlan | 6.O əsgər sonunda meydan istədi (meydana çıxıb özüylə vuruşacaq bir ər istədi); o ara Ağ Məhəmməd oğlan da orada idi. |
| 7.Bolgaç ol fitne vü ğavğa anda<br>Bende hem bar idi guya anda | 7.O fitnə və dava meydana gəldikdə; mən bəndə də orada idim. |
| 8.Takı sultan nökeridin bisyar<br>Bar idiler barı çüst ü cerrar | 8.Yenə Sultanın əsgərlərindən hamısı silah qurşanmış; davaçı olan çoxu da orada idilər. |
| 9.Yetkeç ol kavm çapıştuk utru<br>Kırduk ol ‘aklsız ilni asru | 9.O qövm yetişəndə vuruşduq; və o ağılsız xalqı qırdıq. |
| 10.Çapa kildi Canı Big Sultan hem<br>Rezm kıldı Canı Big Sultan hem | 10.Canı Big Sultan da qaçaraq gəldi; və o da döyüşə qoşuldı. |
| 11.Atlığı çıktı veli kaldı yayağ<br>At ayağıda özin saldı yayağ | 11.Atlısı qaçdı, piyadalar isə qaldılar; Özlərini at ayağı altında tapdılar. |

| | |
|---|---|
| 1.Kem kişi boldı ikin anda xalas<br>Boldılar barça ‘adem hükmiğa xas | 1.Az əsgər orada xilas oldu; Nə qədər adam da sonradan yox oldu. |
| 2.Ol zaman katl işidin ğam yok idi<br>Kişi öltürmegen adem yok idi | 2.O zaman (o çarpışma anında) qətl işində qəm yox idi; və insan öldürməmiş kimsə də yox idi (qalmamışdı). |
| 3.Kırılıp yattı ulus her yanda<br>Boldı bünyad kırılmak anda | 3.Qətllər,qırğınlar başlamış idi; və hər tərəfdə xalq qırılıb yatmış idi. |
| 4.Ol kişiler ki bu işde idiler<br>Bir kişi kolnı köterdi didiler | 4. Dedilər bu vəziyyətdə olan o adamların arasından; biri əlini qaldırdı. |
| 5.Feth bolğaç Canı Big Sultanğa<br>Baş bile kişi yiberdi xanğa | 5. O qalanın fəthi Cani Big Sultana nəsib olacaq; ilk iş olaraq Xana adam göndərdi. |
| 6.Kıldı sultanğa hem andın ixbar<br>Boldı sultan hem anga medh-güzar | 6.Sultanı bu işdən xəbərdar etdi; və Sultan da onu mədh etdi. |
| 7.Tanglası kildi uluğ sultan hem<br>Xatırı asru bu işdin xurrem | 7.Ertəsi gün ulu Sultan da gəldi; və könlü bu işdən ötrü şad oldu. |
| 8.Şehrning tigresige çün kildi<br>Şehr ehliğa nasihat kıldı | 8.Şəhərin dövrəsinə (yaxınına) gələrək; şəhər xalqına nəsihət etdi, |
| 9.Dip yiberdi ki yamanlıknı koyung<br>Fitne vü şur u ‘avanlıknı koyung | 9. Dedi: “Pislikdən əl çəkin; fitnə-fəsaddan əl çəkin. |
| 10.Öz ra‘iyyetlığıngıznı bilingiz<br>Yaxşı bu sözde te’emmül kılıngız | 10.Rəiyyət olduğunuzu bilin; və bu söz üzərində yaxşı fikirləşin. |
| 11.Siz kim ü mülk ara ğavğa kılmak<br>Bi-cihet munça temenna kılmak | 11.Siz hara, mülk üçün dava etmək hara; və səbəbsiz bu qədər iddia etmək hara? |

| | |
|---|---|
| 1.İmdi hem bolsa yanıng bu işdin<br>Fikr eyleng usanıng bu işdin | 1.İndi də olsa dönün bu işdən;<br>düşünün, usanın bu işdən. |
| 2.Günehingizni tilep-min xandın<br>Vehm kılmang basa mal u candın | 2.Xandan günahınızı bağışlamasını dilədim; mal və canınızdan qorxmayın”. |
| 3.Bu nasihatnı işitkeç ol xayl<br>Sulhğa kılmadılar asla meyl | 3. Bu nəsihəti eşitdiyi halda o xalq; barışa əsla yaxın gəlmədi. |
| 3.Didiler her ne kılur-siz kılıngız<br>Uruşur bolsangız imdi kilingiz | |
| 4.Biz başımıznı körüp-biz anda<br>Yok turur hiç işimiz canda | 4. Dedilər: “Nə edəcəksəniz edin; əgər vuruşacaqsanız indi gəlin. |
| 5.Kuçemiz muhkem irür kurğan hem<br>Ala almas anı sultan xan hem | 5.Biz bu yola baş qoyduq; və canla işimiz heç yoxdur. |
| 6.Çün bu sözlerni işitti sultan<br>Eyledi tangla uruşka ferman | 6.Yerimiz də, qalamız da möhkəmdir; və nə Sultan , nə də Xan onu ala bilməz”. |
| 7.Çıktı tuşluk tuşıdın sultanlar<br>Koptı yerlig yiridin oğlanlar | 7.Sultan bu sözləri eşidəndə; sabah erkən vuruşmağı əmr etdi. |
| 8.Yasanıp barçası atlandılar<br>Yörüben kuçede katlandılar | 8.Hər tərəfdən sultanlar meydana çıxdı (gəldi); və hər yerdən oğlanlar ayağa qalxdı. |
| 9.Karakölnüng kişisi hem yeksan<br>Çıktı atlık yayağ eylep efğan | 9.Silahlanıb hamısı atlandılar; və yeriyərək meydanda toplandılar. |
| 10.Okçı il irdiler vü avçı besi<br>Her biri bar idi bir bü’l-hevesi | 10.Qara göl xalqı da hamı bir nəfər kimi; atlı və piyada olaraq hayqıraraq çıxdı. |
| 11.Okçı il irdiler vü avçı besi<br>Her biri bar idi bir bü`l-hevesi | 11.Bir çoxu oxçu və ovçu idi; və hər biri bir həvəs içində idi. |

| | |
|---|---|
| 1.Uruş eylerge ta‘assub barıda<br>Barçanıng köngli ta‘assub sarıda | 1.Hamısı vuruşmağa inadla qərarlıydı; və hamısının könlü inada meyilliydi. |
| 2.Çıktı bolğay yene biş mingçe kişi<br>Uruş barınıngdur bayrı işi | 2.Yenə beş mincə əsgər meydana gəldi;Döyüş hamının işidir deyə söylədi. |
| 3.Kuçe ağzıda besi boldı uruş<br>Yok idi hiç ok atmakka turuş | 3.Küçə başında çox döyüş oldu; və ox atmaq üçün ara vermədilər. |
| 4.Kuçege saldılar atlar amma<br>Yaralığ boldı besi at ol ara | 4.Atları küçəyə saldılar; amma çox at orada yaralandı. |
| 5.Yanğaç atı yaralığ bolğanlar<br>Ğayret ü kahr bile tolğanlar | 5.Atı yaralı olanlar döndükdə;qeyrət və qəhr ilə doluydular. |
| 6.Salıp atlarnı yügürdiler bat<br>Çikip ol ilge münadi memat | 6.Atları buraxıb dərhal hücuma keçdilər; o xalqa ölüm, ölüm deyə səsləndilər. |
| 7.Atkulap barçasını kavladılar<br>Kuçening saydların avladılar | 7.At sürüb hamısını qovdular; və küçə ovçularını ovladılar. |
| 8.Çıktı ol ilge salayı- i‘dam<br>Kuçening yolları açıldı tamam | 8. O xalqa edam səlatı(cənazəyə çağırma,salat) çıxdı; və məhəllənin yolları tamam açıldı. |
| 9.Yene bir ming kişi munda öldi<br>Xırmeni- ‘ömrleri savruldı | 9.Yenə min nəfər burada öldü; və ömürlərinin xırmanı sovruldu. |

| | |
|---|---|
| 1.Asru köp xalk kırıldı anda<br>Asru köp güller açıldı anda | 1.Adamların bir çoxu orada qırıldı; və orada bir çox güllər açıldı. |
| 2.Kal ‘ağa hem kire almay bisyar<br>Kaçtılar atlık ili vehm ile zar | 2.Çoxu qalaya girə bilmədi; və atlı olanlar da qorxaraq, inləyərək qaçdı. |
| 3.Kal‘a içindekiler kurğannı<br>Tartıban carlar sultannı | 3Qala içindəkilər; Sultana bir elçi göndərdilər. |
| 4.Derdi- dil eylediler haddın taş<br>Didiler bir niçe zişti evbaş | 4.Həddən artıq dərdləşdilər; və dedilər:”Bir neçə yaramaz və nadürüst: |
| 5.Kıldılar bizni bu yanglığ bed-hal<br>Boldılar özleri andak pamal | 5.Bizi bu şəkildə pis vəziyyətə saldılar; və özləri də ayaq altında qaldılar. |
| 6.İmdi ey padşehi- din-perver<br>Bol bu kurğanğa ‘inayet-güster | 6.Ey dinpərvər padşah; indi bu kurqan xalqına inayət elə”. |
| 7.Körüp ol kavmnı andak nalan<br>Eyledi lutf u ‘inayet sultan | 7.Sultan o xalqı bu şəkildə pərişan görüncə; lütf və inayət eylədi. |
| 8.Eyledi hükm ki ol kurğanğa<br>Ya‘ni kalğan ulusı- hayranğa | 8.O, kurqanda heyrət içində qalan; xalqa belə hökm etdi: |
| 9.Tigmesün hiç kişidin zahmet<br>Kim münasibdür alarğa şefkat | 9.Heç kimdən onlara dəyməsin zəhmət; çünki onlara münasibdir şəfqət. |
| 10.İlge daruğa koyup yandı özi<br>Bardı xan hazretiğa yaxşı sözi | 10.Xalqa hakim(daruğa) təyin edib özü döndü; və xan həzrətinə şad xəbər çatdı. |
| **XX**<br>**İmamü’ z-zaman Buxaradın Karşı üstige barğanı** | **XX**<br>**Zamanın İmamının Buxaradan Karşı üstünə getməsi** |

| | |
|---|---|
| 1.Çün yanıp kildi çirig xan kaşığa<br>Bardı hasıl yene xan iş başığa | 1.Əsgər dönüb xanın hüzuruna gəldikdə; xan yenə iş başına keçdi. |
| 2.Didi Karşığadur imdi nevbet<br>Tileli Hazreti- Hakdın nusret | 2.İndi sıra Karşıdadır; Allahdan kömək diləyək, dedi. |
| 3.Didi bu sözni vü atlandı revan<br>Rast Karşığa yitişti ol xan | 3.Xan bu sözü söylədikdən sonra dərhal atlandı; və düz Karşıya gəlib yetişdi. |
| 4.Karşınıng tiğresini çaptılar<br>Yaşurun mallarını taptılar | 4.Karşının çevrəsini yağmaladılar; və gizlədilmiş malları tapdılar. |
| 5.Bakı Tarxan yaşunup kal‘a ara<br>Çıkara almadı başın asla | 5.Baki Tarxan qala içində gizlənərək; başını əsla (çölə) çıxarmadı. |
| 6.Kış idi vü kapap olturmak işi<br>Müşkil ü olçağa meşğul kişi | 6.Qış idi və qalaya qapanıb qalmaq müşkül idi; insanlar qənimət toplamaqla məşğul idi. |
| 7.Barçağa kaytmak oxşaş boldı<br>Uşbunı aytmak oxşaş boldı | 7.Hamısı geri döndülər; və bu vəziyyəti olduğu kimi danışdılar. |
| 8.Tüzdeki malın alıp yandılar<br>İyesin otka salıp yandılar | 8.Düzənlikdəki (ovalıqdakı) mallarını alıb; sahibiərini oda ataraq döndülər. |
| 9.On kün ötmey yene xanı-pür-dil<br>Boldı Karşı tarafığa mayil | 9 Cəsur xan on gün keçmədən; yenə Karşı tərəfinə yönəldi. |
| 10.Kildi Karşığa vü andın ozdı<br>Andağılarğa işin körgüzdi | 10.Karşıya gəldi və ona görə xalq xilas oldu; oradakılara nə etmək lazım olduğunu göstərdi. |
| 11.Sordı kim kayda irür şehri-Xazar<br>Kim taşında bar imiş ilge hisar | 11.Soruşdu ki, kənarında xalq üçün; qalası da olan Xəzər şəhəri haradadır; |

| | |
|---|---|
| 1.Bar imiş arsu kalın il anda<br>Çirigimiz bayır ol kurğanda | 1.O kurqanda çox adam varmış;<br>əsgərimiz o kurqanda rahat edər. |
| 2.Didiler asru yakındur ol şehr<br>Zahiran tüşkey anga şu‘leyi-kahr | 2.O şəhər çox yaxındır; fəqət ətrafını qəhr atəşi çevirmişdir (içinə girmək çox çətindir), dedilər. |
| 3.Yörügeç bir iki kün ol leşker<br>Kıldılar şehr kırağını makar | 3.Əsgərlər bir-iki gün yürüdükdən sonra; çatdıqları şəhər kənarında yerləşdilər. |
| 4.Kördiler asru mu‘azzam şehri<br>Şehr yok kim ‘azametde dehri | 4.Çox böyük bir şəhər gördülər; Şəhər deyil, əzəmətli bir dünya idi. |
| 5.Içi vü taşı barı top tola mal<br>Tive vü at bile mal-a-mal | 5.İçi-çölü dopdolu mal; dəvə və at daha çox idi. |
| 6.Xan yörüp kıldı uruşka ferman<br>Leşker ehli yasanıp çıktı revan | 6.Xan taxta çıxıb vuruşmaq üçün əmr verdi; əsgərlər silahlanıb dərhal (meydana) çıxdılar. |
| 7.Bolmadı şatu vü tura hacet<br>Çikmediler anıng üçün zahmet | 7.Nərdivan və çəngələ gərək qalmadı; və onun üçün də zəhmət çəkmədilər. |
| 8.Yügrüşüp kal‘asığa mindiler<br>Rahne eylep içige indiler | 8.Qaçıb şəhərin qala divarlarına çıxdılar; və yarıq açaraq içinə girdilər. |
| 9.Aldılar anda besi mal u yarağ<br>Boldı peyda besi esbabı- ferağ | 9.Orada bir çox mal və əşya götürdülər; və götürdükləri sevinc səbəbi oldu. |
| 10.Nazenin kızlar esir eylediler<br>Ol aradın yene hem sıyladılar | 10.Nazənin qızları əsir etdilər; və aralarından ən gözəllərini seçdilər. |
| 11.Xanğa ol hadise bolğaç ma‘lum<br>Kıldı kızlardın alarnı mahrum | 11.Xan bu hadisəni öyrənəndə; onları qızlardan məhrum etdi. |

| | |
|---|---|
| 1.Özbek ilidin ayırdı barını<br>Xardın gül kibi tirdi barını | 1.Gülün tikandan dərildiyi (qoparıldığı) kimi; hamısını özbək xalqından ayırdı. |
| 2.Xannıng ol merhametini işitip<br>Kaçkan il bir birisige aytıp | 2.Xanın bu mərhəmətini eşidəndə; qaçanlar bir -birinə belə söyləmişlər: |
| 3.İlleri kildi ise her yandın<br>Bi-xaber irdi barı imandın | 3.”Hər yandan(uzaqdan) gələn xalq; hamısı imandan xəbərsiz idi. |
| 4.Xan yığıp oğlan uşağın yeksan<br>Örgete birdi barığa iman | 4.Xan bütün oğlan - uşağını toplayıb; hamısına iman öyrətdi”. |
| **XXI**<br>**İmamü’z-zaman Xazar ilini alıp ehl ü evladlarığa iman örgetkenidin song Karşını kapap Bakiğa uruşdın ant birgeni** | **XXI**<br>**Zamanın İmamının Xazar məmləkətini alıb xalq və övladlarına iman öyrətdikdən sonra Karşını mühasira edib Bakiyə savaş haqqında and verməyi:** |
| 5.Çün Xazar ehliga takdiri-Xuda<br>Saldı bu nev‘ bozuğluk ol ara | 5.Tanrının təqdiri Xazar xalqına; bu şəkildə məğlubiyyət verdiyi üçün; |
| 6.Yene Xan kildi Buxara sarı<br>Çirigi sağ u selamet barı | 6.Xan yenə Buxara tərəfə gəldi; əsgərlərinin hamısı sağ və salamat idi. |
| 7.Yaz açılğaç yene ‘azim boldı<br>Karşınıng ‘azmığa cazim boldı | 7.Bahar gələndə təkrar yola çıxdı; və Karşıya getməyə qərar verdi. |
| 8.Yetiben Karşığa boldı sakin<br>Eyledi hükm ki tabın tabın | 8.Karşıya çatıb orada yerləşdi; və hökm etdi ki, yavaş- yavaş |
| 9.Kal‘a devriğa alıp mulcarlar<br>Şax u ney birle salıp mulcarlar | 9.Qala ətrafına sipərlər qazsınlar; budaq və qamışlarla sipər düzəltsinlər. |

| | |
|---|---|
| 1.Tigre yanın alıp oltursunlar<br>Kiçe kündüz uruşa tursunlar | 1.Hər tərəfdən dövrəyə alıb otursunlar; və gecə- gündüz döyüşə hazır dursunlar. |
| 2.Hükm ile barça kapay tüştiler<br>Kamış u şaxğa yapuştılar | 2.Bu qərarla hamısı gizləndilər; qamış və budaqlara yapışdılar. |
| 3.Kuçeler yasadılar kal'a sarı<br>Bergdin xurrem ü ser-sebz barı | 3.Qala tərəfinə hamısı; yarpaqlardan və yaşıllıqlardan keçidlər hazırladılar. |
| 4.Kal'a sarı kılayın dise güzer<br>Kuçe geşti kılur irdi leşker | 4.Qalaya doğru keçim deyən əsgər; keçidləri dolaşmaq zorundaydı. |
| 5.Taşkarı sebze vü sahra vü bahar<br>İçkeri cibe vü derdi- dili- zar | 5.Çöldə yaşıllıq, səhra və bahar; içəridə döyüş sürsatı və inləyən könül dərdi var idi. |
| 6.Taşkarı laleyi- nu'man açılıp<br>İçkeri il közidin kan saçılıp | 6.Çöldə laleyi- numan açılırdı; içəridə də xalq gözündən qan saçılırdı. |
| 7.Taşkarı 'ayş ü neşat u sohbet<br>İçkeri mihnet ü renc ü zahmet | 7.Çöldə şadlıq, sevinc və söhbət vardı; içəridə möhnət, sıxıntı və zəhmət vardı. |
| 8.Taşkarı ilge ümidi- cavid<br>İçkeri il barı candın nevmid | 8.Çöldə xalqa vardı əbədi ümid; və içəridə xalq tamam olmuşdu naümid . |
| 9.Taşkarı ilge ğanimet tüşti<br>İçkeri ilge ulat yapuştı | 9.Çöldəki xalqa qənimət düşdü; içəridəki xalqa da xəstəlik hasil oldu. |
| 10.Gah üç yüz kişi öldi bir kün<br>Gah on kent ili boldı bir kün | 10.Bəzən bir gündə üç yüz adam öldü; bəzən də bir gündə on şəhər əhli öldü. |
| 11.Boldı andak ulatı kim devran<br>Ol ulatnı körüp oldı hayran | 11.Elə bir xəstəlik oldu ki; dövran bu xəstəliyi görüb heyrət etdi. |

| | |
|---|---|
| 1.İki ay kim kapal irdi anda<br>Az kişi kaldı uşol kurğanda | 1.Orada iki ay mühasirə oldu; və o kurqanda az (sayda) insan qaldı. |
| 2.Kalğanı hem barı bimar idiler<br>Ğussa vü ğam kolıda zar idiler | 2.Qalanlar da hamısı xəstə idilər; qüssə və qəm əlində inləməkdə idilər. |
| 3.Seyyidi bar idi ol kurğan ara<br>Didi ol kal'a ara hükmi- Xuda | 3.O kurqanda bir seyyid vardı; o qalada (olanlar üçün) Allahın hökmüdür, dedi. |
| 4.Bir otuz ming kişini öltürdi<br>Ta ki bu yerdin uşol xan turdı | 4.Xan, bu yerdə olduğu müddətdə; otuz min nəfəri öldürdü. |
| 5.Hiç kim körmedi bu tavr ulat<br>Kildi ol kal'ağa bir devri- ulat | 5.O qalaya bir xəstəlik gəldi ki; heç kim belə bir salqın(epidemiya) görməmişdi. |
| 6.İl kırıldı barı vü axiri- kar<br>Baki Tarxan dağı boldı bimar | 6.Xalqın tamamı qırıldı; və nəticədə Baki Tarxan da xəstə oldu. |
| 7.Zarlık eyledi xan hazretiğa<br>Yiberip ilçisini xıdmetiğa | 7.Xan həzrətinə (hüzuruna) xidmət üçün; elçisini göndərib üzüntüsünü bildirərək yalvardı: |
| 8.Kim manga lutf kılıp yol birsün<br>Bu ulatdın meni xan ayırsun | 8."Xan, mənə lütf göstərib getməyimə icazə versin; və bu xəstəlikdən məni qurtarsın". |
| 9.Xan didi kim men anga yol bireyin<br>Canıdın xarı- cefanı tireyin | 9.Xan dedi:"Mən ona yol verim; və canını cəfa tikanından dərim (qurtarım). |
| 10.Sart kılsun kiterige mundın<br>'Ahd kılsun yiterige mundın | 10.Bir şərtlə ki, buradan getsin; və buradan uzaqlaşmağa əhd etsin". |
| 11.Xan sözin çünki işitti Bakı<br>Didi bar lutf u mürüvvet çakı | 11.Baki (Tarxan), xanın sözünü eşidəndə dedi; bu, lütf və mürüvvət zamanıdır, |

| | |
|---|---|
| 1.Xan eger kılsa mürüvvet min hem<br>Eyleyin şart be-ğayet muhkem | 1.Xan əgər insaniyyət göstərirsə, mən də ona riayət edərəm”. |
| 2.Haremi üstide şart eyledi ol<br>Kim kaçan xan manga lutf ey-lese yol | 2.O (Baki Tarxan), hərəminin üstünə şərt qoydu; ki “əgər xan mənə lütf edib yol versə, |
| 3.Başım alıp kiteyin kurğandın<br>Her ne hükm olsa yene ol xandın | 3.baş alıb kurqandan gedim; və o Xandan hər nə hökm olsa, |
| 4.Tutayın hükmini canım birlen<br>Bu işim barçaga bolsun ruşen | 4.Hökmünü candan yerinə gətirim; və bu işim hər kəsə açıqca bəlli olsun”. |
| 5.Çün bu şart eyledi Bakı Tarxan<br>Karşıdın kildi Buxara sarı xan | 5.Baki Tarxan bu şərti qoyanda; Xan da Karşıdan Buxara tərəfinə gəldi. |
| 6.Anga çün boldı bu yanglığ fursat<br>Kaçtı vü bildi özige devlet | 6.Onun üçün ortaya çıxdıqda bu cür bir fürsət; qaçdı və bunu bildi özünə dövlət |
| **XXII**<br>**İmamü’z-zaman ve xalifetü’r-rahman kal‘ayi-Debusini uruş bile alğanı** | **XXII**<br>**Zamanın İmamı və allahın xəlifəsinin vuruşaraq Debusi qalasını alması** |
| 7.On kün ötmey yene atlandı xan<br>Hamza Sultan tarafı boldı revan | 7.Xan, on gün keçmədən yenə atlandı; və Həmzə Sultana doğru getdi. |
| 8.Hamza Sultan bolup irdi muztar<br>Çirigi hem mütehayyir yek-ser | 8.Həmzə Sultan çarəsiz qalmışdı; və əsgəri də çaşmış vəziyyətdə idi. |
| 9.Bir yaman Tang-yaruk atlık aymak<br>Tüzüp irdiler anga kin ü nifak | 9.Tanq-yaruk adında pis bir oymaq; bəsləmişdi ona kin və nifaq. |
| 10.Bey‘at u ‘ahdlarını unutup<br>Bağı ehli işini utru tutup | 10.Biət və andlarını unudaraq; Baki adamlarını üstün tutaraq |

| | |
|---|---|
| 1.Birkitip kal'ayı- Debusini<br>Çaldılar küfr ilining kusını | 1.Debusi qalasını möhkəmlədib; kafir elinin təbilini çaldılar (küfrə girdilər). |
| 2.Kal'anıng birklikige tayanıp<br>Turdılar kal'a içinde yasanıp | 2.Qalanın möhkəmliyinə güvənib; qala içində silahlanaraq durdular. |
| 3.Vakı'a kal'aları muhkem idi<br>Kine-ver xalkı takı hem-dem idi | 3.Qalaları möhkəm idi; kindar xalqı da onlara həmdəm idi. |
| 4.Kal'ası kal'ayi- Xayber yanglığ<br>Xayberi illeri kafir yanglığ | 4.Qalaları Xeybər qalası kimiydi; və xalqı da Xeybər xalqı tək kafir kimiydi. |
| 5.Kal'anıng evci Süreyya irdi<br>Tübide xandakı derya irdi | 5.Qalanın təpəsi ülkər ulduzu kimi; dibindəki xəndək dərya kimi idi. |
| 6.Yene etrafıda cerler bi-had<br>Ötmek andın körüb[en] müsteb'ad | 6.Yenə ətrafında saysız yarıqlar vardı; və oradan keçmək uzaq ehtimaldı. |
| 7.Kuş uça almas idi cerleridin<br>Uçsa hem kiçkey idi perleridin | 7.Yarıqlarından quş uça bilməzdi; uçsa da başından keçərdi (ovlanardı). |
| 8.Yolları tağ yolı dik heycan<br>Ötmek andın kılıp ilni bi-can | 8.Yolları dağ yolu kimi təhlükəli idi; oradan keçmək xalqın ölümünə səbəb olardı. |
| 9.Yek-cihet kal'a ara ming ivlük<br>Barça divane yosunluğ divlük | 9.Qala içində min ailə eyni düşüncədəydi; hamısı dəli-dolu div kimiydilər. |
| 10.Uruş esbabını amade kılıp<br>Sulhdın levhlerin sade kılıp | 10. Döyüş üçün gərəkli şeyləri hazırlayıb; sülhü ağıllarına gətirmirdilər. |

| | |
|---|---|
| 1.Cehldin turdılar ol kal'a ara<br>Boluban mülk ara asru ğavğa | 1.Cahilliklərindən o qalada qaldılar; və mülkdə bir çox davalar oldu. |
| 2.Tiletip kal'aga yağılardın<br>Dem urup barçası bağilerdin | 2.Qalaya (içindəki insanlara) düşmənlərdən söz edib; hamısı keçmişlərdən bəhs etdilər. |
| 3.Özleriçe kişi kiltürdiler<br>Tınç xatır bile olturdılar | 3.Özləri kimi adam gətirdilər; və rahat könüllə oturdular. |
| 4.İçleride ikki Tarxan başlık<br>Yığdurup xalkığa yıllık aşlık | 4.İçlərində iki tarxan başda olmaq üzrə; xalqa bir illik yemək toplatdılar. |
| 5.Tutuban özlerini kurğan-gir<br>Bi-xaber kim ni boluptur takdir | 5.Özlərini kurqanın fatehi fərz etdilər; fəqət təqdirin nə olacağından xəbərsiz idilər. |
| 6.Niçe kim kıldı alar nadanlık<br>Tüşmesün dip barığa viranlık | 6. Onlar nadanlıq etsələr də; Hamısı viran olmasın deyə . |
| 7.Xan nasihat kıla turdı bisyar<br>Ğazab otiğa suv urdı bisyar | **7.**Xan, onlara çox nəsihət etdi; və qəzəb atəşinə çox su səpdi (qəzəbinə qalib gəlməyə çalışdı). |

| | |
|---|---|
| 1.Lik ol kavm kabul itmediler<br>Kal'anı xali itip kitmediler | 1.Fəqət o qövm qəbul etmədi; və qalanı boşaldıb getmədi. |
| 2.Xan takı kildi yasap leşkerini<br>Tüzetip xandak u cuy u cerini | 2.Xan da xəndək, çay və yarığı düzəldib; əsgərini toplayaraq gəldi. |
| 3.Altı mulcar yasatıp üç künde<br>Yalbarıp Tingrisige bir tünde | 3.Üç gündə altı sipər hazırlamış; və bir gecə boyunca Allaha yalvarmışdı. |
| 4.Subhnıng nurı füruzan bolğaç<br>Kiçening zulmeti pinhan bolğaç | 4.Sabahın işıqları parlayanda; və gecənin qaranlığı sona çatanda, |
| 5.Cevşenin kiydi vü kıldı cevlan<br>Boldı xurşid-sıfatlık taban | 5.Zirehini geyindi və gəzdi; günəş kimi parladı. |
| 6.Rezm meydanı sarı yüz koydı<br>Devleti xasm közini oydı | 6.Döyüş meydanına doğru yönəldi; və dövləti (ehtişamı) rəqibin (düşmənin) gözünü qamaşdırdı. |
| 7.Yörüben saldı uruş kurğanğa<br>Ot salıp düşmeni- biimanga | 7.Hücum edərək kurqana savaş açdı (kurqanı savaşa soxdu); o imansız düşmənə atəş saldı. |
| 8.Feth ü nusret kusını çalduruban<br>Xasmnıng zehresini alduruban | 8.Fəth və nüsrət təbilini çaldıraraq; rəqibin cəsarətini qıraraq, |
| 9.Çün yörüp kildi Süleymanı-zaman<br>Çirigi mur u melax dik yeksan | 9.Zamanın Süleymanı yürüyüb gəldiyi zaman; əsgəri qarışqa və çəyirtkə kimi saysızdı. |
| 10.Yügürüşüp kal'a sarı yavuştı<br>Şatu vü tura alıp yapuştı | 10.Qaçışıb qala tərəfinə yaxınlaşdı; nərdivan və çəngəl alıb qala divarına yapışdı. |
| **11.** Köz yumup okını közge ilmey<br>Kalmayın bir biridin ayrılmay | 11. Göz yumub oxunu nişan almadan; və bir- birindən ayrılmadan (atdı), |

| | |
|---|---|
| 1.Köz yumup açkuça cerlerdin ötüp<br>Özlerin xandakı içinde tutup | 1.Göz yumub açana qədər sipərlərdən aşıb; özlərini xəndək içində gördülər. |
| 2.Xak-rizi sarı meyl eylediler<br>Canların xanğa tufeyl eylediler | 2.Torpaq tərəfə (qala divarına) yönəldilər; və canlarını Xana bağışladılar. |
| 3.Yağdı ok başlarığa yamğur dik<br>Kildi sir-ab başaklar dür dik | 3.Başlarına yağış kimi ox yağdı; və ox ucluqları inci kimi suya sirab oldu. |
| 4.Xak-rizi çü çirigdin toldı<br>Aldırap ok ata almas boldı | 4.Divar əsgərlə dolduqca; ox atmağa fürsət olmadı. |
| 5.Taş ata başladı ilning başığa<br>Lik kim baktı anıng ol taşığa | 5.Xalqın başına daş atmağa başladılar; lakin onların atdığı daşa kimsə baxmaz oldu (əhəmiyyət verməz oldu). |
| 6.Şatunı tamığa yitkürdi kişi<br>Boldı kurğanğa minip çıkmak işi | 6. Əsgərlər, nərdivanı qalanın damına dayadılar; işləri nərdivana minib kurqana çıxmaq oldu. |
| 7.Bolmadı iş taş atmak bile hem<br>Ot yakıp taşladı özge her dem | 7.İşləri daş atmaq ilə də həll olmadıqda (nəticə vermədikdə); od yandırıb onlara atdılar. |
| 8.Kaysınıng koynığa axker tüşti<br>Kaysınıng boynığa kül yapuştı | 8.Bəzisinin qoynuna qor düşdü; bəzisinin boynuna kül yapışdı. |
| 9.‘Akıbet xasmığa yüzlendi ğam<br>Yandura almadı ol ot bile hem | 9.Sonunda düşmən qəmə boğuldu; ancaq o atəş belə onları (qalanı mühasirə edənləri) yolundan döndərə bilmədi. |
| 10.Özge süngü bile sançar boldı<br>İlni balar ile yançar boldı | 10.Əlavə süngü atmağa başladılar; və xalqı balta ilə yaralamağa başladılar. |
| 11.Lik balarığa köz salmadılar<br>Süngüsidin takı vehm almadılar | 11.Lakin baltalara əhəmiyyət vermədilər; və süngülərindən də qorxmadılar. |

| | |
|---|---|
| 1.Aldılar burclarını üleşip<br>Çıktılar kurğanığa çapkulaşıp | 1.Bölüşərək bürcləri aldılar; çarpışaraq kurqana çıxdılar. |
| 2.Gerçi köp boldı uruş her yandın<br>Boldı ol feth Timur Sultandın | 2.Hər tərəfdə çox döyüş olsa da; fəth Timur Sultana nəsib oldu. |
| 3.Şahzade Timuri- ferrux-baxt<br>Kim atası dik irür kabili- taxt | 3.Bəxti açıq Şahzadə Timur atası kimi; taxta oturmağa layiq idi. |
| 4.Asru pakize xısalı bar anıng<br>Pak-rular bile halı bar anıng | 4.Onun bir çox təmiz xasiyyətləri vardı; və təmiz üzlülər ilə həmhaldı. |
| 5.Sani'yi- memleketi- rabbani<br>'Aybdın pak yarattı anı | 5. Sonra dünyanın rəbbi uca Allah; eyibdən pak yaratdı onu. |
| 6.Asru xoş-xulkdur u xoş-güftar<br>Asru niku-seyr ü niku-kar | 6.Xoş yaradılışlı və çox xoş sözlü idi; gözəl hərəkətli və gözəl əməlli idi. |
| 7.Fazl gülzarıda nev-xastedür<br>Edeb ü hilm ile arastedür | 7.Fəzilət gülzarında yeni yetişmiş bir fidandı; ədəb və yumşaqlıqla bəzənmişdi. |
| 8.Yörüse servi- xıramanidür<br>Atka minse mehi- tabanidür | 8.Yerisə sərvi-xuramandır; ata minsə mahi- təbandır. |
| 9.Tüşmes anıng okı yirge hergiz<br>La-cerem xasmnı eyler 'aciz | 9.Oxu əsla yerə düşməzdi; və şübhəsiz, düşməni aciz qoyardı. |
| 10.Zühre xunya-ger anıng sohbetide<br>Müşteri can biriben xıdmetide | 10.Zöhrə, onun söhbətində xanəndə;və Müştəri, candan xidmət edəndir. |
| 11.İkki xadimdür işikide müdam<br>Biri Keyvan u birisi Behram | 11.Keyvan və Bəhram qapısında; daim iki xidmətçi idi. |

| | |
|---|---|
| 1.Kurretül ayn şehi- Şibani<br>Layıkı- devleti- Çingiz Xani | 1.Göz nuru Şah Şeybani; Çingiz xan dövlətinə layiqdi. |
| 2.Tingri yaşını uzun kılsun anıng<br>Dad u adlını füzun kılsun anıng | 2.Tanrı onun yaşını uzun etsin; doğruluq və ədalətini artıq etsin. |
| 3.Barçadın burna bu sultan kulıdın<br>Çıktılar kalağa şatu yolıdın | 3.Bu sultan vasitəsilə; qalaya nərdivandan çıxdılar. |
| 4.Kim ki bar irdi uşol igremde<br>Kırdılar barçasını bir demde | 4.O çevrədə kim varsa; hamısını bir anda qırdılar. |
| 5.Bir tümen xalk kırıldı barı<br>Boldı zahir sifatı- kahhari | 5.On min xalqın hamısı qırıldı; və məhv edici bir sifət zahir oldu (çox zülm oldu). |
| 6.Kim yağıksa şeh Şibaniğa<br>Uşbu kün kilgüsidür canığa | 6.Şah Şeybaniyə kim düşmən olsa; bu gün etdiyi başına gələcəkdir. |
| 7.Ger tanuk ister iseng bu sözge<br>Seri- pül tiğreside çık tüzge | 7.Əgər bu sözə şahid istərsən; Səri- pül çevrəsində düzənliyə çıx; |
| 8.Kör ki Babur çirigi ni bolmış<br>Kanları yerge nitek tökülmiş | 8. Gör Babur əsgərinin nə olduğunu; və qanlarının yerə necə töküldüyünü! |
| **XXIII**<br>**Hazreti- İmamü z-zaman ve xalifetü r-rahman Babur Mirzanı basıp kavlağanı** | **XXIII**<br>**Zamanın İmamı və allahın xəlifəsi həzrətlərinin Babur Mirzəni məğlub edib qovması** |
| 9.Çün Semerkandnı aldı Babur<br>Xalk ara tefrika saldı Babur | 9.Babur Səmərqəndi aldığı zaman; xalq içinə təfriqə saldı. |
| 10.Hüsn meydanığa zalim kirdi<br>Zulm bazarığa revnak birdi | 10.Gözəllik meydanına zalım girdi; və zülm bazarına rövnəq verdi. |

| | |
|---|---|
| 1.Zülfiğa tab birip olturdı<br>Bir niçe dil-şüdeni köydürdi | 1.Zülfünü burum- burum edib oturdu; və bir çox aşiqi yandırdı. |
| 2.Yığılıp allıda kaçkan küregen<br>Atası dik dip anı hem körgen | 2.Qaçan damadlar hüzurunda; toplanıb onu ataları kimi gördülər. |
| 3.Laf bazarını germ eylediler<br>Söz bile tağnı nerm eylediler | 3.Söz bazarını qızışdırdılar; və söz ilə dağı yumşaq hala gətirdilər. |
| 4.Andican leşkerini kiltürüben<br>Cette ğaret-gerini kiltürüben | 4.Əndican əsgərini gətirərək; soysuz yağmaçıları gətirərək, |
| 5.Xan sarı azm kılur boldılar<br>Xan bile rezm kılur boldılar | 5.Xana doğru yola çıxdılar; və Xan ilə vuruşdular. |
| 6.Xan alıp kal`ayi- Seri- pül kildi<br>Ol takı meyli- Seri- pül kıldı | 6.Xan, Seri-pül qalasını alaraq gəldi; və o da (Timur Mirzə) Seri- pülə doğru yönəldi. |
| 7.İkki ming tura yayağlarğa birip<br>Üç ming atkuçı tura içre kirip | 7.İki min tura (qalxana görə daha ağır olan müqavimət, qoruma sipəri) piyadalara verib; üç min nişançı tura içinə girib, |
| 8.Yörüben kildi iki san leşker<br>Kine-perdaz u adavet-güster | 8.Kin bəsləyən və düşmənçilik göstərən; iki bölük əsgər yürüyərək gəldi. |
| 9.Akl kör kim bu sifatlık xanğa<br>Naşiri- ma`delet ü ihsanğa | 9.Ağla bax! Bu vəsfli Xana; ədalət və ehsan dağıdan Xana (qarşı) |

| | |
|---|---|
| 1.Salıban kal‘asın özi çıktı<br>‘Alemi- devletin özi yıktı | 1.Qalasını tərk edərək özü çıxdı; və dövlət sancağını özü yıxdı. |
| 2.Xan takı körgeç anıng ol kilişin<br>Salıban Tingri te‘alağa işin | 2.Xan da onun bu gəlişini görəndə; işi uca tanrıya həvalə etdi. |
| 3.İşi Kur’an okumaklık boldı<br>İçi Tingri sözi birle toldı | 3.İşi Quran oxumaq oldu; və içi tanrı sözü ilə doldu. |
| 4.Didi kim yitse bu sançışda manga<br>Tingri takdiri bile hükmi- kaza | 4.Dedi ki: “Bu döyüşdə mənə tanrının təqdiri ilə; qəza hökmü (əcəl) gəlsə, |
| 5.Bari Kur’an okumış bolğay-men<br>Haletim barçağa bolsun ruşen | 5.Heç olmasa Quran oxuyum ;və beləcə halım hər kəs tərəfindən bilinsin”. |
| 6.Bu sağışalrnı kılıp hazreti-xan<br>Atlanıp kılğaç uruşka ferman | 6.Xan həzrətləri bu düşüncələri ağlından keçirib; atlanıb vuruşmağı əmr etdi. |
| 7.Barça sağıtlanıp atlandılar<br>Köngül ister kibi katlandılar | 7.Hər kəs bu düşüncəylə atlandı ;və könülləri istədiyi kimi səy göstərdi. |
| 8.Mevc-zen boldı tingiz dik leşker<br>Tutku dik mevci anıng bahr u ber | 8.Əsgər dəniz kimi dalğalandı; dalğası dərya və qurunu sardı. |
| 9.Her biri Rüstemi- Destan yanglığ<br>Her biri Samı- Neriman yanglığ | 9.Hər biri Rüstəmi-dastan kimiydi; və hər biri Nərimanın oğlu Sam kimiydi. |
| 10.Niçesini atıp urğan boldı<br>Yalğuz ol cavnı kaçurğan boldı | 10.Bir çoxunu atıb vurdu ;və tək başına düşməni qaçırdı. |

| | |
|---|---|
| 1.İsti nusret yili xan kullarıdın<br>Perde açıldı zafer gülleridin | 1.Xanın qullarından nüsrət küləyi əsdi; və zəfər güllərindən pərdə açıldı. |
| 2.Babur öz tuğını taşlap kaçtı<br>Baburilerğa ni güller açtı | 2.Babur özü tuğunu buraxıb qaçdı; və Baburilərə nə güllər açdı? |
| 3.Çün ğazab otı füruzan boldı<br>Ol iki san kişi yeksan boldı | 3.Qəzəb atəşi parladığından; o iki bölük insan yerlə bir oldu. |
| 4.Kaysı ok uçıda can tapşurdı<br>Kaysı kistenge közin aldurdı | 4.Bəzisi ox ucunda can verdi; bəzisi də çubuqla gözünü kor etdi. |
| 5.Hazreti- mevt zuhurı kıldı<br>Melekül-mevt huzurı kıldı | 5.Əzrayıl ortaya çıxdı; ölüm mələyi hüzura gəldi. |
| 6.Başların bes ki kılıçlar böldi<br>Birisining başı ikki boldı | 6.Başlarını qılınclar böldüyü vaxt; birisinin başı ikiyə ayrıldı. |
| 7.Baş iki bolmasa ol nadanğa<br>Baş urup beyle kilür mü xanğa | 7.O cahilin başı ikiyə ayrılmasa; baş əyib xana gələrmi? |
| 8.Yene bir bül-aceb iş kıldı zuhur<br>Kim adunıng ili bolgaç makhur | 8.Düşmən ordusu məğlub olduqda; təkrar çox qəribə bir iş meydana gəldi. |
| 9.Bir sarı yolını derya tuttı<br>Suvğa tüşkenni balığlar yuttı | 9.Bir qisminin yolunu dərya kəsdi; və suya düşənləri də balıqlar uddu. |
| 10.Xan imes Hazreti- Musadur bu<br>Kul ni bolsun yedi- beyzadur bu | 10.Bu, xan deyil, Hz. Musadır; və qul işi deyil, yədi- beyzadır. |
| 11.Kim yamanlık tiledi Musağa<br>Bardı Firavn kibi deryağa | 11. Pislik diləyənlər Musaya; firon kimi düşdülər dəryaya. |

| | |
|---|---|
| **XXIV**<br>**İmamü z-zaman ve Xalifetü r-rahmannıng himmetiğa yaraşa tilek tilep münacat kılğanım** | **XXIV**<br>**Zamanın imamı və Allahın xəlifəsinin himmətinə yaraşır diləkdə olub minacat qılmağım** |
| 1.Ya Rab ol xanı- Süleyman-ferni<br>Ya Rab ol xusrevi- din-perverni | 1.Ya Rəbb, o Süleyman qüdrətli xanı; və o dini qoruyan padşahı, |
| 2.Ser-firaz eyle barı alemğa<br>Şah kıl xaylı beni ademğa | 2.Bütün aləmə qarşı başını ucaldaraq; insan oğullarının üstünə padşah et! |
| 3.Belki dünyide ni kim bar tamam<br>Anga kılğıl barısını in`am | 3.Bəlkə dünyada nə varsa tamam; hamısını ona et ənam! |
| 4.Koymağıl alem ilini siteme<br>Eylegil barçasını yek-kaleme | 4.Dünya xalqını zülmdə qoyma; və hamısını bir tut, |
| 5.Ta cihan adl ile mamur olğay<br>Zulmler il başıdın dur olğay | 5.Ta ki cahan ədalət ilə xoş olsun; və zülmlər xalqın başından uzaq olsun. |
| 6.Şer`ü İslam revaci tapkay<br>Xalk derdiğa ilaci tapkay | 6. İslam şəriəti rəvac tapsın; və xalq dərdinə əlac tapsın. |
| **XXV**<br>**Hazreti- İmamüz-zaman ve halifetü r-rahman Ebul-Feth Muhammed Şibani Xan Babur Mirzanı kavlap Semerkandğa kilip kapal kılğanı** | **XXV**<br>**Zamanın İmamı və Allahın xəlifəsi Əbül-fəth Məhəmməd Şeybani xan həzrətlərinin Babur Mirzəni sürgün edərək gəlib Səmərqəndi mühasirə etməsi** |
| 7.Çün basıp kavladı xan Baburnı<br>Kıldı bi-nam u nişan Baburnı | 7.Xan Baburu qovduğu zaman; onu adsız və nişansız (etibarsız) qıldı. |
| 8.Ol Semerkand sarı eyledi azm<br>Xan azimet songıça eyledi cezm | 8.O Səmərqəndə doğru yönəldi; xan isə onun ardınca getməyi qərara aldı. |

| | |
|---|---|
| 1.Ol tuşup kal`a içinde turdı<br>Xan kapap kal`asını, olturdı | 1.O, kədərlənərək qala içinə sığındı; və xan da qalasını dövrəyə alıb oturdu. |
| 2.Tozup irdi nökeri Baburnıng<br>İrip irdi cigeri Baburnıng | 2.Baburun xidmətində olanlar dağılmışdı; və Baburun ciyəri əriyib axmışdı. |
| 3.Tura almas idi ol şehrde ol<br>İrterekdin alayın didi yol | 3.O şəhərdə dura bilməyib; erkəndən yol alım, dedi. |
| 4.Bar idi şehr ara şeyxül-islam<br>Sözleri barça sakalı dik xam | 4.Şəhər içində bir şeyxülislam var idi; və sözləri həmişə saqqalı kimi xəm idi(əyri). |
| 5.Bül-mekarım idi anıng atı<br>Anga bar irdi yamanlık zatı | 5. Onun adı Bül-məkarim idi; Zatında yamanlıq var idi. |
| 6.İlmdin behresi çendan yok idi<br>Zatıda meşrebi- irfan yok idi | 6.Elmdən heç nəsibi olmadığı kimi; şəxsində də irfan məşrəbi yox idi. |
| 7.Atanıp irdi Büzurgi- eyyam<br>Hem Semerkand ara şeyxül-islam | 7.Adlandırılırdı Büzurgi-əyyam; eyni zamanda Səmərqənddə idi şeyxülislam. |
| 8.Birev anıng ivige yitkendür<br>Seri- kuyıda makam itkendür | 8.Biri onun evinə çatıb; küçəsinin başında yerləşmişdi. |
| 9.Bir zaman ol ara turğandur ol<br>Bir kişidin basa sorğandur ol | 9.Bir qədər orada durub (keçməkdə olan); bir adamdan soruşdu: |
| 10.Kim bu xod-kam ivide bar mu<br>Şeyxül-islam ivide bar mu | 10.Bu xudbin (adam) evindəmi; Şeyxülislam evindəmi? |
| 11.Ol digendür anga key nikü-nam<br>Şeyx xod bar veli yok İslam | 11.O Adam ona belə demişdi: Ey yaxşı adlı adam; Şeyx var, amma yoxdur İslam. |

| | |
|---|---|
| 1.Bü’l-mekarım ol aytkan dik idi<br>Cehl yolığa kaytkan dik idi | 1.Bül-məkarim o söyləndiyi kimiydi; və cəhalət yoluna sapmış kimiydi. |
| 2.Ol didi kim ni kılur xan bizge<br>Bolsa Babur kibi sultan bizge | 2.O dedi ki, “Xan bizim üçün nə edir, bizə Babur kimi (bir) sultan olmalı, |
| 3.Kal‘a bolsa Semerkand kibi<br>Tamlar devride Elvend kibi | 3. Qala olmalı Səmərqənd kimi; evləri yüksəlməli Əlvənd dövründəki kimi. |
| 4.Yüz ming ivlük kişi anıng içide<br>Barça yaz u kışı anıng içide | 4.Onun içində yaz-qış hər zaman; olmalı yüz min evlik insan. |
| 5.Kim bu kurğan sarı mayil bolğay<br>Meyldin anga ni hasıl bolğay | 5.Bu kurqan tərəfinə kim meyil edəcək; və (bu) meyildən nə hasil edəcək? |
| 6.Alsalar taşkı mahalletlerni<br>Yiseler andağı ni`metlerni | 6.Kənar məhəllələri alsalar; və oradakı nemətləri yesələr, |
| 7.Şehrning içi ni yitmes bizge<br>Taşkı yağı zarar itmes bizge | 7.Şəhərin içindəkilər bizə yetməzmi? Çöldəki düşmən bizə zərər verməz”. |
| 8.Her kaçan eyledi yağı tuğyan<br>Didi Derviş Muhammed Tarxan | 8.Düşmən tuğyan edəndə; Dərviş Məhəmməd Tarxan belə dedi: |
| 9.Kim Semerkand ara şah olğan<br>Şahlık tavrıdın agah olğan | 9.”Səmərqənddə padşah olan; və padşahlıq tövründən xəbəri olan, |
| 10.İkki kapka ara bi-şekk ü guman<br>Kırk yıl şahlık eyler asan | 10. İki qala arasında bişəkkü güman; qırx il padşahlıq edər asan”. |
| 11.Uşbu sözler bile Babur Mirza<br>Turdı ol şehr ara başlap ğavğa | 11.Bu söz üzərinə Babur Mirzə o şəhərdə durdu; və şəhərdə qovğa başladı. |

| | |
|---|---|
| 1.Şeyxü'l-islam alıp Mirzanı<br>Kildi şehr içre salıp Mirzanı | 1.Şeyxülislam Mirzəni alıb gəldi; və onu şəhərdə qoydu. |
| 2.Şehrning ortasıda kıldı makam<br>Şehrning xalkı bile sürdi kelam | 2.Şəhərin ortasında qərargah qurdu; və şəhər xalqı ilə danışdı: |
| 3.Didi ey xalk bilingler tahkik<br>Kim budur xan Şibaniğa tarık | 3. Dedi:"Ey xalq, doğru bilin ki;<br>Şeybani xan üçün yol budur, |
| 4.Kim bu kurğannı kolığa alsa<br>Fethning kusını munda çalsa | 4.Ki, bu kurqanı ələ keçirsə; və fəth təbilini burada çalsa, |
| 5.Bolur oğlanlaringız barça esir<br>Ağniya dağı bolur barça fakir | 5.Bütün uşaqlarınızı edər əsir; və zənginlər də tamam olar fəqir. |
| 6.Kolungızdan çıkar eyvan u saray<br>Faka vü fakr kılur sizni geday | 6.Eyvanınız və sarayınız əlinizdən çıxar; fəqirlik və sıxıntı sizi dilənçi edər. |
| 7.Bir leb nanğa bolur-siz muhtac<br>Barça ol xanğa bolur-siz muhtac | 7.Bir loxma çörəyə olarsınız möhtac; hamınız o xana olarsınız möhtac. |
| 8.Azametler barı tağyir tapar<br>Tirs tüşler barı ta`bir tapar | 8.Ucalıqlar hamısı dəyişər; pis yuxular hamısı yozular. |
| 9.Kette destarlar tüşer başlardın<br>Köz yumar-siz barıngız yaşlardın | 9.Böyük sarıqlar düşər başlardan; və gözünüzü aça bilməzsiniz yaşlardan. |
| 10.İgeçi vü singil ü ehl ü 'ayal<br>Barça Özbekke bolurlar pamal | 10.Bacı, qız uşağı, ailə və əyal; hamısı özbək tərəfindən olar pamal. |
| 11.İttifak eylengiz imdi bizge<br>Ta cefa yitmegey andın sizge | 11.Ondan (özbəkdən) bir cəfa gəlməməsi üçün sizə; hamınız qoşulun bizə. |

| | |
|---|---|
| 1.Niçe yüz Özbekni öltürdük<br>Xasmlıknı anga vacib kördük | 1.Yüzlərlə özbəyi öldürdük; və düşmənçiliyi ona vacib gördük. |
| 2.Taşkarı olturup irdi ol xan<br>Biz sizing birle kılıp şart u aman | 2.Xan şəhər xaricində olanda; biz də sizinlə (ittifaq) əmniyyət şərtlərini görüşdük. |
| 3.Uşbu Mirzanı kiçe kiltürdük<br>Şehrning ortasığa yitkürdük | 3.Budur bu Mirzəni gecə gətirdik; və şəhərin ortasına yetirdik. |
| 4.Başladuk asru köp işler amma<br>Niteli özge idi hükmi- Xuda | 4.Bir çox işə başladıq; amma xudanın hökmü başqa idi, nə edək? |
| 5.İş bu yirlerge yitiptür imdi<br>Köreli biz ni yitiptür imdi | 5.İş indi buraya gəlib yetişdi; baxaq, indi nə olacaq? |
| 6.Başımız barğuça imdi turalı<br>Her ne kilse başımızğa köreli | 6.Başımız gedənə qədər duraq; başımıza nə gələcəksə, görək"! |
| 7.Ol bu sözlerni digeç şehr ili<br>Dimegil şehr ili kahr ili | 7.O, bu sözləri söyləyincə şəhər xalqı; (ki) şəhər xalqı demə, qəhr xalqı, |
| 8.Bir yolı eylediler barça fiğan<br>Kim bu ilge kireki yok ol xan | 8.Hamısı bir ağızdan xanın bu ölkəyə; gərəyi yox, deyə fəryad etdilər. |
| 9.Her ne kim sin diseng andak kılalı<br>Kiçe kündüz kaşınga yığılalı | 9."Sən nə desən, onu edək; və gecə-gündüz hüzurunda duraq! |
| 10.Xan bile ceng ü cidal eylegeli<br>Xan bile harb ü kıtal eylegeli | 10.Xan ilə vuruşaq və mübahisə edək; Xan ilə cəng və cidal edək! |
| 11.Kal`amıznı kılalı müstahkem<br>Bolalı kal`a sarıdın biğam | 11.Qalamızı müstəhkəm edək; və qala tərəfdən qəmsiz olaq (qəmlənməyək). |

| | |
|---|---|
| 1.Kopalı kin ü nifak eylep faş<br>Kal ‘anıng merdegi sanı yüz baş | 1.Kin və nifaq ortaya çıxınca; qalanın ən kiçik mərdi yüzlərlə idi. |
| 2.Neft yağı vü kamış cem ‘ iteli<br>Bir kamış bağını yüz şem ‘ iteli | 2.Neft yağı və qamış toplayaq; və bir qamışın bağını yüz şam edək. |
| 3.Taxş-endazlarımız köpdür<br>Harb üçün sarlarımız köpdür | 3.Od atıcılarımız çoxdur ;və vuruşmaq üçün qaladan atacağımız şeylər çoxdur. |
| 4.Ol uruş birle ni iş kılğusıdur<br>İşleri barça aytılğusıdur | 4.O vurusla nə iş görərsə; işləri həmişə söylənəcəkdir. |
| 5.Darı almay bu sarılar ol xan<br>Uruş itmekliki xod ni imkan | 5.Xan bu tərəfdən qalanı almadan; vuruşması mümkün deyil. |
| 6.Kılur işi kapap olturmakdur<br>Şivesi taşkarıda turmakdur | 6.Edəcəyi şey qalanı mühasirə edib oturmaqdır; fəaliyyəti kənarda qalmaqdır. |
| 7.Kapasa hem kapasun şad bolung<br>Siz kapal bendidin azad bolung | 7.Mühasirə etsə,etsin, siz şad olun; və mühasirə bəndindən azad olun. |
| 8.Alışıp kal‘anı biz saklağalı<br>Salışıp kal‘anı biz saklağalı | 8.Əlbir olub biz qalanı qoruyaq;sizin almanıza qarşı qoruyaq. |
| 9.İtlerimizgeçe hasıl soyalı<br>İt iti yerge köngülni koyalı | 9.Ətlərimizə qədər üstümüzdə nə varsa, hamısını çıxaraq; it əti yerinə könlümüzü qoyaq! |
| 10.Angaça saklağalı kurğannı<br>Canığa yitküreli ol xannı | 10.O zamana qədər kurqanı qoruyaq; və o xanı canından edək. |
| 11.Haliya aşlığımızğa ni hasib<br>Tuzımızğa ni hasib ü ni ketib | 11.İndiki halda azuqəmiz çoxdur; və duzumuzun da hesabı yoxdur. |

| | |
|---|---|
| 1.At bile tivemiz asru köptür<br>Koy bile mivemiz asru köptür | 1. At ilə dəvəmiz olduqca çoxdur;<br>qoyun ilə meyvəmiz də çoxdur. |
| 2.Kand yise ulusumız bir yıl<br>Bu Semarkand ara bolur hasıl | 2. Xalqımız bir il qənd yesə;<br>Səmərqənd içində qənd əskik olmaz. |
| 3.Özgesidin ni hikayet kılalı<br>İmdi ayıtsang kılur işni bileli | 3. Başqasından niyə bəhs edək; indi<br>gəlin görəcəyimiz işi bilək". |
| **XXVI**<br>**Semerkand şehrining ilige Babur Mirza yalbarıp ötken kiçkenleridin sözlegeni** | **XXVI**<br>**Babur Mirzənin Səmərqənd şəhərinin xalqına yalvarıb ötüb-keçənlərdən bəhs etməsi** |
| 4.Şehr ili çün didiler bu sözni<br>Toxtata almadı Mirza özni | 4. Şəhər camaatı bu sözü deyəndə;<br>(Babur) Mirzə özünü saxlaya bilmədi, |
| 5.Yığlaban didi ki rahmet sizge<br>Tingri birsün basa kuvvet sizge | 5. Ağlayaraq dedi ki,"Afərin sizə;Tanrı<br>tükənməz güc versin sizə, |
| 6.Öbegem şahı-cihandar Timür<br>Xusrevi-ma`delet-asar Timür | 6. Əcdadım cahandar şah Timur<br>Zəmanəsinin Xosrovu Timur. |
| 7.Ötkeli yüz yıl ötüptür imdi<br>Köp il anı unutuptur imdi | 7. Həyatdan köçəli yüz il olubdur,<br>Çox adam onu unudubdur. |
| 8.Ol ırak bolsa yakınraknı körüng<br>Körgen ildin yörüben barça sorung | 8. O uzaq olsa da yaxınlarına baxın<br>Gedib o adamlardan soruşun. |

| | |
|---|---|
| 1.Kim ni türlüg idi Sultan Sa`id<br>Kim Karabağ ara boldı şehid | 1. Qarabağda şəhid olmuş; O Sultan Səid necə bir adam idi? |
| 2.Ol mening ceddim ü biçare atam<br>Andican mülkide xun-xare atam | 2.O mənim cəddim, biçarə atam;<br>Əndican şəhərində qan içən atam; |
| 3.Şahı- serdar ‘Ömer Şeyx irdi<br>Tiğı xun-bar ‘Ömer Şeyx irdi | 3.Sərdar olan Ömər Şeyx idi; qılıncı qanlı Ömər Şeyx idi. |
| 4.Abağam irdi tapıp fazlı- ehad<br>Şahı- din-perver Sultan Ahmed | 4.Dindar Şah Sultan Əhməd, əmim idi; və Allahın fəzlinə qovuşdu. |
| 5.Uşbu şehr içre toğup ulğayğan<br>Nuşı- dehr içre toğup ulğayğan | 5.Bu şəhər içində doğulub böyüyən; Dünyanın nazi-neməti içində doğulub böyüyən, |
| 6.Kırk yıl şah idi bu kişverde<br>Şahı- agah idi bu kişverde | 6.Qırx il bu ölkədə şah idi; və bu ölkədə gerçəklərdən xəbərdar bir şah idi. |
| 7.Siz anıng devride bolğan il-siz<br>Lutf u cudı bile bolğan ilsiz | 7.Siz onun dövründə olan xalqsınız; lütfünü və cömərdliyini görən xalqsınız. |
| 8.İmdi yad eylengiz ol şehlerni<br>Şahlık sırrıdın agehlerni | 8.İndi o padşahları yad edin; padşahlıq sirrini bilənləri yad edin! |
| 9.İsteben ruhlarıdın himmet<br>Tartıngız bende üçün bir zahmet | 9.Ruhlarından himmət diləyib; mən bəndə üçün də bir zəhmətə qatlanın! |
| 10.Hem alar ruhların şad kılıng<br>Hem mini kayğudın azad kılıng | 10.Onların həm ruhlarını şad edin; həm də məni qayğıdan azad edin! |
| 11.Mini bu şehrde zayi kılmang<br>Şu ‘leyi- kahrda zayi ‘ kılmang | 11.Məni bu şəhərdə zay etməyin; qəhr alovunda yox etməyin! |

| | |
|---|---|
| 1.Minde ming çağlı növker bar yok<br>Kim mening birle bolurlar aç u tok | 1.Məndə təxminən min əsgər var ya yox; və hamısı mənimlə birlikdə olur ac ya tox. |
| 2.Siz mening növkerim ümidi bile<br>Nöker ü süderim ümidi bile | 2.İndi siz mənim əsgərimlə birlik olun; nökərim və maiyətimlə bərabər olun! |
| 3.Şehrbendan u kapal eylemengiz<br>Xan bile ceng ü cedel eylemengiz | 3.Şəhəri mühasirə etməyin, xan ilə cəng və cidal etməyin. |
| 4.Ger özüngizge alur-siz işni<br>İl uluğlarğa salur-siz işni | 4.Əgər bu işi üzərinizə alsanız (görmək istəsəniz); işi ulu adamlara həvalə edin (bir də onlara məsləhət edin)! |
| 5.Min bu şehr içre kılur-min menzil<br>Yoksa fi'l-hal çıkar-min hasıl | 5.Mən bu şəhər içində mənzil edərəm; yoxsa dərhal çıxıb gedərəm". |
| **XXVII**<br>**Babur Mirza sözidin müte'essir bolup Şeyxü'l-islam ve şehr ili kal'anı birkitkenleri** | **XXVII**<br>**Babur Mirzənin sözündən mütəəssir olub Şeyxülislam və şəhər xalqının qalanı möhkəmləndirmələri** |
| 6.Ol bu sözlerni digeç yaxşı yaman<br>Yığlaban kıldılar ah u efğan | 6. O, bu sözü söyləyincə yaxşı və pis; hər kəs ağlayıb ah - fəğan etdilər. |
| 7.Didiler ey şehi- pakize-seyr<br>Sözlering kıldı köngüllerge eser | 7. Dedilər: "Ey təmiz davranışlı padşah; sözlərin könüllərə təsir etdi,. |
| 8.Şahlardın aytıp efsane<br>Eyleding bizni yene divane | 8.Padşahlardan anladaraq əfsanə; bizi yenə etdin divanə. |

| | |
|---|---|
| 9.Yad birding bu uluska ğamnı<br>Taze kıldıng yene ol matemni<br><br>10.Sin tirig bol alar kiçtiler<br>Şerbeti- camı- fena içtiler | 9.Bu ulusa xatırlatdın qəmi; və yenə təzələdin o matəmi.<br><br>10.Sən yaşa, onlar (bu dünyadan) köçdülər; fəna qədəhinin (əcəl) şərbətini içdilər. |

| | |
|---|---|
| 1.Sin alar ornıda Sultan bolğıl<br>Şeyxü'l-islam ile yaran bolğıl | 1.Sən onların yerində sultan ol; və şeyxülislam ilə dost ol! |
| 2.Ol atadur sin anıng oğlı bol<br>Kim sanga yaxşı atalık kılur ol | 2.O, atadır, sən onun oğlu ol; çünki o sənə yaxşı atalıq edər. |
| 3.Tört yüz yıl bolup irken eyyam<br>Kim alardurlar şeyxü'l-islam | 3.Onların şeyxülislamlığından (bu yana); dörd yüz il keçmişdir. |
| 4.Öbege birle atası meşhur<br>Atları barça kütübde mestur | 4.Cədləriylə atası məşhurdur; və isimləri bütün kitablarda yazılıdır. |
| 5.Biz anga bende-biz ü atamız ol<br>Defteri- mülk üze dibaçemiz ol | 5.Biz onun köləsiyik, o atamızdır; və mülk dəftəri üzərində dibaçəmizdir (başçımızdır). |
| 6.Sin takı bizge kadimi Sultan<br>Eylengiz bizge ikingiz ferman | 6.Sən də bizim qədim sultan; və ikiniz bizə edin fərman. |
| 7.Canımız barıça xıdmet kılalı<br>Xanğa izharı- adavet kılalı | 7.Canımız var olduqca xidmət edək; və xanla (Şeybani xanla) ədavət edək. |
| 8.Cem tutkıl basa bizdin xatır<br>Kim sanga kulluk iter-biz zahir | 8.Sən bizdən tamam xatircəm ol; çünki sənə, qüsursuz, qulluq edərik. |
| 9.Sin yörü Xace bile xurrem ü şad<br>Kal'anıng fikridin olğıl azad | 9.Sən xacə ilə olginən xürrəm və şad; Qalanın fikrindən də olginən azad. |
| 10.Yüz tümen xalk bu kurğan ara bar<br>Barçası sıdk bile xidmet-kar | 10.Bu kurqan içində yüz minlərlə xalq var ;və hamısı da sədaqətli, xidmətkar. |
| 11.Fariğ olsun barı nökerler hem<br>Xidmetingde barı şad u xurrem | 11.Bütün xidmətçilər də rahat olsun; xidmətində hamısı şad və xürrəm olsun. |

| | |
|---|---|
| 1.Sin kiter sözini, tilge alma<br>Xalkning canı ara ot salma | 1.Sən sözünü saxla, ağıza alma; və xalqın canına od salma. |
| 2.Ger bu sözlerge ınanmas bolsang<br>Xalk kavlığa işenmes bolsang | 2.Əgər bu sözlərə inanmasan; və xalqın sözünə güvənməsən, |
| 3.Her niçük şart diseng hem kılalı<br>Şart ile ahdnı muhkem kılalı | 3.Hər nə şərt desən onu edək; şərtə və əhdə sadiq qalaq”. |
| **XXVIII**<br>**Semerkand ili Babur Mirza bile ahd u şart kılğanları** | **XXVIII**<br>**Səmərqənd xalqının Babur Mirzə ilə əhd və şərt etmələri** |
| 4.Uşbu sözler bile ol nadan il<br>Kaysı nadan ki bölek hayvan il | 4.Budur bu sözlər ilə cahil xalq; nəinki cahil, bir dəstə heyvan xalq, |
| 5.Şartlar eylediler mustahkem<br>Kıldılar kal‘alarını muhkem | 5.Çox böyük şərtlər dedilər; və qalalarını möhkəm etdilər. |
| 6.Xan sarı hiç nazar kılmadılar<br>Cehldin işlerini bilmediler | 6.Xana doğru heç baxmadılar (Xanın sözlərinə qulaq asmadılar); və cəhalətdən nə etdiklərini bilmədilər. |
| 7.Kaldı ol şehrde Babur Mirza<br>Ğafil andın ki nidür hükmi-Xuda | 7.Xudanın hökmünün nə olduğundan qafil olan; Babur Mirzə o şəhərdə qaldı. |
| 8.Çün Semerkand işi andak boldı<br>Xalkning baxtları ivrüldi | 8.Səmərqənd işi belə olunca; xalqın taleyi döndü. |

| XXIX<br>**Semerkand kal'ası muhkem bolğandın songra Muzafferü'd-din Sultan Mahmud Buxaradın kilip uruş salğanı ve Semerkand ilining yürekin alğanı** | XXIX<br>**Səmərqənd qalası möhkəmləndirildikdən sonra Müzəffərüddin Sultan Mahmudun Buxaradan gəlib vuruşması və Səmərqənd xalqının könlünü alması** |
|---|---|
| 1.Uşbu haletde tapıp fazl vu dud<br>Kildi sultanı- dilaver Mahmud | 1.Bu durumda fəzilət və kədərli halda; qəhrəman Sultan Mahmud gəldi. |
| 2.Kim Buxarada turup kalıp idi<br>Ol tarafnı özige alıp idi | 2.Buxarada durub qalmış idi; və o tərəfı almış idi (ələ keçirmişdi). |
| 3.Şahı- dana-dil ü sultanı- ğayur<br>Kim kemin bendesi irdi fağfur | 3.O, müdrik şah və qeyrətli sultan idi; belə ki, Çin imperatoru onun dəyərsiz bir köləsiydi. |
| 4.Babur uruşıda hazır yok idi<br>Ol temaşa sarı nazır yok idi | 4.Baburun döyüşlərinə qatılmırdı; və o tamaşaya da baxmamışdı. |
| 5.Çün Semerkand işikide kildi<br>Rezmning babıda surat kıldı | 5.Səmərqənd qapısına gəlincə; savaşa hazırlandı. |
| 6.Kilgeç ok leşkerini tüzdi revan<br>Eyledi resmi- celadetni 'ayan | 6.Gəlincə şəxsən əsgərini hazırladı; və qəhrəmanlıq rəsmini (üsulunu) göstərdi. |
| 7.Xan hem anıng uruşın kö-rmek üçün<br>Kal`ağa vehmni yitkürmek üçün | 7.Xan da onun savaşını görmək; və qalaya zəhmini çatdırmaq üçün, |
| 8.Hükm kıldı ki yasansun leş-ker<br>Yasnasun cevşen u tiğ ü miğfer | 8.Əsgər hazırlansın, zireh, qılınc və dəbilqə; qurşansın, deyə əmr etdi. |

| | |
|---|---|
| 9.Boldı xan leşkeri araste hem<br>Atlanıp kildi özi hem ol dem | 9.Xan əsgəri o zaman qurşandı; və özü də o an atlanıb gəldi. |
| 10.Lik sultanı- bahadır Mahmud<br>Ağasın könglin iterge xoşnud | 10.Lakin cəsur Sultan Mahmud; qardaşının könlünü etmək üçün xoşnud, |
| 11.Rast xendek yakasığa yitti<br>Şehr ilining yürekin iritti | 11. Birbaşa xəndək kənarına getdi; və şəhər xalqının ürəyini əritdi. |

| | |
|---|---|
| 1.Şehr ili körgeç anıng ol kilişin<br>Bile almay basa ol xalk işin | 1.Şəhər xalqı onun o gəlişini görüncə; haqq işinin nə olduğunu heç bilmədi. |
| 2.Şeyxü'l-islam sarı bardılar<br>Şehrning xalkı barı bardılar | 2.Şəhər xalqının hamısı; Şeyxülislama doğru getdilər. |
| 3.Kim uruş kildi nidür fermanıng<br>İvde olturma eger bar canıng | 3.Dedilər:"Döyüş başladı, nədir fərmanın?; Evdə oturma, əgər varsa canın". |
| 4.Şeyxü'l-islam revan atlandı<br>Yığıban ilni besi katlandı | 4.Şeyxül-islam dərhal atlandı; xalqı yığıb hər əzaba qatlandı. |
| 5.On ming ademni alıp çıktılar<br>Lik Mirzanı salıp çıktılar | 5.On min adam alaraq çıxdılar; ancaq Mirzəni qoyub çıxdılar. |
| 6.Ekseri cibelik ü cevşenlik<br>Çarxdın körmegen il tevsenlik | 6.Əksəri qalxanlı və zirehli xalqın; ancaq fələkdən qorxusu olmayan xalqın; |
| 7.Kimde kim cibe vü cevşen yok idi<br>Xud u kalkan bile köngli tok idi | 7.Kimdə ki, dəbilqə və qalxan yox idi;ona əhəmiyyət vermirdi. |
| 8.Kim idi oksız u yasız ol ara<br>Bar çirig barısı ser-ğavğa | 8.Orada oxsuz və yaysız olan kimsələrin hamısı; vuruşun ön cərgəsində idi. |
| 9.Çirigi çıktı aytıp bolmas<br>Ol çirig vasfıda til ivrülmes | 9.Əsgəri elə şəkildə irəli çıxdı ki; o əsgərin vəsfində söz tapmaq olmur. |
| 10.Barça rezmaver ü barça pürdil<br>Barçası rezm işige mayil | 10.Hamısı cəngavər və hamısı ürəkli idi; hamısı döyüşə istəkli idi. |
| 11.Barçası 'arbede-saz u şağrağ<br>Barça cimri vü barı kızıl ayağ | 11.Hamısı davakar və cəsarət sahibi idi; hamısı soysuz; və hamısı qızıl ayaqlı (heyvan otaran) idi. |

| | |
|---|---|
| 1.Hiç kaysığa ölümdin ğam yok<br>Hiç kaysığa ğamı- matem yok | 1.Heç birində ölümdən (yana) qəm yox idi; və heç birində matəm kədəri yox idi. |
| 2.Yügrüşüp çıktılar ol cemi-kesir<br>Uruş eylergeçe burna vechi- pir | 2.Bu işin piri kimi vuruşmaq üzrə; o izdihamlı camaat qaçışaraq çıxdı. |
| 3.Tamları bar idi şehr allıda<br>Her sarı yar idi şehr allıda | 3.Şəhərin ön (giriş) hissəsində evləri vardı; və şəhərin hər tərəfi yarğan idi. |
| 4.Lik sultan çirigi taymadı hiç<br>Niçe kim bar idi yir pür-xam u piç | 4.Hər nə qədər döyüş meydanı dərə-təpə, kələ-kötür idi isə də; sultanın əsgəri heç çətinlik çəkmədi. |
| 5.Çaptılar barça yayaka utru<br>Kırdılar kızıl ayaknı asru | 5.Piyadalara qarşı atlarını sürdülər; və çox qızıl ayağı (çoban) qırdılar. |
| 6.Kaysınıng kögsi çapılğan boldı<br>Kaysınıng köngli açılğan boldı | 6.Bəzisi köksündən vurulmuşdu; və bəzisinin bağrı açılmışdı (ürəyi çölə çıxmışdı). |
| 7.Kaysınıng boynı revan çapıldı<br>Kara başı tenedin ayrıldı | 7.Bəzisinin boynu dərhal vuruldu; və qara başı bədəndən ayrıldı. |
| 8.Kim ki xendak tapa kıldı ğavğa<br>Ot bile tüşti revan xendak ara | 8.Xəndəyə doğru vuruşanlar; dərhal xəndəyə atəşlə düşdülər. |
| 9.Ol ki xendakdın ozup kildi bu yan<br>Kurıtıp ok ata aldı meydan | 9.Xəndəkdən keçib bu yana gələnlər; ox ataraq meydana çıxdılar. |
| 10.Özbek anıng sarı çapkaç fi`l-hal<br>Boldı atnıng ayağıda pamal | 10.Özbəklər o tərəfə hücum edər-etməz; at ayağı altında qaldılar. |
| 11.Takatı kalmadı kaçmak birle<br>Kutula almadı kaçmak birle | 11.Qaçmağa taqətləri belə qalmadı; və qaçmaqla qurtula bilmədilər. |

| | |
|---|---|
| 1.Gerçi xendakka yite almadı xan<br>Kanı xendak tarafı boldı revan | 1.Hərçənd ki, xan xəndəyə çata bilmədi; (amma) qanı xəndək tərəfinə axdı. |
| 2.Boldı xendak yakasıda ol uruş<br>Birmedi cimri kazaklarğa turuş | 2.Döyüş xəndək ətrafında oldu; və soysuz soyğunçulara aman vermədi. |
| 3.Ança kan aktı ki xendak fi`l-hal<br>Boldı cimri kanıdın mal-a-mal | 3.Elə qan axdı ki, o soysuzların; qanından xəndək tamam doldu. |
| 4.Ölgeni taşkarı öküldi tamam<br>Kalğanı hem yaralığ boldı tamam | 4.Ölənlər tamamilə çölə yığıldı; qalanı da yaralı idi. |
| 5.Şeyxül-islam ü yaman u yaxşı<br>Tüfek ü navek ü ra`d u taxşı | 5.Şeyxülislam, pis-yaxşı; tüfəng və nizə atan, gurlayan hər kəs, |
| 6.Boldılar barçaları na-peyda<br>Tuttılar şehr içinde me`va | 6.Tamamilə yox oldular; və şəhər içinə sığındılar. |
| 7.Kaçıban kirgüçe il şehr içige<br>Şehr yok kafileyi- kahr içige | 7.Xalq, şəhər içinə, şəhər deyil; qəhr qafiləsi içinə qaçaraq girincə, |
| 8.Ayak astıda yıkıldılar köp<br>Can veda`ın takı kıldılar köp | 8.Çoxu ayaq altında yıxıldı; və canlarına hamısı vida etdilər. |
| 9.Boldı ol kavmğa lazım nikbet<br>Boldı sultanğa mülazım nusret | 9.O qövm fəlakətə düşdü; Sultan isə zəfərə qovuşdu. |
| 10.Kildi xan allığa sultanı-xoş-dil<br>Rezmdin kamını eylep hasıl | 10.Savaşdan umduğunu əldə edən xoş könüllü Sultan; xanın hüzuruna gəldi. |
| 11.Didi sultanı- Mesiha-kirdar<br>Yok idi tura vü şatu tayyar | 11. Belə dedi: “Ey Məsih kimi iş görən Sultan; mancanaq və nərdivan hazır deyildi, |

| | |
|---|---|
| 12.Yoksa xan devletidin uşbu zaman<br>Bar idi kal`ağa çıkmak asan | 12.Yoxsa xanın dövlətindən; bu zamanda qalaya çıxmaq asan olardı”. |
| 13.Eylegeç arz bu sözni xanğa<br>Aferinler diben ol sultanğa | 13.Bu sözü söyləyincə xana; o, «afərin», dedi Sultana. |

| | |
|---|---|
| 1.Eyledi xanı- Şibani ferman<br>Kim anıng leşkeridin yaxşı yaman | 1.Şeybani xan fərman etdi ki; onun əsgərindən pis-yaxşı kim varsa, |
| 2.Kal`anıng devrini birkit-sünler<br>Uruş esbabını cem itsünler | 2.Qalanın ətrafını möhkəmlətsinlər; və döyüş hazırlığını görsünlər! |
| 3.Çün bu yarlığnı işitti leşker<br>Hükmning yosunı birle yek-ser | 3.Əsgər bu buyruğu eşidəndə; hökmün gərəkdirdiyi şəkildə tamamilə, |
| 4.Tüz yağaçlarnı kisip sayladılar<br>Turanıng fikrini hem eylediler | 4.Düz ağacları kəsib seçdilər; və mancanaq üçün gərəyini yerinə gətirdilər. |
| 5.Çün yağaç şatu üçün sayladılar<br>Şatu esbabını cem eylediler | 5.Mancanaq üçün ağac seçdikdən sonra; düzəltmək üçün lazım olanı bir yerə yığdılar. |
| 5.Bu bahane bile çerxi- gerdan<br>Asru köp bağnı kıldı viran | 6.Bu bəhanə (məqsəd) ilə dönən fələk; bir çox bağları viran etdi. |
| 7.Bağlarda yasağan menziller<br>Kim uluska bar idi mahfiller | 7.Bağlarda düzəlmişdi mənzillər; ulus üçün vardı məclislər. |
| 8.Barçasınıng işikini alıban<br>Tam ile taşlarığa ot salıban | 8.Hamısının qapısını zəbt edərək; və dam - daşlarına od salaraq, |
| 9.Asru ziba turalar kıldılar<br>Xan konuşığa alıp kildiler | 9.Çox gözəl mancanaqlar düzətdilər; və xanın düşərgəsinə alıb gəldilər. |
| 10.Şatu vü tura firavan boldı<br>Şehr ehliğa nümayan boldı | 10.Nərdivan və mancanaq çox oldu; və bunu şəhər xalqı gördü. |
| 11.Bir tura boldı kişi başığa<br>Tura öküldi kişi başığa | 11.Adam başına bir nərdivan topladılar; nərdivan sayı çox oldu. |

| | |
|---|---|
| 1.Tigdi bir onğa basa on şatu<br>Koydılar kal`a tamığa utru | 1. On nəfərə on nərdivan düşdü; və onları qala divarına dayadılar. |
| 2.Uruşurğa barı leşker mayil<br>Uruşup kam iteli dip hasıl | 2.Vuruşub istəyimizə qovuşaq deyən; bütün qoşun döyüşməyə meyilli idi. |
| 3.Likin ol xanı- Sikender-pişe<br>Kıldı öz özi bile endişe | 3.Fəqət o İsgəndər davranışlı xan; öz-özünə fikir etdi. |
| 4.Didi könglide ki uşbu kurğan<br>Çarxnıng kal`asın eyler pinhan | 4.Ürəyində dedi ki: "Bu kurqan fələyin qalasını gizləyər. |
| 5.İli asru mütemevvildürler<br>İl uluğı müteccemmildürler | 5. Xalqı çox mal sahibidir; xalqı və uluları gözəldirlər. |
| 6.Uşbu kurğan içide uşbu zaman<br>Yüz ming ivlük kişi bardur asan | 6.Bu kurqan içində, bu zamanda; rahatlıqla yüz min evlik insan vardır. |
| 7.Barçası taş atarlar ok hem<br>Tutuban kal`alarını muhkem | 7.Qalalarını möhkəm qoruyaraq; hamısı daş və ox atarlar. |
| 8.Kırlışıp ehl ü ayal üstide<br>Ölüşürler basa mal üstide | 8.Xalq və ailələr üst-üstə qırılıb; hamısı mal üstündə ölərlər. |
| 9.Bizge yok hiç tarafdın teşviş<br>Kapamakdın basa yok yaxşırak iş | 9.Bizə heç bir tərəfdən əndişə yox; və mühasirə etməkdən daha yaxşı iş yox. |
| 10.Taşkarı mive vü aşlık bisyar<br>Her ni leşkerge kirek bar tayyar | 10.Ətrafda meyvə və ərzaq çoxdur; və əsgər üçün nə gərəksə hazırdır. |
| 11.Uşbu kurğannı kapap olturalı<br>Her ne kim kilse Xudadın köreli | 11.Bu kurqanı mühasirə edib oturaq; və Allahdan nə gəlirsə görək"! |

| | |
|---|---|
| 1.Uşbu endişe bile hazreti- xan<br>Turdı vü kıldı çirikke ferman | 1.Xan həzrətləri bu düşüncə ilə qalxdı; və əsgərinə fərman etdi ki, |
| 2.Kim kapap kal`anı oltursunlar<br>İvlik il ivini kiltürsünler | 2.Qalanı mühasirə edib otursunlar ;və evli olan adamları (hər kəsi) gətirsinlər! |
| 3.Uşbu yarlığ bile leşker bisyar<br>Boldı xan hazretidin şükr-güzar | 3.Əsgər bu əmrdən ötrü; xan həzrətlərinə çox təşəkkür etdi. |
| 4.İvlerin kitürüp olturdılar<br>Xanları hükmi bile turdılar | 4.Çadırlarını (evlərini) söküb oturdular; və xanlarının əmri ilə durdular (gözlədilər). |
| 5.Eyleben bağlar içre menzil<br>Kıldılar kamlarını hasıl | 5.Bağlar içində yerləşərək; arzularına çatdılar. |
| 6.Miveler yitti vü ğam kitti barı<br>Bir birining songıdın yitti barı | 6.Meyvələr gəldi və qəm tamamilə yox oldu; hamısı bir-birinin ardınca yetişdi. |
| 7.Tut bisyar nümayan boldı<br>Örük ü alma firavan boldı | 7.Çox tut gözə dəyirdi; ərik və alma bol idi. |
| 8.Boldı bisyar üzüm birle kavun<br>Her biri dip ki mining birle avun | 8.Çox üzümlə qovun var idi; və hər biri mənimlə ovun deyir idi (hamısı məni ye deyər kimiydi). |
| 9.Boldı asude bahaud-dini<br>Barça ağzıda anıng tahsini | 9.”Bahauddini” adlı üzüm növü rahatlıqla əldə edildi; hər kəsin ağzında onun mədhi vardı. |
| 10.Üzümidin hem olay nükte-güzar<br>Ki anı hem dimek irür na-çar | 10.Üzümündən də nüktə söyləndi; onu söyləməkdən başqa çarə yoxdu. |
| 11.Surxek atlık üzümi dil-keş idi<br>La`l yek-danesi asru xoş idi | 11.”Surxək” adlı üzümü çox dilkeş idi;və “Ləli-yekdanə”sinin də çox xoş zamanı idi. |

| | |
|---|---|
| 1.Sahibi cilvede bostan içide<br>Kan yutup sahibi kurğan içide | 1.Sahibi bostan içində dolanmaqdaydı; və kurqan içində qan udmaqdaydı (dərd çəkirdi). |
| 2.Yene bir üzümi bi-dane idi<br>Suyı bisyar hekimane idi | 2.Yenə bir üzümü çəyirdəksiz idi; və suyu həkimlərcə çox məqbul idi. |
| 3.Nar reng alğaç naristanğa<br>Tüşti ot ğussasıdın kurğanğa | 3.Nar bağçası atəş rəngli olunca; kurqana kədərdən atəş düşdü. |
| 4.Taşkarı abiler olğaç xoş-buy<br>Boldılar şehr ili abı- ruy | 4.Çöldə heyvalar xoş qoxulu olunca; şəhər xalqının üz suyu (öyüncü) oldu. |
| 5.Taşkarı bağlar içre enhar<br>İçkeri susız ulus yığlap zar | 5. Çöldə bağçalar içində çaylar var idi; içəridə susuz millət inləyərək ağlamaqda idi. |
| 6.Asru mamur vilayet irdi<br>Açlık anda ni hikayet irdi | 6.Çox abad vilayət idi; və aclıq orada nə hekayət idi (aclıqdan bəhs edilməzdi). |
| 7.İçkeri ğayr min divane<br>Kimde kim bar idi bir virane | 7.İçəridə dəlidən başqa (Bül-Məkarim) kimsə yoxdu;və o bir viranədə oturmağa məcburdu. |
| 8.Taşkarı hem bar idi bir bağı<br>Biri ol ayş u tena`um çakı | 8.Çöldə də çox gözəl bir bağ vardı; və bu eyş-nuş çağı idi. |
| 9.Bağ arasında akar irdi su<br>Suyı raxşende niteg kim közgü | 9.Bağ arasında su axardı; və su ayna kimi parlaq idi. |
| 10.Bir sarı bar idi naristani<br>Bir sarı bağ u baharistani | 10.Bir tərəfi narlıqdı; bir tərəfi də bağ və yaşıllıqdı. |
| 11.Yene bir canibide sibistan<br>Yene bir canibi kasr u eyvan | 11.Yenə bir tərəfində almalıq vardı; və bir tərəfində də köşk və eyvan vardı. |

| | |
|---|---|
| 1.Kasrınıng allıda havzı- dilber<br>Nazenin eyle ki havzı- kevser | 1. Köşkünün önündə gözəl bir hovuz vardı; o qədər zərif idi ki, kövsər hovuzunu andırırdı. |
| 2.Havzınıng tigre yanı taze öleng<br>Her sarı bi-hadd u endaze öleng | 2.Hovuzunun çevrəsi çox təzə çəmənlik idi; Hər tərəfi çoxlu yaşıllıq idi. |
| 3.Yaz açılğaç çıkıban xaceyi-bağ<br>Dostlar birle kılur irdi ferağ | 3.Yaz gəlincə bağın sahibi çıxıb; dostları ilə səfa sürərdi. |
| 4.Uşbu bağ içre içer irdi şarab<br>Kaz ile turna kılur irdi kebab | 4.Bu bağ içində içərdi şərab; qaz və durnadan edərdi kabab. |
| 5.Üzümidin ne ki bolsa hasıl<br>Xaceyi- bağperest cahil | 5.Üzümündən nə ki hasil olsa; bağa düşkün cahil olan sahibi, |
| 6.Küp yarımını çağır koyar idi<br>Çağırıdın it ü kuş toyar idi | 6.Küpü yarısına qədər şərab doldurar idi; və şərabından it və quşlar doyar idi. |
| 7.Kalğanın sirke vü düşab kılıp<br>İvining ayşığa esbab kılıp | 7.Qalanını sirkə və doşab edib; evinin yeməyi üçün tədarük edərdi. |
| 8.Mivelerni kezek eyler irdi<br>Özge her ni kirek eyler irdi | 8.Meyvələri məzə edər idi; və başqa nə gərəkli olsa edər idi. |
| 9.Taşır irdi ivige bağıdın<br>Kışkaça rast üzüm çağıdın | 9.Üzüm zamanından qışa qədər; bağından evinə daşıyar idi. |
| 10.Mivelerdin bilip asayişi- can<br>İvini eyler idi bağistan | 10.Can hüzurunu meyvələrdən bilib; evini bağ halına gətirmişdi. |
| 11.Ol taşır fırsat ara mivesini<br>Aciz eylep yük ile tivesini | 11.Dəvəsini yüklə aciz edər, fürsət tapıb meyvəsini daşıyar idi. |

| | |
|---|---|
| 1.Tevekidin tüşse idi bir alma<br>Kulığa dir idi anı salma | 1.Budağından bir alma düşsəydi;<br>nökərinə onu buraxma, deyərdi. |
| 2.Bi-nevayi eger olsa bimar<br>Tilese xidmetidin bir tek nar | 2.Əgər bir zavallı xəstələnsə; və ondan bir tək nar istəsə, |
| 3.Yüz xuşunet kılur irdi ağaz<br>Bolur irdi ğazabı dur u dıraz | 3.Yüz bəhanə edərdi; çox tez-tez qəzəblənərdi. |
| 4.Bağ ara mive çağı bu idi hal<br>İvge kirgende ni bolğay ahval | 4.Bağda meyvə çağı bu idi vəziyyət-hal; və evə girəndə nə olacaq idi əhval. |
| 5.Hergiz itmes idi ol şum-lika<br>Tingri nimetlerining şükri eda | 5.O bədsifət adam; Tanrının verdiyi nemətlərə əsla şükür etməzdi. |
| 6.Köprek il bile bolup irdiler<br>Kim uşol kal`a ara kirdiler | 6.Çox adam elə idi; və qalaya girən xalqla birlikdə idi. |
| 7.Nefs alarğa çü kılıp irdi hücum<br>Boldılar nimeti- Hakdın mahrum | 7.Nəfs onlara hücum edəndə (nəfslərinə uyanda); Allahın nemətindən məhrum qaldılar. |
| 8.Ni`met ol irdi ki ol ni`met ara<br>Şükri- ni`metni kılıp barça eda | 8.Nemət o idi ki, Allah hər nemət verdiyi zaman; o nemətə şükür etmək gərəkdir. |
| 9.Bi-nevalarğa neva-saz kılıp<br>İhtiyac ehliğa i`zaz kılıp | 9.Zavallıların dadına çatsınlar,<br>Ehtiyac əhlinə hörmət göstərsinlər. |
| 10.Bir sarı irdi barığa nimet<br>Körsetip Tingri yolıda himmet | 10.Bir tərəfi hamıya nemət idi<br>Ki,tanrı yolunda həmrəy olsunlar. |
| 11.Çünki bu işni kıla almadılar<br>Tingri yolı sarı köz salmadılar | 11.Bu işi edə bilmədikləri üçün<br>Tanrı yolundan azdılar. |

| | |
|---|---|
| 1.Tingri ol kavmnı andak kıldı<br>Kim alar başığa bu kün kildi | 1.Tanrı o qövmü elə etdi ki; onların başına bu gün də gəldi. |
| 2.Kim irür taşkarı xurrem bağat<br>Cari bağat ara ab-ı hayat | 2.Çöldə gözəl bağlar və bağlar içində; axan abi-həyat vardı. |
| 3.Miveler barça bişip taze vü ter<br>Bi-neva ağzığa layık yek-ser | 3.Meyvələr hamısı yetişmiş, təzə və tər idi; hamısı möhtacların ağzına layiq idi. |
| 4.Ol cema `at kapalıp kurğanda<br>Bir havuç suyğa muhtac anda | 4.O camaat kurqanda qapanıb (mühasirədə) qalanda; bir ovuc suya möhtac oldu. |
| 5.Mivening hasretidin canları kan<br>Mivening körmeki xod ni imkan | 5.Meyvənin həsrətindən canları idi qan; və onların meyvəni görməsinə yox idi imkan. |
| 6.Hazreti- xan çirigi xurrem ü şad<br>Fikr ü enduh suzıdın azad | 6.Xan həzrətlərinin əsgərləri şən və şad idi; düşüncə və əndişə atəşindən azad idi. |
| 7.Bağlar içre kılıp ayş u neşat<br>Töşüben sebzesidin sebz bisat | 7.Bağlar içində yeyib-içib nəşələndilər; və yaşıllığından yaşıl bir döşək yaydılar. |
| 8.Mivelerdin tüzüp esbabı- ferağ<br>Cenneti her birisige bir bağ | 8.Meyvələrdən rahatlıq hasil olub; hər birinə cənnət kimi bir bağ düşdü. |
| **XXX**<br>**Semerkand ili açlığıdın ğıl`alamuslıkka çıkıp kulak burunlarını kistürgenleri** | **XXX**<br>**Səmərqənd xalqının aclıqdan oğurluğa çıxıb qulaq və burunlarının kəsilməsi** |
| 9.Taşkarı mive çü bisyar oldı<br>İçkeri xalk dil-efkar oldı | 9.Çöldə meyvə çox oldu; içəridə isə xalqın könlü yaralı oldu. |
| 10.Taşkarı mive seraser bişti<br>İçkeri açlığıdın il şişti | 10.Çöldə başdan-başa meyvə yetişdi, içəridə də xalq acından şişdi. |

| | |
|---|---|
| 1.Akibet kalmadı namus ilge<br>Boldı ğavğayı- ğılamus ilge | 1.Nəticədə xalqın namusu qalmadı; və xalq oğurluq davasına girdi. |
| 2.Oğrılap mive yigeç bir neçeler<br>Fevc fevc il çıkar irdi keçeler | 2.Yığın-yığın xalq gecələri qala xaricinə çıxardı; bir çoxları meyvə aşırıb yeyərdi. |
| 3.Çün ğalamus ili bibak oldı<br>Tive atğa tama`nak oldı | 3.Oğrular qorxusuz olduğu üçün; dəvə (və) ata tamah etdilər. |
| 4.Taşda saklav yörüte başladılar<br>Angdıp ol ilni tuta başladılar | 4.Çölə doğru lağım qazmağa başladılar; və o xalqı pusquya yatıb tutmağa başladılar. |
| 5.Kim ki tüşti kazak ilgige burun<br>Birdi berbad kulak birle burun | 5.Kim əvvəl soyğunçuların əlinə düşdü;onlar  qulaq ilə burunlarından oldu. |
| 6.Hasıla özge çıka almadılar<br>Kal`adın özlerini salmadılar | 6.Hasili, başqa yerə çıxa bilmədilər; və qaladan özlərini çölə ata bilmədilər. |
| **XXXI**<br>**Babur Mirza kömekige Xanike xan ve Tenbel çirig tartıp kilip yene korkup yoldın kaytkanları** | **XXXI**<br>**Babur Mirzənin köməyinə Xanikə xan və Tənbəlin əsgər toplayıb gəlmələri və qorxub yoldan dönmələri** |
| 7.Çün basıldı neçe kün bu ğavğa<br>Bu xaber şehr ara boldı peyda | 7. Bu dava çox uzun müddətə basdırıldığı üçün; bu xəbər şəhərə yayıldı. |
| 8.Kim yörüp Xanike kilgen boldı<br>Mülki- Dizzak çirigidin toldı | 8. Xanikə yürüyüb gəldi; və Dizzaq mülkü əsgəri ilə doldu. |
| 9.Boldı Baburğa meded-kar ol xan<br>Bolğusı şehr ilige yar ol xan | 9. O xan Babura kömək edib; şəhər xalqına dost oldu. |

| | |
|---|---|
| 1.İttifak eyledi Tenbel hem anga<br>Şart sözini didi muhkem anga | 1.Tənbəl də ona qatıldı; və şərt sözünü ona mütləq şəkildə bildirdi. |
| 2.Ol dağı Isparadın artıldı<br>Andican leşkerin alıp kildi | 2.O da İsparadan ayrıldı; və Əndican əsgərini alıb gəldi. |
| 3.Şeyxül-islam sevindi bisyar<br>Kıldı bisyar sevinmek izhar | 3.Şeyxülislam çox sevindi; və çox sevindiyini göstərdi. |
| 4.Şadyane kusını çaldurdı<br>Özni mirza kaşığa yitkürdi | 4.Şad olub təbilini çaldırdı; və Mirzənin hüzuruna özünü yetirdi. |
| 5.Boldılar barça şad u xoşhal<br>Kıldılar aklsız il bile xayal | 5Hamısı xoşbəxt olub nəşələndilər; ağılsız xalqı düşündülər. |
| 6.Kim kilip Xanike birle Tenbel<br>Xan bile kılğusılar barça cedel | 6.Ki, Xanikə ilə Tənbəl gəlib; Xan ilə döyüşə girəcəklər. |
| 7.Şehr ili bu xaberdin xoşhal<br>Lik xanıng çirigi fariğ-bal | 7.Şəhər xalqı bu xəbərdən şad oldu; lakin Xanın əsgəri də rahatladı. |
| 8.Bu xaberni işitip hazreti- xan<br>Didi bolsa manga lutfı- Yezdan | 8.Xan həzrətləri bu xəbəri eşidincə; dedi: “Mənə Allahın lütfü kömək olsun. |
| 9.Yüz anıng dik kişi düşmen bolsa<br>Belki düşmendin alem tolsa | 9.Onun kimi yüz dənə düşmən olsa; və bəlkə düşməndən aləm dolsa, |
| 10.Manga düşmen sarıdın ğam yoktur<br>Dost lutfı bile könglüm toktur | 10.Mənə düşmən tərəfindən qəm yoxdur; və dost lütfü ilə könlüm toxdur”. |
| 11.Fariğ uşbu söz ile olturdı<br>Kapal itmekni münasib kördi | 11.Bu söz ilə rahat olub oturdu; və qalanı mühasirə etməyi uyğun bildi. |

| | |
|---|---|
| 1.Dimedi kim bu xaber bar ya yok<br>Xan u Tenbeldin eser bar ya yok | 1.Bu xəbərin varlığı və yoxluğu haqqında; və Tənbəldən əsər olub-olmadığı haqqında söz etmədi (məlumat vermədi). |
| 2.Xan çirigige yakınrak kilgeç<br>Xannıng ol olturuşını bilgeç | 2.Xan əsgərinə yaxınlaşanda; və Xanın orada yerləşdiyini biləndə, |
| 3.Ol ikev hem birige almadılar<br>Dostluk nevbetini çalmadılar | 3.ikisi də bir-birinə yaxınlaşmadılar; və dostluq təbilini çalmadılar (dostluq münasibəti qurmadılar). |
| 4.Yandılar yirlerige ayrılaşıp<br>Içdeki kinelerini bilişip | 4.İçəridəki kinlərini bilib; ayrılaraq yerlərinə qayıtdılar. |
| 5.Xan yakınrak sığına tüşti yene<br>Turdı ol kal`a ilige itına | 5.Xan yenə kurqanın yaxınına sığındı; və o qala xalqına etina etdi. |
| 6.Özge her kün uruş irdi vü kıtal<br>Boldı xan kullarığa defi- melal | 6.Hər gün döyüş və qətl vardı; Xanın qulları məlaldan qurtuldular. |
| 7.Altı ay çikti bu kurğan kapalı<br>Bolmadı hiç tarafdın xalı | 7.Kurqan altı ay mühasirədə qaldı; və heç bir tərəfdən nəticəsi olmadı. |
| 8.Xalk feryad kıla başladılar<br>Kal`adın özlerini taşladılar | 8.Xalq fəryad etməyə başladı; və özlərini qaladan çölə atdılar. |
| **XXXII**<br>**Semerkandnıng yayağ ve atlığı yasanıp kal`adın çıkkanları**<br>9.Nagehan bardı birev taşkarıdın<br>Şehr sarı ki bilür-men barıdın | **XXXII**<br>**Səmərqəndin piyada və atlısının hazırlanıb qaladan çıxması**<br>9.Qəflətən şəhərdə nə olub-bitdiyini bilən; biri kənardan gəldi. |
| 10.Kalmadı xan çirigige Özbek<br>Bardı bisyar il endek endek | 10.Dedi:"Xanın ordusunda özbək qalmadı; yavaş-yavaş bir çox xalq ayrılıb getdi. |

| | |
|---|---|
| 1.Kaysı Kufin ü Feraxeyn kitti<br>Kaysı Xarkan u Hezare yitti | 1. Bəzisi Küfeyn və Feraheynə getdi;bəzisi Xarkan və Həzarəyə çatdı. |
| 2.Kaysı Kerminege tüzdi aheng<br>Kıldı şahane bisat u evreng | 2.Bəzisi Kərminə yolunu tutdu; şahlara layiq büsat qurdu. |
| 3.Kaysı yol saldı Buxara sarı<br>Kaysı hem közledi andın narı | 3.Bəzisi Buxara tərəfə yol aldı; bəzisi də daha irəlini hədəflədi. |
| 4.Kaysı Karşı bile Kişke bardı<br>Mal ğayib dip ilin axtardı | 4.Bəzisi Karşı və Keşə getdi; mal itib deyə hər kəsi axtardı. |
| 5.Xan kaşıda kişi az kalıptur<br>Kalğanı dağı köngül salıptır | 5.Xanın yanında az adam qalmışdı; və qalanı da incimişdi" (küsmüşdü). |
| 6.Şeyxül-islam bu söznü bilgeç<br>Didi mirzağa bu söznü yitgeç | 6.Şeyxülislam bu xəbəri öyrənincə; gedib Mirzəyə eşitdiklərini söylədi. |
| 7.Yığdılar şehr ilini yekser<br>Didiler kim budur imdi xaber | 7.İndi xəbər budur deyərək; şəhər əhlini tamam topladılar. |
| 8.Şehrning bir niçe bi-bakleri<br>Kişi bolurğa hevesnakleri | 8.Şəhərin bir çox qorxusuzları; və özlərini göstərməyə həvəsliləri |
| 9.Didiler biz yığalı çalak il<br>Laubali-sıfat u bibak il | 9.Dedilər ki, "Biz qoçaq adamları; laubali və qorxmazları toplayaq. |
| 10.Şeyxül-islam bile mirza siz<br>Kal`a üstide temaşa kılıngız | 10.Siz Şeyxülislam ilə Mirzə; qala üstündə tamaşa edin. |
| 11.Biz çıkıp rezm iteli xan birle<br>İşingizni kılalı can birle | 11.Biz gedib xanla vuruşub; işinizi can bahasına görək. |

| | |
|---|---|
| 1.İmdi kim az kalıptur leşker<br>Çıkıban körseteli xanğa hüner | 1.İndi az (sayda) əsgər qalmışdır; çıxıb Xana hünər göstərək”. |
| 2.Şeyxül-islam ile Mirza bisyar<br>İl ara şadlık eylep izhar | 2.Şeyxülislam ilə Mirzə xalq arasında; şadlıq izhar etməkdədir. |
| 3.Didiler yaxşı kingeşdür uşbu<br>Yakadur eser ü köngülge asru | 3.Dedilər:”bu yaxşı məsləhətdir; könlümüzə çox uyğundur |
| 4.Kılsangız rezm çıkıp taşkarı siz<br>Kılalı sizge inayetler biz | 4.Çölə çıxıb vuruşsanız; biz sizə kömək edərik”. |
| 5.Uşbu söz birle uşol bi-bak il<br>Dime bi-bak bes çalak il | 5.Bu söz üzərinə o qorxmaz xalq; qormaz demə, çox cəngavər xalq, |
| 6.Taptılar özleri yanglığ bisyar<br>Barça tir-efgen ü cüst ü cerrar | 6.Özləri kimi bir çox kimsə tapdılar; hamısı da oxçu və çevik, donanımlı kimsə idi. |
| 7.Çıktılar şehrdin andak kim berk<br>Boluban cibe vü cevşen ara ğark | 7.Qalxan və zirehə bürünmüş olaraq; ildırım kimi şəhərdən çıxdılar. |
| 8.Boldı Mirza kişisige namus<br>Didiler barça dirig ü efsus | 8.Mirzənin adam(ları) bu vəziyyətdən utandılar; hamısı eyvah, əfsus dedilər: |
| 9.Kim bu il çağlı bola almay-biz<br>Neng ü nam ile ola almay-biz | 9.Bu xalq kimi olmadıq, ad və san ilə olmadıq. |
| 10.Mingçe yaxşı kişi kalıp irdi<br>Kim barı rezmğa talib irdi | 10. Minə qədər yaxşı adam qalmış idi; Hamısı da vuruşmağa istəkli idi. |
| 11.Çıktı ol mingçe kişi atlanıban<br>İş kılurğa barısı katlanıban | 11. O minə qədər adam atlanaraq qalanın çölünə çıxdı. Hamısı iş görməyə cəhd etdi. |

| | |
|---|---|
| 1.Tuttı mirza bile şeyxül-islam<br>Şehr dervazesi üstide makam | 1.Mirzə ilə Şeyxülislam şəhərin; qapısı üstündə qərar tutdular. |
| 2.Çıkarıp ilni yörüttiler tiz<br>Yene her fitneni eylep engiz | 2.Hər fitnəyə baş vuraraq; tezliklə o xalqı çıxarıb göndərdilər. |
| **XXXIII**<br>**İmamü z-zaman ve xalifetü r-rahman ve Hamza Sultan ve Muzafferü d-din Sultan Mahmud bahadır çapa alarğa utru barğanları** | **XXXIII**<br>**Zamanın İmamı, Allahın xəlifəsi və Həmzə Sultan və Müzəffərüddin Sultan Mahmud Bahadırın çaparaq onlara doğru gəlmələri** |
| 1.Olturup irdi ferağat bile xan<br>İvlik ivide takı her sultan | 1.Xan, xalq və bütün sultanlar; rahat bir şəkildə oturmaqda idilər. |
| 2.Kim süren şehr sarıdın kildi<br>Taşkı il barça bu işni bildi | 2.Şəhər tərəfindən bu məlumat gələndə; çöldəki xalq bu işi (nələr olduğunu) bildi. |
| 3.Hazreti- xanı- pesendide-xısal<br>Cevşenin ignige aldı fi`l-hal | 3.Bəyənilmiş xasiyyətli Xan həzrətləri; dərhal zirehini geyindi. |
| 4.Ong u sol barça kiyindiler cüst<br>Billerin bağladılar rezmğa rüst | 4.Sağ və soldakı kimsələr dərhal; hazırlaşdılar və vuruşa başladılar. |
| 5.İçkisi dağı mükemmel boldı<br>İçkidin xannıng işiki toldı | 5.Xanın mühafizləri də mükəmməl oldu; və mühafizlərdən Xanın ətrafı doldu. |
| 6.Hamza Sultanğa dağı bardı xaber<br>Kıldı araste ol hem leşker | 6.Həmzə Sultana da xəbər çatanda; o da əsgər hazırladı. |
| 7.Boldı Sultan Bahadır Mahmud<br>Bu xaber birle be-ğayet xoşnud | 7.Sultan Bahadır Mahmud ; bu xəbərlə oldu çox xoşnud. |

| | |
|---|---|
| 1.Kim çıkıp kildi adu xaylı yayağ<br>Bizge Hak tüzgüsi esbabı- ferağ | 1.”Düşmənin ordusu piyada çıxıb gəldiyi üçün; Haqq bizə qurtuluş imkanı verəcəkdir. |
| 2.Tingri birse anı pamal iteli<br>Dostlar könglini xoşhal iteli | 2.Allahın köməyi ilə onu ayaqlar altında əzək; və dostların könlünü xoş edək”. |
| 3.Uşbu söz birle dilaver sultan<br>Yörüdi eyle ki pür-destan | 3.Bu söz üzərinə ürəkli Sultan; qəhrəmancasına yürüdü. |
| 4.Kılıp araste ong birle solın<br>Ağası dik yasaban içki kolın | 4.Sağ və sol qoldakı əsgəri hazırladı; və böyük qardaşı kimi saray mühafizləri qolunu nizama saldı. |
| 5.Şehr sarı yörüben at saldı<br>Şehr ili at ayağıda kaldı | 5.Şəhərə doğru yeriyərək at çapdı; və şəhər xalqı at ayaqları altında qaldı. |
| 6.Ol yamanlar ki bu iş başladılar<br>Özlerin şehr içige taşladılar | 6.Bu işi başladan o pislər; özlərini şəhər içinə saldılar. |
| 7.Kaldı mirza nökeri birle yayag<br>Vehmdin canlar ara yüz ming dağ | 7.Mirzə xidmətçiləri ilə piyada qaldı; qorxudan canlarında yüz min yara vardı. |
| 8.Xan kulı hem yitiben kildi revan<br>Kılıp a`da çirigini bican | 8.Xanın qulları da dərhal yetişib gəldilər; düşmən əsgərini cansız qıldılar. |
| 9.Cilve-ger boldı Timür Sultan hem<br>Xannıng allıda savaştı muhkem | 9.Teymur Sultan da ortaya çıxdı; və Xanın önündə döyüş məharəti göstərdi. |
| 10.Xan dağı özi savaştı bisyar<br>Ok bile boldı besi kar-güzar | 10.Xanın özü də çox vuruşdu; və oxla bir çox iş bacardı. |
| 11.Atıban yıktı niçe cahilni<br>Ser-nigun kıldı niçe batılnı | 11. Ox ataraq yıxdı bir çox cahili; və tərsinə çevirdi bir çox batili (pis durumu). |

| | |
|---|---|
| 1.Özi aldıdağını yandurdı<br>Yandurup xandakıka yetkürdi | 1.Qarşısındakıları geri döndərdü; və onları xəndəyə qədər sürdü. |
| 2.Leşker ehli körüp andak xannı<br>Her sarı cilvede bir sultannı | 2.Əsgərlər o tövrdə bir xanı; görüncə hər tərəfə qaçan Sultanı; |
| 3.Hamzanıng okığa köz salmadılar<br>Çapışıp bir biridin kalmadılar | 3.Həmzənin oxuna baxmadılar; vuruşmaqda bir-birindən geri qalmadılar. |
| 4.Kırdılar Hamza digenni bi-had<br>Tamlar kalğanığa kıldı meded | 4.Həmzə deyəni qırdılar bihədd; qalanlarına etdilər mədəd. |
| 5.Çıkkan ilning köpi zayi boldı<br>Şehrning uruşur ili öldi | 5.Çıxan xalqın çoxu zay oldu; və şəhərin döyüşə biləcək xalqı öldü. |
| 6.Şeyxül-islam körüp il kaçışın<br>Kıldı nezzare karanıng kilişin | 6.Şeyxülislam xalqın qaçışını görüb; fəlakətin gəlişini nəzərinə gətirdi. |
| 7.Vehm kıldı ki yörüp hazreti-xan<br>Kilse şehr işikige uşbu zaman | 7.Qorxdu ki, Xan həzrətləri yeriyib; bu əsnada şəhər qapısına gələr. |
| 8.Uruşur çağlı kişi yok niteli<br>Kal`amıznı ni kılıp birkiteli | 8.Döyüşə bilən o qədər adam yox; nə edək və qalamızı necə bərkidək. |
| 9.Boldı Babur dağı ğamgin bisyar<br>Iztırab eyledi miskin bisyar | 9.Babur da çox kədərləndi; və zavallı çox iztirab çəkdi. |
| 10.Lik xan yandı uşol yirdin ok<br>Kilmedi şehr işikige yavuk | 10.Lakin Xan o yerdən döndü; və şəhər qapısına yaxın gəlmədi. |
| 11.Kildi öz menzilige xurrem u şad<br>Eyledi meyl namaz u evrad | 11.Öz qərargahına şad-xürrəm gəldi; namaz qılıb dualar oxumağa başladı. |

| | |
|---|---|
| 1.Çün eda kıldı namazın ol xan<br>Arz itip acz ü niyazın ol xan | 1.O xan namazını əda edərək qıldıqda;<br>əcz və niyazını da ərz etdi. |
| 2.Kurbnıng mertebesige yitti<br>Tingrisige bu münacat itti | 2.(Allaha) yaxınlıq mərtəbəsinə yetişdi;<br>və Tanrısına bu minacatı göndərdi. |
| **XXXIV**<br>**Fakirü miskin yaxşılığını tilep İmamü z-zaman Tingrisige minacat kılğanı** | **XXXIV**<br>**Fəqir və miskin adamların yaxşılığını diləyib Zamanın İmamının tanrısına minacat qılması** |
| 3.Key xudavendi- kerimi- ğaffar<br>Malikül-mülksin ü hem kahhar | 3.”Ey kərim və qaffar olan Tanrım!;<br>Sən həm mülkün sahibisən; həm də (qaffar)qəhr edənsən. |
| 4.Mülknüng maliki yok sindin ögün<br>Uşbu mülk içre niler boldı bu kün | 4.Mülkün səndən başqa sahibi yoxdur;<br>və bu mülkdə bu gün nələr oldu? |
| 5.Manga lutf u kerem itting zahir<br>Barça lutfunga kıldıng nazır | 5.Mənə  lütfü kərəmini zahir etdin; və bütün lütfünə məni nazir etdin. |
| 6.Kahr bu mülk ilige körgüzdüng<br>Kahr ile mundak alarnı bozdung | 6.Bu məmləkət xalqına qəhr göstərdin;<br>və qəhrlə onları bu cür məğlub etdin. |
| 7.Imdi lutf eyle alarğa zahir<br>Ey Xundavendi- rahimi- kadir | 7.Ey rəhim və qadir olan Allah; indi onlara lütf göstər. |
| 8.Bolmasun kalğan ulus bir yolı<br>Yitmesün başlarığa ğam kolı | 8.Qalan ulusun bir daha; başına qəmin əli yetməsin”. |
| 9.Hazreti- xanı- xalife kirdar<br>Mihribanlık kılıp ilge izhar | 9.Xəlifə mövqeyində olan Xan həzrətləri; xalqa mehribançılıq izhar edib; |
| 10.Kıldı bu nev münacat amma<br>Tingridin kildi uşol ilge bela | 10.Bu növ minacat etdi, amma o xalqa tanrıdan bəla gəldi. |

| | |
|---|---|
| 1.Xan sarı açmadılar asla köz<br>Sulhdın dimediler asla söz | 1.Xanın sözlərinə əsla baxmadılar; və əsla sülhdən söz etmədilər. |
| **XXXV**<br>**Semerkand ili açlıkka turmay kal`adın çıka başlağanları** | **XXXV**<br>**Səmərqənd xalqı(nın) aclığa dayana bilməyib qaladan çıxmağa başlaması** |
| 2.Yene mirza bile Şeyxül-islam<br>Yığıban bir niçe şom xodğam | 2.Mirzə ilə Şeyxülislam yenə; bir çox uğursuz, özündən razını toplayaraq, |
| 3.Yangı başdın yene şart eylediler<br>Şart muhkemlığını sayladılar | 3.Yeni başdan yenə şərt qoşdular; və şərtlərin möhkəm olmasını dilədilər. |
| 4.Didiler ötti kapaldın tört ay<br>Yoksız il boldı bu şehr içre geday | 4. Dedilər: "Mühasirədən dörd ay keçdi; və yoxsul xalq bu şəhərdə dilənçi oldu,. |
| 5.İmdi şehr içre münadi kılıngız<br>Ol münadi ara sözni bilingiz | 5.İndi şəhər içinə təllallar göndərin; və o təllalların vasitəsilə nə deyiləcəksə bilin. |
| 6.Söz bu kim yıllık azuksız çıksun<br>Müflis ü aciz ü yoksız çıksun | 6.Söz bu şəkildə qərarlaşdırıldı ki; bir illik azuqəsi olmayan müflis, aciz və yoxsullar qaladan çıxsın. |
| 7.Biz ayıtkan sözümizge yeteli<br>Şehirni barlık il birkiteli | 7.Biz söylədiyimiz sözün üstündə duraq; və şəhəri zəngin xalqla bərkidək". |
| 8.Bu münadi yörügeç şehr ara<br>Tüşti yoksız il içige ğavğa | 8.Təllal şəhərə yeriyincə; yoxsul xalqın içində bir gurultu qopdu. |
| 9.Yığılıp yüz iki yüz ivlük il<br>Çıkmak üçün kılıban muhkem bil | 9.Yüz, iki yüz evlik xalq toplanıb; qaladan çıxmağa qəti qərar verdi. |

| | |
|---|---|
| 1.Yiberip taşkarı sultanğa kişi<br>Kayu sultanğa kayu xanğa kişi | 1.Çölə, Sultana, hansı Sultana; hansı Xana adam göndərib; |
| 2.Tileben özlerige daruğa<br>Kim tilep tapmadılar daruğa | 2.Özlərinə bir hakim(daruğa) dilədilər; amma dilədikləri daruğanı tapa bilmədilər. |
| 3.Çıktılar barçası bulcar bile<br>Yığlaşıp dideyi- xun-bar bile | 3.Hamısı qərarlaşdırılan bir yerdə toplanmaq üzrə; qanlı göz yaşları ilə çıxdılar. |
| 4.Barçası kol tutuşup çıktılar<br>Can birürge yavuşup çıktılar | 4.Hamısı əl-ələ tutaraq çıxdılar; can vermək üzrə ikən çıxdılar. |
| 5.Barça zindan ara yatkan kişi dik<br>Belki zar ölgen ü katkan kişi dik | 5.Hamısı zindanda yatan insanlar kimi; bəlkə inləyərək ölən və iztirab çəkən insanlar kimi, |
| 6.Za`ferani boluban çehreleri<br>Kuruk ot dik boluban sebzeleri | 6.Çöhrələri zəfəran kimi oldu; yaşıllıqları da qurumuş ot kimi oldu; |
| 7.Yol yörürçe yok alarğa kuvvet<br>Tüz turурça yok alarğa kuvvet | 7. Yol yeriməyə qüvvətləri yox idi; düz (ayaq üstdə) durmağa da qüvvətləri yox idi. |
| 8.İl çıka başladı mundak bisyar<br>Çarxnıng mihnetidin barçası zar | 8.Bu şəkildə çox xalq qaladan çıxmağa başladı; hamısı fələyin möhnətindən inlər haldaydı. |

| | |
|---|---|
| 1.Çıktı bir ayça bu tavr küren<br>Kim barısını basıp irdi süren | 1. Bir ay qədər bu şəkildə köç sürdü; və hamısını izdiham xarab etdi. |
| 2.Ol ming ivlük kişi çıktı bolğay<br>Şehrler şayed alardın tolğay | 2.Haradasa on min evlik insan qala xaricinə çıxmışdı; və şəhərləri dolduracaq saydaydı. |
| 3.Çün bu sözdin yene ötti bir ay<br>Boldılar barlık il barı geday | 3.Bu söz üzərindən yenə bir ay keçdi; və o varlıqlı xalq hamısı yoxsullaşdı. |
| 4.Altı ay çikti bu kurğan kapalı<br>Bolmadı hiç tarafdın xaleli | 4.Bu kurqan altı ay mühasirə altında qaldı; və heç (bir) tərəfdən mühasirə qırılmadı. |
| 5.İşleri yetti anga kim didiler<br>Başda digen nimelerni yediler | 5.İşləri o vəziyyətə gəldi ki; əvvəl yeyilməz dedikləri şeyləri yedilər. |
| 6.Boldı andak kapalı kim devran<br>Körmedi tire munung dik kurğan | 6.Mühasirə elə bir hal aldı ki; dövran bunun kimi talesiz kurqan görmədi. |
| **XXXVI**<br>**İmamü z-zaman uruşka ferman kılıp Muzafferüd-din Sultan Mahmud Bahadır kal`ağa uruş kılğanı ve İmamü z-zaman rahm kılıp çirigin tıyğanı ve il şehrde bi-takat bolup ğavğa kılğanları** | **XXXVI**<br>**Zamanın imamı vuruşmağa fərman edib Müzəffərüddin Sultan Mahmud Bahadırın qalaya hücumu və Zamanın İmamının acıyaraq əsgərini əngəlləməsi və xalqın şəhərdə taqətsiz qalıb davaya tutuşması** |
| 7.Uşbu haletde azizi kildi<br>Sözleri xan kaşıda aytıldı | 7. Bu vəziyyətdə ikən bir əziz gəldi; və bu sözləri xanın hüzurunda ərz edildi: |
| 8.Didi yoktur uruşur çağlı kişi<br>Xalkıng yoktur uruş birle işi | 8. Dedi: “Vuruşacaq kimsəmiz yoxdur, xalqın vuruşmaqla bir işi yoxdur. |

| | |
|---|---|
| 1.İl sizing mülk sizing mal sizing<br>Devlet ü nusret ü ikbal sizing | 1.Xalq sizin, mülk sizin, mal sizin; dövlət sizin, zəfər sizin, iqbal sizin”. |
| 2.Bu hikayet bile xanı- devran<br>Yene kıldı uruşurğa ferman | 2.Bu hekayət ilə zamanın Xanı; yenə vuruşmaq üçün fərman buyurdu. |
| 3.Nerdüban ü tura bisyar irdi<br>Yasanıp barçası tayyar irdi | 3.Nərdivan və mancanaq çoxdu; hamısı düzəlib hazırlandı. |
| 4.Çün bu hükm oldı cenabı-xandın<br>Hiç kim çikmedi baş fermandın | 4.Xan həzrətlərindən bu fərman gəldikdə; heç kim fərmana qarşı durmadı. |
| 5.Subh çün boldı şafakdın xun-riz<br>Mihr kolığa birip xanceri- tiz | 5.Sabah şəfəqlə qan töküncə (hər tərəfi Qızıla boyayınca); günəşin əlinə də kəskin xəncəri verdi (işıqlarını saçdı). |
| 6.Xan çirigi yasanıp yaxşı yaman<br>Boldılar barça mutiyi- ferman | 6.Xan əsgəri, pis, yaxşı hazırlanıb; hamısı fərmana boyun əydilər. |
| 7.Köterip şatuların kildiler<br>Kılur işlerni barı bildiler | 7.Nərdivanlarını tikdilər; və edilməsi gərək olan işləri bildilər. |

| | |
|---|---|
| 1.Kildi xannıng çirigi her yandın<br>Bardı can şehrdeki a`yandın | 1.Xanın əsgəri hər yandan gəldi; və şəhərdəki əyanlarda can qalmadı (qorxuya düşdülər). |
| 2.Yene bir yandın Sultan Mahmud<br>Kildi öz leşkeri birle xoşnud | 2. Bir tərəfdən də Sultan Mahmud; öz adamları ilə gəldi xoşnud. |
| 3.Kilgeç ok turaları yetti revan<br>Çirigi kıldı şeca`atnı ayan | 3.Gələr- gəlməz taxta qoruyucular yetişdilər; və əsgərlər əsl şücaət göstərdilər. |
| 4.Turanıng songıça şatü yitti<br>Şehrning başıga kayğu yitti | 4.Taxta qoruyucuların ardınca nərdivanlar gəldi; şəhərdəkilərin başına qayğı gəldi. |
| 5.Turalık turanı ilgige alıp<br>Şatuluk şatunı ignige salıp | 5.Qalxanı olan qalxanını əlinə aldı; nərdivanı olan da nərdivanını çiyninə aldı. |
| 6.Kildiler xandakı içre fil-hal<br>Öttiler xandakın eylep pamal | 6.Hamısı o an xəndək içinə çatdılar; və xəndəyi ayaqlar altına alıb keçdilər. |
| 7.Koydılar tamığa şatularını<br>Taptılar ol sarı kapularnı | 7.Nərdivanları dama qoyub; o tərəfdəki qapılara çatdılar. |
| 8.Turdı xandak yakasında sultan<br>Kapuçılar bile eylep cevlan | 8.Qapıçılarla (qala qapısını açmalı olan əsgərlər) bərabər Sultan; cövlan edərək xəndək kənarında durdu. |
| 9.Attılar kim ki çıkardı başnı<br>Ol çıkarmay başın attı taşnı | 9. Kim başını qaldırdı ox atdılar; başını çıxarmağa fürsət tapmayanlara da daş yağdırdılar. |

| | |
|---|---|
| 1.Taş köp kildi vü ok hem bisyar<br>Köp kişi boldı çirigdin efkar | 1.Daş ilə ox da çox gəldi; və əsgərdən çox adam yaralandı. |
| 2.Lik şatunı alıp barğanlar<br>Şehrğa vehm salıp barğanlar | 2.Fəqət nərdivanı alıb gedənlər; və şəhərə qorxu salıb gedənlər, |
| 3.Çıktılar barçası şatulardın<br>Gerçi köp kildi taş utrulardın | 3.Qarşılarından çox daş atılmasına rəğmən; hamısı nərdivanlarını alıb çıxdılar. |
| 4.Köp uruş boldı veli axiri- kar<br>Şehr içinde çi sığar u çi kibar | 4.Bir çox döyüş oldu, fəqət nəticədə ; şəhər içində kiçik və böyük kim varsa, |
| 5.Barça sultan sarığa kildiler<br>Can u dil birle uruş kıldılar | 5.Hamısı Sultana qarşı gəldilər (hücum etdilər); canü könüldən vuruşdular. |
| 6.Eylegeç şehr ili barça hücum<br>Asuman üzre uş andak ki nücum | 6.Asimandakı ulduzlar qədər şəhər xalqı; hamısı birdən hücum edincə, |
| 7.Şatunıng üstideki efkar il<br>Pür-dil ü pür-ciger ü pür-kar il | 7.Nərdivanın üzərində yaralı əsgərlər; yəni ürəkli, cəsur və bacarıqlı əsgərlər, |
| 8.Gerçi andak yaralığ tüştiler<br>Sağ yanıp barçası kavuştılar | 8.Hərçənd o qədər yaralı düşdülər; amma sağ- salamat geri döndülər. |

| | |
|---|---|
| 1.Xan siyaset kılaturğan boldı<br>Şehr halın bileturğan boldı | 1.Xan siyasət işlədərək durdu; və şəhərin halını bilərək durdu. |
| 2.Rahm itip kılmadı engiz uruş<br>Didi birmes bu ulus bizge turuş | 2.Savaşı çıxaranlara rəhm etmədi; və bu ulus bizə rahatlıq verməz, dedi: |
| 3.Köreli bir kol ile ni kılışur<br>Kılur işni basa sultan bilişür | 3.Əlbirliyi ilə nə etdiklərini görək; ediləcək işi ən yaxşı Sultan bilər. |
| 4.Xan bu söz birle uruş kılmaydur<br>Çirigi kal`a sarı kilmeydür | 4.Xan bu söz ilə savaş etməmişdi; və əsgəri qalaya doğru gəlməmişdi (geri çəkmişdi). |
| 5.Xannıng utrusı dağı hem barı<br>Kiliben eyledi rezm karı | 5.Xanın qarşısındakı hər kəs; gələrək döyüşə hazırlıq gördülər. |
| 6.Yoksa tuş tuşdın uruş bolsa idi<br>Karımı Özbek ile tolsa idi | 6.Yoxsa hər tərəfdə vuruş olardı; və çuxur(lar) özbək ilə dolardı. |
| 7.Gerçi ol kal`anı almay yanduk<br>Asru xırman otı birle yanduk | 7.Hərçənd o qalanı almadan döndük; və çox ümidsizlik atəşi ilə yandıq, |
| 8.Lik haletleri malum oldı<br>Barçağa işleri mefhum oldı | 8.Fəqət halları bəlli oldu; və işləri hər kəs bildi. |
| 9.Bildiler barça ki tuş tuşdın uruş<br>Bolsa yok şehr ilige hiç turuş | 9.Hər kəs bildi ki savaş olsa; şəhər xalqı qarşı durmaz. |
| 10.Boldı mirzağa dağı bu malum<br>Kim bolur şehrdin axır mahrum | 10.Mirzəyə də sonunda oldu məlum ; ki, axırda olacaq şəhərdən məhrum. |

| | |
|---|---|
| 1.Şeyxül-islamğa hem boldı ayan<br>Kim yapuşsa alur ol kal`anı xan | 1.Şeyxülislama da əyan oldu ki; xan cəhd etsə, o qalanı alacaq. |
| 2.Boldılar il dağı asru nevmid<br>Kördiler can ara dağı- cavid | 2.Xalq da çox ümidsizliyə qapıldı; və canları içində əbədi narahatlıq yarandı. |
| 3.Şeyxül-islam kaşığa ayan<br>Yığılıp didiler ey şeyxi- zaman | 3.Şeyxülislamın hüzuruna şəhərin əyan-əşrəfi; yığılıb dedilər: "Ey zamanın şeyxi, |
| 4.Altı ay boldı ki biz miskinler<br>Sıdk yolıda vefa-ayinler | 4.Biz acizlər və sədaqət yolunda; vəfalılar üçün altı ay oldu. |
| 5.Eyledük her ni ki ferman kıldıng<br>Sıdkımıznı basa sin hem bilding | 5.Hər nə buyurdunsa etdik; və sədaqətimizi sən də yaxşıca bildin. |
| 6.Imdi yok takatımız çare nidür<br>Kalmadı kuvvetimiz çare nidür | 6.İndi yox taqətimiz, çarə nədir;?<br>Qalmadı qüvvətmiz; çarə nədir? |
| 7.İt itini yedük imdi niteli<br>Biz bu kurğannı nitip birkiteli | 7.İt ətini belə, yedik, indi nə edək?; Biz bu kurqanı bərkitmək üçün nə edək? |

| | |
|---|---|
| 1.Uruş eyler kişimiz kalmadı hiç<br>Kal`a birle işimiz kalmadı hiç | 1. Vuruşan adamımız qalmadı heç; qala ilə işimiz qalmadı heç. |
| 2.Sini dip yitti bu yirge işimiz<br>Yitti kökke yitedür nalişimiz | 2.Səni deyib işimiz üçün buraya gəldik; naləmiz göyün yeddi qatına yetdi. |
| 3.Taşkarı bağlarımız bozuldı<br>İçkeri ivlerimiz bozuldı | 3.Çöldə bağlarımız pozuldu; və içəridə evlərimiz xarab oldu. |
| 4.İmdi mirzağa icazet birgil<br>Yolumuzdın bu tikenni tirgil | 4.İndi Mirzəyə icazə ver; və bu tikanı yolumuzdan yığışdır (bizi bu işdən qurtar). |
| 5.Xan irür asru rahim ü adil<br>Adlığa köngli ezeldin mayil | 5.Xan çox rəhmli və adildir; və könlü ədalətə əzəldən mayildir. |
| 6.Sin eger vehm kılur-sin xandın<br>Kiçe almas-sin bu oğlandın | 6.Əgər sən xandan qorxsan; bu oğlanlardan keçə bilməzsən. |
| 7.Barğıl anıng bile bu kişverdin<br>Kutkarıp xalknı derdi- serdin | 7.Xalqı dərdisərdən qurtarıb; onunla bu ölkədən get. |
| 8.Yoksa bu şehrni alğaç fil-hal<br>Barça alemni kılurlar pamal | 8.Yoxsa bu şəhəri ələ keçirən kimi;bütün aləmi ayaq altına alarlar. |
| 9.Bir kolı kim tüne kün saldı uruş<br>Yok idi şehrde imkanı- turuş | 9.Gecə- gündüz döyüşən bir qolunun; şəhərdə durmağının imkanı yox idi. |
| 10.Yığılıp barça annı def ittük<br>İldin ol hadiseni ref ittük | 10.Hamımız toplanıb onu qovduq; və məmləkətdən o bəlanı uzaq etdik. |
| 11.Tangla xan birle barı sultanlar<br>Barça mirzalar ile oğlanlar | 11.Sabah xan ilə bütün sultanlar; bütün mirzələr və oğlanlar; |

| | |
|---|---|
| 1.Kılsalar tuş tuşıdın rezm engiz<br>Xan bu kurğannı alur bolğay tiz | 1.Hər tərəfdən savaş çıxarsalar; xan bu kurqanı dərhal alacaq. |
| 2.İmdi tedbir budur kim mirza<br>Kılmayan şehr ili birle ğavğa | 2.İndi tədbir budur ki; Mirzə şəhər xalqı ilə dava etmədən, |
| 3.Xan bile sulh sözin ayıtkay<br>Fitne vü kin başıdın kayıtkay | 3.Xan ilə sülh sözünü edəcək, fitnə və kin başından uzaq olacaq. |
| 4.Xanğa hemşerisini akd itkey<br>Ol barıp xan kademiğa yitkey | 4.Xana bacısını nikahlayacaq; və o, xanın ayağına gedəcək. |
| 5.Şehrdin kaçkay ü kitkey mirza<br>Şeyxül-islam hem anga hem-pa | 5.Mirzə şəhərdən qaçıb gedəcək; Şeyxülislam da ona dost olacaq". |
| 6.Şehr ilidin bu hikayet bolğaç<br>Bu hikayet bile kurğan tolğaç | 6.Şəhər xalqından bu hekayət eşidiləndə; və bu hekayət kurqana yayılanda, |
| 7.Şeyxül-islam hirasan boldı<br>Babur öz halığa hayran boldı | 7.Şeyxülislam qorxdu; və Babur da öz işinə heyrət etdi. |

| | |
|---|---|
| 1.Boldılar bigleri barça ğamgin<br>Boldılar barçası mihnetka karın | 1.Bəylər tamam qəmgin oldular; və hamısı möhnətə düşdülər. |
| 2.Kiter esbabını saz eylediler<br>Atlarınıng simizin sayladılar | 2.Gediş hazırlığını etdilər; və atlarının gümrahını seçdilər. |
| 3.Alar ahvalı bu kim taptı beyan<br>İmdi xandın işiting bir destan | 3.Onların halı bu şəkildə edildi bəyan; İndi də eşidin Xandan bir dastan. |
| **XXXVII**<br>**İmamü z-zaman ğayibane aşık bolup ışk bile ma`şukını kolığa alğanı ve Babur Mirzanı kaçurup taxt kolığa salğanı** | **XXXVII**<br>**Zamanın İmamının özünü itirərcəsinə aşiq olub eşqlə məşuqunu əla alması və Babur Mirzəni qaçıraraq taxtı ələ keçirməsi** |
| 4.Xan bu haletde anıng dik aşık<br>Kim digey-sin tiriliptur Vamık | 4.Xan bu vəziyyətdə, kimi aşiq idi sanki Vamık; Deyərsən dirilmişdir Vamık, . |
| 5.Yar Azra-sifati şehr ara<br>Xan kılıp taşkarıdın vaveyla | 5.Babur şəhərdə Azra kimi idi; Xan da çöldən vaveyla etməkdə idi. |
| 6.Bar idi ol sanemi- zibağa<br>Nisbeti şehr dağı mirzağa | 6.(Xanın) o sənəm kimi gözələ; şəhərin də nisbəti var idi Mirzəyə. |
| 7.Aytayın nisbetini faş sanga<br>Hasıla irdi karındaş anga | 7.Nisbətini sənə edim faş; xülasə, ona olmuş qardaş . |
| 8.Ğayibane bolup irdi aşık<br>Anı Azra dip özini Vamık | 8.Üzünü görmədən aşiq olmuş idi; ona Azra, özünə (də) Vamiq demiş idi. |
| 9.Ğayibane sıfatını işitip<br>Işkda işi bu yirlerge yitip | 9.Bilinməyən vəsflərini eşidib; eşqdə işi buralara yetişincə, |

| | |
|---|---|
| 1.Bir zaman yok idi aram anga<br>Ah ile nale kam anga | 1.Bir an da rahat ola bilmirdi; ah və nalə ona həmdəm idi. |
| 2.Seyl dik yaş akar irdi közidin<br>Derd zahir bolur irdi sözidin | 2.Gözündən sel kimi yaş axırdı; və sözündən dərdi bəlli olurdu. |
| 3.Işk derdi yaşıdın vazıh idi<br>Şevk suzi yüzidin layıh idi | 3.Eşq dərdi gözyaşından bəlli idi; və şövq sözü üzündən daha parlaq idi. |
| 4.Her hikayet ara ışk irdi sözi<br>Işkdın irdi kehribar közi | 4.Hər hekayətdə sözü eşq idi; və gözü eşqdən kəhrəba rəngindəydi. |
| 5.Kiçeler ışk füsun itkeç anı<br>Ol füsun zar u zebun itkeç anı | 5.Gecələr eşq onu sehrləyincə; o sehr onu zar və zəbun edincə, |
| 6.Dir idi kim çirigim atlansun<br>Kal` ağa çıkmak üçün katlansun | 6. Deyirdi: "Qalaya çıxmaq üçün əsgərim atlansın; və zəhmətə qatlansın". |
| 7.Cuş urar irdi adudın efzun<br>Çirigi cibelenip derya-gun | 7.Düşməndən çoxunu vurdu; əsgəri də dərya kimi silahlandı. |
| 8.Kapka ağzığa barurlar irdi<br>Kal`ağa cav yiberürler irdi | 8.Qala qapısının ağzına çatırdılar; və qalaya xəbər yollayırdılar. |
| 9.Kal`ada il bolur irdi hayran<br>Kim uruş salğalı kilmiştür xan | 9.Xan savaşmaq üçün gəlmiş deyə; qalada xalq heyrət içində idi. |
| 10.Tanggaça ilge yok irdi uyku<br>Oltururlar idi xanğa utru | 10.Sübhə qədər xalqa yuxu yox idi; və Xana qarşı oturur idilər. |

| | |
|---|---|
| 1.Lik hazretğa bu irdi maksud<br>Kim anın xatırı bolğay xoşnud | 1. Fəqət Həzrətin muradı bu idi ki; onun könlünü xoşnud etsin: |
| 2.İstegey yar yakınıda konuş<br>Eylegey kiçe ırakdın körünüş | 2.Yarının yaxınında olsun; və gecə onu uzaqdan görsün. |
| 3.Yarnıng menzilidin is alğay<br>Yarnıng kuyige ğavğa salğay | 3.Yarının olduğu yerin ətrini alacaq; və yarının küçəsinə dava salacaq. |
| 4.Özide xod idi xab u karar<br>Dilberin hem kılur irdi bidar | 4.Özündə yuxu və qərar olmadığı kimi; dildarını da yatmağa qoymazdı. |
| 5.Kiçe tang atkuça bidar irdi<br>Işkdın közleri xun-bar irdi | 5.Gecə sabaha qədər oyaq idi; və eşqdən gözləri qan dolu idi. |
| 6.Aşıkane ğazeli aytur idi<br>Subh bolğaç yirige kaytur idi | 6.Aşiqanə bir qəzəl söylərdi; sabah olanda öz yerinə geri dönərdi. |
| 7.İl yığılğaç körünüşke kaşığa<br>Xayr-bad eyler idi köz yaşığa | 7.Xalq onu görmək üçün hüzuruna toplaşdıqda; göz yaşına xeyirli olsun, deyərdilər. |
| 8.Özini saklar idi il közidin<br>Lik işi yok idi ilning sözidin | 8. Özünü gizlər idi xalqın gözündən; və heç inciməz idi xalqın sözündən . |
| 9.Köngli meşğul idi yarı birle<br>Xatırı lale-izarı birle | 9.Könlü məşğul idi yarı ilə; və xatiri də məşğul idi lalə yanaqlısı ilə. |
| 10.Şehirdin söz sorar irdi vü xaber<br>Özgedin yok idi könglige eser | 10.Şəhərdən söz edər və verərdi xəbər; könlündə başqa bir şeydən yoxdu əsər. |
| 11.Şehrdin kim ki çıkar irdi nahif<br>Xan közige körünur irdi latif | 11.Şəhərdən kim zəif çıxarsa; xanın gözünə gözəl görünərdi. |

| | |
|---|---|
| 1.Kim köngül mahfilidin kilgendür<br>Yarnıng menzilidin kilgendür | 1.Onlar, könül məclisindən gəlmişdir; yarın olduğu yerdən gəlmişdir. |
| 2.Kiltürür irdi kaşıga anı<br>Sürer irdi sözini pinhani | 2.Onu hüzuruna gətirdər idi; ondan gizlicə söz soruşar idi. |
| 3.Işkdın dir idi razını anga<br>Bildürür irdi niyaznı anga | 3.Eşqlə bağlı sirrini ona söylərdi; və niyazını bildirərdi. |
| 4.Kılur irdi anga asru in`am<br>Mive vü et`imedin puxte vü xam | 4.Ona meyvə və bişmiş verərdi ;və ya məzə ərzaq ənam edərdi. |
| 5.Hasıla ehli- ğalamus barı<br>Yandılar ışk bile şehr sarı | 5.Nəticədə oğruların hamısı; eşq ilə şəhərə yönəldilər. |
| 6.Kıldılar ışk hadisin meşhur<br>Kalmadı ışk hadisi mestur | 6.Eşq hadisəsini məşhur etdilər; və eşq hadisəsi gizli qalmadı. |
| 7.Yitti ol şemğa bu efsane<br>Kim sanga xan boladur pervane | 7.O şama(sevgiliyə)yetişdi bu əfsanə; ki xan sənə olubdur pərvanə . |
| 8.Arızıng körmeyin olmış meftun<br>Sini Leyli dip özini Mecnun | 8. Yanağını,sifətini görmədən sənə olmuş məftun; sənə Leyla, özünə də deyir Məcnun . |
| 9.Sindin özge anga dil-cu yok imiş<br>Kiçeler közide uyku yok imiş | 9.Ona səndən başqa könül alıcı yox imiş; gecələri də gözündə yuxu yox imiş. |
| 10.Kildi nagah bu esnada birev<br>Boldı bir turfa ğazel birle ikev | 10.Bu əsnada birdən bir nəfər; gözəl bir qəzəl ilə birlikdə gəldi. |
| 11.Ğazelide bu hikayet irdi<br>Ağzıda hem bu rivayet irdi | 11.Qəzəlində bu hekayət var idi; ağzında da bu rəvayət var idi. |

| XXXVIII<br>Sözning muxtasarı | XXXVIII<br>Sözün qısası |
|---|---|
| 1.Key manga arzuyı- can vaslıng<br>Bi-deva derdime derman vaslıng | 1.Ki: “Ey mənim üçün vəsli can arzusu olan; dəvasız dərdimə dərman vəslindir. |
| 2.Sıfatıngnı işitip zar oldum<br>Işkıng ilgige giriftar oldum | 2.Vəsflərini eşidib zar oldum; və eşqin əlində giriftar oldum. |
| 3.Sini körmey manga ahval budur<br>Işkıng ilgide manga hal budur | 3.Səni görməsəm, əhvalım budur; və eşqin əlində halım budur. |
| 4.Bakıban kaldı xayalıngğa közüm<br>Ah eger tüşse cemalıngğa közüm | 4.Gözüm xəyalına baxa qaldı; ah,əgər camalını görsəm, |
| 5.Sabr kuyige güzarım yoktur<br>Yitmeyin sanga kararım yoktur | 5.Səbir küçəsinə güzarım yoxdur; və sənə çatmadan da qərarım yoxdur. |
| 6.Kılsang ay dik felek üstide vatan<br>Ya güher dik sadef içre mesken | 6.Ay kimi göy üzündə vətən tutsan; ya inci kimi sədəf içində məskən tutsan, |
| 7.Tökeyin ışk Süreyya yanglığ<br>Çıkayın kökke Mesiha yanglığ | 7.Sürəyya kimi gözyaşı töküm; və Məsiha kimi göyə çıxım. |
| 8.Köz yaşı içre bolayın ğavvas<br>Ol sadefdin kılayın sini xalas | 8.Gözyaşı içində olum qəvvas (dalğıc); və o sədəfdən səni edim xilas. |
| 9.Eyleyin şart sening başıng üçün<br>Bolma ğamnak karındaşıng üçün | 9.Sənin başın üçün şərt qoyum ki; qardaşın üçün narahat olma. |
| 10.Hiç yamanlık anga yavutmağalı<br>Sini tilmürtüp anı tutmağalı | 10.Ona heç bir ziyan vurmayacağam; səni həsrət qoyub onu (əsir) tutmayacağam. |

| | |
|---|---|
| 1.Her kayan xatırı ister barsun<br>Barsun ançа ki yörüdin harsun | 1.Ürəyi hayana istəsə getsin;<br>yeriməkdən yorulana qədər getsin". |
| 2.Kasıd itkeç bu hikayetni eda<br>Boldı kız könglide derdi peyda | 2.Qasid bu hekayəti edəndə əda; qızın könlündə bir dərd oldu peyda. |
| 3.Can bile xan sarı mayil boldı<br>Xan ğamıdın içi taşı toldı | 3.Candan xan tərəfinə meyl etdi; və xanın qəmi ilə içi, çölü doldu. |
| 4.Çün bu sözlerni anası bildi<br>Öz özi birle te`emmül kıldı | 4.Bu sözləri anası eşidəndə; öz -özünə düşüncəyə daldı. |
| 5.Didi şayed bu sebeb birle Xuda<br>Bir yaruğluk manga kılğay peyda | 5.Dedi ki: «Hər halda Allah; bu səbəblə mənə bir rahatlıq verəcək». |
| 6.Anası hem bolup irdi muztar<br>Bigleri hem mütehayyir yek-ser | 6.Anası da çarəsiz qalmış idi; və bəyləri də hamısı heyrətdə idi. |
| 7.İl sözi dağı bilip irdiler<br>İş yarağını kılıp irdiler | 7.Xalq da bu sözləri bilmişdi; və işin gərəyini etmişdi. |
| 8.Tuttılar barça bu sözge minnet<br>Didiler kildi yene emniyyet | 8.Hamısı bu sözə şükür etdi; və «Yenə əmniyyət gəldi»,dedi. |
| 9.Şeyxül-islamnı çarlattılar<br>Mürşidi- xamnı çarlattılar | 9.Şeyxülislamı dəvət etdilər; saxta mürşidi dəvət etdilər. |
| 10.Xan sözin didiler il sözini hem<br>Saffeti- ışkı- dil-efruzını hem | 10.Xanın sözünü də, xalqın sözünü də söylədilər; eşqin könül açan saflığını da söylədilər. |
| 11.Şeyxül-islam hem oldı razı<br>Yığılıp kildi fakih ü kazi | 11.Şeyxülislam da oldu razı; toplanıb gəldi fəqih və qazı. |

| | |
|---|---|
| 1.İl uluğlarını cem eylediler<br>Şehrning yaxşı ilin sayladılar | 1.El ulularını topladılar; və şəhərin gözəl xalqını bir araya yığdılar. |
| 2.Didiler sulh iting imdi engiz<br>Çıkalı biz bu vilayetdin tiz | 2.Sülh işini indi yerinə gətirin; və bu vilayətdən dərhal çıxaq, dedilər. |
| 3.Şehr ili hem işitip uşbu makal<br>Boldılar barçası şad u xoşhal | 3.Şəhər xalqı da bu sözü eşidib; hamısı xoşbəxt və şən oldular. |
| 4.İntixab eylediler dervişi<br>Barça alemğa nikü-endişi | 4.Bir dərvişi, bütün aləm haqqında; yaxşı düşünən bir dərvişi seçdilər. |
| 5.Kız sözini didiler evvel anga<br>Kıssanı bildürüben mücmel anga | 5.Ona öncə qızdan bəhs etdilər; sonra bütün hekayətini bildirdilər. |
| 6.Songra ilning ğamını hem yidiler<br>Şehr ilining sözini hem didiler | 6.Sonra xalq üçün dərdləndilər; və şəhər xalqının sözlərini də söylədilər. |
| 7.“Hasılı- söz bu ki xan kız alsun<br>İgnidin hecr libasın salsun | 7 .”Sözün nəticəsi bu ki, xan qızı alsın; və əynindən hicran libasını çıxarsın (ona qovuşsun). |
| 8.Şeyxül-islam ile kitsün mirza<br>Sefer ahengini itsün mirza | 8.Şeyxülislam ilə Mirzə getsin; və Mirzə səfər hazırlığını etsin. |
| 9.Bolmasun xan kişisi mani anga<br>Bolmasun hadise vaki anga | 9.Xanın adamları ona maneə olmasın; başına heç bir şey gəlməsin. |
| 10.Şehr ilige takı rahm itsün xan<br>Bolmasun uşbu vilayet viran | 10. Şəhər xalqına da rəhm etsin xan; və bu vilayət olmasın viran. |
| 11.Xan u sultanları şart itsünler<br>Sözlerining başığa yitsünler” | 11.Xan və sultanları şərtləşsinlər; və sözlərinin üstündə dursunlar. |

| | |
|---|---|
| 1.Bu hikayetler ile ol derviş<br>Boldı xan allıda xidmet-endiş | 1.O dərviş bu hekayətlər ilə ; xanın hüzurunda xidməti düşünməyə başladı. |
| 2.Boldılar barça selatin hazır<br>Barça derviş sözige nazır | 2.Bütün sultanlar hazır oldular; və dərvişin sözünü dinlədilər. |
| 3.Xan kabul eyledi derviş sözin<br>Açtı derviş sarı lutf közin | 3.Xan dərvişin sözünü qəbul etdi; və dərvişə lütf göstərdi. |
| 4.Didi Babur bile şeyxi- nadan<br>Kıldılar şehirni asru viran | 4.“Babur ilə şeyxi-nadan; şəhəri çox etdilər viran. |
| 5.Şah bolğan yir ulus kayğusını<br>Kinedin saf tutar közgüsini | 5.Şah olan şəxs xalqın dərdinə ortaq olar; və könül aynasını kindən təmizləyər (könlündə kin saxlamaz). |
| 6.Tingridin bende tilermin dayim<br>Gah zakir boluban geh sayim | 6.Gah zikr edərək, gah da oruc tutaraq; daim tanrıdan bunu diləyərəm: |
| 7.Kim manga alem ilini birgey<br>Barça afak kolumğa kirgey | 7.Mənə dünya-aləmi versin; və bütün üfüqlər əlimə keçsin. |
| 8.Min bu illerge kerem kılğaymin<br>Zulm ehlini adem kılğaymin | 8.Mən bu aləmə kərəm göstərim; zülm edənləri insan edim. |
| 9.Birgemin şer`i- Nebige revnak<br>Bid `at ehlini kiterip mutlak | 9.Bidət əhlini mütləq ortadan qaldırıb; Peyğəmbərin şəriətini yayım. |
| 10.Manga niyyet budur ey merdi- Xuda<br>Niteyin il munı bilmes asla | 10.Ey Allahın qulu! Mənim niyyətim budur; və nə edim, xalq bunu əsla bilməz. |
| 11.Tilemesler mini bu nadan il<br>Ol sebebdin boladur viran il | 11.Bu cahil xalq məni istəməz; və bu səbəblə (də) məmləkət viran olmaqdadır. |

| | |
|---|---|
| 1.Her niçe il tilemes men tilerem<br>İl mini sıylamasa men saylaram | 1.Hər nə qədər xalq istəməsə (də) mən istərəm; və xalq məni təqdir etməsə (də) mən təqdir edərəm. |
| 2.Men tilep Tingri biriptür ey şeyx<br>Tingri sözümge kiriptür ey şeyx | 2. Dilədiyimi tanrı vermişdir, ey Şeyx!; daim tanrı sözü mənim virdimdir,ey şeyx (Tanrı daim dilimdədir). |
| 3.Min tiledim tiledi Tingri hem<br>Bolmasa il tileki manga ni ğam | 3.Mən istədim, tanrı da istədi; və xalqın (bir) diləyi olmasa mənim üçün nə qəm! |
| 4.Kim tilese mini devlet tapkay<br>Devlet ü izzet ü nusret tapkay | 4.Məni kim diləsə dövlət tapar; dövlət, izzət və nüsrət tapar. |
| 5.Kim özin tutsa tilekdin mazur<br>Bolğusı yoktur anga hiç huzur | 5.Kim özünü görsə diləkdən məzur; heç (bir zaman) tapa bilməz hüzur. |
| 6.Bil ki min arçağa müşfikdür-min<br>Barça il birle muvafıkdur-min | 6.Bil ki, mən hər kəsə müşfiqəm; hər kəslə anlaşıram. |
| 7.Çağatay il mini Özbek dimesün<br>Bihüde fikr kılıp ğam yimesün | 7.Cağatay xalqı mənə özbək deməsin; və bihudə yerə düşünüb qəmlənməsin. |
| 8.Gerçi min Özbek ilidindür men<br>Lik Tingrige irür bu ruşen | 8.Tanrı da bilir ki; mən özbək xalqındanam. |
| 9.Kim tiler-men barı il esnafın<br>Bilmesem cam ara dürd ü safın | 9.Qədəhdə torta və saf şey olduğunu bilməsəm də; hər sinif xalqı öz yanıma dilərəm. |
| 10.Fikrim oldur ki alıp Şam u Irak<br>Bolğa-min Mısır ulusığa konak | 10.Fikrim odur ki, Şamı, İraqı alıb; Misir xalqına qonşu olum. |
| 11.Bu Semerkand xod öz taxtımdur<br>Bilgil andın ki nitiğ baxtımdur | 11.Səmərqəndin mənim öz məmləkətim olduğunu bil; bunun (da) qüvvətli bəxtimdən olduğunu bil! |

| | |
|---|---|
| 1.Kirse yüz taxt munung dik koluma<br>Bolmağay hiç ğubari yoluma | 1.Bunun kimi yüz taxt əlimə keçsə; yolumda heç bir toz (əngəl) qalmayacaq. |
| 2.Bu ulus gerçi yamanlık kıldı<br>Öz yamanlığını axir bildi | 2.Hərçənd bu xalq yamanlıq etdi; (amma) sonunda öz yamanlığını bildi. |
| 3.İmdi min yaxşılık izhar iteyin<br>Rahmetini barığa yar iteyin | 3.Mən indi yaxşılıq izhar edim; və (Allahın) rəhmətini hamısına yar edim. |
| 4.Şeyxül-islam ile Babur kitsün<br>Ol ki bar bizge kireklik yitsün | 4.Şeyxülislam ilə Babur getsin; Bizə gərəkli olan gəlsin!” |
| 5.Çün bu sözlerni didi hazreti-xan<br>Aldı derviş kaşında Kur`an | 5.Xan həzrətləri bu sözləri söylədiyi zaman; dərviş hüzurunda Quranı əlinə aldı. |
| 6.Şartlar eyledi derviş pesend<br>Saldı dervişlığı kökke kemend | 6.Dərvişlərə uyğun hərəkət etdi; və dərvişliyi göyə kəmənd etdi (dərvişliyini göylərə çıxardı). |
| 7.Cem itip könglini yandı derviş<br>Ğussa otı bile yandı derviş | 7.Dərviş könlünü cəm edib (hüzurla) geri döndü; və qəm-qüssə atəşi ilə yandı. |
| 8.Kim munung dik kişini bilmes il<br>Can bile kulluğını kılmas il | 8.Xalq bunun kimi adamı tanımadığı üçün; candan qulluq etməz. |
| 9.Şehrğa kirdi ni kim didi xan<br>Barçasın şehr ilige kıldı beyan | 9.Dərviş şəhərə girəndə nə demişdisə xan; hamısını şəhər xalqına etdi bəyan. |
| 10.Boldılar şehr ili asru dilşad<br>Kayğudın kördiler özni azad | 10.Şəhər xalqı oldu çox şad; və özlərini qayğıdan etdilər azad. |
| 11.Kıldılar xanğa dua can birle<br>Kördiler canlarını xan birle | 11.Candan xana dua etdilər; və canlarını xanın yanında gördülər (bağlandılar). |

| | |
|---|---|
| 1.Boldı mirza dağı asru xoşhal<br>Kim kaçıp çıkkusıdur fariğ-bal | 1.Mirzə də çox xoşhal oldu ki;qaçıb rahat çıxacaqdır . |
| 2.Şeyxül-islam takı şad oldı<br>Xatırı fikrdin azad oldı | 2.Şeyxülislam da şad oldu; və könlü fikirdən azad oldu. |
| 3.Kız dağı boldı ferahnak besi<br>Tüşti anıng başığa hem hevesi | 3.Qız da çox sevindi; və bir həvəsə gəldi. |
| 4.Anası hem ferah itti bisyar<br>Can ara hem şadlık itti izhar | 4.Anası da çox fərəhləndi; və candan şadlıq izhar etdi. |
| 5.Xan vekilin tiletip aldılar<br>Şehr ara toy sözini saldılar | 5.Xanın vəkilini istədilər; və şəhərə toy sözünü yaydılar. |
| 6.Xanğa ol aynı nikah eylediler<br>Ayş sözini mübah eylediler | 6.Əvvəlcə onu xana nikahladılar; və əyləncəni mübah hala gətirdilər. |
| 7.Çıkarıp xanğa yiberdiler annı<br>Boldı xan genci- güher birle ğani | 7.Onu çıxarıb xana göndərdilər; və xan inci xəzinəsi ilə (gəlinlə) zəngin oldu. |
| 8.Gerçi ol genç üçün çikti renc<br>Akıbet kördi özin sahibi- genc | 8.Hərçənd o xəzinə üçün sıxıntı çəkdi; amma özünü sonunda xəzinənin sahibi olaraq gördü. |
| 9.Anı çün xanğa yiberdi Babur<br>Şehrdin çıktı vü bardı Babur | 9.Babur, onu xana göndərdikdən sonra; şəhərdən çıxdı və getdi. |
| 10.Çün xalas oldı kapaldın ol şah<br>Kıldı Xanike digen xanğa penah | 10.Şah, mühasirədən qurtulduğu zaman; Xanikə deyilən xana sığındı. |
| 11.Yar çün xan kaşığa yavuştı<br>Koydı Baburnı anga yapuştı | 11.Yarı onun hüzuruna yetişəndə; xan Baburdan əl çəkib, ona sarıldı. |

| | |
|---|---|
| 1.Boldı xan vasl ile şad u xurrem<br>Boldı xoşhal kaçıp Babur hem | 1.Xan vəsl ilə(qovuşmaq) şad və xürrəm oldu; Babur da qaçıb xoşhal oldu. |
| 2.Şeyxül-islam dağı hemreh anga<br>Hem-inan bir ikki üç ebleh anga | 2.Şeyxülislam da ona (Babura) yoldaş (idi); və iki -üç əbləh də onunla bərabərdi. |
| 3.Işk ile şehrni feth eyledi xan<br>Işkdur vasıtayi- fethi- cihan | 3.Xan eşq ilə şəhəri fəth etdi; necə ki cahanın fəth vasitəsi eşqdir. |
| 4.Işkdur vasl kapuğığa kilid<br>Işkdur eylegen iskini cedid | 4.Eşq, vəsl(qovuşma) qapısının kilididir; köhnəni də təzə edən eşqdir. |
| 5.Işk düşvarnı asan eyler<br>Işk alemni gülistan eyler | 5.Eşq, çətini asan edər; və eşq, aləmi gülüstan edər. |
| 6.Işk birle tüzeliptür eyyam<br>Işk birle açılıptur islam | 6.Əyyam(Günlər) eşqlə düzəlibdir; və İslam eşqlə yayılıbdır. |
| 7.Işkdur maxzeni- esrarı- vücud<br>Işkdur matlayı- envarı- vücud | 7.Varlıq sirlərinin məxzəni(xəzinə) eşqdir; və varlıq nurlarının doğuş yeri eşqdir. |
| 8.Işk birdi taleb ilige murad<br>Işkdındur barı işlerge küşad | 8.Eşq istəyənləri muradına çatdırır; bütün işlərin açıq olması (nəticələnməsi) eşqdəndir. |
| 9.Işkdur vasıtayı- emn ü eman<br>Işkdur rabıtayı- cismi- revan | 9.Əminamanlıq vasitəsi eşqdir; insanlar arasındakı bağ eşqdir. |
| 10.Işkdın boldı melek ruhani<br>Işkdın boldı felek cismani | 10.Mələk eşqdən ruhani oldu; və fələk (də) eşqdən cismani oldu. |
| 11.Işkdındur barı eşya mevcud<br>Işkdın özge nimege ni vücud | 11.Bütün əşyanın varlığı eşqdəndir; və eşqdən başqa bir şeyin gerçək varlığı yoxdur. |

| | |
|---|---|
| 1.Her ni kim barlığ atı bar anga<br>Barlığ ni`met ü sifatı bar anga<br><br>2.Işkdın boldı anıng barlığı<br>Barlığ birle nümu-barlığı<br><br>3.Işk ol nurdur ey sahibi- fen<br>Kim irür özlüki birle ruşen<br><br>4.Hem kuyaş cismi münevver andın<br>Hem kamer meş`alı enver andın<br><br>5.Işkdın kim ki xaberdar oldı<br>Tingrige mahremi- esrar oldı<br><br>6.Işkdur alğuçı kişverlerni<br>Işkdur bozğuçı leşkerlerni<br><br>7.Işkdur xannı cihangir itken<br>Işkdur akl ile tedbir itken<br><br>**XXXIX**<br>**Semerkand feth bolğandın songra kapal tartkan illerning ahvalı ve Xanike xan moğollarıdın talan ü taracdın ve Kiçik Mirzanıng baştak nökerlerining bi-ma`ni hükumetleridin bozulup kurğanı birkitür digenlerning halı** | 1.Var olan hər şeydə eşqin adı vardır; və onda bütün sözlər və sifətlər vardır.<br><br>2.Onun varlığı eşqdən oldu; və varlıq ilə görünən oldu.<br><br>3.Ey fənn sahibi, eşq elə bir nurdur ki; özündə aydınlıqdır.<br><br>4.Günəşin aydın olması ondandır; ayın da nur məşəli olması ondandır.<br><br>5.Eşqdən kim ki xəbərdar oldu; o, tanrının sirlərinə məhrəm oldu.<br><br>6. Ölkələri alan eşqdir; və orduları məğlub edən də eşqdir.<br><br>7.Xanı cahangir eyləyən eşqdir; və ağıl ilə tədbir eyləyən (yenə) eşqdir.<br><br>**XXXIX**<br>**Səmərqənd fəth edildikdən sonra mühasirə altına alınan xalqın halı və Xanikə xan moğollarının talan və taracından və Kiçik Mirzənin öndə gələn xidmətçilərinin mənasız hökumətlərindən xarab olmuş kurqanı möhkəmləndirək deyənlərin halı** |

| | |
|---|---|
| 1.Çün Semerkand işiki açıldı<br>Xan besi ilge inayet kıldı | 1.Səmərqənd qapısı açıldıqda (fəth edildikdə); xan xalqa çox kömək etdi. |
| 2.Burnağı işdin alarğa dimedi<br>Rezm sançışdın alarğa dimedi | 2.Əvvəlki işdən onlara bəhs etmədi; və savaş sözünü dilinə gətirmədi. |
| 3.Şehr ili xan keremini kördi<br>Barça yerlik yerige olturdı | 3.Şəhər xalqı xanın cömərdliyini görəndə; hər kəs yerli -yerinə oturdu. |
| 4.Xan bu eltafnı kılğaç izhar<br>Kıldılar xalk ta`cüb bisyar | 4.Xan bu lütflərini göstərəndə; xalq xeyli təəccüb etdi. |
| 5.Kıldılar xanğa du`a yaxşı yaman<br>Boldılar barça mutiyi- ferman | 5.Pis yaxşı hər kəs xana dua etdi; və hamısı xanın fərmanına boyun əydi. |
| 6.Xan besi ayadı ilni amma<br>Tingridin bar idi ol ilge bela | 6.Xan, xalqı çox qorudu; fəqət tanrıdan o xalqa yenə də bəla vardı. |
| 7.Niçe yıl xan kilişidin burna<br>Kapal u rezm işidin burna | 7.Neçə il xanın gəlişindən öncə; mühasirə və savaşdan öncə, |
| 8.Baysunğur bile Sultan Mesud<br>Çıkarıp irdiler ol ildin dud | 8.Baysunqur ilə Sultan Məsud; o xalqdan çox duman çıxarmışdılar (çox əziyyət etmişdilər). |
| 9.Takı Sultan Aliyi- nadan hem<br>Kılıp irdi besi ol ilge sitem | 9.Cahil Sultan Əli də; o xalqa çox zülm etmişdi. |
| 10.Bir tarafdın takı Tarxan atlık<br>Ladeler bar idiler şevketlık | 10.Bir tərəfdən də Tarxan adlı; şövkətli axmaqlar vardı. |
| 11.Takı Xanike digen xanı- aziz<br>Kim anga yar idi idrak ü temiz | 11.Özünə idrak və təmizlik yar olan; Xanikə adlı əziz xan da var idi. |

| | |
|---|---|
| 1.Kılıp irdi çirikige ferman<br>Kim çapıp xalknı kılğay viran | 1.Xalqı qırıb ölkəni etsin deyə viran; əsgərə vermişdi fərman . |
| 2.Niçe yıl munça belalar bar idi<br>Anga envayı- cefalar bar idi | 2.Xalq, uğramışdı illərlə bu qədər bəlalara; və növbənöv cəfalara. |
| 3.Bü`l-mekarım bile Babur dağı<br>Koydı il canığa mihnet dağı | 3.Bülməkarim ilə Babur da; xalqın canına möhnət yarası qoydu (xalqı üzdülər). |
| 4.Altı ay bağladılar kurğannı<br>Vehmdin kutkaralı dip cannı | 4.Canı qorxudan qurtaraq deyə; altı ay kurqanı bağladılar. |
| 5.Bir ikki can üçün uş-munça can<br>Derd ü ğam otığa köyse ni yaman | 5.Bir-iki can üçün bu qədər can; dərd və qəm odu ilə yansa, nə yaman? |
| 6.Şah oldur ki yise il ğamını<br>Daim özige dise il ğamını | 6.Padşah, daim xalqın qəminə ortaq olmalı; və daim xalqın qəmindən söz etməli; |
| 7.İstemey özining arayişini<br>İstegey xalknıng asayişini | 7.Özünün ehtişamını istəməyib; xalqın hüzurunu diləməli, |
| 8.Nefs üçün eylemese sultanlık<br>Kılmasa ehli- heva dik xanlık | 8. Öz nəfsi üçün sultanlıq etməməli; və hava əhli kimi xanlıq etməməli. |
| 9.Arsayi- mülkni yaban bilse<br>İlni koy özini çoban bilse | 9.Ölkəsini yaban (çöl) bilməli; xalqı qoyun, özünü də çoban bilməli. |
| 10.Bilse sultanlığınıng düsturın<br>Belki çobanlığınıng düsturın | 10.Sultanlığın qaydasını bilməli; və bəlkə çobanlığın qaydasını bilməli. |
| 11.Koyını otğa suğa yitkürse<br>Aruğını özige kiltürse | 11.Qoyunu ota, suya yetirməli; və arığını özünə gətirməli, |

| | |
|---|---|
| 1.Kündüz otlasa alar ni xoş-hal<br>Kılmasa börige zar u pamal | 1.Gündüz onları yaxşıca otlatmalı; və qurdun əlində zar və pərişan etməməli (qurda-quşa yem etməməli). |
| 2.Kiçesi eylese ahengi- kutan<br>Birse aram alarğa yeksan | 2.Gecələri hər kəsi qorumalı; və onların hamısına hüzur verməli. |
| 3.Böridin bolsa nigeh-ban kündüz<br>Bolmasa aciz ü hayran kündüz | 3.Gündüz qurddan qorumalı; aciz və çaşmış olmamalı. |
| 4.Oğrıdın bolsa nigeh-dar kiçe<br>Bolmasa oğrı bile yar kiçe | 4.Gecə oğrudan qorumalı; və oğru ilə dost olmamalı. |
| 5.Özige dise kılay asan iş<br>Dise çoban ki biley asan iş | 5.Öz-özünə asan iş görüm; çobanlıq asan işdir, desə, |
| 6.Saklasun canveri- danayı<br>Koyda çobanlar ile hempayı | 6.Qoyun güdməkdə çobanlar ilə yoldaş olan; ağıllı bir heyvanı olmalı. |
| 7.Boynıda tavkı- vefayi bolğay<br>Oğrıda nağme-serayi bolğay | 7.Boynunda vəfa boyunduruğu olmalı; və uğrunda nəğmə düzən (idarə etdiyi xalq üçün) olmalı. |
| 8.Kündüz itkey koyı birle tek ü pu<br>Bolmağay kiçe közide uyku | 8.Gündüz qoyunları ilə o yan bu yana qaçmalı; gecə də gözündə yuxu olmamalı. |
| 9.Böri birle uruş aheng itkey<br>King cihannı özige teng itkey | 9.Qurdla savaşmalı; və geniş cahanı özünə dar etməli. |
| 10.Oğrı birle kiçe ğavğa kılğay<br>Oğrını il ara rüsva kılğay | 10.Oğru ilə gecə savaşmalı; və oğrunu xalq içində rüsvay etməli. |
| 11.Padişeh bolsa kirek çoban dik<br>Merdi- reh bolsa kirek çoban dik | 11.Padşah çoban kimi olmalı; və çoban kimi yol adamı olmalı. |

| | |
|---|---|
| 1.İlini koy kibi bilse daim<br>İlge rahmet bile kilse daim | 1.Xalqını daim qoyun kimi bilməli; və xalqa daim mərhəmətlə yaxınlaşmalı. |
| 2.Böri dik yağını mazlum itse<br>Mal alurdın anı mahrum itse | 2.Qurd kimi düşməni zülmə uğratmalı; və onu mal almaqdan məhrum etməli. |
| 3.Oğrıdın saklasa ya`ni sultan<br>İxtiyar itmese ilge divan | 3.Sultan, oğrudan qorumalı; yəni xalqa divanı seçməməli (işləri divana həvalə etməməli). |
| 4.Niteyin dise özi çoban dik<br>Bolsun it birle sözi çoban dik | 4.Özü çoban kimi olsun; və sözü də çobanın it ilə olan sözü kimi olsun. |
| 5.Eylesün şaxsı- emini peyda<br>İt kibi kılğuçı ilge ğavğa | 5. İt kimi, xalq üçün dava edən; güvən və fayda verən birini tapmalı. |
| 6.İt sıfatı bile araste ol<br>Nur zatı bile araste ol | 6.Seçəcəyi o şəxs, məziyyət sahibi; və nur üzlü olmalı (həm sadiq, həm də təmiz olmalı). |
| 7.Hem vefa-darlık itkey zahir<br>Hem meded-karlık itkey zahir | 7.Həm vəfa göstərməli; həm də kömək edən olmalı. |
| 8.Yağı birle uruşur dik bolğay<br>Rezm vaktı turuşur dik bolğay | 8.Düşmənlə savaşan tək olmalı; və savaş vaxtı dirəşən tək olmalı. |
| 9.Oğrı birle takı ğavğa kılğay<br>Hem raiyyetğa müdara kılğay | 9.Oğru ilə də dava etməli; və rəiyyətə dost kimi görünməli. |
| 10.Bolmağay dünyi işige meşğul<br>Allıda din işi bolğay makbul | 10.Dünya işiylə məşğul olmamalı; nəzərində din işi məqbul olmalı (din yolunda olmalı). |
| 11.Din yağısın takı ma`lum itkey<br>Oğrısını takı mahrum itkey | 11.Din düşmənini məlum etməli; oğrusunu da məhrum etməli. |

| | |
|---|---|
| 1.Ya`ni sultanı eger kılsa xata<br>Beşeriyyet yüzidin ahyana | 1.Yəni bir sultan əgər insanlıq üçün; ara -sıra xəta etsə, |
| 2.Ol hatadın xalel olsa dinğa<br>Ol ayıtsa yene din-ayinğa | 2.O xətadan dinə bir zərər gəlsə; din işi ilə bağlı kimsələrə deməli ki: |
| 3.Kim xatadur bu xatadur bu xata<br>Tilemesdin xalelin merdi-Xuda | 3.Bu, xətadır, bu xətadır, bu xəta; və heç bir qulunun dinə xələl gətirməsini istəməz xuda. |
| 4.Ol ki bu yolnı sanga körgüzdi<br>Bil ki din silsilesini üzdi | 4.Sənə bu yolu göstərən odur(şeytan); bil ki, o, dinin davamlılığını kəsdi. |
| 5.Yağıyı- din digen oldur tahkik<br>Kılma zinhar özünge annı refik | 5.Din düşməni deyilən gerçəkdən odur; və sən elə bir kimsəni özünə dost etmə! |
| 6.Din yağısı budur oğrısı ol<br>Kim köngül içre dayim salur yol | 6.Din düşməni budur, oğrusu isə o; könül içinə daim yol salar (könülə fəsadlıq verər). |
| 7.Xatırı- saf ara salur vesvas<br>Dirler ol şumlığın xannas | 7.Təmiz könülə vəsvəsə salar; və onun uğursuzuna şeytan deyərlər. |
| 8.Ol eger vesvese eylep gahi<br>Şahga körsetür olsa rahi | 8.O əgər bəzən vəsvəsə edib; padşaha yol göstərsə, |
| 9.Kim şeri`at yolıdın tüşkey ırak<br>Bolğay iklimi- dalaletde kazak | 9.Şəriət yolundan uzaq düşər; və zəlalət iqlimində (ölkəsində) soyğunçu olar. |
| 10.Şerdin çün annı bir yan salğay<br>Nakdı- dinini oğurlap alğay | 10.Onu şəriətdən uzaqlaşdırar; və dünyanın nağdını oğurlayıb alar. |
| 11.Kirek ol mahremi- esrarı-yakin<br>Dise lanet sanga şeytanı- la`in | 11.O ilahi sirlərə məhrəm olan kimsə; deyə ki, sənə lənət olsun, ey şeytani-ləin. |

| | |
|---|---|
| 1.Şahın andak mütenebbih kılsa<br>Şer` sarı müteveccih kılsa | 1.Padşahı o şəkildə xəbərdar etməli; və şəriətə yönəltməli. |
| 2.Din ü dünya ara ol mürşidi-rah<br>Yağı vü oğrıdın olsa agah | 2.Din və dünyada o yol mürşidi; düşmən və oğrudan xəbərdar olmalıdır. |
| 3.Padişeh tınç köngül birle bolur<br>Bid`at u zulum dükanı bozulur | 3.Padşah dinc könül ilə olar; bidət və zülm dükanı pozular. |
| 4.Eyle kim itsiz bolmas çoban<br>Bolmasa hem kirek ansız sultan | 4.İtsiz çoban olmadığı kimi; təbəəsiz sultan da olmaz. |
| 5.Bu hikayet il üçündür barı<br>Bu rivayet il üçündür barı | 5.Bu hekayətlər hamısı xalq üçündür; və bu rəvayətlər hamısı xalq üçündür. |
| 6.Kim özin tutkan ol ilge sultan<br>Kıldı namus ki bolğay çoban | 6.Özünü o xalqa sultan görən kimsə; dürüst çoban olmalı. |
| 7.Böridin saklamadı koylarını<br>Koydı böri sitemige barını | 7.Qurddan qoyunları qorumayan sultan; hamısını qurdun zülmünə buraxmış olar. |
| 8.Kismedi oğrısınıng ilgini hem<br>Oğrılar könglini kıldı xurrem | 8.Oğrunun əlini kəsməyən sultan; oğruların könlünü xoş edər. |
| 9.Eyledi nefs ile şeytannı şad<br>Din ü dünyasını birdi ber-bad | 9.Nəfsi ilə şeytanı edən şad; din və dünyasını etmiş olar bərbad. |
| 10.Yimedi xalk ğamını hergiz<br>Eyledi xalknı yağı aciz | 10.Xalqın kədərini aradan qaldırmayan (sultan); xalqı düşmənin əlində aciz qoyar. |
| 11.İlni saklarğa mecalı yoktur<br>Uruşur çağlık halı yoktur | 11.Xalqı qorumağa gücü çatmayan sultanın; vuruşmağa da halı yox deməkdir. |

| | |
|---|---|
| 1.Kapadı xalknı kurğan içide<br>Belki bend eyledi zindan içide | 1.Xalqı qapadı kurqan içində; və bəlkə (də) bənd etdi zindan içində. |
| 2.Yaxşırak ol idi kim andak şah<br>Çünki öz halıdın irdi agah | 2.Yaxşısı bu oldu ki, belə padşah; öz halından oldu agah. |
| 3.Kimge kim Tingrisi nusret birdi<br>Nusret ü kuvvet ü devlet birdi | 3.Kimə ki,tanrı nüsrət verdi;ona nüsrət, qüvvət və dövlət də verdi. |
| 4.Anga tapşurğay idi öz ilini<br>Tarta turğay idi ildin ilini | 4.Öz xalqını ona tapşırar; və xalqdan əlini çəkər. |
| 5.Ta uşol il kılıban sultanlık<br>İlge körgüzgey idi çobanlık | 5.Beləcə o xalqa sultanlıq edincə; xalqa da çobanlıq göstərmiş olar. |
| 6.Özi ilning ğamı birle köymes<br>Bilmes ü bilgüçige hem koymas | 6.Özü xalqın qəmi ilə yanmaz; bilməz və bilənə də buraxmaz. |
| 7.Bir kişi canı üçün yüz ming can<br>Nige azurde kılur bu devran | 7.Nə üçün bu dövran bir adamın canı üçün; yüz min adamın canını incidir? |
| 8.Hak uşol irdi ki bu xan kilgeç<br>Padişehler anıng işin bilgeç | 8.Haqq olan bu idi ki, bu xan gəlincə; və padşahlar onun işini bilincə; |
| 9.Taxt ile tac ile mülk ü zer ü sim<br>Anga kılmak kirek irdi teslim | 9.Taxt və tac ilə, mülk, qızıl və gümüşü; ona təslim etmək gərəkliydi. |
| 10.Kılıban mülk taleb mirzalar<br>Saldılar mülk içide ğavğalar | 10.Mirzələr mülk tələb edəndə; ölkə içinə davalar saldılar. |
| 11.Anga la`net ki kılıp mülk taleb<br>İl bozulmağlığığa bolsa sebeb | 11.Mülk istəyən və xalqın pozulmasına (pərişanlığına) səbəb olan; o kimsəyə lənət olsun! |

| | |
|---|---|
| 1.Anga rahmet ki ilin kıstamadı<br>İl bozulmaklıkını istemedi | 1.Xalqını pis vəziyyətə salmayan; və xalqın pozulmasını istəməyən kimsəyə də (rəhmət)afərin olsun! |
| 2.Özgeler bozğanın abad itti<br>Bozuğ il xatırını şad itti | 2.Başçılarının xaraba qoyduqlarını abad etdi; və pozulmuş olan xalqın könlünü də şad etdi. |
| 3.Yaxşılık kıldı yaman barğanğa<br>Rahm itip kildi yaman barğanğa | 3.Pis hərəkət edənə yaxşılıq göstərdi; və pis davranana rəhmi gəldi. |
| 4.Kim anga kıldı yamanlık zahir<br>Ol anga yaxşılık itti axir | 4.Kim ona pislik göstərdisə; o ona sonunda yaxşılıq etdi. |
| 5.Ğaraz ol kim bu Semerkand ulusı<br>Kim yamandur kiçiki vü ulusu | 5.Xülasə, bu Səmərqənd ulusunun; kiçiyi də, böyüyü də yamandır. |
| 6.Burnağı şahlar eyyamıda<br>Yok ki gümrahlar eyyamıda | 6.Əvvəlki padşahların zamanında; yolunu itirmişlərin dövründə, |
| 7.Talatıp aldurup irdiler köp<br>Kim bu kurğan ara kirdiler köp | 7.Bu kurqan içinə çox insanlar girib; talan etdilər və kurqan içinə doldular. |
| 8.Munda hem kalğanını sattılar<br>Fake vü fakr içige battılar | 8.Burada qalanını da satdılar; və yoxsulluq içinə batdılar. |
| 9.Boldılar barça geda vü rüsva<br>Yollar üstide kılıban ğavğa | 9.Yol üstlərində dava edib;daim yoxsul və rəzil oldular. |
| 10.İçkeri aşlık üçün bardı mal<br>Taşkarı aşlık oluban pamal | 10. İçəridə azuqə vardı; Çöldə azuqə ayaqlar altında idi. |
| 11.Uy bile koynı alıp irdi Moğul<br>Tive vü atnı hisari vü coğul | 11.Moğol inək və qoyunları almışdı; dəvə və atı da qaladakılar və saxtakarlar almışdı. |

| | |
|---|---|
| 1.Çün Semerkand bu nev oldı xarab<br>Boldı köp kaht bolurğa esbab | 1.Səmərqənd bu cür xarab olduğu üçün; çox qıtlığa səbəb oldu. |
| 2.Küz bu nev irdi ulusnıng halı<br>Yazğa şehr oldı ulusdın hali | 2.Payızda millətin halı belə idi; və yazda xalq şəhəri boşaltdı. |
| 3.Kış katiğ kildi vü köp yağdı kar<br>Oldı aç u yalangaç il bisyar | 3.Qış sərt gəldi və çox qar yağdı; xalq çox ac və çılpaq oldu. |
| 4.Küçeler boldı ölügdin memlu<br>Şehr boldı yigrür dik asru | 4.Küçələr ölü(lər)lə doldu; və şəhər çox iyrənc bir hal aldı. |
| 5.Yalğuz ol şehrde ok ölmedi xalk<br>Anda ok lale kibi solmadı xalk | 5.Xalq yalnız o şəhərdə ölmədi; və təkcə orada lalə kimi solmadı. |
| 6.Kiş bile Karşıda hem köp öldi<br>Andalar köp kişi zayi boldı | 6.Kiş ilə Karşıda da çox adam öldü; və orada onlardan çox adam zay oldu. |
| 7.Öldi bisyar Buxarada dağı<br>Boldı köprek ilige merg çağı | 7.Buxarada da çox adam öldü; və xalqının bir çoxu da öləcək hala gəldi. |
| 8.Bu vilayatda kim aytıldı<br>Kim ölüm ilni bu yanglığ kıldı | 8.Bəhs edilən bu vilayətlərdə; ölüm, xalqı bu günə qoydu. |
| 9.Yüz ming adem ölüp irkin şayed<br>İvleri bozulup irkin şayed | 9Təxminən yüz min adam öldü; və evləri darmadağın oldu. |
| **XL**<br>**Maveraünnehr xalkığa Tingridin ğazab yitkende bir azizi bu hikayetni beyan kıldı, tenbih üçün nazm kılındı** | **XL**<br>**Mavərənnəhr xalqına tanrıdan qəzəb gəldikdə bir əziz bu hekayəti danışdı, tənbeh üçün nəzm edildi** |

| | |
|---|---|
| 1.Bir aceb söz didi piri ol vakt<br>Piri- xurşid-zamiri ol vakt | 1.O vaxt bir ixtiyar, içi günəş kimi parlaq olan; bir pir əcayib bir söz söylədi. |
| 2.Didi bu haldın oldum ğam-gin<br>Körmedim can ara bir dem teskin | 2. Dedi: "Bu haldan qəmləndim; canda bir an sükunət görmədim,. |
| 3.Xatırım asru müşevveş boldı<br>Xasta könglüm takı na-xoş boldı | 3.Xatirim çox qarmaqarışıq; xəstə könlüm də naxoş oldu. |
| 4.Didim ey Barı- Xudayı-Kadir<br>Barçanıng halığa dayim nazir | 4.Dedim ki: Ey qadir uca tanrı; hər kəsin halına daim nazir olan tanrı; |
| 5.Barçağa cism ile can sin berding<br>Barçağa nam u nişan sin berding | 5.Hər kəsə cisim ilə canı sən verdin; hər kəsə adı -sanı sən verdin. |
| 6.Köz revakını sin itting pür-nur<br>Köngül ivini sin itting ma`mur | 6.Göz rəvaqını (gözü) sən nurlandırdın; və könül evini sən abad etdin. |
| 7.Nütfeni terbiyyet eyletken-sin<br>Rahm içre anı siyletken-sin | 7.Ana bətnindəki toxumu yetişdirən sənsən; və rahim içində onu mümtaz qılan sənsən. |
| 8.Anı kanğa ivürüp reng birip<br>Nutfelık mertebesidin ayırıp | 8.Onu qana çevirib rəng verərək; toxum mərtəbəsindən ayırdın. |
| 9.Kanğa hem it yosunı sin birding<br>İtke hem anı munı sin birding | 9.Qanı ət ilə tamamladın; ətə də onu, bunu sən verdin. |
| 10.Sureti eyleding ol itdin rast<br>Kim ezeldin manga ol oldı xast | 10.O ətdən doğru bir surət meydana gətirdin ki; əzəldən də mənim istəyim o idi. |
| 11.Ruh ile anı müşerref kıldıng<br>Xalk içre anı eşref kıldıng | 11.O əti ruh ilə şərəfləndirdin; və yaradılanlar içində onu ən şərəfli etdin. |

| | |
|---|---|
| 1.Niçe evkat anga boldı sarf<br>Ta ki çıktı lebidin savt ile harf | 1.Neçə vaxt ona olundu sərf ; ta ki çıxa dodağından səs ilə hərf . |
| 2.Anı ni yirge ni yirdin kitürüp<br>Ademi dayiresiğa kivürüp | 2.Onu bir yerdən başqa bir yerə yüksəldib (haldan hala salıb); insan halına gətirib. |
| 3.İmdi bu hal ile kırmak ni ikin<br>Xasta canıdın ayırmak ni ikin | 3.İndi bu halda insanları öldürmək nədir; onu xəstə canından ayırmaq nədir? |
| 4.Ni ikin munça ğazabğa bais<br>Ni ikin munça ta`abğa bais | 4.Bunca qəzəbə səbəb olan nə imiş; bu qədər sıxıntıya səbəb olan nə imiş? |
| 5.Kim niçe şehr ili oldı tamam<br>Şehrler xali olup boldı tamam | 5.Neçə şəhərlər xalqla doldu; və neçə şəhərlər də xalqla boşaldı". |
| 6.Eylegeç uşbu münacat fakir<br>Hatifi didi ki ey pak-zamir | 6.Fəqir bu şəkildə minacat edəndə;hatifdən gizli bir səs, «ey pak zəmir(təmiz yaradılışlı), |
| 7.Bar ölügler sarı kör hal nidür<br>Ol ölüglerge kör ahval nidür | 7.Ölülərə doğru get, gör halı nədir; o ölülərə nə hallar olduğunu gör! |
| 8.Kayda kim körseng ölüg kılma ferağ<br>Kıl nazar suretiğa baştın ayağ | 8.Harada bir ölü görsən, özünü ondan ayrı tutma; onun surətinə başdan ayağa nəzər sal!" |
| 9.Çün bu hükm oldı manga hatifdin<br>Xaber oldı manga ol vakıfdın | 9.Hatifdən(Gizlidən) mənə bu hökm gələndə; o hala vaqif oldum. |
| 10.Çıktım ivdin yügürüp küçe sarı<br>Küçeler tola ölüg irdi barı | 10.Evdən çıxdım, küçəyə doğru qaçdım; küçələrin hamısı ölü ilə dolu idi. |
| 11.Bir ölügning başı üzre turdum<br>Yüzini gerd ara açıp kördüm | 11.Bir ölünün başı üstündə durdum; və üzünü torpaqdan təmizləyib baxdım. |

| | |
|---|---|
| 1.Mıyığı ağzını yapıp irdi<br>Uşbu yanglığ nazarımğa kirdi | 1.Bığı ağzını örtmüş idi; bu şəkildə nəzərimdə qaldı. |
| 2.Ayağığa takı közni saldım<br>Ayağın körgeç ibret aldım | 2.Ayağına da nəzər saldım;və görüb ibrət aldım. |
| 3.Tabanıda bar idi kürre besi<br>Tirig olsa yer idi dırre besi | 3.Dabanında çox torpaq var idi; əgər diri olsaydı, çox qırmanc yeyər idi. |
| 4.Bildim andın ki namazı yok imiş<br>Tingrisi birle niyazı yok imiş | 4.Ondan anladım ki namaz qılmazmış; və tanrıya niyazı da yoxmuş. |
| 5.Yok imiş tabiyi- sünnet hergiz<br>Bilmes irmiş basa millet hergiz | 5.Əsla sünnətə bağlı deyilmiş; və dini əsla bilməzmiş. |
| 6.Niçe kün kizdim uşol hal bile<br>Ol ölüglerni teftiş kıla | 6. O ölüləri təftiş edərək; neçə gün o halda gəzdim. |
| 7.Barçasın uşbu sıfatlık kördüm<br>Barıban ivime tınç olturdum | 7.Hamısını bu şəkildə gördüm; evimə çatıb hüzurla oturdum. |
| 8.Bu kırılğan kişiler el-hasıl<br>Bar idiler barı Hakdın ğafil | 8.Qısası bu qırılan kimsələrin hamısı; Allahdan qafil idilər. |
| 9.Barça dünya ara ma`mur idiler<br>Malı- dünya bile mağrur idiler | 9.Hamısı dünyada rifah içində; və dünya malı ilə məğrur idilər. |
| 10.İltip irdi barını hırs u heva<br>Dinlerini bozup irdi dünya | 10.Hirs və hava onları sürükləmişdi; və dünya, onların dinlərini pozmuş idi. |
| 11.Her sebeb birle Xudayı-Cabbar<br>Ayırıp malların eyledi zar | 11.Cabbar tanrı bu səbəb ilə; onları mallarından ayırıb pərişan etdi. |

| | |
|---|---|
| 1.Akıbet kıldı bu yanglığ barın<br>Eyledi kudreti- kahr izharın | 1.Sonunda hamısını bu cür etdi; və qəhr qüdrətini göstərdi. |
| 2.Hazreti- Xan Şibani asru<br>Rahm ile kildi ol ilge utru | 2.Şeybani xan həzrətləri; o xalqa qarşı çox mərhəmətlə gəldi (mərhəmət göstərdi). |
| 3. Lik Tingri kılıp andak takdir<br>Kıldı ol kavmı- yamanın her bir | 3.Fəqət tanrı o cür təqdir edib; o pis qövmün hər birini həlak etdi. |
| 4.Her birin eyledi bir yirge helak<br>Ne kefen taptı ne tabut u ne xak | 4.Hər birini bir-bir məhv etdi; nə kəfən, nə tabut və nə torpaq tapdılar. |
| 5.Ölügige kişi kılmay i`zaz<br>Kılmadı hiç aziz anga namaz | 5.Ölmüş olanlara kimsə hörmət göstərmədi; və heç bir əziz onlar üçün namaz qılmadı. |
| 6.Çün tiriglikde namazı yok idi<br>Şem dik suz u güdazı yok idi | 6.Çünki yaşayarkən namaz qılmazdı; şam kimi yanıb yaxılmazdı. |
| 7.Ölügide ni kirek anga namaz<br>Andak ölgenge ni hacet i`zaz | 7.Ölüsündə ona namaz nə gərək; və o şəkildə ölən üçün hörmət nə gərək . |
| 8. Kış idi kaht u ulat uşbu tavr<br>Ol kış ol tavr ile aylandı devr | 8.Qış idi, qıtlıq və xəstəlik bu şəkildə idi; o qış günləri bu şəkildə keçdi. |
| 9.Kıstadı ol kış ulusnı asru<br>Kildi aç u yalangaçğa utru | 9.O qış ulusu çox sıxıntıya saldı; çoxu aclıq və çılpaqlıqla üz-üzə qaldı. |
| 10.Evvela bir niçe yağdı yamğur<br>Tamdı kökning yaşı müldür müldür | 10.Əvvəlcə çox yağış yağdı; və göyün yaşı (yağmuru) qətrə-qətrə damladı. |
| 11.Yudı ol kaht ara ölgenlerni<br>Şehr ara iv ili bölgenlerni | 11. Yudu o qıtlıqda ölənlərini ;və şəhərdəki sakinlərini. |

| | |
|---|---|
| 1.Yağdı yamğur songıdın munça kar<br>Kim ölüglerge kılıp mihr izhar | 1.Yağışın ardınca o qədər qar yağdı ki; ölülərə yaxşılıq etdi (üstlərini örtdü). |
| 2. Barçasın kömdi vü kıldı pinhan<br>İl közidin kim irür imdi yaman | 2.Pis olan kimsələrin hamısını basdırdı; və xalqın gözündən gizlədi. |
| 3.Çün uşol kar alarnı yaptı<br>Şehr fi`l-cümle safayi taptı | 3.Qar onları örtdükcə; şəhər başdan başa rahatlığa qovuşdu (ölülər çöldə qalmadı). |
| 4.Kardın songra hava boldı savuk<br>Boldı ölmekke tirig dağı yavuk | 4.Qardan sonra hava soyudu; və dirilər də az qala öləcəkdi. |
| 5.Katreyi muzlamagan kalmadı su<br>Muzladı şehri- Semerkand asru | 5.Donmamış bir  qətrə su qalmadı; Səmərqənd şəhəri tamamilə buza büründü. |
| 6.İlge bildürdi Semerkandlığın<br>Savuk u kar ile xorsendlığın | 6.(Bu qış), Səmərqəndin necə soyuğu və qarı; olduğunu xalqa bildirdi. |
| 7.Otka bazar besi germ oldı<br>Ol zaman devr anga ivrüldi | 7.Atəşə rəğbət çox oldu; və o zaman hər kəs yanacaq ardınca düşdü. |
| 8.Boldı ma`mur besi külxanlar<br>Tire külxanlar idi gülşenler | 8.Çox külxan insanla şənləndi; və qaranlıq külxanlar xalq nəzərində gülşən oldu. |
| 9.Kalğan erbabı-Semerkand tamam<br>Boldılar sakini- künci- hamam | 9.Səmərqənd xalqından qalanlar (həyatda qalanlar)ın; hamısı hamam küncləринə sakin oldular. |
| 10.Sartlar asru zebun boldılar<br>Dud ile ğaliye-gun boldılar | 10.Sartlar çox pərişan oldular; və külxan tüstüsü ilə qapqara oldular. |
| 11.Kıldılar otka perestiş bisyar<br>Kıldılar haviyeğa meyl izhar | 11.Atəşə çox pərəstiş etdilər; və beləcə cəhənnəmə meyl etdilər. |

| | |
|---|---|
| 1. Çün savukdın barı efkar idiler<br>Duzex otığa talebkar idiler | 1.Hamısı soyuqdan çox üşüdülər; Belə ki, cəhənnəm atəşini istər oldular. |
| 2.Ot hem ança imes irdi ıssığ<br>Yok idi ança hem andın assığ | 2.Atəş elə də isti deyildi; ancaq ona da faydası yox idi. |
| 3.Ol dağı min kibi bar idi usup<br>Oçak allıda savukdın buruşup | 3.Ocağın önündə soyuqdan büzüşüb; o da mənim kimi ərimiş idi. |
| **XLI**<br>**İmamü z-zaman xalifetü r-rahman Semerkand alğan yılnıng kışında Moğol üstiğe çirig tartıp Xanike xannıng vilayetlerin şehri- Hayyeni çapturğanı** | **XLI**<br>**Zamanın İmamı və Allahın xəlifəsinin Səmərqəndi aldığı ilin qışında moğol üstünə əsgər göndərib Xanikə xanın vilayətlərini və Hayyə şəhərini yağmalatması** |
| 4.Uş-munung dik kış içinde ol Xan<br>Kıldı barça ulusığa ferman | 4. Xan, belə bir qarlı qışda; bütün ulusa fərman etdi ki, |
| 5.Kim Semerkandğa kilsünler bat<br>Koyuban şiveyi- aram u sebat | 5.Əllərində nə iş varsa yarımçıq qoyub; dərhal Səmərqəndə gəlsinlər. |
| 6. Xandın ol yarlığ işitkeç leşker<br>Her niçük bolsa yığıldı yek ser | 6.Əsgər, xandan o fərmanı eşidəndə;hər necə olsa da tamamilə toplaşdı. |
| 7.Leşkeri çün yığılıp kildi tamam<br>Didi ol Xanı- azimül-islam | 7.Əsgəri toplaşıb tamamilə gəldiyi zaman; o islamın uca xanı dedi ki, |
| 8.Kim yörüp Sırnı kiçer-min fi`l-hal<br>Moğol ehlini kılur-min pamal | 8.”Yürüş edib dərhal Sır çayını (Seyhunu) keçərəm; və moğol xalqını ayaqlar altına alaram”. |

| | |
|---|---|
| 1.Uşbu söz birle yörüp atlandı<br>Haşem ü hayl takı atlandı | 1.Elə bu sözlə yeriyib atlandı; maiyyət və ətrafındakılar da atlandı. |
| 2.Bardı Xan kal`ayı- Zerk sarı<br>Saltanat ehli mülazim barı | 2.Xan, Zerk qalasına doğru getdi; səltənət əhli hamısı xidmətindəydi. |
| 3. Çünki Zerkdin ötüp kondı Xan<br>Şah Mahmudğa kıldı ferman | 3.Xan, Zerkdən keçib düşərgə salanda; Şah Mahmuda fərman göndərdi ki, |
| 4.Kim yörüp ilgeri ötsün sudın<br>Sır dime xavf u xatarlık yerdin | 4.”İrəli yürüş edib Sır çayını keçsin; Sır demə, qorxu və təhlükə yerindən keçsin! |
| 5.Şehri- Hayye Moğolın çaptursun<br>Şaş u Sayram yolın çaptursun | 5.Hayyə şəhəri moğolunu məğlub etsin; Şaş və Sayram yolunu açsın! |
| 6.Eylesün xaylı- Moğolnı viran<br>Belki tofrak ile kılsun yeksan | 6.Moğolları darmadağın etsin; və hətta yerlə bir etsin”! |
| 7.Uşbu ferman bile Sultan Mahmud<br>Atlanıp didi ağasığa dürud | 7.Sultan Mahmud bu fərman ilə; atlanıb böyük qardaşına salam göndərdi. |
| 8. Bardı anıng bile Timür Sultan<br>Yüzi xurşidi- felek dik taban | 8.Onunla birgə üzü günəş kimi parlaq; Teymur Sultan (da) vardı. |
| 9.Haci Ğazi takı boldı hemrah<br>Moğol ilin kılayın didi tebah | 9.Moğol xalqını xarab edim deyə; onlara Hacı Qazi də qoşuldu. |
| 10.Can Vefa dağı yörüp atlandı<br>Moğol öltürmek üçün katlandı | 10.Can Vəfa da gəlib atlandı; və moğol öldürmək üçün cəhd göstərdi. |
| 11.Boldı Kanber hem alarğa hempa<br>Tiledi merhamet u lutfı- Xuda | 11.Qənbər də onlara qoşuldu; mərhəmət və Allahın lütfünü dilədi. |

| | |
|---|---|
| 1.Atlanıp Şeyx müridi- pür-dil<br>Boldı ol hem bu yörüşke mayil | 1. Cəsur Şeyx Mürid atlanıb; o da bu səfərə meyl etdi. |
| 2.Bardılar barçası Sultan birle<br>Bendelik eylediler can birle | 2.Hamısı Sultanla birlikdə getdilər; və candan qulluq etdilər. |
| 3.Altı mingçe kişi çıktı koldın<br>Ba'zı ongdın u ba'zı soldın | 3.Bəzisi sağdan və bəzisi sol qoldan; altı min qədər adam yola çıxdı. |
| 4.Barçası pür-dil u rezm-aver ü çüst<br>Rezm üçün barçasınıng billeri rüst | 4.Hamısı cəsur, döyüşkən və çevik idi; hamısının belləri savaşa bağlı idi (hamısı savaşmağa qərarlı idi). |
| 5.Barça koş atlık u barça cerrar<br>Barçanıng barça yarağı tayyar | 5.Hamısı cüt atlı və hamısı donanımlı; hamısının bütün hazırlığı tamam idi. |
| 6.Cibedin atları barça yüklük<br>İç ü taş tonları barça tüglük | 6.Hamısının atları cəbbəxana ilə yüklü idi; iç və çöl paltarları hamısı kürklü idi. |
| 7.Kaysınıng tonı idi altayı<br>Ol kızır irdi yörügen sayı | 7.Bəzisinin paltarı altayi idi; və o yeriyəndə isidirdi. |
| 8.Kaysı süser kılıp irdi libas<br>Vaktğa layık itip irdi esas | 8.Bəzisi samurdan paltar geyinmiş idi; və vəziyyətə uyğun hala gətirmişdi. |
| 9.Kaysı tülki bile xorsend irdi<br>Tülkige talibi- peyvend irdi | 9.Bəzisi tülküyə qənaət etmişdi; və tülkü arxasındaydı. |
| 10.Könglek ornıda idi as u tiyin<br>Bu arada men alardın niteyin | 10.Köynək olaraq as və dələ kürkü geymişdilər; bu arada mən nə edim? |
| 11.Savuk andak idi kim yaxşı yaman<br>Bar idiler barı andın nalan | 11. Elə soyuq idi ki; pis, yaxşı hər kəs soyuqdan inlər haldaydı. |

| | |
|---|---|
| 1. Gerçi Özbek ulusı deşt ara<br>Osuban tuttılar anda me'va | 1.Özbək xalqı çölü aşaraq; orada yerləşdi. |
| 2.Deşt savuklarını kördiler<br>Ol havalarda çıdap turdılar | 2.Çölün soyuqlarını gördülər; və o havalarda duruş gətirdilər. |
| 3.Didiler eyleben insaf izhar<br>Bu savuk deşt savukıça bar | 3.İnsaf göstərin, dedilər; bu soyuq çöl soyuğu qədər var. |
| 4.Ol savukdın tapayın digen eman<br>Zahmıdın kutkarayın digen can | 4. O soyuqdan qurtulum deyən; və can yarasından qurtarım deyən, |
| 5.Tartıp idi tizige tüglük işim<br>Aytur irdi bu irür yaxşı işim | 5.Dizinə kürklü paltar çəkmiş idi; və etdiyim yaxşı iş budur, deyərdi. |
| 6.İçidin tülkige çolğanıp idi<br>Teni tülki ara tolğanıp idi | 6.İçindən tülkü kürkünə bürünmüş idi; və bədəni tülkü kürküylə sarınmış idi. |
| 7.Taşdın hem kiyip irdi yene bir<br>Tapmayın dip bu havadın tağyir | 7.Bu havadan təsirlənməyək deyə üstdən də; ayrıca bir başqa şey geymişdi. |
| 8.Başıda bar idi kışlik kalpak<br>Çomuruban yapurup irdi kulak | 8.Başında samur dərisindən papaq vardı; və qulaqlarına qədər çəkmişdi. |
| 9.Ol kış asru savuk irdi amma<br>Yok idi hiç alarğa perva | 9. O qış çox soyuq olmasına rəğmən; onların bu soyuqdan qorxuları yoxdu. |
| 10.Kişke batıp idiler sultanlar<br>Ma'delet cismi içinde canlar | 10.Sultanlar da samura batmış idilər; və canları adil cismləri içində idi. |
| 11.Şem' yanglığ idi Sultan Mahmud<br>Başıda kis ni yanglığ kim dud | 11. Sultan Mahmud şam kimi idi; başında sanki samur deyil, duman vardı. |

| | |
|---|---|
| 1.Şah Timür kis içinde heyhat<br>Bar idi zulmet ara abı- hayat | 1.Şah Timur da samur içində idi; qaranlıq içində abi- həyatı andırırdı. |
| 2.Karaçılar takı kis ton ara ğark<br>Barça asüde kademdin ta-fark | 2.Müşahidəçilər də samurla donanmışdılar; hamısı başdan ayağa rahatlıq içindəydilər. |
| 3.Bu yarak birle yitişti leşker<br>Sır boyın eylediler tünle makar | 3. Əsgər bu hazırlıqdaykən; gecə Sır boyunu özlərinə qərargah etdilər. |
| 4.Savuk eylep idi Sırğa te' sir<br>Tongup irdi tapa almay tedbir | 4.Soyuq Sıra təsir etmişdi; və çarəsiz donmuş idi. |
| 5.Taş kibi muzlap idi ol derya<br>Yok idi hiç nem anda asla | 5.O dərya daş kimi buz tutmuşdu ;və buz tutmamış yeri qalmamışdı. |
| 6.Sırnı ol nev' körüben sultan<br>Atlanıp Sırnı kiçer boldı revan | 6.Sultan, Sırı o şəkildə görərək atlanıb; Sırı sakitcə keçməyə başladı. |
| 7.Yörügeç Hazreti- sultan fi'l-hal<br>Kıldılar Sırnı xalayık pamal | 7.Sultan həzrətləri yeriyəndə; xalq dərhal Sırı keçdi. |
| 8.Hiçkim çıkmadı ol kurğandın<br>Kıldılar vehm besi sultandın | 8.Heç kim o kurqandan çıxmadı; Sultandan çox qorxdular. |
| 9.Deşt ü vadiğa yayıldı leşker<br>Mal tahsilini kıldı leşker | 9.Əsgər, çölə və vadiyə yayıldı; və mal əldə etməyə başladı. |
| 10.Şehri- Hayye Moğolın çaptılar<br>Şehri- Hay asru kalın taptılar | 10.Hayye şəhəri moğollarını məğlub etdilər; Hayye şəhərində bir çox qənimət əldə etdilər. |
| 11.Aldılar malı- fıravan anda<br>Boldı köp mal nümayan anda | 11. Orada saysız dərəcədə mal aldılar; və çox mal da orada aşkara çıxdı. |

| | |
|---|---|
| 1.Kırdılar xaylı- Moğolnı bisyar<br>Canlarığa tigürüben azar | 1.Bir çox moğol sürüsünü qırdılar; canlarına əzab verdilər. |
| 2.İkki kün çaptılar ol kişverni<br>Rencğa saptılar ol kişverni | 2.İki gün o ölkəyə axın etdilər; və ölkəni sıxıntıya soxdular. |
| 3.Bardı Hanike digen xanğa xaber<br>Kim yitişti bu tarafdın leşker | 3.Xanikə adlı xana xəbər getdi ki; bu tərəfdən əsgər çatmışdır. |
| 4.Hanike xan bu xaberdin miskin<br>Boldı biçare vü asru ğamgin | 4.Xanikə xan bu xəbərdən aciz oldu; çarəsiz və çox qəmgin oldu. |
| 5.Mestlık uykusıdın ayıldı<br>Bigleri birle kingeşler kıldı | 5.Sərxoşluq yuxusundan ayıldı; və bəyləri ilə məşvərət etdi. |
| 6.Maslahat körmediler atlanurın<br>Atlanıp rezm üçün katlanurın | 6.Atlanmağı və atlanıb; savaş üçün əziyyətə qatlaşmağı məsləhət görmədilər. |
| 7.Ol kingeşde veli Şibani Xan<br>İnisining songıdın kildi revan | 7.Fəqət Şeybani xan o müşavirə əsnasında; qardaşının ardından dərhal gəldi. |
| 8.Sır yakasığa tüşüp olturdı<br>Xasm ile rezm münasib kördi | 8.Sır kənarına enib oturdu; və düşmənlə vuruşmağı münasib bildi. |
| 9.Xasm çün çıkmadı kıldı ferman<br>Kim yanıp kolğa koşulsun sultan | 9.Düşmən, qarşısına çıxmadıqda Sultan geri dönüb; bir qola (əsgəri birliyə) qoşulsun deyə, fərman etdi. |
| 10.Hükm ile Hazreti-Sultan Mahmud<br>Kildi vü kıldı çirigni xoşnud | 10.Sultan Mahmud həzrətləri bu qərar üzərinə gəldi; və əsgəri məmnun etdi. |
| 11.Malı- 'alemni alıban kildi<br>Barça ilni mütemevvil kıldı | 11. Aləmin malını alaraq gəldi; və bütün xalqı mal sahibi etdi. |

| | |
|---|---|
| 1.Yene bir kün ol ara turdılar<br>Xasm kilgey diben olturdılar | 1.Yenə bir gün orada durdular; və düşmən gələcək deyə gözlədilər. |
| 2.Xasm çün çıkmadı boldı naçar<br>Yanmak ol yerdin itip 'azmı-diyar | 2.Düşmən ortaya çıxmadığı üçün çarəsiz; o yerdən geri dönüb öz ölkələrinə getməyə başladılar. |
| 3.Çün çirigning yanarı cezm oldı<br>Xan Şibanığa bu 'azm oldı | 3.Əsgərin geri dönüş qərarı çıxdı; və Şeybani xan yola düşdü. |
| 4.Kim yene Sırnı ötüben leşker<br>Aşlık alğay tivesiğa yekser | 4.Əsgər, yenə Sırı keçib; dəvəsinə yaxşı azuqə yükləyəcək. |
| 5.Yene xan eylegeç ol nev' xayal<br>Yene Sır boldı çirikke pamal | 5.Xan, bu cür bir xəyal edərkən; əsgər Sırı keçdi, |
| 6.Mülkint üstige yol saldılar<br>Bolğan aşlıklarını aldılar | 6.Mülkənt üzərinə yola düşdülər; və olan yeməklərini götürdülər. |
| 7.Köngül aşlık sarıdın cem' oldı<br>Mülkint ili veli savruldı | 7.Hər kəsin könlü yemək baxımından rahatladı; fəqət Mülkent xalqı sovruldu. |
| 8.Xan köçüp yandı Semerkand sarı<br>Xurrem ü şad çirig ehli barı | 8.Xan, köçüb Səmərqənd tərəfinə döndü; əsgərin hamısı şad və xürrəm (idi). |
| 9.Kildi xan taxtıda tuttı aram<br>Eyledi 'ayş şeririni makam | 9.Xan gəldi, taxtında dincəldi; və əyləncə taxtını məqam eylədi (əyləncəyə başladı). |
| 10.Her kim öz menzilide taptı karar<br>Kayu Küfeyn u kayu bardı Buxar | 10.Hər kəs öz mənzilinə yönəldi; bəzisi Kufeyn və bəzisi də Buxaraya doğru getdi. |
| 11.Faslı- dey ötküçe il tındılar<br>Barça kışlaklarığa indiler | 11. Qış mövsümü keçənə qədər xalq dincəldi; və hamısı qışlaqlarına endilər. |

| XLII<br>**Hazreti- İmamü'z-zaman ve xalifetü'r-Rahman Moğol üstiğe barıp Uratipe kurğanıda Muhammed Hüseyn Mirzanı kapağanı ve ol yalbarıp sulh tileğanı** | XLII<br>**Zamanın İmamı və Allahın xəlifəsi həzrətlərinin moğol üzərinə gedib Uratipe kurqanında Məhəmməd Hüseyn Mirzəni həbs etməsi və onun yalvararaq barış istəməsi** |
|---|---|
| 1.Yaz açılğaç yene xanı- devran<br>Eyledi leşker iliğe ferman | 1.Yaz gələndə yenə xanı- zaman; əsgərinə etdi fərman |
| 2.Kim Uratipege cem olsunlar<br>Deşti- Sabat ara oltursunlar | 2.Uratipəyə cəm olsunlar; və Sabat çölündə gözləsinlər! |
| 3.Yene leşker barı cem' oldı bat<br>Toldı xan leşkeridin deşti - Sabat | 3.Bunun üzərinə əsgərin tamamı dərhal toplandı; və Sabat çölü Xanın əsgəriylə doldu. |
| 4.Sebze üstide yayıldı leşker<br>Ak çiçek yanglığ açıldı çader | 4.Əsgər, yaşıllıq üzərində yayıldı; və çadırlar bəyaz çiçəklər kimi açıldı. |
| 5.Şamiyane körüp andak sahra<br>Yazılıp eyledi köp kesbi- hava | 5.Çöl o qədər çox otaq; görüncə yayılıb nəşələndi. |
| 6.Asru ziba bolup irdi ol deşt<br>Kabili-seyr idi vü gül-geşt | 6. O çöl çox gözəlləşdi; gəzib dolanmağa uyğun oldu. |
| 7.Güli bisyar idi vü sebzesi çok<br>Hiç bigane otı asla yok | 7.Gülü və yaşıllığı çox idi; yabanı ot əsla yox idi. |
| 8.Lale sebze yüzide reng-be-reng<br>Lale üstide barı taze öleng | 8.Yaşıllıq üstündə rəngli lalələr; və lalələrin üstündə də təzə yaşıllıqlar vardı. |
| 9.Lale üstide tikip çaderler<br>Kıldılar 'ayş peri-peykerler | 9.Lalə üstündə çadırları qurub; pəri üzlülər yeyib, içib əyləndilər. |

| | |
|---|---|
| 1.Xan u sultan körüp ol sahranı<br>Kördiler bezmğa layık anı | 1.Xan və Sultan o çölü gördükdə; oranı məclis qurmağa layiq bildilər. |
| 2.Kıldılar bir niçe menzil anda<br>Tüzdiler bir niçe mahfil anda | 2.Bir müddət orada məskən saldılar; və orada bir çox məclis düzəltdilər. |
| 3.İçtiler bal ferağı bile bal<br>Baldın sağar itip mal-a-mal | 3.Orada bal şərbəti içdilər; və qədəhləri bal şərbətiylə doldurdular. |
| 4.Hasıl ol padişeh-i din-perver<br>' Ayş u 'işret bile çikti leşker | 4.Xülasə, o dinpərvər padşah; eyş və işrət ilə əsgər sövq etdi. |
| 5.Yetti Uratipe kurğanığa<br>Ot salıp hakimining canığa | 5.Uratipe kurqanına yol aldı; və hakiminin canına od saldı. |
| 6.Hakimi bar idi bir mirzayi<br>Hüsn erbabı ara ra'nayi | 6.Hakimi bir mirzə idi; və qala xalqı arasında gözəl bir adam idi. |
| 7.Hanike xanğa küveylık kılğan<br>Gül kibi mahallıda açılğan | 7.Xanikə xana damadlıq edən; və məclisində gül kimi açılan, |
| 8.Kavmının atı Moğolda Oğlat<br>Özbek içinde karini- Konğrat | 8.Qövmünün adı idi moğolda Oğlat; və özbək içində karini-Konqrat (yaxını), |
| 9.Atıdın kim tolup irdi kevneyn<br>Muttasıl irdi Muhammedğa Hüseyn | 9.Adı iki aləmi əhatə etmiş idi; və Məhəmmədə Hüseyn bağlı idi (Adı Məhəmməd Hüseyn idi). |
| 10.İkki mingçe nökeri bar irdi<br>Kim barı çabük ü cerrar irdi | 10.Hamısı zirək və igid; iki min qədər əsgəri var idi. |
| 11.Kal'ası bar idi asru muhkem<br>Burc u baruları besi müstahke | 11.Qalası çox möhkəm idi; bürc və sipərləri də çox müstəhkəm idi. |

| | |
|---|---|
| 1.Xandakın yitkürüp irdi suvğa<br>Hiç yir koymap idi şatuğa | 1.Xəndəyini su ilə doldurmuşdu; və nərdivan üçün heç yer qoymamış idi. |
| 2.Kim yite alsun anga şatu bile<br>Ki giriftar idi alem suv bile | 2.ki nərdivanla ona (qalaya) çata bilsin; çünki, hər yer su ilə doluydu. |
| 3.İkki xandak bar idi uş-mundak<br>Kim körüptür basa mundak xandak | 3.Ayrıca bu şəkildə iki xəndək var idi; bu cür xəndəyi kim görmüşdü? |
| 4.Tigreside takı cerler bisyar<br>Uruşur yerleri bes na-hemvar | 4.Ətrafında da çox yarıqlar var idi; və vuruşacaq yerlər düzənlük deyildi. |
| 5.Kal`a tamı biyik andak ki felek<br>Üstide bir niçe nadan merdek | 5.Qalanın bürcü fələk kimi çox yüksəkdi; üstündə bir neçə çox cahil adamlar vardı. |
| 6.Sağınurlar idi kim bu kurğan<br>Bar felek hısnı kibi darü'1-eman | 6.Bu kurqanı fələk qalası kimi; sığınmaq üçün yer zənn edərdilər. |
| 7.Ğafil andın ki felek ni kılğay<br>Kal'a işiki nitek açılğay | 7.Fələyin nə edəcəyindən (başa nələr gələcəyindən); və qala qapısının necə açılacağından xəbərsiz idilər. |
| 8.01 cema'atğa bu nev' irdi xayal<br>Kim anga bolğusı yok hiç zeval | 8. O camaata elə gəlirdi ki; bu qala zaval görməyəcək. |
| 9.Kal'anıng içide olturdılar<br>Taşkarı xan çirigin kördiler | 9.Qalanın içində oturdular; və çöldə Xan əsgərini gördülər. |
| 10.Dimediler ki çirigtür ya yok<br>Her niçe kim çirig olturdı yavuk | 10.Əsgərlər nə qədər qalaya yaxın gəldilərsə də; onlarn varlığından, ya yoxluğundan söz etmədilər. |
| 11.Xan kilip çün kapap olturdı anı<br>Eyle kim bardur idi kördi anı | 11.Xan gəlib qalanı tutub yerləşdi; və qalanın nə qədər yüksək olduğunu gördü. |

| | |
|---|---|
| 1.Bildi kim almağı irür düşvar<br>Uruş itmek anga müşkil bisyar | 1.Qalanın ələ keçirilməsi və onu əldə etmək üçün; vuruşmağın nə qədər çətin olduğunu bildi. |
| 2.Didi olturmak ile alsa bolur<br>Munga köp vakt xalel salsa bolur | 2.(Orada) oturmaqla ələ keçirilməsi; və bunun üçün çox vaxt sərf edilməsi lazımdı. |
| 3.Dimedi hiç yörüşnıing sözini<br>Hiç kiltürmedi anga özini | 3.Səfərdən söz etmədi; və özünü heç onda qoymadı (səfərə başlamadı). |
| 4.Didi aşlıklarını zayi' iting<br>Kayda kim at u koyı bar yiting | 4. Dedi:”Yeməklərini zay edin; və harada at və qoyun varsa, gətirin. |
| 5.Aşlığınıng kökini yidürüngiz<br>Kolğa taşkı malını kivürüngiz | 5.Yeməklərini sonuna qədər yedirdin; və çöldəki mallarını da ələ keçirin. |
| 6.Haliya uşbu kadar iş kılalı<br>Yene aşlık bışığında kileli | 6.İndi bu qədər iş görək; və yenə yemək bişəndə gələk”. |
| 7.Uşbu yarlığ bile biş kün leşker<br>Eyledi tigresini zir ü zeber | 7.Elə bu fərmanla əsgər beş gün; ətrafını yerlə bir etdi. |
| 8.Aşlığını yidürüp yandılar<br>Kolğa malın kivürüp yandılar | 8.Əsgərə yeməyini yedirdib döndülər; və mallarını ələ keçirdilər. |
| 9.Yene xan kildi Semerkand ara<br>Barça 'alem ara andın ğavğa | 9.Xan təkrar Səmərqəndə gəldi; və hər kəs bu hadisədən dolayı davaya başladı. |
| 10.Aşlık üstige yene atlandı<br>Uratipe işige katlandı | 10. Azuqə üçün yenə atlandı; və Uratipeni ələ keçirmək üçün əziyyətə qatlandı (səy göstərdi). |
| 11.Yançıp aşlığnı alur boldı çirig<br>Yurt ol yirge salur boldı çirig | 11.Əsgər yağmalayaraq azuqəni aldı; və çadırlarını oraya qurdu. |

| | |
|---|---|
| 1.Taşkarı aşlığı bolğaç pamal<br>İçkeri boldı ra'iyyet bed-hal | 1.Çöldəki ərzaq ayaq altına alınanda; içəridəki xalqın vəziyyəti pisləşdi. |
| 2.Boldı mirzaları hem asru melul<br>Xatırı oldı be-ğayet meşğul | 2.Mirzələri də çox məlul oldu; və könlü çox məşğul oldu. |
| 3.Sulhnıng sözin arağa saldı<br>Sulh işini özige aldı | 3. Sülh sözünü ortaya gətirdilər ;və sülh işini özləri üçün uyğun bildilər. |
| 4.Eyledi 'arz sözin sultanğa<br>Didi sözümni aytıng xanğa | 4.Sözlərini Sultana ərz etdilər; və sözümü Xana söyləyin, dedi. |
| 5.Olturuptur bu sarı Xusrev Şah<br>Bıhüner kuldur u asru birah | 5. “Xosrov şah bu tərəfdə oturmuşdur; və hünərsiz və çox pis yoldadır. |
| 6.Ol sarı bar Timür oğlı bisyar<br>Barça cür'etsiz ü bi-neng ü medar | 6.Bir tərəfdə də Timur oğulları vardır; və hamısı cürətsiz və şərəfsizdir. |
| 7.Siz ikev bir atanıng oğlı-siz<br>Siz ikevge karaçı bizler-biz | 7.Siz ikiniz bir atanın oğlusunuz; və sizə bizlər xidmətçiyik. |
| 8.Siz bizing xan bile sulh eyleng saz<br>Eylengiz resmi- muhabbet ağaz | 8.Siz bizim xanımız ilə sülh bağlayın; və arada məhəbbət münasibətinə başlayın. |
| 9.Men arada turayın can birle<br>Sizni yaruşturayın xan birle | 9.Mən arada can ilə (səmimiyyətimlə) durum; və sizi Xanla dost edim”. |
| 10.Çün bu sözlerni işitti sultan<br>Xanğa çün didi kabul eyledi xan | 10.Sultan bu sözləri eşitdikdə; Xana söylədi, Xan qəbul etdi. |
| 11.Xan rıza bolğaç anıng sözige<br>Dip yiberdiler anıng özige | 11.Xan bu sözünə razı olunca; onun özünə göndərdilər. |

| | |
|---|---|
| 1.Çün rıza angladı mirzayi-fakir<br>Kıldı sultan yolığa özni esir | 1. Fəqir mirzə razı olduğunu anlayanda; özünü Sultanın yolunda fəda etdi. |
| 2.Çıktı vü kördi özi sultannı<br>Lik vehm itti körerge xannı | 2. (Mirzə) qaladan çıxdı və Sultanı gördü; fəqət Xanı (Şeybani xanı) görməyinə şübhəsi vardı. |
| 3.Piş-keş eyledi atlar bisyar<br>Barçası yüğrük ü barça rehvar | 3. Çox at peşkəş etdi; Hamısı yüyrək və hamısı rahvar. |
| 4.Uşbu sa'at birev itti agah<br>Kim Xazar üstidedür Xusrev Şah | 4. Bu saatda biri etdi agah; ki, "Xazar dolaylarındadır Xosrov şah. |
| 5.Xanike xan bile sözi birdür<br>Barça 'alemğa sözi zahirdür | 5. (Xosrov şahın) Xanikə xan ilə sözü birdir; və bu bütün aləmdə zahirdir". |
| 6.Çün munı angladı xanı- pür-dil<br>Köprek ol sulhğa boldı mayil | 6. Ürəkli Xan bunu anlayınca; sülhə daha çox meyil etdi. |
| 7.Köçüp Uratipedin xanı-zaman<br>Sulhname bitiben kıldı revan | 7. Dövrün Xanı Uratipədən köçüb; sülhnamə yazdırıb yerinə yetirdi. |
| 8.Sulhname anı kılğaç xurrem<br>Bardı Uratipe mirzası hem | 8. Sülhnamə onu şad edincə; Uratipə mirzəsi də getdi. |
| 9.Hanike xan kademiğa yitti<br>Sulhnıng sözlerini ayttı | 9. Xanikə xan hüzuruna çıxdı; və barış şərtlərini söylədi. |
| 10.Sulhğa eyledi terğib besi<br>Yaxşı söz eyledi tertib besi | 10. Barış üçün çox həvəsləndirdi; və çox gözəl sözlər tərtib etdi . |
| 11.Didi "Tenbel sanga bir nökerdür<br>Haliya öz başığa serverdür | 11. Dedi: "Tənbəl sənə bir nökərdir, fəqət indi öz başına sərvərdir. |

| | |
|---|---|
| 1.Andican mülkide hakimdür özi<br>Yayılıptur barı 'alemğa sözi | 1. Əndican mülkündə hakimdir özü; və bütün aləmə yayılmışdır sözü. |
| 2.İlimizni çapadur peyveste<br>Bizni 'aciz tapadur peyveste | 2.Şəhərimizi talan etməkdədir daim; və bizi aciz etməkdədir daim. |
| 3.Xan ağang birle yaraşsang fi'1-hal<br>Bat Tenbelni kılur-biz pamal" | 3.Xan qardaşınla uyğun hərəkət etsən; Tənbəli dərhal ayaq altına alarıq". |
| 4.Tüşti bu söz barı ilge ma'kul<br>Kıldılar sözlerini barça kabul | 4.Bu söz bütün xalq tərəfindən qarşılandı məqbul ; və sözlərini hamı etdi qəbul. |
| 5.Xanğa Xanike bitidi mektub<br>Xub u merğub u fesahat-üslub<br>**XLIII**<br>**Hazreti- İmamü'z-zaman ve xallfetü'r-rahman tapuğıda Xanike xanıng derdi- dil kılğanı ve niyaz yüzidin bitigen sözleri**<br>6.Sözi bu kim xan ağam hazretide<br>Bendelik birle du'a xıdmetide | 5.Xanikə gözəl, bəyənilən və fəsih üslub; yazdı xana bir məktub.<br>**XLIII**<br>**Zamanın İmamı və Allahın xəlifəsi həzrətlərinin xidmətində Xanikə xanın könlündəki dərdlərini danışması və yalvararaq yazdığı sözlər**<br>6.Sözü bu: "Xan ağam hüzurunda; qulluq ilə dua etməkdəyəm. |
| 7.Hazretide sözüm olsun ma`lum<br>Xıdmetide sözüm olsun ma'lum | 7.Hüzurunda sözüm məlum olsun; və xidmətində sözüm məlum olsun. |
| 8.Min ezeldin sanga xidmetçi-min<br>Her işinge basa himmetçi-min | 8.Mən əzəldən sənə xidmətçiyəm; və hər işinə çox köməkçiyəm. |
| 9.Sin kirip alğalı Türkistannı<br>Min ayamadım sindin cannı | 9.Sən girib Türküstanı almaq istəyəndə; mən səndən canımı əsirgəmədim. |

| | |
|---|---|
| 1.Kal'a alurda sanga yar oldum<br>Uruş eylerge mededkar oldum | 1.Qala almaqda sənə yar oldum; döyüş zamanı da mədədkar oldum. |
| 2.İmdi kim tüşti Semerkand sanga<br>Nazarıng tüşmedi bir vakt manga | 2.İndi Səmərqəndi ələ keçirdiyin halda; bir dəfə olsun mənə baxmadın (mənimlə maraqlanmadın). |
| 3.Xıdmetimni unutup-sin guya<br>Özgeçe resm tutup-sin guya | 3.Sanki xidmətimi unutmuşsan; və başqa bir yol tutmuşsan. |
| 4.İmdi hem bolsa mini unutma<br>Yatlık resmini utru tutma | 4.İndi olsun, məni unutma; yad kimi davranma! |
| 5.Babur üçün ğazab itme zahir<br>Kim anıng işi boluptur axir | 5.Babur üçün qəzəb etmə, çünki onun işi sona çatmışdır. |
| 6.Ger anga bende mededkar oldum<br>Yaman il sözi bile yar oldum | 6.Hər nə qədər ona mədədkar oldum; pis kimsələrin sözüylə ona yar oldum (pis kimsələrin sözünə aldandım). |
| 7.Bilmedim bilmesime bolma mening<br>Ki be-ğayet kereming bar sening | 7. Aldanmağıma baxma mənim; çünki kərəmin çoxdur sənin, |
| 8.Mini dermande kılıptur Tenbel<br>Mini biçare biliptür Tenbel | 8. Məni taqətdən salıbdır Tənbəl; və məni zavallı bilibdir Tənbəl. |
| 9.Sin mening birle eger sulh itseng<br>Ya Hisar üstiğe barıp yitseng | 9.Əgər sən mənimlə sülh etsən; yaxud Hisar üstünə varıb getsən, |
| 10.Min atımnı yiberip kiltüreyin<br>Tenbel üstiğe yitiben turayın | 10. Mən atımı gətirərəm; və Tənbəl üstünə varıb gedərəm. |
| 11.Cem' tut sin bu tarafdın xatır<br>Kim xilaf olmağusıdur zahir | 11.Bu tərəfdən xatircəm ol; və bunun əksi olmayacaqdır". |

| | |
|---|---|
| 1.Xan Semerkand yeter sa'atda<br>Taxtıda menzil iter sa'atda | 1.Xan Səmərqəndə çatdığı saatda;<br>taxtına oturduğu saatda, |
| 2.Yetti Xanikedin uşbu mektub<br>Xan dağı ilçisini kördi xub | 2.Xanikədən bu məktub yetişdi; Xan da onun elçisini çox gözəl qarşıladı. |
| 3.Sulh saz eylediler ikki xan<br>Boldı xoş-hal bu işdin sultan | 3.İki xan sülh sözünü danışdılar; və Sultanın bu işdən könlü xoş oldu. |
| **XLIV**<br>**Hazreti- İmamü'z-zaman ve xalifetü'r-rahman Xanike xan derdi- dilige rahm kılıp yaraşkanı ve Semerkanddın Buxarağa kilip Ka'besin tavaf kılıp Buxara çirigi bile Muzafferü'd-dln Sultan Mahmudnı Xarezm vilayetining fethi üçün yibergeni** | **XLIV**<br>**Zamanın İmamı və Allahın xəlifəsi həzrətlərinin Xanikə xanın dərdi-dilinə rəhmi gəlib yaxınlıq göstərməsi və Səmərqənddən Buxaraya gəlib Kəbəsini tavaf edib Buxara əsgəri ilə Müzəffərüddin Sultan Mahmudu Xarəzm vilayətinin fəthi üçün göndərməsi** |
| 4.Xanike xan bile çün kıldı yaraş<br>Kıldı xan Ka'be tavafını telaş | 4.Xanikə xan ilə sülh edincə Xan;<br>Kəbənin tavafına getdi. |
| 5.Ya'ni kim kildi Buxara sarı<br>Anasın körgeli zılli- barı | 5.Yəni ki, Allahın kölgəsi anasını;<br>görmək üçün Buxaraya gəldi. |
| 6.Kildi vü Ka'besini kıldı tavaf<br>Kıldılar bendeligini eşraf | 6.Gəlib Kəbəsini tavaf etdi; şəhər əşrafı qulluq göstərdi. |
| 7.Ol Buxarada idi kim nagah<br>Kildi bir Özbek ü didi ey şah | 7.O, Buxarada olanda nagah; bir özbək gəlib dedi ki: “Ey Şah. |

| | |
|---|---|
| 1.Sanga Xarezm ili talibdür<br>Bigige vehm besi ğalibdür | 1.Xarəzm xalqı səni istəməkdədir; bu səbəbdən oranın bəyi çox qorxmaqdadır. |
| 2.Gerçi biginiıng atıdur Behbud<br>Lik il andın imestür xoşnud | 2.Hərçənd bəyinin adıdır Behbud; amma xalq ondan deyildir xoşnud. |
| 3.Nökeri birle ili yek-dil imes<br>Hiç kim hasıl anga mayil imes" | 3.Nökəri ilə xalqı yekdil deyildir; və heç kim ona mayil deyildir". |
| 4.Xan bu sözni iştip eyledi cezm<br>Kim münasibdür uşol sarı azm | 4.Xan bu sözü eşidəndə o tərəfə; getməyin münasib olduğu qərarını verdi. |
| 5.Didi Xarezm kolumğa kirse<br>Tingri ol mülkni manga birse | 5. Dedi: "Xarəzm əlimə keçsə; və Tanrı o mülkü mənə versə. |
| 6.Özbek ili akılıp kilgüsidür<br>Ot yalın dik çakılıp kilgüsidür | 6.Özbək xalqı axıb gələcəkdir; od və alov kimi parlayıb gələcəkdir. |
| 7.Leşkerim bolğusı bi-hadd ü kıyas<br>Dünyining alurığa bolğum esas | 7.Əsgərim hədsiz-hesabsız dərəcədə çox olacaqdır; və beləcə dünyanı ələ keçirmək mümkün olacaqdır". |
| 8.Xan bu sözni didi amma sultan<br>Didi yaxşı sağış eyleptür xan | 8.Xan bu sözü söyləyəndə; Sultan dedi: "Xan yaxşı düşünmüşdür, |
| 9.Lik bu sarı yakındur yağı<br>Sözleri bar köngülning dağı | 9.Fəqət, düşmən buraya yaxındır; və sözləri könlün yarasıdır (könlü yaralamaqdadır). |
| 10.Belxde Şahı- zaman digen bar<br>Belxning ehli anga xıdmet-kar | 10.Bəlxdə Şahi-zaman deyilən biri vardır; və Bəlxin xalqı ona bağlıdır. |
| 11.Tirmiz üstide irür Xusrev Şah<br>İrte kiçe işimizdin agah | 11. Tirmizin üstündə Xosrov şah vardır; gecə- gündüz işimizdən xəbərdardır (bizi təqib etməkdədir). |

| | |
|---|---|
| 1.Kiledür irmiş anga Zü'n-nun hem<br>Anga hemrah niçe arğun hem | 1.Zün-nun da ona gəlmişdir ;və bir çox arğun da ona yoldaşdır. |
| 2.Baki Tarxan dağı ol yerde imiş<br>Siz turung köreli Tingri ni dimiş | 2.Baki Tarxan da o yerdə imiş; siz durun, görək, Tanrı nə demiş. |
| 3.Kılsangız hükm bu yan min barayın<br>Kat u Xarezmni bir axtarayın | 3. Əmr buyursanız mən bu tərəfə gedim; Kat və Xarəzmi alt- üst edim”. |
| 4.Xanğa sultan sözi tüşti ma'kul<br>Kıldı sultan takı hükmini kabul | 4.Xana Sultanın sözü gəldi məqbul ; və Sultan da bu hökmü etdi qəbul. |
| 5.Boldı ol xanı- cihandın ferman<br>Kim revan atlana tursun Sultan | 5. Atlansın deyə Sultan; oldu. o cahanın xanından fərman |
| 6.Xan sözi birle tilep fazl u dud<br>Atlanur boldı Sultan Mahmud | 6.Xanın sözü üzərinə fəzilət və yardım diləyib; Sultan Mahmud atlanır oldu. |
| 7.Boldı xan yarlığı kim uşbu dem<br>Hemreh olsun Cani Big Sultan hem | 7.Yenə Xanın buyruğu gəldi bu dəm; Canı Big Sultan da həmrah olsun həm. |
| 8.Anga Konğrat hem olsun hemrah<br>Kim irür rezm işidin agah | 8.Savaş işindən anlayan Konğrat da; ona yoldaş olsun. |
| 9.Xan özi yandı Semerkand sarı<br>Allıda ehli- Semerkand barı | 9.Xan özü Səmərqənd tərəfinə döndü; bütün Səmərqənd xalqı onun hüzurunda idi (ona bağlı idi). |
| **XLV**<br>**Muzafferi'd-din Sultan Mahmud Bahadır Xarezm sarı teveccüh kılğanı** | **XLV**<br>**Müzəffərüddin Sultan Mahmud Bahadırın Xarəzmə yönəlməsi** |
| 10.Tuttı Xarezm yolnı sultan<br>Çikiben rezm kılurğa ferman | 10. Xarəzm yolunu tutdu sultan; Savaşmaq üçün çıxarıb fərman . |

| | |
|---|---|
| 1.On konup Kat digenge yetti<br>Kal'ası allıda me'va itti | 1.On günlük yürüşlə Kat deyilən yerə çatdı; və qalası önündə yerləşdi. |
| 2.Kat xalkı işitip sultannı<br>Çiktiler allıda nakdı- cannı | 2.Kat xalqı Sultanın gəldiyini eşidib; hüzurunda canlarını ortaya qoydular. |
| 3.Kılıp ol kal'a ilini razı<br>Çıktılar müfti vü şeyx ü kazı | 3.Müfti, şeyx və qazı; qaladan çıxdılar xalqı edib razı. |
| 4.Kaldı daruğa içinde hayran<br>Boldı özi işide ser-gerdan | 4.Daruğa qala içində çaşmış halda qaldı; və etdiyi işdən çaşdı. |
| 5.Çıkıp ol dağı ilikke tüşti<br>Şahnıng itekige yapuştı | 5.O da qaladan çıxıb xalqa qoşuldu; və Şahın ətəyindən yapışdı (mərhəmət dilədi). |
| 6.Didi sultan ki nidür imdi xaber<br>Aytıngız kim kılalı bat güzer | 6.Sultana dedi ki: İndi xəbər nədir; söyləyin dərhal yerinə yetirək. |
| 7.Didiler şeyx Nazar kıldı nifak<br>Tüzdi Behbud ile ayini- nifak | 7.Dedilər: Şeyx Nəzər ikiüzlülük etdi; Behbud ilə münafiqlik etdi. |
| 8.Çın Sufini tiletip kiltürdi<br>Anı özige münasib kördi | 8.Çın Sufini istədib gətirdi; və onu özünə münasib bildi. |
| 9.Çın Sufi bar Adak bigleridin<br>Pehlivanrak Adak içre barıdın | 9.Çın Sufi, Adak (Əndicanın köhnə adı- Ə.Q.) bəylərindəndir; və Adak içində hamısından daha pəhləvandır. |
| 10.İmdi Xarezm alar kolıdadur<br>Kim bilür kim ni alar yolıdadur | 10.İndi Xarəzm onların əlindədir; və kim bilir onların yolunda nələr vardır? |
| 11.Özi Behbud irür Xive ara<br>Olturur naz bile mive ara | 11.Behbud özü Xivədədir; və naz-nemət içində nazla oturmaqdadır. |

| | |
|---|---|
| 1.Bu xaberni işitip ol sultan<br>Atlanur boldı kılıp azmi- revan | 1.Sultan bu xəbəri eşidib atlandı; və hərəkət başlandı. |
| 2.Kat ara yüzçe kişini saldı<br>Kolğa anıng çirigin hem aldı | 2.Katda yüzə qədər adam saxladı; və onun əsgərini də öz idarəsi altına aldı. |
| 3.Bir konup kıldı vatan Buldumsaz<br>Baktı ol il dağı eylep i'zaz | 3.Bir yerləşib Buldumsazı məskən etdi, o xalq Bakini də əzizlədi. |
| 4.Ötüben yitti andın Xarezm<br>Çirigi eylegü dik barısı rezm | 4.Əsgərin hamısı vuruşacaq kimi; oradan keçərək Xarəzmə çatdı. |
| 5.Çın Sufi xod işitip sultannı<br>Kaçuray digen ikendür anı | 5.Çın Sufi Sultandan xəbər alıb; onu qaçıracağam, demişdir. |
| 6.Lik Xarezm içide niçe yaman<br>Şeyx Nazar birle kılıp 'ahd ü aman | 6.Fəqət Xarəzm içində neçə pis adam; Şeyx Nazar ilə etmişdi əhd-peyman. |
| 7.Kal'anı birkitür olğandurlar<br>Barçası cehl ile turğandurlar | 7.Qalanı bərkitmişdilər; hamısı cəhalət içində idilər. |
| 8.Çün xaber taptı bu işdin sultan<br>Kıldı fi'l-hal uruşka ferman | 8. bu işdən xəbər alanda Sultan; vuruşmaq üçün buyurdu fərman. |
| 9.Çıktı Xarezm ili asru kalın<br>Çın Sufi dik barısı ot u yalın | 9.Xarəzm xalqı çox qələbəlik halda qaladan çıxdı; hamısı Çın Sufi kimi od və alovdu. |
| 10.Köp uruş eylediler lik axir<br>Feth sultan sarı boldı zahir | 10.Çox vuruşdular, fəqət sonunda; Sultan fəthə müvəffəq oldu. |
| 11.Boldı Xarezm ili barça mağlub<br>Yandılar kal'alarığa menkub | 11.Xarəzm xalqı tamam məğlub oldu; və sınıb qalalarına qayıtdı. |

| | |
|---|---|
| 1.Türkmandın dağı köp öldi kişi<br>Kişi öltürmek idi Özbek işi | 1. Türkməndən də çox insan öldü; və özbəyin işi adam öldürmək idi. |
| 2.Yene bir nevbet uruş kıldılar<br>Kal`adın xalk çıkıp kildiler | 2.Yenə bir növbət vuruşdular; və xalq qaladan çıxıb gəldi. |
| 3.Anda hem boldılar asru 'aciz<br>Bolmağay hiç kim andak hergiz | 3.Orada da çox aciz oldular; heç kim əsla onların gününə düşməsin. |
| 4.Tanglası kahr kılıp sultanğa<br>Yörüben saldı uruş kurğanğa | 4.Sabah Sultanı qəhr edərək; kurqana hərəkət edib döyüşə girdilər. |
| 5.Boldı ol kün dağı bisyar uruş<br>Boldı bisyar dil-azar uruş | 5.O gün də çox; üzücü döyüş oldu. |
| 6.İçkeri taşkarı köp il öldi<br>Kal'ası vehm ile muhkem oldı | 6.İçəridə, çöldə çox xalq öldü; və qalanı qorxu bürüdü. |
| 7.Anda hem boldı besi xalk telef<br>Boldı il naveki- mihnetğa hedef | 7.Orada da çox xalq tələf oldu; və xalq möhnət oxuna hədəf oldu (sıxıntıya düşdü). |
| 8.Salıban kal`anı sultanı- kebir<br>Eyledi cilve-gehin taxt u zir | 8.O böyük sultan qalanı buraxaraq; ətrafında dolanmağa başladı. |
| 9.Karakuş mülkigeçe çapturdı<br>Türkman ivlerini tapturdı | 9.Qaraquş mülkünə qədər ələ keçirdi; və türkmən evlərini tapdırdı. |
| 10.Türkman kızlarını aldılar<br>'Ayşnıng kuslarını çaldılar | 10.Türkmən qızlarını aldılar; və əyləncənin təbilini çaldılar (əyləncəyə başladılar). |
| 11.Karakuş kişveridin ta Xarezm<br>Aldılar barçasını eylep rezm | 11. Qaraquş ölkəsindən ta Xarəzmə qədər; hər yeri vuruşaraq aldılar. |

| | |
|---|---|
| 1.Yanıp andın alıban mal u yarağ<br>Tüşürüp kolığa esbabı- ferağ | 1.Oradan mal-mülk ələ keçirərək; qayıtdı və rahata çəkildi. |
| 2.Kapap olturmak boldı sultan<br>Kim yitip kildi xandın ferman | 2.Xandan fərman çatıb gəldiyi zaman; mühasirə edib oturmaqdaydı Sultan. |
| 3.Kim yığıldı bu taraf yağılar<br>Boldılar cem' barı yağılar | 3.Düşmənlər bu tərəfə yığıldı; və bütün quldurlar toplandılar. |
| 4.İmdi sultan yitişe kilsün bat<br>Bir zaman eylemesün sabr u sebat | 4.Bir an üçün durub dincəlmədən; Sultan tez yetişib gəlsin. |
| 5.Uşbu yarlığ bile sultan hasıl<br>Boldı iv sarı yanarğa mayil | 5.Bu fərman ilə; Sultan evinə dönməyə meyl etdi (qayıtdı). |
| 6.İkki kurğannı alıp 'azm itti<br>'Azm itip rast Buxara yetti | 6.İki kurqanı alıb yürüş etdi; və yürüyərək Buxaraya çatdı. |
| 7.Çirigi sağ u selamet barça<br>Rezm eylerde kıyamet barça<br>**XLVI**<br>**Hazreti- İmamü'z-zaman ve xalifetü'r-rahman Muzafferü'd-din Sultan Mahmud Bahadırnı özige koşup Hisar vilayetiğa Xusrev şah üstiğe barğanı** | 7.Əsgərinin hamısı sağ- salamat idi; və vuruşmaqda qiyamət idi.<br>**XLVI**<br>**Zamanın İmamı və Allahın xəlifəsi həzrətləri, Müzəffərüddin Sultan Mahmud Bahadırı yanına alıb Hisar vilayətinə, Xosrov şahın üstünə yürüş etməsi** |

| | |
|---|---|
| 1.Xanğa çün bardı xaber sultandın<br>Kim yitip kildi filan kurğandın | 1.Filan kurqandan Sultanın; gəldiyi xəbəri Xana çatanda, |
| 2.Xan Şibani Cemşid-serir<br>Şahı- nuraniyi- Xurşid-zamir | 2.Cəmşid taxtlı, nurani şah; və günəş kimi parlaq Şeybani xan, |
| 3.Atlanur boldı Hisar üstige<br>Andağı mülk ü diyar üstiğe | 3. Yürüş etdi Hisar üstünə; oradakı mülk və diyar üstünə. |
| 4.Yiberip hükmini sultanlarğa<br>Yarlığın tabi'yi- fermanlarğa | 4.Sultanlara və fərmanına tabe olanlara; hökmünü və buyruğunu göndərib, |
| 5.Atlanıp Karşığa 'azim boldı<br>Zafer allıda mülazim boldı | 5.Atlanaraq Karşıya doğru yola çıxdı; və zəfər onun qarşısına çıxdı. |
| 6.Cem' bolğunça çirig her yandın<br>Kilgüçi barğuçı her sultandın | 6.Hər sultandan gələn və yanına çatan; əsgər ətrafında toplandı. |
| 7.İrikip Karşını avlar boldı<br>Kuş bile her sarı havlar boldı | 7.Karşıya çatıb ova başladı; və quşlarla bərabər hər tərəfə səs-küy saldı. |
| 8.Karşınıng kuşları bisyar bolur<br>Kuşçınıng tu'mesi tayyar bolur | 8.Karşının quşları çox olur; və quşçunun yeməyi hazır olur. |
| 9.Turna vü kaz firavan asru<br>Canver anda nümayan asru | 9.Durna və qaz orada çoxdur; canavar da orda gözə dəyir. |
| 10.Kırğavul bağlarıda sansız<br>Karçığaynıng sağışıdın cansız | 10.Oranın bağlarında çoxlu qırqovul vardı; və hamısı təbiətin pəncəsi ilə cansız haldaydı. |

| | |
|---|---|
| 1.Tüzide bağrı karalar bisyar<br>Yer bağırlap yörümekdin efğar | 1.Düzlərində çox bağrıqaralar vardı; yer onların bağıraraq yerimələrindən yaralı haldaydı. |
| 2.Murğeki- Karşı üçün her sarı<br>Sayd-ger ilgidin eylep zari | 2.Karşının Murğəkində olan bütün quşlar; ovçuların əlindən pərişan halda idilər. |
| 3.Kumrı vü bülbüli nalan irdi<br>Bir bir öz işide hayran irdi | 3.Qumru və bülbülü inlərdi; hər biri öz işinə məəttəl idi. |
| 4.**S**a'veler barçaları zar u za'if<br>Min kibi derd ü ğam ilgide nahif | 4.Quyruq sallayan quşlar hamısı zar və naçardı; mənim kimi dərd və qəm əlində zəifdi. |
| 5.Her niçük kuş ki bolur devranda<br>Zahiran bar idi barça anda | 5.Dünyada nə qədər quş növü varsa; hamısı orada mövcud idi. |
| 6.Kim Süleymanı-zaman anda idi<br>Ya'ni kim hazreti- xan anda idi | 6.Ki zamanın Süleymanı orda idi; yəni Xan həzrətləri də orada idi. |
| 7.Kayda kim bolsa Süleyman naçar<br>Vahş ile tayyar bolurlar bisyar | 7.Süleyman həzrətləri harda çarəsiz qalsa; yabanı və uçan heyvanlar (əhatəsində) çox olardı. |
| 8.Hüdhüd ol tigredin asla kitmes<br>Hiç türlüg sur ile kaytmas | 8.Hüdhüd o çevrədən əsla ayrılmaz; və heç bir şəkildə sur ilə geri dönməz. |
| 9.Bolur ol tigrede her türlüg kuş<br>Yasaban barça uşol yerde konuş | 9.O çevrədə hər cür quş vardır; və hamısı ora qonar. |
| 10.Kebk ile tuti şekkerha hem<br>Belki simurğ ile 'anka hem | 10.Kəklik ilə şəkər çeynəyən tutuquşu da orada; və bəlkə simurq ilə əbabil(an-ka) də orada. |
| 11.Her sarı barsa idi hazreti- xan<br>Yörüp andak ki Süleymanı-zaman | 11.Xan həzrətləri hər hara getsə; sanki zamanın Süleymanı yeriyir kimiydi. |

| | |
|---|---|
| 1.Kuşları üstiğe kilürler idi<br>Başığa saye kılurlar irdi | 1.Quşlar üstünə gəlirdilər; və başına kölgə edirdilər. |
| 2.Ni 'aceb xannı Süleyman digenim<br>Barı 'alemğa anı xan digenim | 2.Xana Süleyman demək çaşmalı şey deyil; o, bütün aləmin xanıdır. |
| 3.Kim anıng hükmidedür vahş ile tayr<br>Hem anıng ilgidedür şer bile xayr | 3.Yabanı heyvan(lar) ilə quş(lar) onun hökmü altında olduğundan; şər və xeyir də onun əlindədir. |
| 4.Kim anıng emridedür div ü peri<br>Hükmide yir yüzining xuşk ü teri | 4.Div və pəri onun əmrində olduğundan; yer üzünün qurusu və yaşı (quruları və dənizləri) da onun hökmündədir. |
| 5.Xan Süleymanı- zamandur bi-şek<br>Xusrevi- 'alemi- candur bi-şek | 5.Xan zamanın Süleymanıdır, şübhəsiz; və can aləminin padşahıdır, şübhəsiz, |
| 6.Ğayeteş xalk anı bilmesler<br>Cari bile xıdmetige kilmesler | 6.Xalq onu çox yaxşı bilməz; və canla xidmətinə gəlməz. |
| 7.Bolmasa irdi Süleyman ol xan<br>Fakrın eyler mü idi munça nihan | 7. O Xan Süleyman olmasaydı; fakrını bu dərəcə gizlərdimi? |
| 8.Saltanat fakr bile kim tapılur<br>Şahğa fakr işiki kim açılur | 8.Səltənət fakr ilə əldə edilir; və Şaha fakr qapısı açılır. |
| 9.Kim ki bu mertebe üzre yitti<br>Saltanat birle anı cem' itti | 9.Kim bu mərtəbəyə çatdısa; səltənətlə onu (fakrı) birləşdirdi. |
| 10.Dise bolur anı xanı- devran<br>Belki devranda Süleymanı- zaman | 10.Ona demək mümkündür dövranın xanı; bəlkə o bu zamanda dövranın Süleymanı. |
| 11.Bu hikayet ki bitip aheste<br>Eyledim 'arz meni- dil-xaste | 11.Ahəstə bitən bu hekayəti;   Sultana ərz etdim mən dilxəstə. |

| | |
|---|---|
| 1.Kişi bilmes munı xandın özge<br>Kem tüşünur kişi mundak sözge | 1. Bunu Xandan başqa heç kim bilməz; və kəmağıl adam bu sözü düşünməz. |
| 2.Bendening sözlerige xan tüşünur<br>Kuş tilidür bu Süleyman tüşünur | 2. Mən qulun sözlərini Xan anlar; bu quş dilidir və bunu Süleyman anlar. |
| 3.Söz uzun boldı kiley söz başığa<br>İş füzun boldı kiley söz başığa | 3.Sözü uzatmadan başa dönüm; iş çox oldu, indi söz əvvəlinə dönüm. |
| 4.Çün güzer tüşti şehi- adilğa<br>Karşıdin Kesbi digen menzilge | 4.Ədalətli şahın yolu Karşıdan; Kesbi deyilən mənzilə düşüncə, |
| 5.Çerx hasidğa mededkar oldı<br>Axteri- nahs anga yar oldı | 5.Fələk qısqanana mədədkar oldu; və nəhs ulduzu ona yar oldu. |
| 6.Xan çapıp kuş sala turğan hengam<br>Yıkılıp atı karardı eyyam | 6.Xan atını sürüb quş ovladığı məqamda; atı yıxılıb dünyası qaraldı. |
| 7.Xan tüşüp yirge teni boldı figar<br>Nazenin cismiğa yitti azar | 7.Xan yerə düşüb yaralandı; və nazlı bədəni incidi. |
| 8.Ten ü canı barı efğar oldı<br>İl ayağı barı na-kar oldı | 8.Bədəni də, canı da yaralandı; və əli - ayağı iş görə bilməz oldu. |
| 9.Müddeti xan kolı azurde idi<br>Xalknıng xatırı efsürde idi | 9.Bir müddət Xanın qolu incimiş halda idi; və xalqın könlü hüzursuz halda idi. |
| 10.Boldılar bigleri bihal asru<br>Renc ü ğam yolıda pamal asru | 10.Bəylərinin çoxu halsız idi; əziyyət və qəm içində ayaq altında qalmışdılar. |
| 11.Bardılar özleridin miskinler<br>Tüzdiler naleni mihr-ayinler | 11.Miskinlər, özlərindən keçdilər; və aşiqlər də ahü-nalə etdilər. |

| | |
|---|---|
| 1.Köydi bu ğam bile Sultan Mahmud<br>Yetti gerdunğa fiğanıdın dud | 1. Sultan Mahmud bu qəmlə yandı; və fəğanından ahı göylərə dayandı. |
| 2.Boldı bisyar perişan-xatır<br>Bolğuça xan işikige hazır | 2.Xanın qapısına çatan bir çox adamın; könlü pərişan oldu. |
| 3.Anı körgünçe selamet hasıl<br>Lahza yok idi ğamdın ğafıl | 3.Fəqət hüzura girincə salamata qovuşdular (rahatladılar); və bir anda kədərləri yox oldu. |
| 4.Ol mahalda ki kılıp tevsenlik<br>Xanğa körgüzdi felek düşmenlik | 4.O mahalda dikbaşlılıq edib; fələk Xana düşmənçilik göstərdi. |
| 5.Şe'rler didi öz ahvalığa<br>Bes münasib özining halığa | 5.Öz halına uyğun; bir çox şeir söylədi. |
| 6.Derd-mendane vü dilkeş barça<br>Kabili- nağmeyi- dilkeş barça | 6.Hamısı dərdli və könül alan idi; hamısı simvol halında nəğmələr idi. |
| 7.Biri ol şe'rleridin budur<br>Körüngiz kim ni bela xoşgudur | 7.O şeirlərindən biri budur; və görün bəlanı nə gözəl ifadə etmişdir. |
| **XLVII**<br>**Hazreti- İmamü'z-zaman ve xalifetü'r-rahmannıng derdmendanelik halıda aytkan ebyatıdur**<br>8.Derd ü ğam biçare könglüm sarı akıldı yene<br>Mini körüp ' ışk otı baştın yana kildi yene | **XLVII**<br>**Zamanın İmamı və Allahın xəlifəsi həzrətlərinin dərdli halda söylədiyi beytləridir:**<br>8.Dərd- qəm zavallı könlümə yönəldi yenə; eşq odu məni görüb başıma gəldi yenə. |

| | |
|---|---|
| 1.Ğonçe dik könglüm ğamı-hicranıdın kan bağladı<br>Mujdeyi- vaslın işitip könglüm açıldı yene | 1. Qönçə kimi könlüm ayrılığın qəmilə qan ağladı yenə; vəsl müjdəsini eşidəndə könlüm açıldı yenə. |
| 2.Hecr otında natüvan cismim firakıng kiçesi<br>Şem dik baştın ayak furkatda yakıldı yene | 2.Sənin ayrılığının gecəsində natəvan cismim; fəraq odunda şam kimi başdan ayağa yandı yenə. |
| 3.Kizler irdim 'ışkını ildin velikin neyleyin<br>Haletim Mecnun kibi 'alemğa yayıldı yene | 3.Eşqini aləmdən gizlədirdim, fəqət nə edim; Məcnun kimi halətim dünyaya yayıldı yenə. |
| 4.Furkat atıdın yıkıldım yar kildi sorğalı<br>Ey Şibani yar derdingğa deva kıldı yene | 4.Ayrılıq atından yıxıldım, yar soruşmağa gəldi; Ey Şeybani, yar (gəlməklə) (sənin) dərdinə dəva qıldı yenə. |
| 5.Bende ol vakt Buxarada idim<br>Yok ki sahrayı- temennada idim | 5.Mən qul o zaman Buxarada idim; Buxarada deyil, təmənna çölündə idim. |
| 6.Kim kilip Karşığa xannı körsem<br>Ol Süleymanı- zamanı körsem | 6.Karşıya gəlib Xanı görüm; zamanın Süleymanını görüm(deyə); |
| 7.Bu temenna bile çün atlandım<br>Tün katıp bir ikki kün katlandım | 7.Bu təmənna ilə atlanaraq gecəmi gündüzümə qatıb; bir-iki gün əziyyətə qatlaşdım. |

| | |
|---|---|
| 1.Kesbige yittim ise andağılar<br>Ya' ni ol menzil u<br>meskendağılar<br><br>2.Didiler sureti- halını manga<br>Kim ni iş eyledi bu çerx anga<br><br>3.Bu hikayetni işitkeç bisyar<br>Xatırım kayğudın oldı efğar<br><br>4.Hasbı- hali itip hazretiğa<br>Asru ta'cil ile bardım katığa<br><br>5.Çün anıng bargehiğa yettim<br>Yetkeç ok hazretiğa arz ettim<br><br>6.Hasbı- hal uşbuğına matla' idi<br>Matla'ım uşbuğına mısra' idi<br><br>7.Kıl feda canımm ger cismi-<br>latifing xastadur<br>Sin selamet bol ki yüz ming<br>can sanga vabastadur<br><br>8.Çün bu matlanı işitti ol şah<br>Halet ü derdidin oldı agah<br><br>9.Eyledi bendege asru tahsin<br>Kıldı eltaf u 'inayetka karin<br><br>10.Bir iki kün çü bu sözdin ötti<br>Sıhhat ol derdlerin hürkütti | 1.Kesbiyə çatanda ordakılar; yəni o<br>mənzil və məskəndəkilər;<br><br>2. Mənə, vəziyyətin nə olduğunu<br>anlatdılar;  çərxi-fələyin ona nə etdiyini<br>anlatdılar.<br><br>3.Bu hekayəti eşidəndə; könlüm<br>qayğıdan çox yaralandı.<br><br>4.Vəziyyətimi Xana ərz etmək üçün; tez<br>hüzuruna gəldim.<br><br>5.Onun bargahına(otağına) çatar-<br>çatmaz; o həzrətə ərz etdim.<br><br>6.Həsbi- hal bu zəngin sözlü mətlə idi;<br>və mətləbim bu iki misra idi.<br><br>7. Qıl fəda canımı (ə)gər cismi-lətifin<br>xəstədir; Sən səlamət ol ki, yüz min can<br>sənə vabəstədir.<br><br>8. Bu mətləni eşidəndə o şah; dərd və<br>halətimdən oldu agah.<br><br>9.Mən qula çox afərinlər etdi; lütf və<br>inayətlər etdi.<br><br>10. Bu sözün üzərindən bir- iki gün<br>keçəndə; səhhət o dərdləri apardı. |

| | |
|---|---|
| 1.Yığılıp irdi barı sultanlar<br>Ğaniler birle barı oğlanlar | 1. Bütün sultanlar, igidlər (?) ilə; bütün oğlanlar toplanmış idi. |
| 2.Çirigi cem' bolup irdi tamam<br>Xayldın Karşı tolup irdi tamam | 2.Tamam əsgəri toplanmış idi; və Karşı xalqla dolmuş idi. |
| 3.Uşbu haletde yetip kildi birev<br>Xasm sözin aytıp kildi birev | 3.Elə bu halətdə biri düşmən haqqında; xəbər vermək üzrə çıxıb gəldi. |
| 4.Sözi el-kıssa bu kim Xusrev Şah<br>Boluban öz xatarıdın agah | 4.Qısası, sözü bu idi ki, “Xosrov şah; onun könlündən keçənlərdən olub agah. |
| 5.Cem' itip Kunduz u Bağlan çirigin<br>Kiltürüp Keş ü Bedexşan çirigin | 5.Kunduz və Bağlan əsgərini toplayıb; Keş və Bədəxşan əsgərini gətirib, |
| 6.Tiletip barça Hisar ehlini<br>Yığdı ol mülk ü diyar ehlini | 6.Bütün Hisar xalqını diləyərək; o ölkə və o diyar insanlarını topladı. |
| 7.Veli Bigni tiletip Xuttelandın<br>Çirigin yığdı tilep her yandın | 7.Xuttelandan Vəli bəyi istədib; hər tərəfdən əsgərini istəyib topladı. |
| 8.Pir Veli birle yığıldı Baki<br>Rezm bezmide bolay dip saki | 8.Savaş məclisində olum deyə saqi; gəldi buraya  həm Pir Vəli ilə Baki. |
| 9.Tört ağa ini cem' oldılar<br>Lik enduh bile toldılar | 9.Dörd böyük və kiçik qardaş toplaşdılar; fəqət kədərlə doldular. |
| 10.Aldılar irse çirigning sanın<br>Töktiler irse ulusnıng kanın | 10.Əsgərin tamamını alıb; xalqın qanını tökərək, |
| 11.Kirdi defterge kişi otuz ming<br>Lik her biride kayğu yüz ming | 11. Dəftərə otuz min nəfər yazıldı; fəqət hər birində yüz min qayğı vardı. |

| | |
|---|---|
| 1.Kim nitip Özbek ile sançışalı<br>Ni kılıp kisten ile yançışalı | 1.Ki,nə deyib özbəklə vuruşaq ;və nə edib gürzlə döyüşək. |
| 2.Çün ağa ini bile Xusrev Şah<br>Tüzdi ol nev' ile xayl u sipah | 2.Böyük və kiçik qardasla Xosrov şah; bu növ ilə bütün insanları və ordunu düzdülər. |
| 3.Yürekin toxtata almay miskin<br>Ağa inisi birle bes ğam-gin | 3.Miskin ürəyini toxdada bilmədi (həyəcanını dindirə bilmədi); böyük və kiçik qardaş çox qəmli (idi). |
| 4.Meşveret eylediler törtelesi<br>Fikrini sıyladılar törtelesi | 4.Dördü də müzakirə etdilər; və bir-birlərinə fikirlərini dedilər. |
| 5.Didiler kim uruşa almas-biz<br>Xan kolığa turuşa almas-biz | 5. Dedilər:"Biz vuruşa bilmərik; və Xana qarşı çıxa bilmərik". |
| 6.Kul idiler barı ni kılsunlar<br>Şahnıng allığa ni kilsünler | 6.Hamısı qul idilər, nə etsinlər ;və şahın qarşısına necə gəlsinlər (necə qarşı çıxsınlar). |
| 7.Bu kingeş birle yörüp ol törtev<br>Boldılar her biri bir ğamge kirev | 7.O dörd nəfər bu məşvərətlə hərəkət edib; hər biri bir (cür) qəmlə doldu. |
| 8.Boldı ol tört işi rem kılmak<br>Çarkul özlerige dem kılmak | 8.O dörd (adamın) işi ram etmək idi; və vuruşanları öz tərəflrinə çəkmək idi. |
| 9.Hiç kemlik yok idi leşkerdin<br>Mal ile milket ü kişverdin | 9.Əsgərdən, mal, mülk və ölkədən ötrü: heç əksiklik yoxdu. |
| 10.Lik Tingri salıp irdi korkunç<br>Canlarını alıp irdi korkunç | 10.Fəqət tanrı qorxu salmışdı; və canlarını qorxu bürümüşdü. |
| 11.Akıbet fikr kılıp bi-diller<br>Fikr vadisi ara cahiller | 11. Sonunda düşünərək ürəksizlər; fikir vadisindəki cahillər, |

| | |
|---|---|
| 1.Yiberip Belx sarı 'acz ü niyaz<br>Şahığa söz yiberip dür u dıraz | 1. Göndərdilər Bəlxə əcz və niyazlarını; Şahına da uzun -uzun sözlərini (diləklərini). |
| 2.Tiledi kömeki asru kalın<br>Her biri öz işide ot yalın | 2.Köməkçisi çox idi; və hər biri öz işində od- alov kimi idi. |
| 3.Yene bir ilçi Xorasan sarı<br>Yiberip eylediler köp zari | 3. Yenə Xorasan tərəfinə bir elçi göndərib; çox ağlayıb sızladılar. |
| 4.Baxtar sarı hem ilçi yiberip<br>Kiltürüp andağı ilni igerip. | 4.Baxtar tərəfinə də elçi göndərərək; oradakı xalqı qaytarıb gətirdilər. |
| 5.Belxdin kildi 'Ömer Big başlap<br>Çirigining yaramasın taşlap | 5.Əvvəlcə Bəlxdən əsgərin işə yaramazını; buraxıb başda Ömər bəy gəldi. |
| 6.Tört ming Belx çirigi irdi<br>Çün özining kişisin ayırdı | 6.Öz adamlarını ayırdıqdan sonra; geridə dörd min Bəlx əsgəri qaldı. |
| 7.Heridin kildi Latif Baxşı<br>Söz üni baxşılar içre yaxşı | 7.Sözü və şöhrəti baxşılar içində gözəl bilinən; Lətif Baxşı Heratdan gəldi. |
| 8.İki ming Türk Iraki birle<br>Altı ming çağlı yasakı birle | 8.İki min iraqlı türk ilə; altı minə qədər əmrində olanlarla, |
| 9.Baxtardın takı Zü'n-nun kildi<br>Serkeşi- fırkayi- Arğun kildi | 9.Baxtardan da Zünnun gəldi; dikbaş Arğun dəstəsi də gəldi. |
| 10.Kildi biş ming kişi anıng bile hem<br>Boldılar barçası yar u hemdem | 10.Onunla da beş min nəfər gəldi; hamısı dost və yoldaş oldular”. |
| 11.Kilgüçi çün bu xaberlerni didi<br>Anda körgen ker ü ferlerni didi | 11. Gələn kimsə bu xəbərləri bildirdi; və orada gördüyü qüdrət və ehtişamı söylədi. |

| | |
|---|---|
| 1.Mundak avaze vü bu tavr xaber<br>Kıldı il könglige fi'1-cümle eser | 1.Bu şəkildə şöhrət və bu şəkildə xəbər; xalqın könlünə tamam etdi əsər. |
| 2.Lik ol hal bile hazreti- Xan<br>Kim figar irdi anga cism ile can | 2.Lakin Xan həzrətləri elə bir halda idi ki; sanki cismində və canında yaralar vardı. |
| 3.Tenide bar idi azar henuz<br>Bar idi kolları efğar henuz | 3.Bədənində hələ ağrı vardı; və qolları hələ yaralı idi. |
| 4.Tikilip Tingrisige bi-perva<br>Yörüp atlandı tilep faslı- Xuda | 4.Əndişə etmədən tanrısının hüzurunda durdu; və tanrıdan kömək diləyərək atlandı. |
| 5.Eyledi hükm ki Hamza Sultan<br>Yörüsün ilgeri eylep cevelan | 5.Həmzə Sultan cövlan edərək öndən; yerisin deyə, fərman etdi. |
| 6.Anga koştı Cani Big sultannı<br>Saf-der-saf-şiken meydannı | 6.Meydanı yaran Canı Big Sultanı; da onun yanına verdi. |
| 7.Haci Ğazi bey ile Kanber bey<br>Kim irür her biri bir server bey | 7.Qoşuldu hər biri bir sərvər bəy(olan) ; Hacı Qazi bəy ilə Qənbər bəy. |
| 8.Eyledi hükm ki atlanğay bat<br>Nakd u vakt Seyyid Ahmed Konqrat | 8.Zamanın dəyərlisi olan Seyyid Əhməd Konqrat da; dərhal atlansın deyə, əmr verdi. |
| 9.Ol ikevni hem anga koştı xan<br>Her biri bar idi pür-destan | 9.Xan, hər biri dastan sahibi olan; o ikisini də onlara qoşdu. |
| 10.Hamza Sultanğa barıp koşulğay<br>Heybetidin il ulus kavrulğay | 10.Həmzə Sultana gedib qoşulacaq; və heybətindən məmləkət ulusu qovrulacaq. |
| 11.Anga peyveste Köpek Kuşçı hem<br>Kim irür xanğa kadimi mahrem | 11.Köpək Quşçu da xanla bərabər idi; və xanın qədim dostu idi. |

| | |
|---|---|
| 1.Yörüben ilgeri iş kılsunlar<br>Xasmnıng ni kılurın bilsünler | 1.İrəli yürüş edərək iş görsünlər; və düşmənin nə etdiyini bilsinlər. |
| 2.Çün bularnıng kolını eyledi rast<br>Tingrining lutfını eylep der-xast | 2.Xan, bunların qolunu (bir qolda yer alan əsgər topluluğunu) qaydaya qoyunca; Tanrının lütfünü istədi. |
| 3.Eyledi hükm ki Sultan Mahmud<br>Kim irür mazharı- 'adlı- ma'bud | 3.Allahın ədalətinə məzhər olan; Sultan Mahmud fərman buyurdu ki |
| 4.Yörüsün ilgeri düşmen sarı<br>Tilesün nusret ü fazlı- bari | 4.”İrəliyə, düşmənə doğru yerisin; Tanrının nüsrət və fəzlini diləsin! |
| 5.Anga peyveste Timür Sultan hem<br>Yörüsün hasruını eylep der-hem | 5.Timur Sultan da ona qoşulsun; və düşmənini məğlub etsin”! |
| 6.Özi hem bu ikki sultandın song<br>Bu iki can bile canandın song | 6.Özü də bu iki sultandan sonra; bu iki can ilə canandan sonra, |
| 7.Yörüdi eyle ki aytıp bolmas<br>Yörüşi vasfıda til ivrülmes | 7.Elə yeridi ki, anlatmaq mümkün deyil; və yürüşünü söyləməkdə dil dönməz. |
| 8.Tangıban kol ayağını muhkem<br>Tingri yadı bile köngli xurrem. | 8.Əl-ayağını möhkəm bağlayaraq; Tanrının yadı ilə və könlü şad olaraq, |
| 9.Atlanıp kildi Xazar üstiğe<br>Yörüp ol deşt ü diyar üstige | 9.Atlanıb Xəzər üstünə; o çöl və diyar üstünə gəldi. |
| 10.Ötüben bardı andın Derbend<br>Kim yitilmes idi burcına kemend | 10.Oradan keçərək bürcünə kəmənd çatmayan; yüksək Dərbəndə çatdılar. |
| 11.Bir biyik tağ idi Derbend digen<br>Kim anga yar idi Elvend digen | 11. Yüksək bir dağ idi Dərbənd; o dağa ancaq tay idi Əlvənd. |

| | |
|---|---|
| 1.Tingri fermanı bile ikki tağ<br>Kılıban ikkisi bir birni atağ | 1. Tanrının fərmanı ilə o iki dağ; bir-birinə dayanmışdı. |
| 2.Baş koyup ikkelesi bir yerde<br>Yüz tömen kuh u kemer her birde | 2.Hər ikisi bir yerə baş qoymuşdu; və yüz minlərlə dağ və kəmər bir yerdəydi. |
| 3.Her birining başı gerdunğa yitip<br>Her birining kolı Ceyhunğa yitip | 3. Hər birinin başı səmaya çatmışdı; hər birinin qolu Ceyhuna çatmışdı. |
| 4.Kafnıng tağı alar allıda pest<br>Yolıda yer digening bir kefi-dest | 4.Qaf dağı onların qarşısında çox alçaq idi; yer dediyin isə onların yolunda bir ovuc içi qədər idi. |
| 5.Taşlar yolıda her bir kuhi<br>Sakini- badiyeyi- enduhi | 5.Yolundakı daşların hər biri bir dağ qədər idi; və orada oturanlar qəm çölündə oturmuş kimi idi. |
| 6.Karavul tağınıng üstide 'ayan<br>Eyle kim kök üze mahı- taban | 6.Göydəki parlaq ay; Qaravul dağının zirvəsində görünurdü. |
| 7.Bar bu tağnıng üstide felek<br>Körünur tam üze tün yayğan tek | 7.Bu dağın üzərində bir göyqübbə var idi; və o, bu dam üzərində gecəni yaymış kimi görünurdü. |
| 8.Bir yağaç bar bu iki tağ arası<br>Kabili- bağ ara bulağ arası | 8.Yenə bu iki dağ arasında bir ağaclıq məsafə var idi ;və bu məsafə bağ ilə çeşmə arasındakı məsafədən az deyildi. |
| 9.Çeşmeler suyı revan her yandın<br>Tazerak abı- hayatı- candın | 9.Hər yandan bulaq suları axmaqdaydı; və o sular, abi -həyatdan daha təzə, can verici idi. |
| 10.Ol iki tağnıng ağzıda cihan<br>San'atı kıldı 'aceb tavr 'ayan | 10. O iki dağın ağzında cahan; Tanrının yaradıcı qüdrətini əcayib şəkildə göstərirdi. |
| 11.Bir işik ornatıp ol ikki ara<br>Ol ara birdi uluska me'va | 11. O ikisinin arasına bir qapı açıb; oranı xalqa yurd yeri verdi. |

| | |
|---|---|
| 1.Mol ulus könglide bu bar irmiş<br>Kim fulan tağ işiki tar irmiş | 1. Xəbərsiz xalqın könlündə; filan dağın ətəyi dar imiş düşüncəsi vardı. |
| 2.Andın Özbek nitip ötkey ya Rab<br>Niteg atını yörütkey ya Rab | 2.Ey Allahım, özbək oradan necə keçəcək; və atını necə yürüdəcək. |
| 3.Xalk bu söz bile vü Hazreti-Xan<br>Xasmı- din kasdı üçün boldı revan | 3.Xalq və Xan həzrətləri bu sözlə; din düşmənini əzmək üçün yola düşdü. |
| 4.Xasm çün Xan xaberini taptı<br>Kim ki kaç didi havadın kaptı | 4.Düşmən, Xanın xəbərini alanda; kim ki qaç dedi, havadan qapdı (dərhal qaçmağa başladı). |
| 5.Boldı dermande canı birle<br>Kingeşip yaxşı yaman birle | 5.Canı gücsüz oldu; yaxşısı, pisilə görüşdü. |
| 6.Kıldılar ' acznı zahir barça<br>Bu yarağ kördiler axir barça | 6.Hamısı acizlik göstərdi; və sonunda hamısı bu çarəyə baş vurdular: |
| 7.Kim uruşnıng sözini koyğaylar<br>Olturup kal'ada at soyğaylar | 7.Savaş sözünü buraxacaqlar ;və qalada oturub at kəsəcəklər. |
| 8.Çün bu söz ol arada taptı karar<br>Kim kılur boldılar ol kavm firar | 8.Bu sözlə orada aldılar qərar; o qövm edər oldu fərar. |
| 9.Bardı Zü'n-nün u Latif Baxşı<br>Songıdın navek ü ra'd u taxşi | 9.Zünnun və Lətif Baxşı getdi; arxalarından da ox, göy gurultusu kimi yağdı. |
| 10.Belxdin kilgen ulus iv sarı<br>Kaçtılar can ara vehm karı | 10.Bəlxdən evə sarı gələn xalq; canları qorxusundan qaçdı. |
| 11.Kaldı öz xaylı bile Xusrev Şah<br>Barça ruyı- siyeh ü muyı- siyah | 11.Xosrov şah, hamısı üzü qara və siyah saçlı (utanmaz, rəzil adamlarıyla); olan öz adamlarıyla qaldı. |

| | |
|---|---|
| 1.Bir inisin yiberür boldı Hisar<br>Barıp ol xayl bile toldı Hisar | 1.Bir kiçik qardaşını Hisara göndərdi; və onunla bərabər gedən adamlarla qala doldu. |
| 2.Yene birni yene bir kurğanğa<br>Yiberip muntazır irdi Xanğa | 2.Yenə birini bir kurqana; göndərib Xanı gözlədi. |
| 3.Kim kaçan kilse yakınrak kaçkay<br>Fethning yolını Xanğa açğay | 3.Nə zaman daha yaxına gəlsə qaçacaq; və fəthin yolunu Xana açacaq. |
| 4.Vahşda olturup irdi hasıl<br>Tingri anı kılıp irdi ğafil | 4.Xülasə, Vahşda oturmuşdu; və Tanrı onu qafil qılmışdı. |
| 5.Kim yörüp Hazreti- Xanı-a'zam<br>Kisip ol tağnı şad u xurrem | 5.Uca Xan həzrətləri yürüş edib; şad-xürrəm o dağın yolunu kəsdi. |
| 6.Yörüdi mülki- Hisar üstiğe<br>Xalkı- bi-heng ü medar üstiğe | 6.Hisar ölkəsinə yürüdü; o namussuz və güvənilməz xalq üzərinə yürüdü. |
| 7.Taş mahallatını yitkeç aldı<br>Xasmnıng canı ara ot saldı | 7.Şəhərin kənar səmtlərini aldı; və düşmənin canına od saldı. |
| 8.Salıp ol ilge hezimet asru<br>Aldılar mal u ğanimet asru | 8.O xalqı çox zərərə uğradıb; çoxlu mal və qənimət ələ keçirdilər. |
| 9.Bozdılar takı- mukarnas bisyar<br>Aldılar tace vü atlas bisyar | 9.Bir çox qübbələri yıxdılar; bir çox tac və atlas (cəvahirat və qiymətli parça) ələ keçirdilər. |
| 10.Kaysı ak raxtğa urdı özini<br>Ötkerip Hind iliğe sözini | 10.Bəzisi bəyaz paltarlara büründü; və Hind ölkəsinə sözünü keçirdi. |
| 11.Kaysı dibayı- münakkaş taptı<br>Kaysı ğalı bile mefreş taptı | 11.Bəzisi bəzəkli ipək parçalar tapdı; və bəzisi dəyərli xalı və məfrəşlər tapdı. |

| | |
|---|---|
| 1.Kaysı xurcın bile hurcı aldı<br>Özi tüşüp anı otğa saldı | 1.Bəzisi xurcunu dəyərli şeylərlə doldurdu; və özü düşüb onu (müxalifləri) oda saldı. |
| 2.Kaysığa la'li- Bedaxşan tigdi<br>Kaysığa gevheri- raxşan tigdi. | 2.Bəzisinə Bədəxşan yaqutu düşdü; və bəzisinə (də) parlaq almas düşdü. |
| 3.Kaysı altunğa urundı anda<br>Urunup ilge köründi anda | 3.Bəzisi orada qızıla büründü; və bürünüb xalqa göründü. |
| 4.Kaysı dür taptı vü kaysı gevher<br>Kıldı araste tac u efser | 4.Bəzisi dürr, bəzisi gövhər tapdı; onunla tacını bəzədi. |
| 5.Kaysı firüze bile mervarid<br>Tapıban boldı ulus içre ferid | 5.Bəzisi firuzə ilə mirvari tapdı; xalq içində ovçu quş oldu. |
| 6.Kaysı zilüceyi- Kirmani alıp<br>Çıktı il allıda ignige salıp | 6.Bəzisi Kirman xalısını alıb; xalqın önündə çiyninə ataraq çıxdı. |
| 7.Kaysı tekye-nemedi- şatrenci<br>Alıban köçti köngüldin renci | 7.Bəzisi şahmat şəklində damalı təkkə libasını aldı; və könlündən sıxıntısı getdi. |
| 8.Kaysı yezdi alaça köp aldı<br>Çolğaban anı yükige saldı | 8.Bəzisi Yəzd şəhərinə məxsus çox naxışlı parça aldı; və onu büküb yükünə qatdı. |
| 9.Menzil-abadi ve Mısri bisyar<br>Kara vü ak alaça leyl ü nehar | 9.Gecə və gündüz kimi olan və mənzil-abadi; və mısri deyilən qara və ağ parça çox idi. |
| 10.Heri abafatığa san yok idi<br>Kand birle köngül asru tok idi | 10.Herat toxumasının sayı yox idi; və könül şəkərlə çox tox idi. |
| 11.Şişe şişe saçılıp irdi nebat<br>Kuze kuze tökülüp abı- hayat | 11. Şüşə-şüşə bitkilər saçılmışdı; və kuzə-kuzə abi-həyat tökülmüşdü. |

| | |
|---|---|
| 1.Kaysıdur abı- hayat anda şarab<br>Kim ol illerni kırıp kıldı xarab | 1.Orada abi- həyat kimidir şərab ; və xalqı qırıb etdi xarab . |
| 2.Badesiz yok idi bir virane<br>Barça viraneleri mey-xane | 2.Şərabsız yoxdu bir viranə; və bütün viranələri idi meyxanə. |
| 3.Rindler mest çıkıp her yandın<br>Bixaber Xandın u hem sultandın | 3.Hər yanda sərxoş şəkildə rindlər var idilər; və bunlar Xandan da, Sultandan da xəbərsiz idilər. |
| 4.Yok alar könglide iman derdi<br>Yüzleri üstide 'isyan gerdi | 4.Onların könlündə iman dərdi yoxdu; və üzlərində də üsyan tozu vardı. |
| 5.Köpreki ok uçıda bardılar<br>Köpining içlerini yardılar | 5.Çoxu ox ucunda getdilər; və çoxunun içlərini yardılar. |
| 6.Çağır içküçi yarılsa yaxşı<br>Çirigidin dehr arılsa yaxşı | 6.Şərab içənlər yarılsa (ikiyə bölünsə) daha yaxşıdır; və dünya o cür əsgərdən təmizlənsə daha yaxşıdır. |
| 7.İçküçilerge bu boldı ahval<br>Kim beyan eyledim ey nik-hısal | 7.Ey gözəl təbiətli kimsə; içənlərin halı anlatdığım kimi oldu. |
| 8.İmdi aytay ki niler boldı yene<br>Kıldılar kalğan ulusığa tene | 8.İndi yenə nələr olduğunu danışım; qalan xalqın da başına nələr gəldiyini danışım. |
| 9.Soydılar barçasını baştın ayağ<br>Aldılar barçasıdın mal u yarağ | 9.Hamısını başdan ayağa soydular; hamısından mal və əşya aldılar. |
| 10.Futa vü könglek xaftanlarını<br>Cübbe vü çekmen ile canlarını | 10.Fitə, köynək və qaftanlarını; alıb cübbə, çəkmən (yağmurluq) ilə canlarını, |
| 11.Haşr ili dik barını 'ur eylep<br>Kahr ile canlarığa zur eylep | 11.Qiyamət əhli kimi hamısını yaraq-əsləhəsiz buraxıb; qəhrlə canlarına əziyyət edərək, |

| | |
|---|---|
| 1.Birining boynığa yip taktılar<br>Birining canığa ot yaktılar | 1.Birinin boynuna ip saldılar; birinin canını oda yaxdılar. |
| 2.Birisining otını aldılar<br>Zaxmlık yirlerige saldılar | 2.Birinin odunu aldılar; və yaralı yerlərinə basdılar. |
| 3.Biri başı çapıldı ayıra<br>Birining dalusı çıktı kayıra | 3.Birinin başı vurularaq gövdəsindən ayrıldı; birinin də çiyni burxularaq çıxdı. |
| 4.Birining boynı sınıp yatıp idi<br>Bedeni kanğa barı batıp idi | 4.Birinin boynu qırılıb yatmışdı; və bədəni tamam qana batmışdı. |
| 5.Köpreki küfr ili dik milletsiz<br>Köpreki Hind ili dik sünnetsiz | 5.Çoxu küfr əhli kimi imansız idi; və çoxu Hind xalqı kimi sünnətsiz Idi. |
| 6.Kaysı kaçıp idi issi kilip ong<br>Bir kolı ilgeri vü bir kolı song | 6.Bəzisi bir qolu öndə və bir qolu arxada olaraq; çaşmış halda ora-bura qaçmaqdaydı. |
| 7.Kaysı kızın tapa almay hayran<br>Kaysı xatunı bile ser-gerdan | 7.Bəzisi qızını tapa bilməyib çaşmış; bəzisi arvadını axtarmaqdan başını itirmiş. |
| 8.Kaysı inisidin ayrılğan idi<br>Ah u feryad u figan talğan idi | 8.Bəzisi kiçik qardaşından ayrılmış; ah, fəryad və fəğan etməkdə idi. |
| 9.Birige at bile tive ğamı<br>Birige bade bile mive ğamı | 9.Biri atla dəvə dərdində idi; biri də şərab və meyvə dərdində idi. |
| 10.Biri yarmak ğamıdın ah kılıp<br>'Ömrning yolını kütah kılıp | 10.Biri pul dərdilə ah edib; ömrün yolunu qısaltmış idi. |
| 11.Biri ak raxtların yad kılıp<br>Kararıp könglini naşad kılıp | 11.Biri ağ alt paltarlarını yad etmiş idi; və qaralan könlünü naşad etmiş idi. |

| | |
|---|---|
| 1.Kız ana dip çikiben vaveylah<br>Ana kız dip kılıban nale vü ah | 1.Qız, ana deyərək fəryad etməkdə idi; ana da qız deyərək ah-nalə etməkdə idi. |
| 2.Ne ata oğlını taptı ol-dem<br>Ne oğulğa atadın kaldı ğam | 2. O zaman nə ata oğlunu tapdı; nə də oğula atasından bir dərd qaldı (...düşünə bilməz oldu). |
| 3.Her kişige bolup irdi xali<br>Bar idi asru ğarib ahvali | 3.Hər kəs belə; qəribə bir halda idi. |
| 4.Uşol il kim bu bela kördiler<br>Munça teşviş ü cefa kördiler | 4.Belə bir bəlaya uğrayan; və bu şəkildə təşviş və cəfa görən xalqı; |
| 5.Yaxşı axtarsang alarnı ey yar<br>Sözge kaytarsang alarnı ey yar | 5.Ey dost, onların halını yaxşıca nəql et; sözə çevirib yaxşıca nəql et! |
| 6.Köpreki şer' sözin bilmesler<br>Cehl uykusıdın ayılmaslar | 6.Çoxu şəriət sözünü bilməzlər; və cəhalət yuxusundan ayılmazlar. |
| 7.Köpreki Tingri yolıda güm-rah<br>Köpreki dil-siyeh ü name-siyah | 7.Çoxu Tanrı yolundan çıxmışdır; çoxunun könlü və alın yazısı siyahdır. |
| 8.Tingrining atın ağızğa almak<br>Tingri Kur'anı sarı köz salmak | 8.Tanrının ayələrini ağıza almaq; və Tanrının Quranına göz atmaq, |
| 9.Alar allıda besi 'ayb irdi<br>Köpreki kafir ü bireyb irdi | 9.Onların nəzərində çox ayıb idi; çoxu kafir və dinsiz idi. |
| 10.Na-reva iş alar allıda reva<br>Na-seza sözge körüp ilni seza | 10.Olmayacaq işlər onların nəzərində rəva idi; uyğun olmayan sözlərə xalqı uyğun görürdülər. |
| 11.Kayda kim bar idi bir bed-mezheb<br>Anda irdi atanıp xoş-mezheb | 11.Harada bir bədməzhəbli varsa; orada onlara xoş məzhəbli deyirdilər. |

| | |
|---|---|
| 1.Esterabadda turğanlardın<br>Basa sarı dağı kurğanlardın | 1. Esterabadda olanlardan; və başqa digər kurqanlardan, |
| 2.Munda il cem' olup irdi besi<br>Kılıban din ara her bir hevesi | 2.Din baxımından hər biri başqa həvəs-də olan (her biri eyni bir yol tutan) bir çox xalq; orada (Esterabadda) toplan-mışdı. |
| 3.Birisi rafz-pesend eylep idi<br>Cehl kasrını bülend eylep idi | 3.Biri rafıziliyi bəyənmiş; və cəhalət qəsrini ucaltmış idi (son mərtəbəyə çıxarmışdı). |
| 4.Yörür irdi biri mülhid atanıp<br>Ol ulus içre muvahhid atanıp | 4.Biri dinsiz(mülhid) adlandırılıb yeriyirdi; xalq isə onlara muvahhid deyirdi. |
| 5.Birige din nasir irdi heves<br>Birige güşeyi- deyr irdi heves | 5.Biri dinin ona kömək olmasını arzu edirdi; biri də meyxanə bucağında olmasını arzu edirdi. |
| 6.'Alidin özgeni bilmesler idi<br>Cehl camıdın ayılmaslar idi | 6.Hz. Əlidən başqasını bilməzdilər; və cəhalət qədəhindən ayılmazdılar. |
| 7.Barçanıng ağzıda Hayder Hayder<br>Xufteri anda Ebü Bekr ü 'Ömer | 7.Hamısının ağzında Heydər, Heydər (Əli) sözü var idi; və Əbubəkr və Ömər onların nəzərində gülünc idi. |
| 8.Kim ki Osman didi öldi anda<br>Kim ' Ali didi kutuldı anda | 8.Osman deyən orada ölərdi; Əli deyən orada qurtulardı. |
| 9.Lik alardın 'Ali bizar irür<br>Xatırı barçadın efğar irür | 9.Fəqət Əli də onlardan bezmişdi; və könlü hamısından yaralı idi. |
| 10.Şah hem özi aytkan boldı<br>Sözidin cümle 'alem toldı | 10.Şahın söylədiyi söz; bütün aləmi bürüdü |
| 11.Kim mening dostluğumdın bisyar<br>İl tamuğ içre köyer bolğay zar | 11.Ki, mənim dostluğumdan dolayı bir çox xalq; cəhənnəmdə yanıb inləyəcək. |

| | |
|---|---|
| 1.Ol kişiler ki digendür ol şah<br>Boluban hallarıdın agah | 1. O insanlar ki demişlər; "Şah halımızdan xəbərdardır". |
| 2.Bu kişiler imiş imdi bildim<br>Şah sözige fedayı- can kıldım | 2.(Şahın düşündüyü) bu kimsələrmiş, indi bildim; və Şahın sözünə canımı fəda etdim. |
| 3.Şah Peyğamber aytkan sözdin<br>Çıkmas özge, çıkarıp söz özdin | 3.Şah(Əli) Peyğəmbərin sözündən çıxmaz; və özündən də söz söyləməz. |
| 4.Dise hem sözni muvafık aytur<br>Sözini sözige layık aytur | 4.Sözünü söyləsə də uyğun söyləyər; və sözünü Peyğəmbərin sözünə layiq söyləyər. |
| 5.Şah Ebü Bekrge ta'zim kılıp<br>Köp tevazu' bile allığa kilip | 5.Şah, Əbubəkrə təzim edib; çox təvazökarlıqla xalqa yaxınlaşdı. |
| 6.Dir idi efdali- ashab anı<br>Kıdveyi- zümreyi- ahbab anı | 6.(Şah, Əbubəkr haqqında) əshabın ən üstünü; və səhabələr zümrəsinin öndə gələni deyərdi. |
| 7.Çün yörüş kıldı cihandın Sıddık<br>Aldı Xattab anıng ornın tahkik | 7.Sıddık (Hz. Əbubəkr) cahandan köçdükdə; Xəttab (Hz. Ömər) onun yerinə keçdi (xəlifə oldu). |
| 8.Şah olup hemdem ü hemraz anga<br>Barça iş küç ara demsaz anga | 8.Şah (Hz. Əli) ona dost və həmraz oldu; və bütün iş-gücündə ona dəmsaz oldu. |
| 9.Kılmadı hiç anıng birle xilaf<br>Tutmadı emridin özini mu'af | 9.Onunla heç olmadı xilaf; və özünü onun əmrindən tutmadı muaf. |
| 10.Çün barur boldı cihandın Xattab<br>Barça 'Osmanğa yığıldı ashab | 10.Xəttab cahandan köçdükdə; səhabələr Hz. Osmanın ətrafında toplaşdı. |
| 11.Anga hem eylemedi şah nifak<br>Tüzdi anıng bile hem mihr ü vifak | 11.Şah, ona da tərs düşmədi; və ona da dostluq və yaxınlıq göstərdi. |

| | |
|---|---|
| 1.Ta zamani ki kaza yitti anga<br>Çarxdın tiği- cefa yitti anga | 1.Ta ki qəza zamanı yetdi; yəni fələyin cəfa oxu ona da çatdı. |
| 2.Sürdi andın song uluska ferman<br>Mustafa ornıda boldı sultan | 2.Ondan sonra xalqa fərman göndərdi; və Mustafanın yerinə sultan oldu (onun xəlifəsi oldu). |
| 3.Hiç kaysığa muxalif bolmay<br>Alar eyyamıda ğamdın tolmay | 3.Heç birinə müxalif olmadan; və onların zamanında qəmlə dolmadan, |
| 4.Kılmadı dünyi üçün hiç niza'<br>Belki ta kıldı dünyığa veda' | 4.Dünyaya vida edənə qədər; dünya işi üçün heç dava etmədi. |
| 5.Şah alar birle bu yanglığ idi yar<br>Ğayeteş her niçe mesxi murdar | 5.Şah (Hz. Əli) onlarla bu şəkildə yar idi; bu dostluğu inkar edən adam murdar idi. |
| 6.Şahnıng canibidin düşmen olup<br>Bicihet ğussa vü ğam birle tolup | 6.Şahın (Hz. Əlinin) tərəfdarları digərlərinə düşmən olub; səbəbsiz yerə kədər və qəmlə doldular. |
| 7.Ming yıl, ötken kişiler birle müdam<br>Kırlışıp özni kılurlar bed-nam | 7.Min il, sözü edilən adamlarla müdam; cəbəlləşib özlərini edirlər bədnam. |
| 8.Her biri müfsid-ayini- vifak<br>Her biri könglide ming yılğı nifak | 8.Hər biri uzlaşmaya fəsad qarışdırar; və hər biri könlündə min illik nifaqı saxlayar. |
| 9.Ni münafık il imişler bu il<br>Özlerin ta ne dimişler bu il | 9.Onlar haqqında deyildiyi kimi; bu xalq nə münafiq xalq imiş! |
| 10.Şahnıng ruhı alardın bizar<br>Şahnıng köngli alardın der-bar | 10.Şahın (Hz. Əlinin) ruhu onlardan rahatsız; və könlü onlardan sıxıntı doludur. |
| 11.Mundak il bolsalar andak ni 'aceb<br>Otka kavursalar andak ni 'aceb. | 11.Belə bir xalq olmaqları çaşılacaq şey deyil; və odda qovrulmaqları çaşılacaq şey deyil. |

| | |
|---|---|
| 1.Xan çirikige munung dik yağı<br>Uçra ayıtsa bolur baği | 1.Xan ordusuna bunun kimi bir düşmən rast gələ bilər deyilsə; (Xana) qarşı gəlinmiş asi olur. |
| 2.Tingri kahrığa seza-var barı<br>Layıkı- tiğ u ser-dar barı | 2.Hamısı Tanrının qəhrinə layiqdir; və hamısı sərdarın qılıncına layiqdir. |
| 3.Tingri kay ilni ki makhür eyler<br>Xan çirigin anga mansur eyler | 3.Tanrı qəhr edəcəyi xalqa qarşı; Xanın əsgərini müzəffər edər. |
| 4.Xalknıng fı'lleri aynamasa<br>Kanları nefs otıdın kaynamasa | 4.Xalqın pis əməlləri uzaq olmasa; və qanları nəfs atəşiylə qaynamasa, |
| 5.Birmes ol kavmğa Tingri tağyir<br>Özi bu nev' didi Hayyı- kadir | 5.Tanrı o qövmü dəyişdirməz; Qadir Tanrı onlar üçün belə dedi. |
| 6.Gerçi köp il bozulup savruldı<br>Barça öz yiride vaki' boldı | 6.Çox xalq pozulub sovruldu; amma hamısı öz yerində qaldı. |
| 7.Taş mahallatı feth oldı bu tavr<br>Mundak ivrüldi Hisar ehliğa devr | 7.Ətrafdakı məhəllələr belə fəth olundu; və Hisar xalqına dövr belə döndü (Hisar xalqının başına bu gəldi). |
| 8.Erkige kılmadılar perva hiç<br>Ol sarı bakmadılar asla hiç | 8.Gücündən heç qorxmadılar; və əsla o tərəfə yönəlmədilər. |
| 9.Ötüp andın yörüdi Hazreti-Xan<br>Kılıban xak ile anı yeksan | 9.Xan həzrətləri onu (o xalqı) yerlə bir edərək; oradan keçib yürüdü. |
| 10.Yörüdi raxşı- murad üstide<br>Lengeri- Şeyx 'İmad üstide | 10.Murad atı üstündə yürüdü; və Şeyx İmad ləngərinə yetişdi. |
| 11.Çirigi barça yığıldı anda<br>Xasmnıng halini bildi anda | 11.Əsgərinin hamısı orada toplaşdı; və düşmənin halını orada bildi. |

| | |
|---|---|
| 1.Vahşda turğanıdın taptı xaber<br>Vahş ahengi tüzüp kıldı nazar | 1.(Düşmənlərin) Vahşda toplaşdığını xəbər alanda; Vahş üzərinə səfərə başladı. |
| 2.Çarlatıp cümleyi- sultanlarnı<br>Tiletip Rüstemi- destanlarnı | 2. Çağırıb bütün sultanlarını; dastan qəhrəmanı Rüstəm kimi olanlarını, |
| 3.Didi ey 'alem ara sultanlar<br>Çiktingiz mülk üçün köp canlar | 3. Dedi: "Ey aləmdə sultan olanlar; mülk üçün çox candan olanlar. |
| 4.Anga yitip bu sarı kol evürüng<br>Belki yitküçe kolğa kivürüng | 4.Oraya çatıb bu tərəfə doğru dönün; və mümkün olduğu qədər (o tərəfləri) ələ keçirin. |
| 5.Zinhar olça üçün çapturmang<br>Yaşurun malların tapturmang | 5.Əsla qənimət üçün yağmalamayın; malları saxlayın, tapmayın. |
| 6.Alsangız Tingri dimiş bolsa anı<br>Bolur irkin bu çirig barça ğani | 6.Tanrı sözü ilə oraları alsanız; əsgərlərin hamısı zəngin olar. |
| 7.İl bolur mal bolur barça sizing<br>Tüz sizing tağ sizing ğalça sizing | 7.Xalq da, mal da, hamısı sizin olar; düz sizin, dağ sizin, qalaça sizin olar. |
| 8.Ger bu sözlerni kulakka almay<br>Bu hikayetğa kulaknı salmay | 8.Əgər bu sözləri dinləməsəniz; və bu hekayətə qulaq verməsəniz, |
| 9.Mal dip çapsa kişi xasm tuyar<br>Ayağı kaçmak üçün asru köyer | 9.Əsgər mal deyə yağmaya qalxsa düşmən duyar; və ayağı qaçmaq üçün çox yanar (qızışar)". |
| 10.Uşbu sözlerni diben Hazreti-Xan<br>Kıldı yarlığ ki ay olğaç taban | 10.Xan həzrətləri bu sözləri deyərək əmr verdi; "Ay parlayanda (ay çıxanda), |
| 11.Hamza Sultan bile Sultan Mahmud<br>Yörüben xasmnı kılsun na-bud | 11.Həmzə Sultanla Sultan Mahmud; yürüş edərək düşməni yox etsinlər. |

| | |
|---|---|
| 1.Basa kulluk kulı birle tursun<br>Her kişi öz yolı birle tursun | 1.Sonra qulları ilə bərabər olub; hər kəs öz yolunu tutsun. |
| 2.Şah Mahmud ile Timür Sultan<br>Öziniıng leşkeri birle yeksan | 2.Şah Mahmud ilə Timur Sultan; öz əsgərləri ilə birliktə tamamilə, |
| 3.Xannıng ong kolıdağı bigler ile<br>Rezmning yolıdağı bigler ile | 3.Xanın sağ qolunda savaşa girmiş; bəylər ilə bərabər olsun"! |
| 4.Can Vefa irdi birining atı<br>Kim vefadın yaratılmış zatı | 4.Birinin Can Vəfa idi adı; və vəfadan yaradılmışdı zatı. |
| 5.Yene birni Urus Xan dirler<br>Rezm ara Rüstemi- destan dirler | 5.Yenə birinə Urus Xan deyərlər; və savaşda ona Rüstəmi- dastan deyərlər. |
| 6.Hamza Sultan bile hem soldağılar<br>Yörüsün barça uşol koldağılar | 6.Həmzə Sultan ilə soldakılar, yəni o qoldakılar; hamısı birlikdə hərəkət etsin! |
| 7.Uşbu yarlığ bile ol sultanlar<br>Saltanat cismiğa kirgen canlar | 7.Elə bu fərman üzərinə sultanlar; və səltənət cisminə girən canlar; |
| 8.Ay Toğa kamçı birip atlarığa<br>Yığıban say kişini katlarığa | 8. Ay Tuğa sayılı adamları huzuruna toplayıb; atlarını qamçıladı (hərəkətə gətirdi). |
| 9.Yörüdiler yasanıp leşkerdin<br>Üzdiler yüki ağır leşkerdin | 9.Əsgərlərini nizama düzüb; yükü ağır olan əsgərdən ayrılaraq getdilər. |
| 10.Xan dağı songlarıdın derd bile<br>Xatırı- tefrika-perverd bile | 10.Xan da onların arxalarından dərd ilə;fikrində bir çox pis gümanlar ilə, |
| 11.Yörüp alğay didi amma il ayağ<br>Kitiben derdi imes irdi sağ | 11. Ayağı yeriyə bildiyi halda; dərdi sağalmadı (könlü hüzur tapmadı), dedi. |

| | |
|---|---|
| 1.Yoksa peyveste bu tavr işlediler<br>Yazlar çillesi vü kışladılar | 1.Daim bu şəkildə hərəkət etdilər; və ovaların çilləsində qışı keçirdilər. |
| 2.Ilğaban özi yörür irdi xan<br>Ong kılur irdi işini Yezdan | 2.Xan, özü axın edərək yürüdü; və Tanrı onun işini rast gətirirdi. |
| 3.Xannıng ılğarı mevkuf oldı<br>Fikr birle içi anıng toldı | 3.Xanın dəstəsi dayandırıldıqda; içi düşüncəylə doldu: |
| 4.Kim ni yanglığ yörügeyler ol xayl<br>Kaysı yirlerge yitişkey ol seyl | 4.O dəstə (müfrəzə) nə şəkildə hərəkət edəcəkdir; və o sel haralara çatacaqdır. |
| 5.Lik ol xayldağı serverler<br>Kim alar hükmidedür leşkerler | 5.Lakin o dəstə içində olan; və əsgərlərə başçılıq edən sərvərlər, |
| 6.Tünle ok ozdılar Ak kayçıkayın<br>Ozuban bozdılar Ak kayçıkayın | 6.Ağ Kayçıkay dağını keçdilər; və keçərək Ağ Kayçıkayı (Ağ Kayçıkay xalqını) məğlub etdilər. |
| 7.Kayçıkay digeni bir tağı-bülend<br>Kim anıng ignige yitmes Elvend | 7.Kayçıkay dediyin yüksək bir dağdı; və ona Əlvənd dağı çatmazdı. |
| 8.Tang atıp kildi ise ol yolda<br>Köp talatkan il idi bir kolda | 8.Sabah olanda o yolda; və bir qanadda çox yağmalanmış xalq vardı. |
| 9.Kiçe ok yurtavul ozğan boldı<br>Yoldağı xalknı bozğan boldı | 9.Gecə süvarilər keçdi; və yoldakı xalqı məhv etdi. |
| 10.Malın aldurğan ulus halı tebah<br>Bardılar biglerige tartıp ah | 10.Malını yağmaladan ulusun halı pərişan idi; Bunlar ah çəkərək bəylərinin yanına çatdılar. |
| 11.Til tüşürdiler anga kim inek<br>Kildi yağmasını başlap Özbek | 11.Dil tutdular,xəbər verdi ki, indi; Özbək başda olmaq üzrə yağmalayıb gəldilər. |

| | |
|---|---|
| 1.Bu xaberni işitip Xusrev Şah<br>Didi canığa yitip Xusrev Şah | 1.Xosrov şah bu xəbəri eşidəndə; öləcək kimi olub dedi (ki): |
| 2.Kim Veli Big yörüben atlansun<br>Xaber almakka yörüp katlansun | 2.”Vəli bəy yürüyərək atlansın; və xəbər almağa çalışsın”! |
| 3.Veli Bigge aytıp bu sözni<br>Cib sarıp tuttı kaçarğa özni | 3.Vəli bəyə bu sözü söylədikdə qaçmaq üçün; istehkamın yolunu tutdu. |
| 4.Çün Veli taptı xaber sultandın<br>Xaberi kalmadı baş u candın | 4.Vəli, Sultandan xəbər alanda ;başını da, canını da unutdu. |
| 5.Özin ağasığa ok yitkürdi<br>Baş kaçurmaknı ğanimet kördi | 5.Özün tez qardaşına yetirdi; və başını qurtarmağı qənimət bildi. |
| 6.Sırrını xalk ara açtı Veli<br>Bir kuruk başın alıp kaçtı Veli | 6.Vəli sirrini xalqa açdı; və bir quru canını götürüb qaçdı. |
| 7.Kaçtı başın alıp ol kurı-nemek<br>İt süngekni alıban kaçkan tek | 7. O nankor başını alıb qaçdı; itin sümüyü alaraq qaçması kimi. |
| 8.Ağası hem anga tabi' boldı<br>Munça yılğı işi zayi' boldı | 8. Böyük qardaşı da ona tabe oldu; və bu qədər illik işi zay oldu. |
| 9.Körmedi hiç çirigning gerdin<br>Körmesün hiç kim anıng derdin | 9.Özü əsgərin sıxıntısını görmədiyi kimi; heç kim də onun dərdini bilməsin deyə qaçdı. |
| 10.Taşladı ak iv ile çaderni<br>Tüzdürüp xayl bile leşkerni | 10.Adamlarıyla əsgərini toplayıb; otağını və çadırını tərk etdi. |
| 11.Kaldı sağıtları barça yirde<br>Özi kaçmak bile batıp tirde | 11.Özü qaçmaqla tərə boğuldu; və bütün zirehləri yerdə qaldı. |

| | |
|---|---|
| 1.Kaldı bisyar tebilğa andın<br>Boldı bizar tebilğa andın | 1.Ardından bir çox dəbilqə qaldı; və dəbilqə ondan bizar oldu. |
| 2.Kaldı andın yişilip zanu-bend<br>Kim bahadırğa kılur-min peyvend | 2.Ondan "Bahadır adamlara verərəm" dediyi; bir çox dizlik açılıb qaldı. |
| 3.Tüşti manglaylık bu irdi sözi<br>Kim kirekmes manga kaçkak yüzi | 3.Üzü quyulu düşdü, sözü beləydi: Mənə qaçanın üzü gərəkməz. |
| 4.Kaldı bisyar ivi içre kutas<br>Yaxşı atlıkka tüzer-min dip esas | 4.Yaxşı atlını bəzəyərəm deyə; evi içində bir çox qotaz (kutas) qaldı; |
| 5.Kaldı upçin toka Bigdin asru<br>Kim kaçar atka ni hacetdur bu | 5.Bəydən bir çox toqqa (at kolanı halqaları) da geriyə qaldı; qaçan ata bu niyə gərək olsun! |
| 6.Kaldı bisyar yalav rengbereng<br>Kayu gül-fam u kayu mina-reng | 6.Bəzisi gül rəngli və bəzisi mavi rəngli; rəngarəng bir çox ox sadağı (kuburu) qaldı. |
| 7.Cibesining köpi Derbend işi<br>İyesi dik basa Derbend işi | 7.Qalxanının çoxu Dərbənd işi idi; və sahibi kimi Dərbənd işi idi. |
| 8.Esliha barçası kaskap kaldı<br>Kaksaban Big dağı yolın aldı | 8.Silahların hamısı quruyub qaldı; və quruyaraq bəy də yol aldı. |
| 9.Kaldı yurtıda bolup yalar kak<br>Barçası atkuçı ilge müştak | 9.Yaylar yuvasında qaldı; hamısı nişançılara həsrət idi. |
| 10.Bar idi nize kamış bağı dik<br>Boyalıp kanğa barı yağı dik | 10.Süngülər qamış bağı kimi idi; və hamısı düşmən kimi qana boyanmışdı. |
| 11.Tuğlar kaldı çaparğa layık<br>Xasm yüzini yaparğa layık | 11.Dikəlməyə və düşmənin üzünü; örtməyə layiq tuğlar geridə qaldı. |

| | |
|---|---|
| 1.Her nekare ki Big özdin saldı<br>Şadyane çalıngız dip kaldı | 1.Bəyin tərk etdiyi hər nağara(təbil);<br>şad şəkildə çalınsın deyə qaldı. |
| 2.Her tarafdın çakıra kaldı nefir<br>Kim yağı kaçtı ne vakt taksir | 2.Vaxt daraldıqda düşmən qaçarkən;<br>hər tərəfdən borular səslənməyə başladı. |
| 3.Pişxane bile ak ivge ni san<br>Tam heman irdi sera-perde heman | 3.Dam və otaq şəklində olan; bir çox çadır və otaq qaldı. |
| 4.Nakışlar birle muğarrak barça<br>Kılıban cibelerin şak barça | 4.Hamısı naxışlarla bəzənmiş;<br>qalxanlarını ikiyə ayırdılar. |
| 5.Tünglüki yilge barıp ak ivning<br>Rüzigarı kararıp ak ivning | 5.Otağın pəncərəsi də yelə qapılmış; və otağın rüzgarı qaralmışdı. |
| 6.Pişxane dir idi kim heyhat<br>Kim uçarğa yaramaydur bu kanat | 6.Eyvan "Heyhat, bu qanad uçmağa yaramaz." -deyirdi. |
| 7.Örtenip kaldı baver cihane<br>Ot tüşüp içige yane yane | 7.Mətbəx içinə atəş; düşüb yana -yana qaldı. |
| 8.Şamyane barı yilge bardı<br>Xışt yilpirdin özini hardı | 8.Kölgəliklərin hamısını yel alıb apardı;<br>və kərpic də mızraqdan xarab oldu. |
| 9.Körüben öz bigidin ivni kuruk<br>Kata kaldı körüp ol işni soruk | 9.Çadır dirəkləri Bəyin öz evini; tərk etdiyini görəndə hiddətləndi. |
| 10.Boldı pamal iv içre cazim<br>Boluban olça bolurğa cazim | 10.Qənimət kimi evlər; ayaq altında qaldı. |
| 11.Kılur irdi uşol iv içre kilim<br>Gerd üstide kalur-min dip hem | 11. Torpaq üstündə qalmayaq deyə də;<br>ev içinə (otağa) kilim sərərdi. |

| | |
|---|---|
| 1.Bisteri- ayş unutur boldı sözin<br>Mütteka dağı yığışturdı özin | 1. Əyləncə döşəyi unudar oldu sözünü; və mütəkkə də yığışdırdı özünü . |
| 2.Maşraba kaldı çağırdın xali<br>Boldı rengin çağırdın xali | 2.Sürahi içkidən boşaldı; və rəngli içkidən boş oldu. |
| 3.Uzatıp kaldı surahi boynın<br>Yad iter boldı birevning koynın | 3.Sürahi boynunu uzatdı; və birinin qoynunu xatırladı. |
| 4.Küreğe sındı piyale birle<br>Yer koyı irdi havale birle | 4.Testi qədəhlərlə bərabər qırıldı; və yerə düşdü. |
| 5.Fısk bisterleri yığrıldı tamam<br>Bertaraf boldı basa şürbi-müdam | 5.Xainlik döşəkləri bütün toplandı; və davamlı içmək bərtərəf oldu. |
| 6.Kaçtılar rafizi vü mülhidler<br>Kaldılar muğbeçe vü şahidler | 6.Rafizi və dinsizlər qaçdılar; muğbeçə(məcusi) və şahidlər qaldı. |
| 7.Big özi kaçtı vü yolın aldı<br>Lik esbabı- ta'azzum kaldı | 7.Bəy özü qaçdı və yol aldı; lakin yola salmağa fürsət qalmadı (yolçu edilmədən qaçdı). |
| 8.Hasıla her ni ki bu müddetde<br>Yığıban saklap idi devletde | 8.Hasili, bu müddət içində; nə toplayıb saxladısa, |
| 9.Barçasın taşladı vü kaçtı revan<br>Ta selamet çıkara alğay can | 9.Canını qurtarsın deyə; hamısını buraxıb dərhal qaçdı. |
| 10.Çün anıng kaçkanı ma`lum oldı<br>Barçağa hali mefhum oldı | 10.Qaçdığı aydın olanda; hər kəs onun halını anladı. |
| 11.Barça sultanlar ili çapkunğa<br>Barıp irdi tağ ile hamunğa | 11.Bütün sultanların xalqı axın (yağma) səbəbiylə; dağ və çölə çatmışdılar. |

| | |
|---|---|
| 1.Lik Mahmud digen sultannıng<br>Saltanat şehridağı canannıng | 1.Lakin Mahmud deyilən Sultanın; səltənət şəhərindəki cananın, |
| 2.Çirigi özi bile cem' irdi<br>Barça pervane vü ol şem' irdi | 2.Əsgəri özüylə bərabər idi; hamısı (əsgərlər) pərvanə və o, şam idi. |
| 3.Öz kişisi bile ok atlandı<br>Xasmnı kavlağalı katlandı | 3.Öz adamlarıyla dərhal atlandı; və düşməni qovmağa cəhd göstərdi. |
| 4.Rast yurtiğa yitişkeç sultan<br>Andağı il didiler kim asan | 4.Sultan yurduna çatanda; oradakı xalq dedi ki: |
| 5.Kiçip irkin bu zaman Ceyhunnı<br>Ozdı bu aradaki hamunnı | 5.Bu zamanda Ceyhunu asan keçib; bu aradakı xatadan xilas oldu. |
| 6.Köpreki bar idi tayyar anda<br>Yurtın axtar ni diseng bar anda | 6.Bir çoxu orada hazır idi; və yurdu alt-üst edəcək nə desən, orada var idi. |
| 7.Anıng ol barğanın anglap sultan<br>Barğanığa meseli kıldı revan | 7.Sultan onun getdiyini anlayanda; o da dərhal yola düşdü. |
| 8.Didi kim barğanıdın kaytmasun<br>Hiç kim anıng sözidin kaytmasun | 8. Dedi:Heç kim getməkdən vaz keçməsin; və heç kim onun sözündən dönməsin (sözündən çıxmasın). |
| 9.Özge yurtiğa kılıp 'azmı-duxul<br>Çirigi olçağa boldı meşğül | 9.Başqa yurdlara girməyə əzm etdi; əsgəri qənimətlə məşğul oldu. |
| 10.Aldılar olça ala alğunça<br>Saldılar kolnı sala salğunça | 10.Ala bildikləri qədər qənimət aldılar; və əllərini sala bildikləri qədər saldılar. |
| 11.Her kişi on cibe alğan boldı<br>Kötere almadı salğan boldı | 11.Hər kəs on qalxan almış oldu; və götürə bilmədiyini buraxdı. |

| | |
|---|---|
| 1.Her ne kim bar idi ol menzilde<br>Her ne kim bar idi ol mahfilde | 1.Hər nə varsa o mənzildə; hər nə varsa o məclisdə; |
| 2.Kötere aldılar ol xayl anı<br>Kaldı bolğay kötere almağanı | 2. O camaat onların hamısını götürdü; və götürə bilmədikləri qaldı. |
| 3.Kaçurup yağını dil-xah bile<br>Kiterip bağini dil-xah bile | 3.Düşməni ürəyincə qaçırdıb; asiləri ürəyincə dəf edərək, |
| 4.Kaytıban hazreti- sultan kildi<br>Münis ü hem-nefes xan kildi | 4.Sultan həzrətləri geri gəldi; o munis və həmnəfəs Xan gəldi. |
| 5.Feth ü firuzluk u nusret ile<br>Kıldı xan xıdmetini rağbet ile | 5.Fəth, ehtişam və zəfər ilə; xana can-başla xidmət göstərdi. |
| 6.Özini xan kaşığa yitkürdi<br>Vahş suyı yakasıda kördi | 6.Özünü Xanın hüzuruna çatdırdı; və onu Vahş suyu kənarında gördü. |
| 7.Özge xannıng çirigi yaxşı yaman<br>Boldılar olça üçün barça revan | 7. Xanın əsgəri yaxşı, pis hamısı; qənimət üçün dərhal hərəkətə keçdilər. |
| 8.Saldılar eyle hezimet ki dime<br>Aldılar ança ğanimet ki dime | 8.Elə məğlub etdilər ki; o qədər çox qənimət aldılar ki demə. |
| 9.Koy kuzını sora almaslar idi<br>Ordağa yitküre almaslar idi | 9.Qoyun və quzunun sözünü etməzdilər; və onu alıb mərkəzə(qərargaha) apara bilməzdilər. |
| 10.Tive leşkerge sürükler kildi<br>Tivening üstide yükler kildi | 10. Sürülər halında orduya dəvələr gəldi; Dəvələr üstündə yüklər gəldi. |
| 11.Yükleri raxt idi rengbereng<br>Şekker ü kand idi teng-be-teng. | 11.Dəvələrin yükləri rəngarəng əşya; top-top şəkər və qənd idi. |

| | |
|---|---|
| 1.Yılkılar boldı çirigde sansız<br>At u uy toldı çirigde sansız | 1. Orduda saysız ilxılar oldu; ordu saysız at və qaramalla doldu. |
| 2.Ne Arab kaldı ne Türk ü Tazik<br>Ne uluğ kaldı vü ne rize şerik | 2.Nə ərəb qaldı, nə Türk və nə Tacik qaldı; nə böyük və nə də kiçik şərik qaldı. |
| 3.Bardılar barçaları yağmağa<br>Kaldılar barçaları ğavğağa | 3.Hamısı yağmaya getdilər; və hamısı döyüşə çıxdılar. |
| 4.Sordılar bolğay koy üç yüz ming<br>Tivedin kim dimesem otuz ming | 4.Üç yüz min qoyun; və heç olmasa otuz min dəvə vardı. |
| 5.At u uy birle takı özge tavar<br>Tört yüz ming bar idi vaktı-şümar | 5.At və qaramaldan başqa; sayıldıqda dörd yüz min davar vardı. |
| 6.Bürde sanı imes irdi merkum<br>Lik bu çağlık oluptur ma`lum | 6.Götürülənlərin sayı yazılmamışdı; ancaq bu şəkildə bilinirdi. |
| 7.Kim çirigde niçe kim tive vü at<br>Olçadın tüşkeni boldı isbat | 7.Əsgərdə nə qədər dəvə və at varsa; qənimətdən artıq qalanı təsbit edildi. |
| 8.Barur irdi anı bir kol yitiben<br>Xıred u huş başıdın kitiben | 8. Ağlı və idrakı başından gedərək; bir qola çatmaq üçün vardı. |
| 9.Bar idi kaşıda bir turfe kenız<br>Ya Moğolnıng ilidin alğan kız | 9.Hüzurunda çox gözəl bir kəniz vardı; o ya moğol ölkəsindən alınan bir qız idi, |
| 10.Ya 'arabnıng kara beytlikleridin<br>Ya Xalacnıng uzun itlikleridin | 10. Ya ərəbin qara çadralılarından idi; yaxud Xalacın uzun boylularından idi. |
| 11.Tive vü at ki bolğay mali<br>Hiç yükdin imes irdi xali | 11.Dəvə və at olaraq; ələ keçirilən mallar yüksüz deyildilər. |

| | |
|---|---|
| 1.Yitti ma'mur vilayet hasıl<br>Uşbu çapkunğa boluptur daxil | 1.Hasili, yeddi abad vilayət; bu yağmaya daxil oldu. |
| 2.Başı Tirmiz ayağı mülki-Hisar<br>Arada kaysı uluslar kim bar | 2.(Yağmaya uğrayanlar) ilk öncə Tirmiz, sonra Hisar ölkəsi idi; və içində, kim bilir, daha hansı uluslar var idi. |
| 3.Vahşnıng tigreside bolğanlar<br>Deşti- Kölikke dağı tolğanlar | 3.Vahşın ətrafında olanlar; Kölik çölünə də dolanlar, |
| 4.Bir tarafdın digeli Ceyhunnı<br>Bir tarafdın tutalı Taysunnı | 4.Bir tərəfdən Ceyhunu deyək; və bir tərəfdən Taysunu tutaq; |
| 5.Bir tarafdın digeli şehri-Saray<br>Yitti barçalarığa kahrı- Xuday | 5.Bir tərəfdən Saray şəhəri deyək; hamısına Allahın qəzəbi keçdi. |
| 6.Tört derya boyıda bolğan il<br>Yitti kişver tüzide tolğan il | 6.Dörd dərya kənarında olan xalq; və yeddi ölkə ovasına dolan xalq, |
| 7.Barçası boldı mebayi- mensür<br>Bolmasun hiç ya Rab makhur | 7.Hamısı yerlə bir oldu; ya Rəbb, bu şəkildə heç kim Allahın qəhrinə uğramasın! |
| 8.Ol kaçış birle barıp Xusrev Şah<br>Rast Kunduzğa barıp taptı penah | 8. O qaçışla Xosrov şah; düz Kunduza çatıb oraya sığındı. |
| 9.Hazreti- Xan kaytıp ol yirdin<br>Bir niçe beyt aytıp ol yirdin | 9.Xan həzrətləri o yerdən dönüb; ora ilə bağlı bir neçə beyt söyləmiş, |
| 10.Bitiben kıldı revan her sarı<br>Sözini kıldı 'ayan her sarı | 10.Yazaraq hər tərəfə göndərdi; və sözünü hər tərəfə bildirdi. |
| 11.Budur ol yerde aytkan ebyat<br>Kim barıdın tamadur abı-hayat | 11.O yerdə söylənən; hamısından abi-həyat damlayan beytlər bunlardır. |

| **XLVIII**<br>**Hazreti- İmamü'z-zaman ve xallfetü'r-rahmannıng ğazelidür:** | **XLVIII**<br>**Zamanın İmamı və Allahın xəlifəsi həzrətlərinin qəzəlidir:** |
|---|---|
| 1.Yüzüngni kördüm ol çartak içinde<br>Açılmış taze gül yafrak içinde | 1. Üzünü gördüm o çardaq(çarqat?) içində; açılmış təzə gül kimi yarpaq içində. |
| 2.Tebessüm kılsang ol ğonçe lebingdin<br>Digey-sin bal tamar kaymak içinde | 2. O qönçə dodağınla təbəssüm etsən; deyərsən ki, bal damır qaymaq içində. |
| 3.Niçe kizleding ey ra'na ğazalım<br>Meni yandurmağıl avlak içinde | 3.Ey gözəl ahum, necə gizləndin; məni boş qaytarma ovlaq içində. |
| 4.Kerem kılğıl kil imdi ey 'azizim<br>Oturğıl dideyi- müştak içinde. | 4.Ey əzizim, kərəm et də gəl; və otur müştaq olan göz içində. |
| 5.Cihannıng közi hergiz körmişi yok<br>Ne kıldı leblering sormak içinde. | 5.Cahanın gözü əsla görmüş deyil; dodaqların sormaq (əmmək) ilə nə etdi? |

| | |
|---|---|
| 1.Kil ey saki yükünüp bir ayak tut<br>Manga dilber bile kışlak içinde | 1.Ey saqi,gəl və əyilərək mənə dilbər ilə bərabər; bir qədəh ver qışlaq içində! |
| 2.Manga cevr eyleding ey bağrı taşım<br>Köngülni saklamay dil tak içinde | 2.Mənə cövr etdin ey daş qəlblim; könülü saxlama sıxıntı içində. |
| 3.Muxalif Vaxşnı kışlap turурda<br>Turuş birmey turur turmak içinde | 3.Müxalif olan Vahşda qışı keçirdiyim zaman; duruş gətirmək mümkün olmaz. |
| 4.Çirigning gerdini körmey kaçıptur<br>Meseldür kul kaçar urmak içinde | 4.Əsgərin çıxardığı tozu görmədən qaçmışdır; məsəldir ki, qul kötəkdən qaçar. |
| 5.Şibaniğa biriptür nusretin Hak<br>Kavup-min Xusrevi çıkmak içinde | 5.Allah Şeybaniyə yardım etdi; və Xosrovu qaladan çıxarıb qovdum. |
| 6.Çün bu şeir oldı meşhur anda<br>Boldı leşker ili ma`mur anda | 6.Bu şeir o zaman məşhur olunca; qoşunun eli abad oldu. |

| | |
|---|---|
| 1.Xanike xandın boldı bu xaber<br>Kim inisi bile tüzdi leşker | 1.Xanikə xandan kiçik qardaşıyla; əsgər toplayır xəbəri gəldi. |
| 2.Tenbel üstige barıp kıldı kapal<br>İmdi kurğan içidedür Tenbel | 2.Tənbəl üstünə gedib mühasirə etdi; Tənbəl indi kurqanda həbsdədir. |
| 3.Dir imişler ki bu yirni alsak<br>Nusret ü feth kusını çalsak | 3. Deyirmişlər: Bu yeri alaq; nüsrət və fəth təbilini çalaq. |
| 4.Baralı rast Semerkand sarı<br>Kim irür talibimiz xalk barı | 4.Xalq, hamısı bizi istədiyi üçün; indi düz Səmərqəndə çataq. |
| 5.Yene bu söz dağı boldı nagah<br>Kim alarğa pir imiş Xusrev Şah | 5.Yenə bu söz qəflətən söyləndi ki; onların (yəni Səmərqənd xalqının) piri Xosrov şah imiş. |
| 6.Xatları kilmiş anga key-serdar<br>Biz sanga can bile bardur-biz yar | 6.(Xosrov şahdan) bu yazı gəlmiş: “Ey sərdar; biz sənə candan bağlıyıq,yar. |
| 10.Kim 'inayet songıdın kahr nidür<br>Nuşnıng kinide bu zehr nidür | 10.Lütfün arxasından qəhr nədəndir; və balın arxasından bu zəhər nədəndir? |
| 11.Xan didi kanlarıngızdın kiçtim<br>Rahm itip canlarıngızdın kiçtim | 11.Xan dedi: "Qanlarınızdan vaz keçdim; yazığım gəlib canlarınızdan (canlarınızı almaqdan) vaz keçdim". |

| | |
|---|---|
| 1.Eyledi şart u kasem yad itti<br>Biz iki dil-şudeni şad itti | 1.Şərt qoydu və andını yad etdi; və biz iki aşiqi şad etdi. |
| 2.Yene fikr özgeçe boldı guya<br>'Ömr peymanesi toldı guya | 2.Yenə fikri sanki başqa oldu; və ömür qədəhi sanki doldu. |
| 3.Kim bu yanglığ kıladur bizni bend<br>Sözidin kaytıban ol devlet-mend | 3.O dövlət sahibi sözündən dönərək; bizi bu şəkildə həbsə qoydu. |
| 4.Alar ol sözni digeç sultanlar<br>Didiler mülk işidür ey xanlar | 4.Onlar bu sözləri söyləyincə dedilər sultanlar; "Mülk işidir, ey xanlar, |
| 5.Biz sizing canlarıngızdın keçtük<br>Lutf itip kanlarıngızdın keçtük | 5.Biz, sizin canlarınızdan vaz keçdik; lütf edərək qanlarınızdan vaz keşdik. |
| 6.Leşkeringizni alur-biz kolğa<br>Kişveringizni alur-biz kolğa | 6.Əsgərinizi ələ keçirərik biz; ölkənizi ələ keçirərik biz. |
| 7.Sizge andın song icazet biriben<br>Cibe vü at u yarağ ayırıban | 7.Sizə ondan sonra icazə verib; silah, at və zireh ayıraraq; |
| 8.Yiberür-biz Moğolistan sarı<br>Yolnı siz bilge-siz andın narı | 8.Sizi Moğolustan tərəfinə göndərərik; oradan sonra yolu siz bilirsiniz. |
| 9.Taşkend işiki açılğunça<br>Andağı mestler ayılğunça | 9.Daşkənd qapısı açılınca; və oradakı sərxoşlar ayılınca, |
| 10.Sizni bu bend bile asrar-biz<br>Eylemeng xavf bu işlerdin siz | 10. Sizi bu bənd ilə qoruyarıq; və siz bu işlərdən xoflanmayın! |
| 11.İmdi ger sizge kirek bolsa necat<br>Xat biting kal'a ilige kim bat | 11.İndi əgər sizə nicat gərəksə; dərhal qala xalqına məktub yazın. |

| | |
|---|---|
| 1.Kal'anı xali itip çıksunlar<br>Burç u barularını yıksunlar | 1.Qalanı boşaldıb çıxsınlar; bürc və hisarlarını yıxsınlar! |
| 2.Çıksun Ahmed bigingiz kurğandın<br>Kalmasun hiç Moğol hem andın | 2.Əhməd bəyiniz kurqandan çıxsın; və ondan geridə heç moğol qalmasın! |
| 3.Oğlunguznı alıban kitsünler<br>Başlarını alıban yitsünler | 3.Oğlunuzu alıb getsinlər; başlarını alıb getsinlər! |
| 4.Anangız tursun uşol kurğanda<br>Asrasun kızlarını hem anda | 4.Ananız o kurqanda qalsın; və qızlarını da orada mühafizə etsin! |
| 5.Kim yitişkeç kılalı nisbetler<br>Kılalı toylar u vuslatlar | 5.Çatan kimi əqd edək; toylar edək və sevgiliyə qovuşaq! |
| 6.Ger bu tavr olmasa iş müşkil irür<br>Xan ğazab sarı yene mayil irür | 6.Əgər bu cür olmazsa, iş müşkül olar; Xan yenə qəzəblənər". |
| 7.Çün bu sözlerni işittiler alar<br>Kıssanıng başığa yittiler alar | 7.Onlar bu sözləri eşidəndə; hekayətin başına çatdılar. |
| 8.Kıldılar can bile bu sözni kabul<br>Didiler imdi kirek bolsa resul | 8.Bu sözü candan qəbul etdilər; və dedilər: "İndi elçi gərəksə, |
| 9.Ta anıng birle kılıp xat irsal<br>Kılğa-biz iv ilimizni xoş-hal | 9. Onunla məktub göndərib; ev xalqımızı şad edək"! |
| 10.Çün bu sözni didiler ol xanlar<br>Didiler xanğa barıp sultanlar | 10.O xanlar bu sözü söyləyəndə; sultanlar (Şeybani) xana gedib çatdırdılar. |
| 11.Boldı xan hükmi ki Sultan Mahmud<br>Eyleben Xanike ilin xoşnud | 11.Xanın fərmanı belə oldu: "Sultan Mahmud; Xanikə xalqını edib xoşnud, |

| | |
|---|---|
| 1.Kılsun öz nökerin ol sarı revan<br>Anga birsün xattını Xanike xan | 1. Öz adamlarını o tərəfə göndərsin; və Xanikə xan məktubunu ona versin"! |
| 2.Çün hüküm eyledi xanı-a'zam<br>Xanike xan kolığa aldı kalem | 2.Ulu xan fərman buyurunca; Xanikə xan qələmi əlinə aldı. |
| 3.Anasığa bitidi mektubi<br>Asru mektubi- latlfi- xubi<br>**LVIII**<br>**Xanike xannıng mektubı** | 3.Anasına çox xoş və çox gözəl; bir məktub yazdı.<br>**LVIII**<br>**Xanikə xanın məktubu** |
| 4.Sözi bu idi ki ey kıble manga<br>Aytayın candağı razımnı sanga | 4.Sözü belə idi: "Ey mənə qiblə olan, sənə içimdəki sirri açıqlayım! |
| 5.Manga maksud bu irdi peyvest<br>Kim kaçan birse manga Tingri dest | 5.Mənim məqsədim daim bu idi; Tanrı mənə nə zaman lütf etsə, |
| 6.Şahlık silsilesin üzgey-min<br>Fakrnıng zemzemesin tüzgey-min | 6. Padşahlıq silsiləsini qoparacağam; və fakr zəmzəmənaməsini düzəcəyəm (fakr yoluna girəcəyəm). |
| 7.Bolğa-min Tingri yolıda derviş<br>Atanıp xalk içide nik-endiş | 7.Xalq içində yaxşı düşüncəli deyə adlandırılıb; Tanrı yolunda dərviş olacağam. |
| 8.Barğa-min Ka'be sarı şevk bile<br>Tutka-min halkasını zevk bile | 8.Kəbəyə  şövqlə çatacağam; və Kəbə halqasını zövqlə tutacağam. |
| 9.Şahlıkda bu idi maksudum<br>Uşbu maksuddın irdi sudum | 9.Padşahlıqda istəyim bu idi; və bu məqsəddən faydam bu idi. |
| 10.İmdi kim şahlığım boldı heba<br>Saldı bu iş manga takdiri-Xuda | 10.İndi ki, padşahlığım hədiyyə oldu; Allahın təqdiri bu işi mənə verdi. |

| | |
|---|---|
| 1.Devletim tacı nigunsar oldı<br>Taxt hem yir bile hem-var oldı | 1.Dövlətimin tacı baş aşağı oldu; taxt da yerlə bir oldu. |
| 2.Leşkerim boldı közümçe bir bir<br>Üzülüp tüşti zimamı- tedbir | 2.Əsgərim gözümün önündə bir-bir; tədbir zamanında yıxılıb düşdü. |
| 3.Saltanat kevkebesi taptı şikest<br>Xanlığım mertebesi boldı pest | 3.Səltənət ulduzu qırıldı; və xanlığımın mərtəbəsi aşağı düşdü. |
| 4.Ni üçün bolmayın imdi derviş<br>Ni üçün bolmayın imdi dil-riş | 4.İndi nə üçün dərviş olmayım; indi nə üçün könlü yaralı olmayım? |
| 5.Mundın özge manga niyyet yoktur<br>Mundın artuk manga himmet yoktur | 5.Bundan başqa niyyətim yoxdur; bundan başqa himmətim yoxdur. |
| 6.Şahlık imdi Şibani Xanğa<br>Xanlığ ol padişehi- devranğa | 6.Padşahlıq indi Şeybani xanadır; xanlıq yenə o dövranın padşahınadır. |
| 7.Yüz munung dik anga isar olsun<br>Kadehi nuşı- tarabdın tolsun | 7.Bunun kimi yüz (dənəsi) ona fəda olsun; və qədəhi əyləncə şərabıyla dolsun! |
| 8.Kim uruştum ise ol xan birle<br>Eyleben rezm anga can birle | 8. O Xanla vuruşdumsa; canımı ortaya qoyub onunla vuruşdumsa, |
| 9.Tüştüm irse kolığa lutf itti<br>Kirdim irse yolığa lutf itti | 9. Əlinə düşdümsə də, lütf etdi; və yoluna girdimsə də, lütf etdi. |
| 10.Manga bisyar tevazu' kıldı<br>Kopup ornıdın utru kildi | 10.Mənə bir çox təvazö göstərdi; və yerindən qalxıb irəli gəldi. |
| 11.Körüşüp yığladı ahvalımğa<br>Eyledi rahm yaman halımğa | 11.Görüşüb halıma ağladı; və pis halıma rəhm eylədi. |

| | |
|---|---|
| 1.Alaça xanğa takı kıldı kerem<br>Kıldı lutfı bile xursend anı hem | 1.Alaça xana da kərəm etdi; və onu da lütfüylə şad etdi. |
| 2.Aldı Kur'an u kasem yad itti<br>İkkimiz xatırnı şad itti | 2.Quranı aldı və and içdi; və ikimizin də könlünü şad etdi. |
| 3.Siz ikevni didi öltürmes-min<br>Kabili- tiğ ü ğazab körmes-min | 3. Dedi: “Sizin ikinizi öldürmərəm; qılınc və qəzəbi sizə layiq görmərəm”. |
| 4.Biz yamanlar anga kildük tuğyan<br>Ol karındaşlığın kıldı 'ayan | 4.Biz pislər ona qarşı baş qaldırdıq; o isə qardaşlığını göstərdi. |
| 5.Bilmegen-biz biz anıng etvarın<br>Bilmegen-biz biz anıng esrarın | 5.Biz onun ətvarını; və sirlərini bilməmişik. |
| 6.İmdi sultan ivide min xoş-dil<br>Dehrning kayğularıdın ğafil | 6.İndi könlü xoş və dünyanın qayğılarından; xəbərsiz olaraq Sultanın evindəyəm. |
| 7.Alaça xan takı ğamdın azad<br>Xannıng oğlı bile xurrem ü şad | 7.Alaça xan da qəmdən azad olmuş; Xanın oğlu ilə xürrəm və şad olmuş. |
| 8.Sizge bizlerdin eger kayğudur<br>Bilingiz kim kılur iş uşbudur | 8.Siz də bizlərdən nigaran isəniz; görüləcək işin bu olduğunu bilin. |
| 9.Kim mening oğlum ile bolğan ulus<br>Taşkend işikide tolğan ulus | 9.Mənim oğlum ilə birliktə olan xalq; və Daşkənd qapısına dolan xalq, |
| 10.Çıkıp Ahmed Big ile kitkenler<br>Moğolistan yerige yitkenler | 10. Çıxıb Əhməd bəy ilə gedənlər; və Moğolustana çatanlar, |
| 11.Siz yocunlarnı alıp kalğay-siz<br>Şadlık nevbetini çalğay-siz | 11.Siz bəy qızlarını alıb qalacaqsınız; və xoşbəxtlik təbilini çalacaqsınız. |

| | |
|---|---|
| 1.Bolğay-siz xan bile xiş ü peyvend<br>Boluban nisbeti birle xursend | 1.Xanla qohum-əqrəba olacaqsınız; və (bu) bağlılıqla xoşbəxt olacaqsınız. |
| 2.Küyev olğay takı sultanlar hem<br>Dostluknıng sözi olğay muhkem | 2.Sultanlar da damad olacaq; və dostluq sözü möhkəm olacaq. |
| 3.Bolsa bu tavr arada nisbetler<br>Xan u sultanlar ile vuslatlar | 3.Arada bu cür bağlılıqlar olsa; Xan və sultanlar bir-birinə qovuşsa, |
| 4.Sizge vü bizge hem ey Ka'beyi- can<br>Şayed olğay sebebi- emn ü eman | 4.Ey can Kəbəsi, bəlkə sizə və bizə də; əmniyyət və qorxusuzluq səbəb olar. |
| 5.Bendidin Tingri kerem kılsa necat<br>Niçe kün bolsa yene kaydı-hayat | 5.Tanrı bənddən (həbsdən) qurtulmağı nəsib etsə; və neçə gün daha həyatda olsam (ömrüm olsa), |
| 6.Niyyetim Ka'be sarı bar-maktur<br>Himmetim Tingrige yalbar-maktur | 6.Niyyətim Kəbəyə doğru getməkdir; və himmətim Tanrıya yalvarmaqdır. |
| 7.Uşbu mektub songıdın men hem<br>Kile-min xan bile şad u xurrem | 7.Elə bu məktubun arxasından mən də; Xanla şadü- xürrəm gələrəm. |
| 8.Xatıringizni perişan tutmang<br>Şahlık kayğusıdın kan yutmang | 8.Könlünüzü pərişan etməyin; və padşahlıq qayğısından üzülməyin. |
| 9.Bolmasak şahi gedayi bolalı<br>Ka'bening tigresige ivrüleli | 9. Olmazsa yoxsul bir padşah olaq; və Kəbə ətrafında dönək! |
| 10.Niteli yaxşı yaman soruğıdın<br>Fariğ olup kiçik ü uluğıdın | 10.Yaxşı pis məsələlərdən; və kiçik və böyük şeylərdən qurtulub, |
| 11.Çalalı 'ayş u tena"um kusını<br>İçeli çeşmeyi- Zemzem suyını | 11.Yemək, içmək təbilini çalaq; və Zəmzəm çeşməsinin suyunu içək! |

| | |
|---|---|
| 1.Koyalı başnı Medine yolığa<br>Bireli özni rızanıng yolığa | 1.Mədinə yoluna baş qoyaq və özümüzü; Allahın rizası yoluna qurban edək! |
| 2.Saltanat debdebesini kördük<br>Şahlık mertebesini kördük | 2.Səltənət dəbdəbəsini də gördük; padşahlıq mərtəbəsini də gördük. |
| 3.Fakrnıng haletini hem köreli<br>Xorlık lezzetini hem köreli | 3.Fakrın hallarını görək; və məlamət ləzzətini də dadaq! |
| 4.Körgüzeyin disengiz yüzümni<br>Özge kılmang bu digen sözümni | 4.Üzümü göstərim desəniz ;və bu söylədiyim sözümü qəbul etsəniz; |
| 5.Barğan ilçige söyünçi biringiz<br>Könglidin xarı- elemni tiringiz | 5.Gələn elçiyə müjdə verin; və könlündən ələm tikanlarını dərin! |
| 6.Ve's-selam imdi tükendi name<br>Ta ne yazğay yene miskin xame | 6.Vəssalam, indi məktub bitdi ;və miskin qələm daha nə yazacaq"? |
| **LIX**<br>**Xanike xanıng mektubı Taşkendğa yitip müte'allıkları tiriglik xaberidin sivüngenleri ve andağı Moğollar Xanike xan oğlı bile kitkenleri ve anası şehrde kalıp şehrni yocunlar bile teslim kılğanı** | **LIX**<br>**Xanikə xanın məktubunun Daşkəndə çatıb yaxınlarının sağlıq xəbərinə sevinmələri və oradakı moğolların Xanikə xanın oğlu ilə getmələri və anasının şəhərdə qalıb şəhəri cariyələri ilə təslim etməsi** |
| 7.Xanike xan xattın alıp ilçi<br>İrning ikki atın alıp ilçi | 7.Elçi, Xanikə xanın məktubunu; alıb iki ərin (əsgərin) atını, |
| 8.Yörüdi Xanikening xaylı sarı<br>Kim fiqar irdiler ol xaylı barı | 8.Xanikənin hamısı yaralı olan; adamlarına doğru hərəkət etdi. |

| | |
|---|---|
| 1.İlçidin burna xaber yitkendür<br>Andağı il özidin kitkendür | 1.Elçidən öncə xəbər çatmışdı; və oradakı xalq özündən getmişdi. |
| 2.Basturup kilgen uluslar bisyar<br>Yığlağandurlar xan xalığa zar | 2.Basqın edib gələn uluslar; Xanın halına çox ağlamışdılar. |
| 3.Tüşkenidin xaber itkendürler<br>İnisi sözige yitkendürler | 3.(Səltənət taxtından) düşdüyündən xəbər vermişdilər; və kiçik qardaşının sözünə uymuşdular. |
| 4.İli xannıng ğamıdın yığlap zar<br>Nevha-perdaz ikendür bisyar | 4.Xalqı, Xanın qəmindən ötrü inləyərək ağlamışdır; və çox fəryad etmişdir. |
| 5.Kim yetip ilçi sunuptur mektub<br>Asru ilçini körüptürler xub | 5.Gedib məktub verən elçini; çox gözəl görmüşdülər. |
| 6.Hanike xan sözi birle hasıl<br>Moğol ulusı boluptur mayil | 6.Qısası, Xanikə xanın sözü ilə; Moğol ulusu, meyil edibdir, |
| 7.Kim vatan sarı 'azimet eylep<br>Ni 'azimet ki hezimet eylep | 7.Vətənlərinə doğru yola çıxaraq; nə yola çıxmaq bəlkə də məğlub olaraq. |
| 8.Barça xan oğlı bile kitkeyler<br>Kitip Ahmed Big ile yitkeyler | 8.Hamısı Xan oğluyla gedəcəklər; və gedib Əhməd bəyə çatacaqlar. |
| 9.Barça hükmini kabul eylediler<br>Atınıng küçlükini sayladılar | 9.Hamısı hökmünü qəbul eylədilər; və soylu atanın gücünü təqdir etdilər. |
| 10.Çıktılar Ahmed ü xan oğlı revan<br>Songlarındın ulus eylep efğan | 10.Əhməd və xan oğlu dərhal yola çıxdılar; xalq da arxalarından fəryad edib, |
| 11.Kol tutuşup barısı tozdılar<br>Mundağı ivlerini bozdılar | 11.Əl-ələ tutaraq qaçdılar; və oradakı evlərini yıxdılar. |

| | |
|---|---|
| 1.Xannıng oğlı bile cem' oldılar<br>Derelerning içide toldılar | 1.Xanın oğlu ilə toplaşdılar ; və dərələrin içinə doldular. |
| 2.Kaldı xannıng anası şehr içide<br>Şehr yok badiyeyi- kahr içide | 2.Xanın anası qaldı şəhər içində; şəhər deyil, qəhr çölü içində. |
| 3.Kızlarını alıban olturdı<br>Ol belalarnı kazadın kördi | 3.Qızlarını alıb oturdu; və (başına gələn) o bəlaları qəza-qədərə bağladı. |
| 4.Şehrni xali itip çıktı Moğol<br>Muntazır il ki kaçan kilgey ol | 4.Moğol, şəhəri boşaldıb çıxdı; xalq da onlar nə zaman gələcək deyə gözləməkdə idi. |
| 5.Xan kulı hem il alurğa cazim<br>Boldılar ilçi songıdın 'azim | 5.Xanın adamları da ölkə almağa qərarlıydılar; və elçinin arxasından yola çıxdılar. |
| 6.Tağnıng yolı bile kildiler<br>Tağ yolını yakın bildiler | 6.Dağ yolundan gəldilər; və dağ yolunu yaxın bildilər. |
| 7.Kırdılar atnı yörüp ol yolda<br>Mingçe at kaldı anıng bir kolda | 7.O yolda yeriyib atları qırdılar; onun bir tərəfində minə qədər atı qaldı. |
| 8.Axsidin ikki konup yol aldı<br>Taşkend üstige nevbet çaldı | 8.Axsidə iki (gün) düşərgə salıb yol aldı; və Daşkənd üstünə növbət təbili çaldı. |
| 9.Özidin burna Timür Sultannı<br>Anga koşup niçe ming a'yannı | 9.Ondan öncə Timur Sultanı; və ona minlərlə əyanı qatıb, |
| 10.Cani Bigni hem anga hem-reh itip<br>Saltanatdın hem anı ageh itip | 10.Canı bəyi də ona həmrah edərək; səltənətdən də onu agah edərək, |
| 11.Taşkend üstige ılğatıp idi<br>Ol ikevge kişi köp katıp idi | 11. Daşkənd üstünə axın etmişdi; və o ikisinə çox adam qoşulmuşdu. |

| | |
|---|---|
| 1.Şehr bolğanda Moğoldın xali<br>Yar olup bu ikkininğ ikbali | 1.Şəhər, moğoldan boşalanda; bu ikisinin iqbalı yar olub, |
| 2.Taşkend üstiğe yitkendürler<br>Alıp ol ilni kitgendürler | 2.Daşkənd üstünə çatmışdılar; və o məmləkəti alaraq getmişdilər. |
| 3.Canı Big xan kızını alğandur<br>Barçadın kolnı burun salğandur | 3.Canı bəy, Xanın qızını almışdı; və əlini hər kəsdən öncə tutmuşdu. |
| 4.Singli bolğandur hüsn ile ğani<br>Şahzade Timür alğandur anı | 4.Kiçik bacısı çox gözəldi; və Şahzadə Timur onu almışdı. |
| 5.Olça malğa batkandurlar<br>Tınç xatır bile yatkandurlar | 5.Qənimət malına batmışdılar (əldə etmişdilər); və könlü rahat olaraq yatmışdılar. |
| 6.Uşbu haletde yitip kildi xan<br>Aferin kıldı anga ehli- cihan | 6.Elə bu halətdə ikən yetişib gəldi Xan; və onu alqışladı əhli-cahan (təqdir etdi). |
| 7.Ötken işlerni didiler katıda<br>Kıldılar şerh barın xıdmetide | 7.Hüzurunda keçən işləri danışdılar; və hamısını açıqladılar. |
| 8.Didiler kızlarıdın kaldı mu hiç<br>Kiltürüng bizge anı koymay kiç | 8.Qızlarından heç qaldımı (deyə soruşub); gec olmadan onu bizə gətirin, dedilər. |
| 9.Didiler barçasıdın zibarak<br>Hüsn ile barçasıdın ra'narak | 9.(Onlar) dedilər ki: Hamısından daha gözəl; və gözəllikdə hamısından daha lətif, |
| 10.Yaş bile dağı kiçikrek barıdın<br>Baxt ile barı biyikrek barıdın | 10. Hamısından yaşca daha kiçik olan; və bəxt baxımından da hamısından bəxtli olan, |
| 11.Bar imiş xanğa münasib mahi<br>O1 sanemler arasında şahi | 11.Xana münasib bir ay (kimi gözəl) var imiş; və o, sənəmlər arasında padşah imiş. |

| | |
|---|---|
| 1.Serv anıng kametidin şermende<br>Zülfige 'anberi- sara bende | 1.Sərv onun boyundan (şərməndə) utanacaq; zülfünə saf ənbər kölədir. |
| 2.Münfa'il közleridin ahuyı- Çin<br>İçi kan bağladı ğamdın miskin | 2.Çin ahusu onun gözlərindən münfail haldadır; və miskin içi qəmdən qan bağlamışdır. |
| 3.Çini- Moğol-çin ol irür 'alemde<br>Yoktur ol tavr beni ademde | 3.Aləmdə ən gözəl odur; və onun kimisi bəni-adəmdə yoxdur. |
| 4.Ne Xıta mülkide andak tapılur<br>Ne Xoten şehride ol nev' kilür | 4.Nə Xıta mülkündə onun təki tapılar; nə də Xotən şəhərində onun kimi biri var. |
| 5.Lu'beti- çin digening özidür<br>Sureti- çin digening özidür | 5.Çin oyuncağı deyilən odur; və Çin rəsmi (yenə) deyilən odur. |
| 6.Xan işitkeç bu sıfatlarnı revan<br>Kıldı mahrem kişilerge ferman. | 6.Xan bu vəsfləri eşidər-eşitməz; məhrəm şəxslərə belə fərman etdi: |
| 7.Kim uşol aynı alıp kilsünler<br>İvlenuri yarağın kılsunlar | 7.O ay kimi gözəli alıb gəlsinlər; və evlənmə hazırlığını görsünlər! |
| 8.Çün kitürdiler anı xan katıda<br>Kildi Belkis Süleyman katıda | 8.Onu Xanın hüzuruna gətirəndə; sanki Bilqeys Süleymanın hüzuruna gəlmiş oldu. |
| 9.Boldı xan hatib ü ol mahbube<br>Boldı xan rağıb u ol merğube | 9.Xan, xitab etdi, o isə xitab edilən oldu; Xan rəğbət etdi və o isə rəğbət edilən oldu. |
| 10.Kıldılar anı revan xanğa nikah<br>'İşret ü 'ayş sözi boldı mübah | 10.Onu dərhal Xana nikahladılar ;və eyş-işrət sözü mübah oldu. |
| 11.Çerx anıng kamığe ivrüldi yene<br>Özge bilmen ki niler boldı yene | 11.Fələk yenə onun arzusuna görə döndü;  daha bilmirəm ki, nələr oldu. |

| | |
|---|---|
| 1.Barça bigler takı xursend idiler<br>Her sarı talibi- peyvend idiler | 1.Bütün bəylər də sevinçli idilər; və hər tərəfə çatmağa istəkli idilər. |
| 2.Taptılar her biri bir canane<br>Tüzdiler her biri bir kaşane | 2.Hər biri tapdı bir cananə; və hər biri düzəltdi bir malikanə. |
| 3.Hiç kim kalmadı ol vakt kuruğ<br>Yok idi mal u kız alurğa soruğ | 3. O zaman heç kim malsız-mülksüz qalmadı; mal və qız almaq üçün soruşmağa gərək qalmadı. |
| 4.Battılar malğa leşker barça<br>Boldılar bay u tüvan-ger barça | 4.Əsgərin hamısı mala boğuldu; hamısı zəngin və güclü oldu. |
| 5.Aldılar çini vü fağfüri ayağ<br>Kıldılar badeyi- gülgunnı sorağ | 5.Çini və fağfuri qədəh aldılar; gül rəngli şərab haqqında danışdılar. |
| 6.İçtiler badeyi- gülgün bisyar<br>Taptılar dilberi- mevzun bisyar | 6.Bir çox gül rəngli şərab içdilər; və əndamlı bir çox gözəl tapdılar. |
| 7.Irğadılar barı xan devletidin<br>Yıradılar niçe kün himmetidin | 7.Hamısı Xan dövlətindən dolayı sevincdən nərə çəkdilər; və neçə gün onun himmətindən bəhs etdilər. |
| 8.Aldılar raxtı- Xıtayi- bi-had<br>Yok idi raxtı- Xitayiğa 'aded | 8.Hədsiz Xıtay parçası aldılar; və Xıtay parçasının sayı-hesabı yoxdu. |
| 9.Tiveler yüki bisyar aldılar<br>Yüklerining içige saldılar | 9.Bir çox dəvə yükü aldılar; və (onları) yüklərinin içinə qoydular. |
| 10.Ol yıpar ile bu kavm xoş-xuy<br>Kıldılar barça cihannı xoş-buy | 10.O misk elindən olan bu qövm gözəl xasiyyətli idi; bu səbəblə bütün cahanı gözəl qoxulu qıldılar. |
| 11.Ba`zı il kim bar idiler ayyar<br>Olçalarda bar idiler cerrar | 11.Hiyləgər olan bəzi adamlar; qənimət almaqda cərrardılar (davakar). |

| | |
|---|---|
| 1.Özni xannıng ivige saldılar<br>Bolğan altun kümüşin aldılar | 1.Özləri Xanın evinə girdilər;  var olan qızıl və gümüşü aldılar. |
| 2.Alaça xannıng ikki mahbubı<br>Kim alar irdi anıng matlubı | 2.Alaça xanın çox istədiyi; iki məhbubundan, |
| 3.Birisining atı Altun irdi<br>Alaça xan anga meftun irdi | 3.Birisinin adı Altun idi; və Alaça xan ona məftun idi. |
| 4.Kümüş irdi yene birining atı<br>Bar idi anga safayı- zatı | 4.Yenə birinin adı Gümüş idi; və o, zatına səfa verici idi. |
| 5.Aldılar ikkelesini etmam<br>Kıldılar ikkelesini bed-nam | 5.Hər ikisini birdən aldılar; və hər ikisini bədnam etdilər. |
| 6.Kümüş Altun digen uşbu irdi<br>Kim yokarı söz içige kirdi | 6.Yuxarıda sözü edilən; Gümüş və Altun deyilən bunlardı. |
| 7.Köp Moğolnıng sanemi tüşti esir<br>Boldılar ehli- ğına barça fakir | 7.Bir çox moğol sənəmi düşdü əsir ; və zəngin olan xalq oldu fəqir. |
| 8.Xanğa ‘arz eylediler kim leşker<br>Kıldı bu mülk ilini ebter | 8.Əsgərin bu ölkə xalqını; pis günə saldığını Xana ərz etdilər. |
| 9.Xalknıng yaxşılığı üçün xan<br>Kıldı ahengi- Semerkand revan | 9.Xan, xalqın yaxşılığı üçün; Səmərqəndə yeridi. |
| 10.Baktı rahmet bile ol kurğanğa<br>Birdi anı Cani Big Sultanğa | 10. O kurqana mərhəmətlə baxdı; və onu Canı Big Sultana verdi. |
| 11.Özi kurğan taşıda olturdı<br>Tigreside haşemini kördi | 11.Özü kurqanın kənarında oturdu; və maiyətinin ətrafında toplaşdığını gördü. |

| | |
|---|---|
| 1.Atlanıp Çır Suyudın ötkeç xan<br>Kildi sultan katıda xanı- zaman | 1.Xan, atlanıb Çır suyundan keçəndə;<br>Zamanın xanı Sultanın hüzuruna gəldi. |
| 2.Didi kim çarlatıngız xanlarnı<br>Yığıngız bigler ü oğlanlarnı | 2.Belə dedi: Xanları çağırın; bəyləri və oğlanları çağırın! |
| 3.Alıngız bendlerini fi'l-hal<br>Eylengiz bendlerini pamal | 3.Dərhal qalalarını alın; və onları yerlə bir edin! |
| 4.Xan bu sözlerni digeç sultanğa<br>Can Vefa bardı ol ikki xanğa | 4.Xan, bu sözləri Sultana deyəndə; Can Vəfa o iki xanın yanına çatdı. |
| 5.Ala kildi ol ikevni fi'l –hal<br>Aldılar kolga ikevni fi'l-hal | 5.Dərhal ikisini ələ keçirib; yanlarına o ikisini alaraq gəldilər. |
| 6.Kistürüp bendlerini sultan<br>Kılıban ikkelesini şadan | 6.Sultan bəndlərini (bağlarını) kəsdirərək; ikisini sevindirib, |
| 7.Bardı xanlar bile xan hazretiğa<br>Yettiler barçası xan xıdmetiğa | 7.Xanlarla Xanın hüzuruna gəldilər; və hamısı Xanın xidmətinə girdilər. |
| 8.Xan kılıp ol ikki xanğa ta` zim<br>Didi xatır ara kiltürmeng bim | 8.Xan, o iki xana hörmət göstərib dedi; "Ürəyinizə qorxu salmayın. |
| 9.Ğam yemeng mülk ü diyarıngız üçün<br>Bolmang aşufte bozuk kişver üçün | 9.Mülk və ölkəniz üçün qəm etməyin; və yıxılmış ölkə üçün pərişan olmayın! |
| 10.Köp munung dik il uluslar bozulur<br>Başıngız bolsa isen barça bolur | 10. Bunun kimi bir çox ölkə və uluslar yıxılar; əgər başınız sağ olsa, hamısı yenidən düzələr. |
| 11.Barıng imdi vatanıngız sarı<br>İv ilingiz takı barsun barı | 11.İndi siz ev və xalqınız ilə birlikdə; vətəninizə doğru gedin! |

| | |
|---|---|
| 1.Min Yuci oğlı-min ü siz ikki xan<br>Çağatay oğlı-sız olsun bu ‘ayan | 1.Mən Yuci övladıyam və siz iki xan (da); Cağatay övladısınız, bu açıqca bilinsin! |
| 2.Barımız bir ananıng oğlı-biz<br>Barçamıznıng atasıdur Cengiz | 2.Hamımız bir ananın övladıyıq; və hamımızın atası Çingizdir. |
| 3.Yuci Xan u Çağatay Xan hasıl<br>Sürgeli uşbu cihandın mahmil | 3.Yuci Xan da, Çağatay xan da; bu cahandan yüklərini alıb getdilər (öldülər). |
| 4.Bizing ü sizning ara bolmadı kan<br>Her kişi öz yiride boldı xan | 4.Bizim ilə sizin aranızda olmadı qan; hər kəs öz yerində oldu xan. |
| 5.İmdi hem bolğası yok kan arada<br>Bolğusı ‘ahd u vefa can arada | 5.İndi də arada olmayacaq qan; və aramızda olacaq əhd- vəfa (dostluq)və can. |
| 6.Alaça xan yörüsün ilgeri şad<br>Köçler muzlimesidin azad | 6.Alaça xan irəliyə şad şəkildə yerisin; və onun köçləri (karvanları) onun zülmlərindən azad şəkildə yerisin! |
| 7.Barıban il ulusığa yitsün<br>Yetiben kal‘aların birkitsün | 7.Gedərək ölkəsinə və xalqına çatsın; çataraq qalalarını möhkəm etsin! |
| 8.Siz uluğ xan songıdın atlanıngız<br>Köç birle yörüben katlanıngız | 8.Siz uca Xanın arxasından atlanın; və köçlə bərabər yeriyib əziyyətə qatlanın”! |
| 9.Uşbu sözler bile xanı- devran<br>Alaça xannı burun kıldı revan | 9.Zamanın xanı, elə bu sözlərlə; əvvəlcə Alaça xanı hərəkət etdirdi. |
| 10.Birdi bisyar anga at u yarağ<br>Kıldı in ‘am anga hasse baş ayağ | 10.Ona bir çox at və silah verdi; beləcə xüsusi olaraq baş və ayaq ənam etmiş oldu. |
| 11.Bir ikki kün Alaça xandın song<br>Xanike xannıng işi hem kilip ong | 11.Alaça xanın hərəkətindən bir iki gün sonra; Xanikə xanın işi də bəlli oldu. |

| | |
|---|---|
| 1.Taptı ruxsat ki müsafir bolğay<br>Moğolistanğa mücavir bolğay | 1.Səfər etməyə; və Moğolustana yerləşməyə icazə aldı. |
| 2.Anga hem kıldı ‘inayet bisyar<br>Anga hem merhametin kıldı yar | 2.(Xan)Ona da çox kömək etdi; və ona da mərhəmətini göstərdi. |
| 3.Tive vü at firavan birdi<br>Her yarağıdın anga ayırdı | 3.Bol dəvə və at verdi; hər mal və əşyadan ona da ayırdı. |
| 4.Yaxşılık birle uzattı anı<br>Eyledi merhamet sultannı | 4.Onu yaxşılıqla göndərdi; və Sultana mərhəmət etdi. |
| 5.Ol iki xannı uzatıp özi hem<br>Kildi öz taxtığa şad u xurrem | 5.O iki xanı göndərib; özü də şad və xürrəm taxtına gəldi. |
| 6.Hiç tarixde yoktur bu iş<br>Hiç defterde tapılmas bu sağış | 6.Bu iş tarixdə heç yoxdur; və heç bir dəftərdə tapılmaz bu hesab. |
| 7.Allah Allah ni mürüvvetdür bu<br>Allah Allah ni fütüvvetdür bu | 7.Allah Allah, nə mürüvvətdir bu; Allah Allah, nə fütuvvətdir bu (fədakarlıqdır). |
| 8.Yüz tümen rahmet anıng himmetığa<br>Yüz tümen rahmet anıng niyyetiğa | 8.Yüz minlərlə afərin onun himmətinə; yüz minlərlə afərin onun yaxşı niyyətinə |
| 9.Tingri maksudını hasıl kılsun<br>Yaxşılığı ileyige kilsün | 9.Tanrı onun istəyini hasil etsin; və etdiyi yaxşılıq qarşısına çıxsın! |
| **LX**<br>**Hazreti- İmamü’z-zaman tapuğıda Bakı Tarxan ilçi yiberip nusret-şi ‘ar leşker koşulğanı ve leşker Belx üstiğe barıp şahı- zamannı kaçurğanları ve müddeti Belxni kapal kılıp Xusrev şahnı derelerge kaçurup müraca’at kılğanları** | **LX**<br>**Zamanın İmamı həzrətləri hüzurunda Baki Tarxan elçi göndərib müzəffər əsgər sövq etməsi və əsgər Bəlx üstünə çatıb zamanın padşahını qaçırmaları və bir müddət Bəlxi mühasirə edib Xosrov şahı dərələrə qaçırıb geri qayıtmaları** |

| | |
|---|---|
| 1.Hazreti- Xanı- Şibani lakabım<br>Şahı- zi-şevketi- ‘ali nesebim | 1.Ləqəbim Şeybani xan həzrətləri; və nəsəbim uca şövkətli şahdır. |
| 2.Moğol endişesidin çün tındı<br>Özininig taxt-gehiğa yitti | 2.Moğol əndişəsindən qurtulunca; öz paytaxtına çatdı. |
| 3.Bir ikki ay ferağat kıldı<br>Ol Moğolçin bile kim aytıldı | 3.Daha əvvəl bəhs edilən o moğol gözəli ilə; bir-iki ay istirahətə çəkildi. |
| 4.Yene tüşti başığa bu sevda<br>Kim Hisar üstiğa salğay ğavğa | 4.Yenə Hisar üstünə savaş açmaq; sevdası ağlına gəldi. |
| 5.Atlanıp Karşı sarı kildi özi<br>Barı inileriğa bardı sözi | 5.Atlanaraq özü Karşı tərəfinə gəldi; və bu xəbər bütün kiçik qardaslarına çatdı. |
| 6.Cem ‘kıldı çirigini anda<br>Niçe kün tındı uşol kurğanda | 6.Qoşunu orada topladı; və neçə gün o kurqanda dincəldi. |
| 7.Kildi nagah birev kim Bakı<br>Padişeh bezmiğa boldı saki | 7.Qəflətən biri, yəni gəldi Baki; və padşah məclisinə oldu saqi. |
| 8.Didi yok özgelikim ol xandın<br>Kiçerem candın u kiçmen andın | 8.Dedi: “Ayrılığım yox o Xandan; ondan ayrılacağıma keçərəm candan. |
| 9.Ger bağışlar günehimni ol xan<br>Alur özige işimni sultan | 9.Əgər o Xan günahımı bağışlarsa; Sultana xidmət edərəm. |
| 10.Endxod kal‘asıdur pişkeşim<br>Uruşum ol ise bardur yaraşım | 10.Ona ərmağanım Endxod qalasıdır; və əgər vuruşarsam, faydam olar. |

| | |
|---|---|
| 1.Xan Hisar üstiğe ni tip baradur<br>Kim bu yan Belx ili yalbaradur | 1.Xan, Hisar üstünə nə deyə varacaqdır; bu tərəfdə isə Bəlx xalqı yalvaracaqdır. |
| 2.Alıban başnı kaçar mirzası<br>Andelibi kalur u ğavğası | 2.Mirzəsi başını alıb qaçar; amma bülbülü və davası qalar (gurultusu qalar). |
| 3.Xan sudın kiçse vü kilse bu sarı<br>Tozar uşbu sipeh ü xayl barı | 3.Xan, sudan keçsə və buraya gəlsə; bu əsgər və xalq hamısı qaçar. |
| 4.‘Andelibi kim irür xatunı<br>Sebebi- hurmeti yaxşı üni | 4.Xatunu olan bülbülünə; hörmətinin səbəbi gözəl səsidir. |
| 5.Bar mirzası atı Şahı- zaman<br>Lik bisyar irür lü’li-san | 5.Mirzəsi vardır, adı Şahı-Zaman; fəqət çox incisi vardır. |
| 6.Uşbu mirzanı kaçurğaç mundın<br>Anı ayırğaç yaxşı ündin | 6.Elə bu Mirzəni buradan qaçıranda; və onu gözəl səsindən ayıranda, |
| 7.Endxod birle Şuburğan alınur<br>Belx ü Murğab u Xorasan alınur | 7.Endxod ilə Şuburğan alınar; Bəlx, Murğab və Xorasan alınar. |
| 8.Belx feth olsa ne dir Xusrev Şah<br>Xanğa çaker bolur u devlet-xah | 8.Bəlx fəth edilərsə, Xosrov şah nə deyər; Xana kölə və dövlətinə duaçı olar”. |
| 9.Bakı Tarxandın bu söz kilgeç<br>Xan anıng rastlığını bilgeç | 9.Baki Tarxandan bu söz (xəbər) gəlincə; və Xan onun doğruluğunu bilincə, |
| 10.Belx üstige yörür boldı revan<br>Barçağa ol sarı aylandı ‘inan | 10.Bəlx üstünə yeridi; və hər kəs o tərəfə yüyən çevirdi. |
| 11.Bakığa yazdı nişani fi‘l-hal<br>Kim sanga bolğusı yaver ikbal | 11.Bakiyə “İqbal sənə yar olacaqdır”; deyə dərhal fərman yazdı: |

| | |
|---|---|
| 1.Tınç bol kim günehingdin öttüm<br>Sin digen yol sarı yolçı tuttum | 1.”Rahat ol, çünki günahından keçdim (bağışladım); sənin dediyin yola doğru bələdçi tutdum. |
| 2.Sanga bisyar kerem kılğumdur<br>Sini sivmeske sitem kılğumdur | 2.Sənə bir çox comərdlik edəcəyəm; və səni sevməyənə zülm edəcəyəm”. |
| 3.Çün nişan Bakiğa irsal itti<br>Kilgen ilçisini xoşhal itti | 3.Bu fərman, Bakiyə göndərildiyi vaxt; gələn elçisini sevindirdi. |
| 4.Özi ilçi songıça boldı revan<br>Kildi Kerki güzerige ol xan | 4.Özü elçinin arxasından yeridi; və Xan, Kərki keçidinə gəldi. |
| 5.Kimelerni yörüte başladılar<br>Yüklerini kimege taşladılar | 5.Gəmiləri hərəkət etdirdilər; və yüklərini gəmiyə qoydular. |
| 6.Barçadın burna Sultan Mahmud<br>Ötti deryadın boldı xoşnud | 6., Hamısından əvvəl Sultan Mahmud; dəryadan keçdi, oldu xoşnud. |
| 7.Ötti anıng songıdın hazreti-xan<br>Hazreti- xan u Süleymanı-zaman | 7.Onun arxasından keçdi həzrəti- Xan ; yəni bu zamandakı Süleyman. |
| 8.Yetti kün anda öte kaldı çirig<br>Bahrnı himmetidin aldı çirig | 8.Oranı yeddi gündə səylə keçdi əsgər;dəryanı himməti ilə aldı əsgər. |
| 9.Boldı sal astıda pinhan Ceyhun<br>Bolmadı hiç nümayan Ceyhun | 9. Sal altında gizləndi Ceyhun; və heç görünmədi Ceyhun. |
| 10.Hamza Sultan u Timür Sultan hem<br>Öttiler Baki işidin xurrem | 10.Həmzə Sultan və Timur Sultan həm; Bakinin işindən keçdilər xürrəm. |
| 11.Kerki kurğanığa yitkeç ol xan<br>Kıldı Bakiğa Urus Big’ni revan | 11.O Xan Kərki kurqanına çatanda; Bakiyə Urus bəyi göndərdi. |

| | |
|---|---|
| 1.Bardı anıng bile Kanber Biy hem<br>Endxod kal‘ası sarı bi-ğam | 1.Onunla birliktə Qənbər bəy də;<br>Endxod qalasına doğru rahatlıqla çatdı. |
| 2.Yitip ol ikki dilaver fi‘l-hal<br>Kördiler Baki’ni bi-fikr ü melal | 2.O iki igid dərhal çatıb; Bakini<br>əndişəsiz və üzüntüsüz gördülər. |
| 3.Kildi Baki hem alar birle revan<br>Hem-rehi bir ikki ahmak tarxan | 3.Baki də onlarla birliktə gəldi rəvan;<br>yoldaşı idi bir-iki axmaq tarxan . |
| 4.Xaberi bu ki işitkeç xannı<br>Leşkeri birle bölek Sultannı | 4.Xəbəri bu ki eşitcək xanı; bir bölük<br>əsgərlə Sultanın gəldiyini. |
| 5.Tura almay yörüdi Şahı-zaman<br>Atasığa yiberip ah u fiğan | 5.Şahı-zaman atasına ah-fəğan;<br>göndərərək dayanmadan yeridi. |
| 6.Seyyidi bar idi Ca‘fer atlık<br>Özi Seyyid Atağa nisbetlık | 6.Cəfər adlı bir Seyyid var idi; özü də<br>Seyyid Ataya mənsub idi. |
| 7.Asru derviş ü müselman-pişe<br>Asru serdar u bülend-endişe | 7.Çox dərviş və müsəlman təbiətli; çox<br>igid və yüksək düşüncəli idi. |
| 8.Didiler xanğa hevadardur ol<br>İrtedin xanlar ile yardur ol | 8.Dedilər ki:  “Xana vəfadardır o;<br>öncədən xanlara yardır o. |
| 9.Öltürüp anı yörüdi mirza<br>Salıban Belx içige ğavğa | 9.Mirzə, Bəlx içinə dava salıb; onu<br>öldürərək yeridi. |
| 10.Yene altı bigini hem kırmış<br>Kim bular dağı Seyyidge kirmiş | 10.Yenə, Seyyidə tabe olmuş; bu altı<br>bəyini də öldürmüş. |
| 11.Çünki Seyyid bile bigler öldi<br>Bizge ol tayifedin vehm oldı | 11.Seyyid ilə bəylər öldüyü üçün; o<br>tayfadan biz də qorxduq. |

| | |
|---|---|
| 1.İmdi Belx içre irür Sultan Big<br>Atı Sultan u özi nadan big | 1. İndi Bəlxdədir Sultan bəy; adı Sultandır, amma özü nadan bəy". |
| 2.Bu xaberlerni aytğaç Tarxan<br>Boldı aşufte bu sözlerdin xan | 2. Bu xəbərləri söylədikdə Tarxan; bu sözlərdən narahat oldu Xan. |
| 3.Didi Seyyid bizing üçün öldi<br>İmdi bizlerge zaruret boldı | 3.Dedi ki: "Seyyid bizim üçün öldü; və indi bu, sizlər üçün zərurət oldu. |
| 4.Ki tilep kanını rezm itkey-biz<br>Rezm iter ‘azmını cezm itkey-biz | 4.Qanını istəyib vuruşacağıq; savaşmaq qərarını verəcəyik". |
| 5.Bardı uşbu söz ile Belx sarı<br>Çirigi yek-dil ü yek-ray barı | 5.Elə bu sözlə Bəlxə doğru getdi; əsgərinin hamısı ürəkli və yekrəy idi. |
| 6.Belx kurğanığa yitkeç leşker<br>Tam u taşığa yapuştı leşker | 6.Əsgər Bəlx kurqanına çatanda; dam - daşlarında gizləndilər (özlərinə onları sipər etdilər). |
| 7.Tam ile taşını pest eylediler<br>Kal‘a devride nisbet eylediler | 7.Dam-daşlarını yerlə bir etdilər; və qalanın ətrafını dövrəyə aldılar. |
| 8.İli hem köp idi kurğan içide<br>Barçasınıng elemi can içide | 8.Kurqan içində xalqı da çox idi; və hamısının canında ələm çox idi. |
| 9.Kal‘asını kapap olturdılar<br>Mal alurnı yarağ kördiler | 9.Qalalarını mühasirə edib oturdular; və mal almağı yararlı gördülər. |
| 10.Yurtavul rast Xorasan bardı<br>İş kılıp asru nümayan bardı | 10.Süvari, Xorasana getdi; və bir çox iş görərək getdi. |
| 11.Belx ü Murğab u Xorasan itekin<br>Merv ayağı bile Mahan itekin | 11.Bəlx, Murğab və Xorasan kənarını; Mərv ayağı ilə Mahan kənarını, |

| | |
|---|---|
| 1.Kıldılar at bile koydın xali<br>Kalmadı hiç kişining malı | 1.At və qoyun (lar) dan boşaltdılar; və heç kimin malı qalmadı. |
| 2.Barçası xan kolıga tüşti tamam<br>Boldı bayrı iyesi malı- haram | 2.Hamısı bütünlüklə Xanın əlinə keçdi; və o malların əvvəlki sahibləri məhrum oldular. |
| 3.Yurtavul çün yığılıp kildiler<br>Kılur işlerni kılıp kildiler | 3.Süvarilər, görülməli işləri görüb; toplaşaraq gəldilər. |
| 4.İl didi kim nidür imdi turuş<br>Uşbu kurğanğa münasibtür uruş | 4.Xalq, "İndi gözləmək nədəndir?; Bu kurqana savaş münasibdir." dedi. |
| 5.Xan didi Şahı-zaman çıkmış özi<br>Atasığa yetip irkin bu sözi | 5.Xan dedi : "Şahı-zaman özü çıxmış; bu xəbər hər halda atasına çatmış. |
| 6.Atası ağası inileri hem<br>Kılıban 'ahdlarını muhkem | 6.Atası, böyük və kiçik qardasları da; andlarını möhkəm etdilər. |
| 7.Sözleşip ol sarı Zü'n-nun birle<br>Közleşip bir niçe Arğun birle | 7.O tərəfdə Zünnun ilə danışdılar; bir çox arğun ilə görüşdülər. |
| 8.Bu sarı dağı turur Xusrev Şah<br>Kiçe vü kündüz alardın agah | 8.Xosrov şah da bu tərəfdədir; və gecə-gündüz onlardan xəbərdardır. |
| 9.Barça şayed yığılıp kilgeyler<br>İş yarağını kılıp kilgeyler | 9.Şayəd hamısı toplaşaraq gələcəklər; işin vacibini görüb gələcəklər. |
| 10.Biz bu kurğanğa uruşsaz itsek<br>Uruş itmek sözin ağaz itsek | 10.Biz bu kurqana savaş açsaq; və savaşmaq sözünə başlasaq, |
| 11.Kişimizning köpi bolur yaralığ<br>Xalk başığa ökülür yaralığ | 11.Adamlarımızın çoxu yaralanar; və yaralı xalq başına toplanar. |

| | |
|---|---|
| 1.Uşbu kurğannı kapap olturalı<br>Köçlerni yiberip kiltüreli | 1.Bu kurqanı mühasirə edərək oturaq; və köçləri (karvanları) göndərib gətirək! |
| 2.Her kişi kilse körelik anı<br>Xasmlık kılsa kılalıng fani | 2.Kim gəlsə, onu görək; və düşmənlik etsə, onu yox edək"! |
| 3.Xan bu söz birle Semerkand sarı<br>Şehri- pür-miveyi- pür-kand sarı | 3.Xan bu söz üzərinə Səmərqəndə doğru; yəni meyvə və şəkər dolu şəhərə doğru, |
| 4.İlçiler köçi üçün kıldı revan<br>Belxni kıldı vatan hazreti-xan | 4.Elçilər köçü üçün yeridi; və Xan həzrətləri Bəlxi vətən eylədi. |
| 5.Niçe kim şahı- cihandar Hüseyn<br>Tüzdi oğlanları birle şer ü şeyn | 5.Şahı-cahandar Hüseyn; oğlanları ilə şər və pislik hazırlayanda, |
| 6.Barça bir yirge kile almadılar<br>Ol digen dik yığıla almadılar | 6.Hamısı bir yerə gələ bilmədilər; və deyildiyi kimi yığıla bilmədilər. |
| 7.‘Akıbet Şahı- zamanı- biçare<br>Boluban boldı yırak avare | 7.Nəhayət, Şahı-zaman biçarə; uzaqlaşıb qaldı avarə |
| 8.Ol xaberlerni tapıp Xusrev Şah<br>Eyledi vehm ki ol xan nagah | 8.Xosrov şah o xəbərləri alanda; qorxdu ki, o Xan qəflətən, |
| 9.Anıng üstige yörüben barğay<br>Kişver ü mülklerin axtarğay | 9.Onun üstünə yeriyəcək; ölkəsini və mülklərini alt-üst edəcək . |
| 10.Vehmdin ilçi yiberdi xanğa<br>Kim boyun sundum min fermanğa | 10.Qorxudan, mən fərmana boyun əydim deyə; Xana elçi göndərdi. |
| 11.Xutbe vü sikke kılıp xan atığa<br>Yüz tümen mal birip hazretiğa | 11.Xan adına xütbə (oxudub), sikkə basdıraraq; hüzuruna yüz minlərlə mal göndərdi. |

| | |
|---|---|
| 1.İllerin tağlar içre kapatıp<br>Özi kurğan içide zar yatıp | 1.Xalqını dağlarda gizləyərək; və özü kurqanda ağlayıb duraraq, |
| 2.Hazreti- xan bile körgüzdi nifak<br>Tüzdi Belxiler ile mihr ü vifak | 2.Xan həzrətlərinə nifaq göstərdi; və bəlxlilər ilə razılaşdı. |
| 3.Xanğa çün ol işi ma'lum oldı<br>Yaşurun sözleri mefhum oldı | 3.Onun bu işi Xan tərəfindən bilinəndə; gizli sözləri aşkar oldu. |
| 4.Anıng işini kingeşip koydı<br>Köngli içre tirisini soydı | 4.Onun işini məşvərət etdi; və könlündə (içində) dərisini üzdü (könlündən o düşüncəni keçirdi). |
| 5.Angaça köçleri hem kildi<br>Gülşeni- vasl ara gül açıldı | 5.O zamana qədər karvanları da gəldi; və vəsl gülşənində gül açıldı. |
| 6.Angaça ötüp idi törtinç ay<br>Kış idi savuk u kahrı- Xuday | 6.O zamana qədər dörd ay keçmiş idi; və Allahın qəhri idi, soyuq idi, qış idi. |
| 7.Taşkend ilçisi hem kilip idi<br>Andağı sözni beyan kılıp idi | 7.Daşkənd elçisi də gəlmişdi; və oradakı sözü bildirmişdi. |
| 8.Ol idi söz ki bu yan ötkeç xan<br>Eyledi Tenbeli- nadan tuğyan | 8.Belə söylədi: "Xan bu yana keçəndə; cahil Tənbəl çılğınlıq etdi. |
| 9.Anga bisyar Moğol cem' oldı<br>Taşkend ol Moğolıdın toldı | 9.Ətrafında çox moğol toplandı; və o moğollarla Daşkənd doldu. |
| 10.Tire kıldı Cani Bik Sultannı<br>Kapadı kal'ada andak xannı | 10.Canı Big Sultanın gününi qara etdi; və elə bir Xanı qalaya həbs etdi". |
| 11.Uşbu sözlerni sema' itkeç xan<br>Kıldı ferman ki Süyünçek Sultan | 11.Xan bu sözləri eşidəndə; belə fərman buyurdu: "Süyünçək Sultan, |

| | |
|---|---|
| 1.Meded olsun Canı Bik Sultanğa<br>Yanıban barsun Türküstanğa | 1.Canı bəy Sultana kömək etsin; və qayıdıb Türküstana getsin"! |
| 2.Didi anıng songıdın olça vü mal<br>Eylesün Özbek ivin mal-a-mal | 2.Dedi:"Onun arxasından qənimət və mal ilə; Özbək evini ağzına qədər doldursun! |
| 3.Köçler hem barı yansun mundın<br>Öz diyarı sarı yansun mundın | 3.Karvanlar da hamısı buradan geri qayıtsınlar; və buradan öz diyarına doğru yönəlsinlər"! |
| 4.Ötkerip barçasını deryadın<br>Kılıban barçağa iş irşadın | 4.Hamısını dəryadan keçirərək; hamısına işin doğru yolunu göstərərək, |
| 5.Yanmak oldı özi Kunduz birle<br>Boldı daim sözi Kunduz birle | 5.Özü Kunduza qayıtdı; və daima Kunduzun sözünü etdi. |
| 6.Atlanurdın bir iki kün burna<br>Köç iterdin bir iki kün burna | 6.Atlanmadan bir-iki gün əvvəl; və köç etmədən bir-iki gün əvvəl, |
| 7.Mingçe nadan çıkıban kurğandın<br>Kiçiben barçası baş u candın | 7.Kurqandan hamısı baş və canlarından vaz keçmiş; minə qədər cahil çıxaraq, |
| 8.Hamza Sultanğa kemin eylediler<br>Ol müselmanğa kemin eylediler | 8.Həmzə Sultan üçün pusqu qurdular; o müsəlmana pusquya yatdılar. |
| 9.Ol dağı boldı bulardın agah<br>Ol dağı tuttı alarğa seri- rah | 9.O da bunlardan agah oldu; və o da onlar üçün bir tədbir aldı. |
| 10.Kal'a birle aralap aldı barın<br>Kara tün u karalap aldı barın | 10.Hamısını qaladan ayırıb aldı; və qara gecədə hamısını qaraldıb aldı. |
| 11.Bolmadı bir kişi azad anda<br>Kem bolur beyle küşiş devranda | 11.Orada bir nəfər belə qurtula bilmədi; dünyada belə iş görülmədi. |

| | |
|---|---|
| 1.Çün bu iş boldı, revan hazreti-xan<br>Atlanıp tuttı tarikı- Bağlan | 1.Xan həzrətləri bu iş olduqda; atlanaraq Bağlan yolunu tutdu. |
| 2.Kildi Kunduz bile Bağlan sarı<br>Basa Kunduzdın Talkan sarı | 2.Kunduzla Bağlan tərəfinə gəldi; bir çoxu da Kunduzdan Talkan tərəfinə gəldi. |
| 3.Angaça kaçıp idi Xusrev Şah<br>Boluban xan kilişidin agah | 3. O zamana qədər qaçmışdı Xosrov şah; Xanın gəldiyindın olaraq agah. |
| 4.Yitkürüp irdi kurğanğa özin<br>Andağı muhkem kurğanğa sözin | 4.Özünü kurqana çatdırmışdı; o möhkəm kurqana sözünü çatdırmışdı. |
| 5.Xan Bedaxşanğa songıça bardı<br>Andın özge cılavın kaytardı | 5.Xan, arxasından Bədəxşana çatdı; və ondan sonra başqa yerə atının başını çevirdi. |
| 6.Kiçti ol yirde tokuz taremdin<br>Tınmadı leşkeri kar u yamdın | 6.Orada doqquz kümbəzdən keçdi; və əsgəri qardan və sudan təsirlənmədi. |
| 7.Kar uluğ tüşti 'acayib ol vakt<br>İlge yüzlendi nevayib ol vakt | 7. O əsnada əcaib çox qar yağdı; və xalq müsibətlərə uğradı. |
| 8.Kırk kün kar yağa kaldı tamam<br>Kar idi her sarı köz tüşse müdam | 8.Qırx gün boyunca qar yağdı tamam; gözün gördüyü hər yer qar oldu müdam. |
| 9.Bir sarı bahr u Bedaxşan savuğı<br>Bir sarı kar u kuhistan savuğı | 9.Bir tərəfdə bahar və Bədəxşan soyuğu vardı; bir tərəfdə də qar və dağ soyuğu vardı. |
| 10.Yoldağı birgine at sokmağı<br>Ol dağı muz bile közgü çağı | 10.Yoldakı tək at keçidi də; buzla ayna kimi idi. |
| 11.Kimning atı ki tayıldı andın<br>Tüşti derya ara kiçti candın | 11.Kimin atı oradan sürüşdüsə; dəryaya yuvarlandı və canından oldu. |

| | |
|---|---|
| 1.Savuk andak idi vü yol andak<br>Kar andak idi vü öl andak | 1.Soyuq və yolun vəziyyəti beləydi;<br>qarın və nəmin vəziyyəti beləydi. |
| 2.Çirigni alıp ozdı andın<br>Xasmğa 'arbede tüzdi andın | 2.Qoşunu alıb oradan keçdi; və<br>düşmənlə ondan sonra davaya girdi. |
| 3.Tağ ara malların çapturdı<br>Xasmnı iç ikige sapturdı | 3.Dağda mallarını ələ keçirdi; və<br>düşməni aclıq və xəstəliyə saldı. |
| 4.Kimni kim tonadı leşker anda<br>Buyukup öldi yekser anda | 4.Əsgər kimi soydusa; hamısı orada<br>donub öldü. |
| 5.Köp ulus ol kilişide boldı<br>Boldı ni sözdür köpi öldi | 5. O gəlişdə bir çox xalq vardı; vardı<br>nə demək, hamısı öldü. |
| 6.Lik leşker barısı emn ü eman<br>Kildiler ivleri sarı şadan | 6.Lakin əsgərlər əmniyyətdə; evlərinə<br>doğru şad gəldilər. |
| 7.Xan yene taxtı üze tuttı makam<br>Eyledi Tenbeli- nadanğa peyam | 7.Xan yenə taxtına yerləşdi; və cahil<br>Tənbələ xəbər yolladı. |
| 8.Ol dağı xan yanışın çün bildi<br>Barıp öz yerini menzil kıldı | 8.O da Xanın geri döndüyünü bildiyi<br>üçün; gedib öz yerində mənzil etdi. |
| 9.Şad boldı Canı Big Sultan hem<br>Taşkend ili hem oldı xurrem | 9.Canı Big Sultan da sevindi ;və<br>Daşkənd xalqı da şad oldu. |
| **LXI**<br>**Tenbelning muxalefetidin ğazabnak bolup İmamü'z-zaman Andicanğa çirig tartkanı** | **LXI**<br>**Tənbəlin müxalifətindən hiddətlənib İmamü'z-zamanın Əndicana əsgər sövq etməsi** |

| | |
|---|---|
| 1.Belxdin çün kaytıp kildi xan<br>Bardı öz kişverige her sultan | 1.Xan, Bəlxdən geri dönüb gəldiyi zaman; öz ölkəsinə getdi hər sultan. |
| 2.Tındı bolğay çirig atı iki ay<br>Kim yene xanı- memalik-aray | 2.Əsgərin atı iki ay dincələr-dincəlməz; ölkələrə nizam verən Xan, |
| 3.Tenbel üstige yörür boldı bat<br>Yarlığı leşker ara toldı bat | 3.Dərhal Tənbəl üstünə yeriməyə başladı ;və buyruğu əsgərə yayıldı. |
| 4.Bu 'azimet bile atlanğaç xan<br>Xanı- afak u Süleymanı- zaman | 4.Xan, bu qərarla atlananda; üfüqlərin xanı və zamanın Süleymanı, |
| 5.Didi sultanı- mu'azzam Mahmud<br>Belki kaanı- mükerrem Mahmud | 5. Dedi : “Uca Bilgə Sultan Mahmud; Bəlkə kağani- mükərrəm Mahmud, |
| 6.Leşkeri birle yığılsun Keşde<br>0l kılur işni bilsün Keşde | 6. Əsgəriylə Keşdə yığılsın; və Keşdə görüləcək işi bilsin! |
| 7.Andicanğa çikeli biz leşker<br>Tüzeli ol sarı ahengi- sefer | 7.Əndicana əsgər çəkək ;və o tərəfə səfər edək! |
| 8.Tapsa kıstak bu yandın Tenbel<br>Bolğusıdur işi asru mühmel | 8.Tənbəl bu yandan bir təzyiqə uğrasa; işi çox geri qalmış olar. |
| 9.Her sarı ilçileri barğusıdur<br>Tartıban boğzını yalbarğusıdur | 9.Elçiləri hər tərəfə çatacaqdır; boyunlarını uzadıb yalvaracaqdır. |
| 10.Anga yar olğusıdur Xusrev Şah<br>Bolğusıdur bu tarafdın agah | 10. Xosrov Şah ona dost olacaqdır; və bu tərəfdən xəbərdar olacaqdır. |
| 11.İmdi sultan anga utru tursun<br>Nevbeti- devletin anda ursun | 11.Sultan indi onun qarşısında dursun; və dövlətin növbət təbilini orada vursun (dövlət iqtidarını orada göstərsin). |

| | |
|---|---|
| 1.Oğlı bolsun bu çirigde hem-rah<br>Rezmning işidin olsun agah | 1.Oğlu da əsgərə həmrah olsun; və savaş işindən agah olsun"! |
| 2.Uşbu yarlığ bile Şehzade 'Ubeyd<br>Bardı vü kıldı besi ilni sayd | 2.Şahzadə Übeyd bu fərman ilə gəldi; və bir çox xalqı ovladı. |
| 3.Kaldı sultan atası leşkerdin<br>Hiç bilmey bayağı kişverdin | 3.Sultan, atasının əsgərindən ayrıldı; və ölkənin əvvəlki vəziyyətindən heç bir şey bilmədi. |
| 4.Xan köngül tınç kılıp atlandı<br>Tenbel öltürmek üçün katlandı | 4.Xan, könül rahatlığıyla atlandı; və Tənbəli öldürmək üçün qatlandı. |
| 5.Xan bile bardı Timür Sultan hem<br>Şad anıng körmeki birle xan hem | 5.Xanla bərabər Timur Sultan da var idı; və Xan onu görməkdən şad idi. |
| 6.Hamza Sultan takı hemdem boldı<br>Xasm işitip anı der-hem boldı | 6.Həmzə Sultan da yoldaş oldu; və düşmən bunu eşidib müztərib oldu. |
| 7.Çün Xocend üstiğe yetti leşker<br>Toldı xan leşkeridin ol kişver | 7. Əsgər, Xocənd üstünə yetişəndə; o ölkə Xanın əsgəriylə doldu. |
| 8.Kildiler anda kılıban cevelan<br>Canı Big birle Süyünçek Sultan | 8.Canı bəy ilə Süyünçek Sultan; oraya gəldilər, edərək cövlan. |
| 9.Aldı xan anda çirigning songını<br>Kördi anda solını vü ongını | 9.Xan burada əsgəri sonuna qədər təqib etdi; o zaman sol və sağının vəziyyətini gördü. |
| 10.Merğınan şehriğa yetti andın<br>Xasm könglini iritti andın | 10.Oradan Merğınan şəhərinə çatdı; və o səbəblə düşmənin ürəyini əritdi. |
| 11.Merğınan Oşğa irdi sani<br>Muhkem eylep idi Tenbel anı | 11.Merğınan Oşa görə ikinci dərəcədə bir yerdi; və Tənbəl onu möhkəm eyləmişdi. |

| | |
|---|---|
| 1.Bir inisi bile ming çağlı kişi<br>Kim celadet idi barınıng işi | 1.Bir kiçik qardaşıyla min cəsur adamı; ki, hamısının işi igidlik göstərmək idi. |
| 2.Merğınan içige salıp irdi<br>Andağı il sanın alıp irdi | 2.Merğınan içinə göndərmişdi; və oradakı xalqın sayını öyrənmişdi. |
| 3.Xatırın cem' itip idi andın<br>Köngli bes tınç idi ol kurğandın | 3. O səbəblə könlünü toplamışdı (bir əndişəsi yoxdu); və o kurqandan yana könlü çox rahatdı. |
| 4.Kilgeç ol şehrğa xanı- a'zam<br>Kördi ol kal'anı andak muhkem | 4.Uca Xan o şəhərə gələndə; qalanı belə çox möhkəm gördü. |
| 5.Didi bu şehrni alıp öteli<br>Munga bir zelzele salıp öteli | 5. Dedi: Bu şəhəri alıb keçək; buraya zəlzələ salıb keçək. |
| 6.Hamza Sultan didi iş ilgeridür<br>Xasm birle igeriş ilgeridür | 6.Həmzə Sultan dedi ki: “Əvvəlcə ediləcək şey; düşməni mühasirə etməkdir. |
| 7.Yigitingizni munga imgetmerig<br>Oklaringıznı bularğa atmang | 7.İgidlərinizi bunun üçün əziyyətə salmayın; və oxlarınızı bunlara atmayın! |
| 8.Tenbel uruş yarağın eyleptür<br>Uruşur dik Moğolın saylaptur | 8.Tənbəl savaş hazırlığını görmüşdür; və davakar moğol adamlarını seçmişdir”. |
| 9.Uşbu söz arasıda kildi xaber<br>Kim yığar boldı Tenbel leşker | 9.Bu söz üzərinə Tənbəlin; əsgər topladığı xəbəri gəldi. |
| 10.Xan bile rezm kılur-min diydür<br>Xanğa min utru kilür-min diydür | 10.Demiş ki,”Xanla vuruşaram; və mən Xana qarşı çıxaram, |
| 11.Bar Moğoldın çirigim otuz ming<br>Andican ili bile min yüz ming | 11.Moğoldan otuz min əsgərim var; Əndican xalqı ilə birlikdə yüz min əsgərim var. |

| | |
|---|---|
| 1.Hiç kimdin manga vehmi yoktur<br>Leşkerim birle könglüm toktur | 1.Mənim heç kimdən bir qorxum yoxdur; və əsgərimlə könlüm toxdur" (əsgərimə güvənirəm). |
| 2.Çün bu söz Hazreti- Xanğa yetti<br>Bir kingeşçi nökeri ayıttı | 2.Bu söz Xan Həzrətlərinə çatanda; bir müşaviri belə dedi: |
| 3.Kim yığılğunça bu yerde Tenbel<br>Biz anıng işin iter-biz mühmel | 3."Tənbəl burada toplanana qədər; biz onun işini bitirərik". |
| 4.Xan didi bu ni hikayet bolğay<br>Ni hikayet ni rivayet bolğay | 4.Xan dedi: "Bu necə hadisə, hekayət olacaq; bu necə rəvayət olacaq, |
| 5.Tenbel öz leşkerini cem' itsün<br>Birkitür bolsa özin birkitsün | 5.Tənbəl öz əsgərini toplasın; əgər bərkidəcək olsa, özünü bərkitsin! |
| 6.Dimegey song kişi kilmeydür idi<br>Çirigim barça yığılmaydur idi | 6.Sonra kimsə gəlmədi deməsin ; və əsgərim toplanmadı, deməsin! |
| 7.Çirigin yığsun fursat bireli<br>Ol yığındın song alarnı tireli | 7.Fürsət verək əsgərini toplasın; və toplandıqdan sonra (da) onları ələ keçirək"! |
| 8.Xan bu söz birle tevakkuf kıldı<br>Merğınanda çirigini bildi | 8.Xan bu söz üzərinə gözlədi; və əsgəri Merğınanda bildi. |
| 9.Andın akrınlık ile atlandı<br>Akrın akrın yörüy ok katlandı | 9.Ondan sonra yavaşca atlandı; və yavaş-yavaş yürüyüb çox əziyyətə qatlandı. |
| 10.Andican kal'asığa kildi yavuk<br>Xasmnıng yığınını bildi yavuk | 10.Əndican qalasına yaxınlaşdı; və düşmən əsgərinin yaxın olduğunu bildi. |
| 11.Körüp ol xan kilişin Tenbel hem<br>Kal'asıdın çıka kildi biğam | 11.Tənbəl də o Xanın gəldiyini görüb; kefi kök halda qalasından çıxdı. |

| | |
|---|---|
| 1.Tikti bir tipe üze xargahi<br>Özi xar-gahda boldı şahi | 1.Bir təpə üzərinə otaq tikdi; və özü orada bir padşah kimi oturdu. |
| 2.Olturup içti şerabı- gül-gun<br>Ğafil andın ki bolur başı nigun | 2.Oturub gülgün şərab içdi; başı aşağı olacağından (uduzacağından) qafil idi. |
| 3.Tüzdi xan allıda ol divane<br>Xargeh allıda nakkare-xane | 3. O divanə, Xanın önündə; otağın qarşısında nağaraxana düzəltdü. |
| 4.Hem nakkare ünidin taptı ğurur<br>Hem nefir ünidin oldı mağrur | 4.Həm nağara səsindən qürurlandı; həm boruların səsindən məğrur oldu. |
| 5.Ol içer turdı velikin bisyar<br>Eyledi vehm çirikige kar | 5.Fəqət o çox içki içdi; əsgər arasına isə qorxu çökdü. |
| 6.Çiriki barça yayağ u atlık<br>Moğol u Türk ü sipahı atlık | 6.Bütün əsgəri piyada və atlı idi; moğol, türk və sipahi adlı idi. |
| 7.Cibelig irdiler ü cevşenlig<br>Uruş eylerde barısı fenlig | 7.Qalxanlı və zirehli idilər; savaşda hamısı hünərli idilər. |
| 8.Ok atarda barısı merdane<br>Bigleri dik barısı divane | 8.Ox atmaqda hamısı, igid,mərdanə idi; və hamısı, bəyləri kimi divanə idi. |
| 9.Köp uruş eylep idiler amma<br>Boldılar vehmdin ol kün rüsva | 9.Çox vuruşmışdular; amma qorxudan o gün rəzil oldular. |
| 10.Xan alarnıng yasalın çün kördi<br>Çirig ehliğa cerin yetkürdi | 10.Xan onların səfini görəndə; əsgərlərə xəbər yolladı: |
| 11.Kim mükemmel bolup atlansunlar<br>Rezmning babıda katlansunlar | 11. “Tam hazırlaşaraq atlansınlar; və savaşda səy göstərsinlər”! |

| | |
|---|---|
| 1.Xan özi dağı kiyindi fi `1-hal<br>Xasm başın kılayın dip pamal | 1.Xan özü də düşmənin başını yerlə bir edək; deyə dərhal geyinib-qurşandı. |
| 2. İçkisi boldı mükemmel köziçe<br>Vakf itip huşlarını söziçe | 2.Maiyəti gözü kimi mükəmməldi; və ağıllarını Xanlarının sözünə bağışlamışdılar. |
| 3.Ong u sol barça kiyindiler bat<br>Çıkaray dip barısı yaxşı at | 3.Yaxşı ad çıxaraq deyə; sağ və soldakıların hamısı dərhal qurşandılar. |
| 4.Can Vefa ong yasalını tüzdi<br>Yasalın düşmeniğa körgüzdi | 4.Can Vəfa sağ səfləri hazırladı; və səfləri düşmənınə göstərdi. |
| 5.Tüzdi solını Köpek Kuşçı hem<br>Boldı Kanber Biy Köpekke hemdem | 5.Köpək Quşçu sol cinahı hazırladı həm; Qənbər bəy Köpəklə oldu bahəm. |
| 6.Ong sol içkileri hem fi'l-hal<br>Saf bile turdılar andak ki cabal | 6.Sağ və sol tərəfdəkilər də; sanki dağlar kimi səf durdular. |
| 7.Hamza Sultan işitip xan sözini<br>Ol hem araste kıldı özini | 7.Həmzə Sultan, eşidib Xanın sözünü; o da bəzəyib-düzədi özünü. |
| 8.Sağıtın kiydi Süyünçek Sultan<br>Kıldı cevlan u tiledi meydan | 8.Süyünçek Sultan zirehini geyindi; yeridi və meydana ər dilədi. |
| 9.Canı Big Sultan hem tüzdi yasal<br>Dost düşmen ara körgüzdi yasal | 9.Canı Big Sultan da səf düzəltdi; dost, düşmən hər kəsə səfini göstərdi. |
| 10.Cilve kıldı Timüri- ferrux-baxt<br>Tingri lutf itse alur-min dip taxt | 10.Açıq bəxtli Timur, Tanrı lütf etsə; taxtı alaram, deyə meydana çıxdı. |
| 11.Kar-saz oldı Şehzade 'Ubeyd<br>Barça 'alemni kılur-min dip sayd | 11.Şahzadə Übeyd, bütün aləmi; ovlayaram deyə bacarıqlı oldu. |

| | |
|---|---|
| 1.Tuğlar xan katıda yayıldı<br>Tenbeli- mest, körüp ayıldı | 1.Xanın hüzurunda tuğlar dalğalandı; və məst olan Tənbəl bunu görəndə sanki ayıldı. |
| 2.Hem nekare dir idi savtı-zafer<br>Hem nefir aytur idi yaxşı xaber | 2.Zəfər sədasını həm nağara söyləyirdi; həm də nefir yaxşıca bildirirdi. |
| 3.Sinc iligin kakar irdi peyvest<br>Kim körüng ni kaçadur Tenbeli- mest | 3.Sərxoş Tənbəl: baxın, qaçırlar; deyib əllərini sevinclə bir-birinə çırpırdı. |
| 4.Kus feryadnı eylep bünyad<br>Dir idi kildi zafer bolung şad | 4.Təbillər fəryada,gumbuldamağa başladı; sanki zəfər qazandıq, sevinin, deyirdi. |
| 5.Tüzdiler iki tarafdın saflar<br>Kaçtılar Senc digenler kefler | 5.İki tərəfdən səf düzdülər; və sevinci bildirən əl çalanlar qaçdılar. |
| 6.Xannıng içkisi yörüp at saldı<br>Tenbel atnıng ayağıda kaldı | 6.Xann maiyəti yüyürüb at saldı (çapdırdı);  Tənbəl atların ayağı altında qaldı. |
| 7.Her tarafdın yörüdi rezm ehli<br>Kaçtılar Tenbel ile bezm ehli | 7. Vuruşanlar bir tərəfdən yeridi; və Tənbəl ilə məclis əhli qaçdılar. |
| 8.Hamza Sultan u Süyünçek Sultan<br>Kıldılar xaylı- Moğolnı bi-can | 8.Həmzə Sultan və Süyünçek Sultan; moğolları etdilər bican(öldürdülər). |
| 9.Rezm kıldı Canı Big Sultan hem<br>Könglini xasmdın itti biğam | 9.Canı Big Sultan da vuruşdu; və könlündəki düşməndən dolayı olan qəmi apardı. |
| 10.Yetti Sultanı- cihangir Timür<br>Tenbel üstiğe niteg kim sunğur | 10.Cahangir Sultan Timur, Tənbəlin; üzərinə şahin kimi şığıdı. |
| 11.Bardı Şehzade 'Ubeydi-kattal<br>Xasmnıng arkasıda tüzdi yasal | 11.Qatil Şahzadə Übeyd də vardı; və düşmənin arxasında səf tutdu. |

| | |
|---|---|
| 1.Arağa aldılar ol Tenbelni<br>Moğoli- na-sereyi- mühmelni | 1.Tənbəli, yəni o keyfiyyətsiz; moğolu araya aldılar; |
| 2.Leşkerin kırdılar andak ki dime<br>Candın ayırdılar andak ki dime | 2.Əsgərini o qədər qırdılar ki, soruşma; candan elə ayırdılar ki, soruşma. |
| 3.Kaçıban kal`asığa kirdi özi<br>Kararıp çang ile tir içre yüzi | 3.Özü qaçaraq qalasına girdi; üzü toz və tər içində qaraldı. |
| 4.Ak ivi ol tipe üzre kaldı<br>Anı ferraş digenler aldı | 4.Çadırı o təpə üzərində qaldı; və onu fərraşlar aldı. |
| 5.Yayradı tuğ u nefiri anda<br>Öldi berna bile piri anda | 5.Tuğ və nefiri(borusu) orada devrildi; gənci də, yaşlısı da orada öldü. |
| 6.Uruşur dik Moğol öldi barça<br>İlining yaxşısi öldi barça | 6.Vuruşan bütün moğollar öldü; və adamlarının yaxşısı öldü. |
| 7.Likin ağa inisi boldı xalas<br>Boluban mihnet ü enduhğa xas | 7.Fəqət böyük və kiçik qardaşı möhnət; və kədərə uğrayaraq qurtuldu. |
| 8.Kimge kim yok idi ol yirde ecel<br>Kal'ağa kirdi kılıp ceng ü cedel | 8.O yerdə əcəli gəlməyənlər; vuruşaraq qalaya girdi. |
| 9.Çapışıp xan çirigi songlarıdın<br>Kan töküp sollarıdın onglarıdın | 9.Xan əsgəri arxalarından çapışdı; və sağda olanların qanını tökdü. |

| | |
|---|---|
| 1.Kal`anıng içige kirdiler tiz<br>Barçası tiğleri dik xun-riz | 1.Hamısı qılıncları kimi qantökən; olaraq qalanın içinə girdilər. |
| 2.Kal'adın olça alıp çıktılar<br>Kal'ağa xavf salıp çıktılar | 2.Qaladan qənimət alıb çıxdılar; və qalaya xovf salaraq çıxdılar. |
| 3.Tenbel ol kal'ada çün kıldı makam<br>Ağa ini bile taptı aram | 3.Tənbəl, o qalaya yerləşəndə; böyük və kiçik qardaşı ilə aram tapdılar. |
| 4.Eyledi kal'asını müstahkem<br>Yürekin bastı vü boldı muhkem | 4.Qalasını möhkəm etdi; ürəyini basdı (qorxudan çıxdı) və möhkəm oldu. |
| 5.Fethdin hazreti- xan xurrem ü şad<br>Eyledi Tingrisini şükr ile yad | 5. Həzrəti- Xan fəthdən xürrəm və şad (olaraq); Tanrısını şükr ilə etdi yad. |
| 6.Boldılar şad barı sultanlar<br>Rezm eylerde kılıp cevlanlar | 6.Savaş anında dolanıb duran; bütün sultanlar şad oldular. |
| 7.Leşker olça bile boldı meşğul<br>Kayu ma'kul u kayu na-ma'kul | 7.Əsgər, hansı uyğun, hansı uyğun deyil deyə; qənimətlə məşğul oldu. |
| 8.Kayu at u sağıt alıp irdi<br>Sağıtın ignige salıp irdi | 8.Bəzisi at və zireh almışdı; və zirehini çiyninə salmışdı. |
| 9.Minip irdi atını ol il ara<br>Yörür irdi boluban ser-ğavğa | 9. O xalq arasında atına minmiş idi; və davanın öncüsü olub yeriməkdə idi. |
| 10.Kaysı alıp irdi sağdak ile ok<br>Moğol öltürgenige ol tanuk | 10.Bəzisi, moğol öldürdüyünə şahid olaraq; sadaq ilə ox almışdı. |
| 11.Her kişige ki ni bar irdi nasib<br>Alıp irdi biriben özige zib | 11.Hər kimin nəsibi nə idisə; onu almış və özünü onunla bəzəmişdi. |

| | |
|---|---|
| 1.Çün çirig olçasını alıştı<br>Alışıp koşlar ara salıştı | 1.Əsgərlər qənimətlərini alaraq; digərlərinin (özləri kimi olanların) arasına qarışdılar. |
| 2.Xan kapay tüşti uşol kurğanğa<br>Korkutuban Moğolı- nadanğa | 2.Xan, cahil moğolu qorxudaraq; o kurqana həbs etdi. |
| 3.Kal'a devride alıp mulcarlar<br>Tüştiler şahlar u serverler | 3.Qala ətrafında yerləşdilər; şahlar və sərvərlər orada düşərgə saldılar. |
| 4.Yayradı xan çirigi fariğ-bal<br>Barça xan devleti birle xoş-hal | 4.Xanın əsgərləri Xanın dövlətiylə həmişə xoş; və rahat bir şəkildə məskən saldılar. |
| 5.Andican mivesi bisyar irdi<br>Her ni anda tileseng bar irdi | 5.Əndican meyvəsi çox idi; və orada hər nə istəsən var idi. |
| 6.Ni'meti- mive bişip irdi tamam<br>Aşlığı hem yitişip irdi tamam | 6.Meyvələr tamamilə yetişmiş idi; və ehtiyatı də kafi dərəcədə idi. |
| 7.İlge bisyar ferağat irdi<br>Mive birle barı kuşlar toldı | 7.Xalq çox zəngin olmuş idi; meyvəylə bütün quşlar doymuş idi. |
| 8.İçkeri Tenbeli- bedhal zebun<br>Baxtı dik başı bolup yirge nigun | 8.İçəridə pis Tənbəl aciz və bəxti kimi; başı yerlə bir oldu (yerə düşdü). |
| 9.Olturup irdi kurğan içide<br>Yüz tümen hasret ü arman içide | 9. Yüz minlərlə adam Kurqan içində; oturmuşdu həsrət və dərd içində. |
| 10.Xalk bisyar idi vü azuk az<br>Hem eser eylep idi mevsim yaz | 10.Xalq çox, azuqə isə az idi; və yay mövsümü də özünü hiss etdirmiş idi. |
| 11.Kal'a ıssığ bolup irdi bisyar<br>Bar idi ilge kuyaşdın azar | 11.Qala, çox isti olmuşdu; və xalq günün təsirindən azarlamışdı. |

| | |
|---|---|
| 1.İkki ayğaça çıdap turdılar<br>Kal'anıng içide olturdılar | 1.İki aya qədər dözüb; qalanın içində oturdular. |
| 2.Çün üç ayğa kadem urdı eyyam<br>İlge tiği- sitem urdı eyyam | 2.Üçüncü aya girəndə; zaman xalqı zülm içinə saldı. |
| 3.Boldılar xalk besi bi-takat<br>Asru yüzlendi alarge nikbet | 3.Xalqın heç taqəti qalmadı; və çox ümidsizliyə düşdü. |
| 4.Xastelık boldı il içre peyda<br>Xalknnıng canını kıldı şeyda | 4.Xalq arasında xəstəlik peyda oldu; və xalqın canını pərişan etdi. |
| 5.Çün besi xalk öle başladılar<br>Kal'adın ba'zı özin taşladılar | 5.Xalqdan çox (kimsə) ölməyə başlayanda; bəziləri özünü qaladan (çölə) atdı. |
| 6.Kildiler xan kaşığa yığlap zar<br>Kıldılar ah u fiğanı- bisyar | 6.Ağlayaraq Xanın hüzuruna gəldilər; və çox ahu- fəğan etdilər: |
| 7.Kim 'inayet kılıp ey xanı- zaman<br>Sal uruş kim alınur bu kurğan | 7.”Ey zamanın xanı, lütf edib savaş aç; ki bu kurqan alınsın. |
| 8.Kal'anıng ehli bolupturlar zar<br>Ba'zısı açdur u ba'zı bimar | 8.Qalanın xalqı olubdur bizar; bəzisi ac və bəzisi bimar( xəstə). |
| 9.Nan yüzin hiç kişi körmeydür<br>Nan sözin hiç kişi sürmeydür | 9.Heç kim çörək üzü görməyibdir; və heç kim şörək sözünü (belə) etməyibdir. |
| 10.Tenbel öz işide bolmış hayran<br>Moğol bi-cigeridür nadan | 10.Tənbəl öz işində çaşmışdı; və Moğol cahil bir qorxaqdır. |
| 11.Hem sipahi anga düşmen boldı<br>Hem ra'iyyet barısı ivrüldi | 11.Ona əsgərləri də düşmən oldu; həm (də) rəiyyətinin hamısı üz çevirdi”. |

| | |
|---|---|
| 1.Uşbu sözlerni işitkeç ol xan<br>Eyledi leşker iliğe ferman | 1.O Xan, bu sözləri eşidəndə;<br>əsgərlərinə fərman verdi: |
| 2.Kim köçüp ilgeri konsunlar bat<br>Kılmasun hiç kişi sabr u sebat | 2.Köçüb dərhal irəli yerləşsinlər; və heç kim gecikməsin! |
| 3.Köçüben ilgeri tüşkeç leşker<br>Boldı Tenbel'ning ili zir ü zeber | 3.Əsgər köçüb irəli atılanda; Tənbəlin xalqı alt-üst oldu. |
| 4.Kozğalan tüşti alarğa asru<br>Derd yapuştı alarğa asru | 4.Onlara çox qarışıqlıq düşdü; və çox dərdə düçar oldular. |
| 5.Kal'adın tüşti yene niçe kişi<br>Rezm terğibi barınıng işi | 5.Bir çox adam qaladan endi; savaşı qızışdıranların hamısının işi bu idi. |
| 6.Xan çü kurğan sözin etti ma`lum<br>Didi Tenbelni kılur-min ma'dum | 6.Xan kurqanda olanların sözünü öyrənəndə; dedi :"Tənbəli yox edərəm, |
| 7.Tura vü şatunı tayyar kılıng<br>İş kılur vaktnı hükm ile biling | 7.Çəngəl və nərdivanı hazırlayın; və əmr üzrə işi görəcəyiniz zamanı bilin"! |
| 8.Çün xaber taptı bu sözdin leşker<br>Tüzdiler tura vü şatu yekser | 8.Əsgər bu xəbəri alanda bir başdan bir başa; çəngəl və nərdivan hazırladılar. |
| 9.Uruş esbabını körgeç tayyar<br>Eyledi hükm uşol xanı- kibar | 9.Savaş ləvazimatını hazır görüncə; o nəcib Xan buyurdu: |
| 10.Kim seher vakti mükemmel bolunguz<br>Barçangız talibi- Tenbel bolunguz | 10."Səhər vaxtı hazırlıqlarınızı tamamlayın; və hamınız Tənbəli ələ keçirmək işində hazır olun"! |
| 11.Çün seher kevkebesi kıldı zuhur<br>Yaydı 'anber varakığa kafur | 11.Səhər ulduzu zühur edəndə; ənbər yarpağına kafur yaydı (ətraf aydınlandı). |

| | |
|---|---|
| 1.Cibelik cibesige yapuştı<br>Cibesizning içige ot tüşti | 1.Zirehi olan zirehini geyindi; və zirehi olmayanların içinə od düşdü. |
| 2.Cibesiz kiz bile çulğandı revan<br>Kizining içide tolğandı revan | 2.Zirehsiz olan tez keçəyə büründü; və keçə içində dolanıb durdu. |
| 3.Turalık turasın alıp yörüdi<br>Atını koşıda salıp yörüdi | 3.Qalxanlı qalxanını alıb yürüdü; və atını çapıb getdi. |
| 4.Çaldılar xan kolıda ceng ciger<br>Nevbeti- ceng çeker boldı seher | 4.Xan tərəfində savaş çekerini çaldılar; və səhər vaxtı savaşı xəbər verən çekerin sırası oldu. |
| 5.Kildi feryad ite surna vü nefir<br>Kim bolur Tenbeli- biçare esir | 5.Zurna və nefir, yazıq Tənbəl; əsir olacaq deyə fəryada başladı. |
| 6.Her tarafdın basa ğavğa vü fiğan<br>Şire-merd ayta bülend urdı uran | 6.Hər tərəfdən bir çox gurultu və fəğan oldu; və aslan kimi igidlər səslərini yüksəldərək döyüş nərəsi çəkdilər. |
| 7.Yügrüşüp her sandın yittiler<br>Karım ağzıda makam ittiler | 7.Qaçışıb hər tərəfə yayıldılar; və çuxur (xəndək) ağzında özlərinə yer etdilər. |
| 8.Çün bu ğavğanı işitti Tenbel<br>Fikr ü kayğu bile yitti Tenbel | 8.Tənbəl bu davanı eşidəndə; düşüncə və qayğıya qərq oldu. |
| 9.Kim ki hazır idi kurğan üzre<br>Xanğa nazır idi kurğan üzre | 9.Kurqanda olanlar; Xana baxmaq-daydılar. |
| 10.Saldılar barça özin kurğandın<br>Kiçiben barçası baş u candın | 10.Hamısı baş və candan keçib; özlərini kurqandan aşağı atdılar. |
| 11.Çün bu ğavğanı işitti Tenbel<br>Başını alıp u yetti Tenbel | 11.Tənbəl, bu davanı eşidəndə; başını alıb getdi. |

| | |
|---|---|
| 1.Kirdi erk içre vü muhkem boldı<br>Hemdemi- tefrika vü ğam boldı | 1 Saray içinə girib sığındı; qarışıqlıq və qəmə yoldaş oldu. |
| 2.Xan çirigi barısı cevlan-saz<br>Seheri kuş kibi eylep avaz | 2.Xanın əsgərləri hamısı cövlan etməkdə idilər; səhər quşları kimi ötüşməkdə idilər. |
| 3.Kal'anıng tamığa mindiler tiz<br>Kılmayın kal'a ilidin perhiz | 3.Qala xalqından çəkinmədən; dərhal qalanın bürcünə çıxdılar. |
| 4.Ol seher xan ili andak ki xurus<br>Çıktılar tamığa xan urğaç kus | 4.Xanın adamları o səhər vaxtı xoruz kimi idilər; və təbil çalınınca qalanın damına çıxdılar. |
| 5.Tenbel ehli yatıban ivler ara<br>Makiyan dik idiler nevha-sera | 5.Tənbəlin adamları evlərində yatmaqda idilər; və toyuq gibi qaqqıldaşmaqda idilər. |
| 6.Kal'ada baş alışa almadılar<br>Şadlık nevbetini çalmadılar | 6.Qalanı ələ keçirə bilmədilər; və şadlıq təbilini çala bilmədilər. |
| 7.Bardılar barçaları yağmağa<br>Uçraban her biri bir ğavğağa | 7.Çoxları yağmaya getdilər; və bir-biri ilə davaya girdilər. |
| 8.Kirdi yüz ming kişi ol kurğanğa<br>Kasd itip barçası mal u canğa | 8.Mal və cana qəsd edən; yüz min adam kurqana girdi. |
| 9.Xace illerni fakır eylediler<br>Moğol ilini esir eylediler | 9.Xacənin adamlarını fəqir eylədilər; və moğol xalqını əsir eylədilər. |
| 10.Her Moğol kim bar idi kurğanda<br>Her sipahi ki bar idi anda | 10.Qalada olan hər moğol; və orada mövcud olan hər əsgərə |
| 11.Tari oldı barısınga nikbet<br>Talaşıp kördiler asru zahmet | 11. Sıxıntı gəldi; və bir-biriylə dalaşıb çox əziyyət gördülər. |

| | |
|---|---|
| 1.Tenbel ağa inisi birle özi<br>Yığılıp erkde bu boldı sözi | 1.Tənbəl, böyük və kiçik qardaşıyla özü; sarayda toplaşıb bu oldu sözü: |
| 2.Kim bu erk içre tura almas-biz<br>Ni özni koyı salmas-biz | 2.”Nə bu qalada qala bilərik; nə də özümüzü aşağı ata bilərik”. |
| 3.Didiler imdi Timür Sultanğa<br>Baralı tekye kılıp Yezdanğa | 3.Dedilər: “İndi Timur Sultana; Allaha güvənərək gedək. |
| 4.Şayed ol xandın ötünüp alğay<br>Bizge bir eygülük izi salğay | 4. O Xandan xahiş edək; bəlkə bizə bir yaxşılıq edərək qurtarar”. |
| 5.Uşbu söz birle barı tüştiler<br>Xanı- dil-dar sarı tüştiler | 5.Hamısı bu söz üzərinə; dildar Xan tərəfinə endilər (yanına çatdılar). |
| 6.Bigler ol niçe la'inni körgeç<br>Atların başları üzre sürgeç | 6.Bəylər, o lənətlənmişləri görəndə; və atlarını üzərlərinə sürəndə, |
| 7.Kırdılar barçasın itler yanglığ<br>Ol kişiler kim idiler ırıglığ | 7.İnləyən o adamların; hamısını it kimi qırdılar. |
| 8.Yetti ağa ini Tenbel birle<br>Oldılar niyyeti- mühmel birle | 8.Tənbəl ilə böyük və kiçik qardasları da; o boş niyyətlə öldülər. |
| 9.Xan u sultannı köre almadılar<br>Dünyide anıng üçün kalmadılar | 9.Xan və Sultanı diqqətə almadılar; və dünyada onun üçün qalmadılar (öldülər). |
| 10.Kim köre almasa uşbu xannı<br>Ya köre almasa bu sultannı | 10. Kim görə bilməsə bu Xanı; və ya görə bilməsə bu Sultanı, |
| 11.Kör bolsun közi canı çıksun<br>Kasrı- ikbalini gerdun yıksun | 11.Gözü kor olsun və canı çıxsın; fələk iqbal sarayını yıxsın! |

| | |
|---|---|
| 1.Çün alarnnıg işi andak boldı<br>Şadyane bile 'alem toldı | 1.Onların işi belə olunca; dünya sevinclə doldu. |
| 2.Feth-name bitiben her sarı<br>İlçi çapturdı zıllı- Bari | 2.Allahın kölgəsi (hökmdar); hər tərəfə fəthnamə yazaraq elçi göndərdi. |
| 3.Barıban barça vilayetğa sözi<br>Andican zabtığa meşğul özi | 3.Sözü bütün vilayətlərə çatmış idi; özü (də) Əndicanın zəbti ilə məşğul idi. |
| 4.Her Moğoli ki kalıp irdi tirig<br>Andicanda çi uşağ u çi irig | 4.Sağ qalan hər moğol Əndicanda; ya uşaq, ya (da) səfil oldu. |
| 5.Sürdiler taxtı- Semerkand sarı<br>Mülki- pür-mive pür-kand sarı | 5.Meyvə və şəkər dolu olan; Səmərqənd mərkəzinə doğru at sürdülər. |
| 6.Andicannı Canı Big Sultanğa<br>Birdi anı tuş itip ihsanğa | 6.Lütf edərək Əndicanı; Canı Big Sultanın idarəsinə verdi. |
| 7.Taşkend ilini xanı- devran<br>Kıldı in'am Süyünçek Sultan | 7.Daşkənd elini də zamanın xanı; Süyünçek Sultana bağışladı. |
| 8.Çün anga eyledi in'am anı<br>Boldı ol andağı il birle ğani | 8.Oranı ona bağışlayınca; oradakı xalqla özü də zənginləşdi. |
| 9.Söz yitişkeç basa Türkistanğa<br>Eyledi lutf Küçüm Sultanğa | 9.Sonra söz Türküstana çatanda; Küçüm Sultana onu lütf etdi. |
| 10.Çün alarnı yibere birdi xan<br>Didi kim imdi Süyünçek Sultan | 10. Onları göndərdiyi vaxt belə dedi Xan;: “İndi Süyünçək Sultan, |
| 11.Ala barsun küyevini hem-rah<br>Bile bolmas ki nidür hükmi-İlah | 11.Kürəkənini də yanına alıb gəlsin; İlahinin hökmü belə deyil də nədir? |

| | |
|---|---|
| 1.Kızını toy kılıp birsün anga<br>Şehlık esbabını ayırsun anga | l.Qızını toy edib ona versin; və padşahlıq vasitələrini ona ayırsın"! |
| 2.Bardı bu söz bile Şehzade 'Ubeyd<br>Nazenin dil-berini kılğay sayd | 2.Nazənin dilbərini əldə etmək üçün; Şahzadə Übeyd bu söz üzərinə getdi. |
| 3.Ol barıp kamığa yetti anda<br>Kamran bolsun uşol devranda | 3.O çatıb orada arzusuna qovuşdu; o, dünyada şad olsun! |
| 4.Özi sultanlar ile hazreti- xan<br>Yandı 'alemğa yayıp emn ü eman | 4.Xan həzrətləri, özü sultanlarla aləmə; əmniyət və sağlıq verib geri döndü. |
| 5.Bardılar yerlerige sultanlar<br>Xan yolıda barı oynap canlar | 5.Hamısı, Xanın yoluna canlarını fəda edən; sultanlar öz yerlərinə getdilər. |
| 6.Xan özi taxtığa kildi xoş-hal<br>Haşem ü xaylını kıldı xoş-hal | 6.Xanın özü də hüzurla taxtına gəldi; maiyəti və xalqını xoşhal etdi. |
| **LXII**<br>**Muzafferü'd-dın Sultan Mahmud Bahadır İmamü'z-zaman Hazretiğa körünüş üçün barğanı ve Hazreti-İmamü'z-zaman şükrane üçün toy tartıp Sultannı mihman kılğanı** | **LXII**<br>**Muzafferü'd-din Sultan Mahmud Bahadırın İmamü'z-zaman həzrətlərinə ziyarətə getməsi və İmamü'z-zaman həzrətlərinin Allaha şükür məqsədilə ziyafət verib Sultanı qonaq etməsi** |
| 7.Çün işitti munı Sultan Mahmud<br>Köngli Keş mülkide boldı xoşnud | 7.Sultan Mahmud bunu eşidəndə; Keş şəhərində könlü xoş oldu. |
| 8.Bardı Keşdin basa xanğa utru<br>Xan dime canı- cihanğa utru | 8.Keşdən sonra Xana doğru getdi; Xan demə, cahan canına doğru getdi. |

| | |
|---|---|
| 1.Ol Semerkandda yitti xanğa<br>Xan dağı kıldı kerem sultanğa | 1. O, Səmərqənddə Xanın yanına çatdı; və Xan da Sultana rəhm etdi. |
| 2.Toyladı anı vü mihman kıldı<br>Yangı başdın anı sultan kıldı | 2. Ona ziyafət verdi və qonaq etdi; onu yenidən sultan etdi. |
| 3.Tuttı şükrane üçün sohbetler<br>Birdi sultan iliğe da'vetler | 3.Şükran əlaməti olaraq etdi söhbətlər; və Sultan xalqına verdi dövlətlər. |
| 4.Tüzdiler ol ikki kur şahane<br>Küreğe birle kurup peymane | 4. O ikisi şahanə halqalar qurdular;və zurnalar çalındı, qədəh düzdülər (əyləncəyə başladılar). |
| 5.Her kur allıda kımızdın sabular<br>Körgüzüp şehr iliğe debdebeler | 5.Hər halqanın önündə qımızdan tulumlar qoydular; və şəhər xalqına dəbdəbələr göstərərək, |
| 6.Meclisi kurdılar andak ki dime<br>'İşreti sürdiler andak ki dime | 6. Elə bir məclis qurdular ki, demə; elə bir işrət etdilər ki, demə! |
| 7.Bar idi ol ara sazende besi<br>Şevk ile sazı- neva-zende besi | 7.Orada bir çox sazəndə vardı; və sazı şövqlə çox gözəl nəğmələr çalırdı. |
| 8.Tüzüp irdi biri ahengi- Hicaz<br>Körsetip Şah Şibani'ğa niyaz | 8.Biri, Şah Şeybaniyə niyaz göstərib; Hicaz ahəngini düzürdü. |
| 9.Biri eylep idi ahengi- Neva<br>Işk derdiğa kılıp irdi deva | 9.Biri “Nəva” ahəngi düzərək; eşq dərdinə dəva qılırdı. |
| 10.Biri ahengi- 'irak eylep idi<br>Barça 'alemdin anı saylap idi | 10.Biri “İraq” ahəngini əda edirdi; və onu bütün aləmdən daha üstün tuturdu. |
| 11.Kaysılar ney bile dem-saz idiler<br>Neyğa dem-saz u hem-avaz idiler | 11.Bəziləri ney ilə dəmsaz idilər; və neyə dost və həmavaz idilər. |

| | |
|---|---|
| 1.Kaysılar çeng çaladurlar idi<br>Bendedin huş aladurlar idi | 1.1Bəziləri çəng çalırdılar; və mən qulun ağlını başından alırdılar. |
| 2.Bende avazlarıdın xoş-hal<br>Dünyidin bolup idim fariğ-bal | 2.Mən qul səslərindən xoşhal; və dünyadan qayğısız olmuşdum. |
| 3.Bezm ilidin bolup irdim ğafil<br>Sazdın yığığa könglüm mayil | 3.Məclis xalqını unutmuş; və sazın nəğmələrindən könlüm ağlamağa meyl etmişdi. |
| 4.Közlerimdin akadur irdi yaş<br>Xatırımğa yakadur irdi yaş | 4.Gözlərimdən axırdı yaş ; və könlümə yaraşrdı yaş. |
| 5.Xan külüp men' itedür irdi meni<br>Lik min simi- sirişk ile ğani | 5.Xan mənə yasaq etməkdə idi; lakin mən göz yaşı gümüşləriylə zəngin idim (göz yaşına boğulmuşdum). |
| 6.Xan bolup barçasıdın bi-perva<br>Mening eşkimdin imes irdi cüda | 6.Xan heç kimə fikir verməz idi; fəqət mənim göz yaşımdan uzaq (maraqsız) deyil idi. |
| 7.Bir tarafdın közüme xan nazır<br>Bir tarafdın yene sultan nazır | 7.Gözümə görünməkdəydi bir tərəfdən Xan; bir tərəfdən də görünməkdə idi Sultan. |
| 8.Min alar bezmide mundak meşgul<br>Bolup irdim yığı birle makbul | 8.Mən onların məclisində belə məşğul idim; və göz yaşıyla məqbul idim. |
| 9.Yığıdın özge işim yok irdi<br>Ol yığı birle köngül tok irdi | 9.Göz yaşından başqa işim yox idi; və o göz yaşı ilə könlüm tox idi. |
| 10.Xan taka yığığa talib irdi<br>Anga sultan takı rağıb irdi | 10.Xan da göz yaşına talib idi; və ona Sultan da rəğbət etməkdə idi. |
| 11.Bu sebebdin ki uşol ikki can<br>Kim biri xan idi biri sultan | 11.Bu səbəbdən (dolayı) biri Xan; biri Sultan olan o iki can. |

| | |
|---|---|
| 1.Asru pakize köngüllüg idiler<br>Sözni pakıze köngüldin didiler | 1.Çox təmiz qəlbli idilər; və sözü təmiz könüldən söyləməkdəydilər. |
| 2.Gerçi sultan idiler suret ile<br>Taxt üzre idiler devlet ile | 2.Baxmayaraq ki görünüşdə sultan idilər; və dövlətlə taxt üzərində otururdular, |
| 3.Lik ma'na bile derviş idiler<br>Batınen 'afiyet-endiş idiler | 3.Fəqət mənada dərviş idilər; və batinən huzur düşünən idilər. |
| 4.Yoksa Salih kibi miskin geda<br>Bola almas idi anda asla | 4.Yoxsa Salih kimi miskin dilənçi; orada əsla ola bilməzdi. |
| 5.Hasıla bar idi xoş bezmleri<br>Bezm ara da'iyeyi- rezmleri | 5.Hasili, gözəl məclisləri var idi; və məclislərində savaş arzuları var idi. |
| 6.Ançа ölüp idi at birle koy<br>Kim tolup irdi barı şehr ü kuy | 6. O qədər at, qoyun kəsilmiş idi ; ki,şəhər və kənd tamam dolmuş idi. |
| 7.Hem saçık bar idi yulduzdın köp<br>Hem kilip kiş ile kunduzdın köp | 7..Həm ulduz kimi çox saçı vardı ;və həm də samur ilə qunduz dərisindən paltarlar geyinmişdilər. |
| 8.Basa bir ayğaça toy irdi<br>Toy uşol şahğa dil-cuy irdi | 8.Bir aya qədər bir çox ziyafət verildi; və ziyafət o padşah üçün könül xoşluğu idi. |
| 9.Can Vefa turup üleşti aşın<br>Ötkerip üç felekdin başın | 9.Can Vəfa, başını üç fələkdən keçirərək; durub aşını payladı. |
| 10.Kiliben kıldı Urus Bey kısmet<br>Bildi ol işni özige devlet | 10.Urus bəy gələrək qismət payladı; və bu işi özünə dövlət bildi. |
| 11.Koptı ol mecma' ara Şeyx Mürid<br>Kim bahadırlar ara irdi ferid | 11.O camaat arasında Şeyx Mürid də var idi; və o bahadırlar arasında yeganə idi. |

| | |
|---|---|
| 1.Kötere aldı bahadır ülüşin<br>Kim kılıp irdi bahadır uruşın | 1.Bahadır kimi vuruşduğu üçün; bahadırlara ayrılan payı o aldı. |
| 2.Köterip aşını sultan kaşığa<br>Koydı vü bardı bu sözning başığa | 2 Təamını qaldırıb Sultan önünə qoydu; və sözünün üstünə gəldi. |
| 3.Kim bu sultan barıda hiç kişi<br>Dise bolmas ki şeca'atdür işi | 3.Ki,"Bu Sultan var ikən işi igidlik olan; heç kimin sözü edilə bilməz". |
| 4.Kol sunup Hazreti- sultan Mahmud<br>Anga ok birdi kılıban xoşnud | 4.Sultan Mahmud Həzrətləri əlini uzadıb; xoşhal edərək ona da verdi. |
| 5.Saçık u aş çü boldı bir yan<br>Kitti hem üleşildi yeksan | 5.Saçı və yeyəcəklər bir tərəfə ayrılıb; tamamilə bölüşdürüldü. |
| 6.Çıktı sultanı- cihan sohbetdin<br>Xatın şad bolup ruhsatdın | 6.Cahan sultanı söhbətdən ayrıldı; və icazə verilməsindən könlü şad oldu. |
| 7.Padişahane libası birle<br>Padişahane esası birle | 7.Padşahlara yaraşan libası ilə; və padşahlara yaraşan əsası ilə, |
| 8.Tanglası atlanıban bardı Buxar<br>Taptı öz mülk ü diyarıda karar | 8.Sabah atlanaraq Buxaraya çatdı; və öz mülk və diyarında qərar tutdu (yerləşdi). |
| 9.Lik xan eyledi andak ferman<br>Kim revan atlana kilsün ferman | 9.Fəqət (Sultan Mahmudun)dərhal atlanıb gəlməyinə Xan; buyurdu fərman. |
| 10.Karşı üstige 'azim bolsun<br>Tirmiz ahengige cazim bolsun | 10."Karşı üstünə əzm etsin; və Tirmizə doğru yola çıxsın"! |

| LXIII<br>**Hazreti- İmamü'z-zaman ve xalifetü'r-rahman Ebu'l-feth Muhammed Şibani xanı-cihandın mübarek xatırın cem' kılğandın songra Xusrev Şah üstiğe çirig barurğa ferman kılğanı ve Muzafferü'ddin Sultan Mahmud Bahadırğa buyurğanı kim çirigning allıda yörüsün ve ol sultanı- 'adil barıp ol vilayetler ilini tağlardın indürgeni ve Hazreti- İmamü'z-zaman Sultan songıdın Hisarğa barğanı ve Xusrev Şah ağa inisi bile İmamü'z-zaman kilgenin bilip vilayetlerni salıp kaçkanları** | LXIII<br>**Zamanın İmamı və Allahın Xəlifəsi həzrətləri cahan xanı Əbü'l-fəth Məhəmməd Şeybanidən mübarək xətrini hüzura çatdırdıqdan (əndişədən qurtulduqdan) sonra Xosrov Şah üstünə əsgər göndərməyə fərman etməsi və Müzəffərü'd-din Sultan Mahmud Bahadıra əsgərin önündə yeriməsi üçün buyurması və o ədalətli sultanın çatıb o vilayətlərin xalqını dağlardan endirməsi və Zamanın İmamı həzrətlərinin Sultanın arxasından Hisara çatması və Zamanın İmamının gəldiyini öyrənib Xosrov şahın böyük və kiçik qardaşı ilə vilayətləri ataraq qaçmaları** |
|---|---|
| 1.Hazreti- xanı- Süleyman-ferdin<br>Xusrevi- 'adili- din-perverdin | 1.Süleyman ehtişamlı Xan həzrətlərindən; və dinə xidmət edən adil padşahdan, |
| 2.Sadır olğaç basa andak ferman<br>Atlanıp Karşığa kildi sultan | 2.Bu şəkildə bir çox fərman buyurulunca; Sultan atlanıb Karşıya gəldi. |
| 3.Çirigining songın anda aldı<br>Tirmiz üstiğe yörüp yol saldı | 3. Əsgərini tamamilə oraya çatdırıb; oradan yolunu Tirmiz üstünə çevirdi. |
| 4.Çünki Derbenddin ötti leşker<br>Kildi Tirmiz tarafıdın bu xaber | 4.Əsgər Dərbənddən keçəndə; Tirmiz tərəfindən bu xəbər gəldi ki: |

| | |
|---|---|
| 1.Kim bozup kal'ayı- Tirmizni revan<br>Baki Big menzil itiptür Bağlan | 1. ”Tirmiz qalasını ələ keçirib; Baki bəy Bağlanda mənzil edibdir. |
| 2.Anda hem turğusı yoktur Baki<br>Bolğusı Hind meyige saki | 2. Orada da duramayacaq Baki; Hind şərabına olacaqdır saqi”. |
| 3.Bu xaber xan kaşığa hem yetti<br>Xan işitkeç bu xaberni ayttu | 3.Bu xəbər Xanın hüzuruna da çatdı; və Xan bu xəbəri eşidəndə belə dedi: |
| 4.Kim yörüp Baki Tarxan fi'l-hal<br>Tirmiz üstiğe açsun per ü bal | 4.”Baki Tarxan dərhal yeriyib; Tirmiz üstünə qanad açsın (oranı qorusun). |
| 5.Uşbu esnada yetip kildi revan<br>Hazreti- Xan'dın Baki Tarxan | 5.Elə bu əsnada Xan həzrətlərindən; Baki Tarxan gəldi. |
| 6.Didi xan hem yetişiben kiledür<br>Kal'a alur yarağını kıladur | 6.Dedi ki: “Xan da gəlmək üzrədir; və qalanı almaq hazırlığını etməkdədir. |
| 7.Mini Tirmizge revan eyledi xan<br>Didi zinhar yörüsün sultan | 7.Xan, məni Tirmizə göndərdi; və dedi ki: Aman, Sultan da dəqiq olaraq hərəkət etsin! |
| 8.Eylesün cilve-gehin mülki- Hisar<br>Tutmasun bu arada hiç karar | 8.Hisar mülkündə pusqu qursun; və burada heç durmasın”! |
| 9.Çün bu yarlığnı işitti ol şah<br>Xasmning haildin oldı agah | 9. Bu fərmanı eşidəndə o padşah; düşmənin halından oldu agah. |
| 10.Yörüdi mülki- Hisar almak üçün<br>Xasmning canığa ot salmak üçün | 10. Yürüdü Hisar ölkəsini almaq üçün; və düşmənin canına atəş salmaq üçün. |
| 11.Çün Kavergenge yetişti sultan<br>Yaxşı söz birle kirişti sultan | 11.Sultan, Kavergenə çatanda; gözəl söz söyləyərək oraya girməyə başladı. |

| | |
|---|---|
| 1.Lik alar kılmadılar sözni kabul<br>Kıldılar Hazreti- Sultan melul | 1.Fəqət onlar bu sözü etmədilər qəbul;<br>Sultan həzrətlərini etdilər məlul. |
| 2.Kal'a birk irdi vü tağ üstide<br>Bar idi niçe bulağ üstide | 2.Qala möhkəm idi, dağ üstündə idi; və üstündə də neçə bulaq var idi. |
| 3.Didi bu kal'a irür endek yer<br>Taxtını Tingri birür bolsa deyr | 3.Dedi ki: “Bu qala kiçik bir yerdir; və taxtını Tanrı verəcək olsa dünyadır. |
| 4.Baralı imdi Hisar üstiğe<br>Yeteli Bağı- çenar üstige | 4.İndi Hisar üstünə gedək ;və Baği-çinar üstünə yetişək! |
| 5.Koreli kim ni durur hal anda<br>İlge ni bolğusı ahval anda | 5.Orada əhvalın necə olduğunu görək ;və xalqın nə halda olduğunu görək”! |
| 6.Çün vilayatğa kirdi sultan<br>Kıldı yarlığ ki çi yaxşı çi yaman | 6.Sultan vilayətə girəndə fərman buyurdu;” İstər yaxşı, istər yaman |
| 7.Kal'a malığa tama' eylemesün<br>Malınıng yaxşısını saylamasun | 7.Qala malına tamah etməsin; və malının yaxşısını seçməsin! |
| 8.Kim-ki il malığa tami' bolsa<br>Yaxşılık yolığa mani' bolsa | 8.Xalqın malına kim tamah edərsə; və yaxşılıq yoluna mane olarsa, |
| 9.Talanur ivi vü başı kisilür<br>Başı kurğan işikidin asılur | 9.Evi talan edilər və başı kəsilər; başı kurqan qapısında asılar”. |
| 10.Çün bu yarlığnı bek ayttı hazret<br>B olmadı hiç kişige kudret | 10.Bu fərmanı verəndə (Xan) həzrət; heç kimdə olmadı qüdrət (ki), |
| 11.Kim kişi mal sarı köz salğay<br>Ya birevning pergahın alğay | 11.Birinin malına göz diksin;və ya birinin mülkünü əlindən alsın. |

| | |
|---|---|
| 1.Bar idi koy bile uy bisyar<br>Tive vü atka yok irdi şümar | 1. Çoxlu qoyun və qaramal var idi; dəvə və atın say-hesabı yox idi. |
| 2.Çün kişi salmadı köz mal sarı<br>Kildi sultan kaşığa xalk barı | 2.Kimsə mala doğru baxmayınca; bütün xalq Sultanın hüzuruna gəldi. |
| 3.Ne ra'iyyetğa sipahıdın elem<br>Ne sipahığa ra'iyyetdin ğam | 3.Nə xalqa əsgərindən var idi ələm; nə də əsgərinə xalqdan (yana)var idi qəm. |
| 4.Koy bile böri musahib boldı<br>Uşbu iş asru münasib boldı | 4.Qoyunla qurd müsahib oldu; və beləcə bu iş çox münasib oldu. |
| 5.'Adl yayıldı Hisar ehliğa<br>Hükmi ol mülk ü diyar ehliğa | 5.Hisar xalqına ədaləti yayıldı; o mülk və ölkə xalqına da hökmü yayıldı. |
| 6.Özi sultan kapadı kurğannı<br>Taş ulus kildi köre sultannı | 6.Sultan özü dövrəyə aldı kurqanı; və ətrafdakı xalqlar görməyə gəldi Sultanı. |
| 7.Kiltürüp birdiler il malı- eman<br>Boldı ol mal ile xurrem sultan | 7.Xalq, malını qorxusuz gətirib verdi; və Sultan o malla sevindi. |
| 8.Malı- ğayibni takı tirdiler<br>Kitken il malını ayırdılar | 8.İtən malı da araşdırdılar; və gedən xalqın malını ayırdılar. |
| 9.Boldı sultan bile kilgen leşker<br>Malı- ğayib bile xurrem yekser | 9.Sultanla gələn əsgərlər; itən mallar tapılanda sevindilər. |
| 10.Kapap olturdılar ol kurğannı<br>Köz tutup turdılar anda xannı | 10. O kurqanı mühasirə edib oturdular; və orada Xana gözlərini dikib durdular (Xanın buyruğunu gözlədilər). |
| 11.İkki mingçe kişini dip dil-xah<br>Kal`ada salıp idi Xusrev Şah | 11.Xosrov şah, iki minə qədər adamı; öz arzusuyla qalada qoymuşdu. |

| | |
|---|---|
| 1.Kal'anı birkitip irdi bisyar<br>Aşlığı bar idi anbar anbar | 1.Qalanı çox bərkitmişdi; və anbarlar dolusu azuqəsi vardı. |
| 2.Özi Kunduznı vatan eylep idi<br>Anı gülzar ü çemen eylep idi | 2.Özü Kunduzu vətən eyləmiş idi; oranı gülzar və çəmən eyləmiş idi. |
| 3.Bir inisi bar idi Xutlanda<br>Yasatıp şehri- emannı anda | 3.Xuttelanda şəhər əmiri olaraq; vəzifə verdiyi kiçik qardaşı vardı. |
| 4.Veli atlık idi Xutlandağısı<br>Pir Veli irdi Bedaxşan'dağısı | 4.Xuttelandakı qardaşının adı Vəli idi; Bədəxşandakı qardaşının adı da Pir Vəli idi. |
| 5.Her bir öz kişverini biklep idi<br>Cevşen ü miğferini biklep idi | 5.Hər biri öz ölkəsini möhkəm etmişdi; zireh və dəbilqəsini bərkitmişdi (silahla geyinib qurşanmışdı). |
| 6.Tağlatıp irdiler illerni tamam<br>Yiberip tağ iliğe peyğam | 6.Bəd xəbər göndərib; xalqı tamam dağa qaçırmışdılar. |
| 7.Hazreti- xanı- feridun-mikdar<br>Çünki sultan songıdın kildi Hisar | 7.Firidun payəli Xan həzrətləri; Sultanın arxasından Hisara gəlincə, |
| 8.Bir niçe vakt kapap olturdı<br>Uruş ol kal'ağa layık kördi | 8.Bir müddət mühasirə edib gözlədi; və o qala üçün vuruşmağı layiq bildi. |
| 9.Uruş esnası ara kildi xaber<br>Kim bozup nöker ü mülk ü kişver | 9.Savaş əsnasında xəbər gəldi ki; əsgər, mülk və ölkə dağılıb. |
| 10.Veli Big kaçtı fulan kurğandın<br>Bardı Kunduzğa tarta andın | 10.Vəli bəy, filan kurqandan qaçdı; və oradan Kunduza yönəldi. |
| 11.Pir Veli dağı boluptur kavak<br>Yüreki vehmdin oluptur çak | 11.Pir Vəli də çürümüş ağaca dönüb; ürəyi qorxudan yarılmışdı. |

| | |
|---|---|
| 1.Barça Kunduz yığılur boldılar<br>Rezm fikrini kılur boldılar | 1.Bütün Kunduz xalqı toplaşdı; və savaşı düşünməyə başladı. |
| 2.Boldı Babur takı anda peyda<br>Lik bar aralarıda ğavğa | 2.Babur da orada peyda oldu; fəqət aralarında dava var idi. |
| 3.Çün bu sözlerğa kulak saldı xan<br>Didi oxşaş bu ki Hamza Sultan | 3.Xan bu sözlərə qulaq verincə; belə dedi: “Görünən o ki, Həmzə Sultan, |
| 4.Uşbu kurğannı kapap olturğay<br>Bir iki kul anıng ile turğay | 4.Bu kurqanı ələ keçirib yerləşəcək; və bir-iki qul onunla duracaq (çox az adam onunla qalacaq). |
| 5.Biz yörüp yol salalı Xutlanğa<br>Yeteli barça uşol kurğanğa | 5.Biz yeriyib Xuttelana yola çıxaq; və hamımız o kurqana çataq. |
| 6.Tingri birse alalı kurğanın<br>Ruzi olsa köreli Xutlanın | 6.Tanrı izn verərsə, kurqanını alaq; və nəsib olsa Xuttelanı görək”. |
| 7.Uşbu söz birle uşol xanı- 'aziz<br>Küm irür padişehi- ehli- temyiz | 7.Elə bu söz ilə temyiz sahibiərinin padşahı; yəni əziz Xan, |
| 8.Hamza Sultannı salıp atlandı<br>Özi Xutlan yolığa katlandı | 8.Həmzə Sultanı buraxıb atlandı; və Xuttelana yola düşdü. |
| 9.Çünki Ver-zab suyıdın leşker<br>Ötti kildi yene bu taze xaber | 9. Vər-zab suyundan keçəndə əsgər; yenə gəldi bu yeni xəbər: |
| 10.Kim kaza hükmi bile Xusrev Şah<br>Boluban xan kilişidin agah | 10.”Qəza hökmü ilə Xosrov şah; Xanın gəlişindən olub agah, |
| 11.Birkite almadı ol kurğanın<br>Taşladı Kunduz ile Bağlanın | 11. O kurqanını möhkəmlədə bilmədi; və Kunduz ilə Bağlandan vaz keçdi”. |

| | |
|---|---|
| 1.Kal'ada bir niçe Türkistani<br>Didiler xannı unutup anı | 1.Qalada olan bir çox türküstanlı; Xanı unudub dedi ki, |
| 2.Bakı koşuldı barıp Baburğa<br>Nöker oldı iberip Baburğa | 2.”Baki gedib Babura qoşuldu; Babura gedib xidmətçi oldu. |
| 3.Anga yar oldı Moğol u Kıpçak<br>Sulduz u Mekrit u barın Kalmak | 3.Moğol və Qıpçaq, Sulduz, Mekrit; və bütün Kalmak ona dost oldu. |
| 4.Veli Kabil sarığa yüz koydı<br>Belki andın narığa yüz koydı | 4.Vəli, Kabilə doğru üzünü çevirdi; və bəlkə oradan da irəliyə yönəldi. |
| 5.Pir Veli dağı yeridin köçti<br>Şem'i- ikbal ü ümidi öçti | 5.Pir Vəli də yerindən köçdü; iqbalın şamı və ümidi söndü. |
| 6.Turdı nökerleri ol biglerning<br>Bardı sevdaları ol biglerning | 6. O bəylərin xidmətçiləri də; onların sevdalarının yox olduğunu gördülər. |
| 7.İmdi yıldam yörüse Hazreti-Xan<br>Ya anıng allıda barsa sultan | 7.İndi Xan həzrətləri sürətlə hərəkət etsə; və ya Sultan onun önündə getsə, |
| 8.Feth olur Kunduz Bağlan barı<br>Keşm ü Ferxar u Bedaxşan barı | 8.Kunduz, Bağlan, Keşm, Ferxar; və Bədəxşan hamısı fəth olunar”. |
| 9.Bu xaber çünki muhakkak boldı<br>Kim uşol kavmğa devr ivrüldi | 9.Elə ki,bu xəbərin doğruluğu bilindi; sanki o qövmə dövran (tale) tərsinə döndü. |
| 10.Suv yakasıda tura tüşti xan<br>Didi “Mahmud Bahadır Sultan | 10. Su kənarında düşərgə saldı xan; və dedi: “Mahmud Bahadır Sultan, |
| 11.Ilğasun Kunduz u Bağlan sarı<br>Sürsün eşhebni Kistan sarı | 11.Kunduz və Bağlan tərəfinə axın etsin; və atını Kistan tərəfinə sürsün! |

| | |
|---|---|
| 1.Küçlük atlık kişi bolsun hemrah<br>Takı her kim ki angadur dilxah | 1. Onunla bərabər getmək istəyən; güclü süvarilər ona yoldaş olsun! |
| 2.Barça bolsunlar anıng birle bat<br>Lahzayi- eylemesün sabr u sebat” | 2.Bir ləhzə səbir və səbat etmədən; hamısı dərhal onunla bir yerdə olsun”! |
| 3.Boldı sultan takı asru xoş-hal<br>Bardı Kunduznı kılurğa pamal | 3.Sultan da çox məmnun oldu; və Kunduzu yerlə bir etməyə getdi. |
| 4.Bir konup Vahş suyığa yetti<br>Anı körgenning huşı kitti | 4.Bir (dəfə) dincini alıb Vahş suyuna çatdı; onu görənin ağlı başından getdi. |
| 5.Su taşıp asru uluğ bolup idi<br>Tutaşıp asru uluğ bolup idi | 5.Su daşıb çox yüksəlmişdi; qabararaq çox böyümüşdü. |
| 6.Yetti biş ming kişi sultan birle<br>Kılıban xıdmetini can birle | 6.Sultanla bir yerdə beş min nəfər; canla xidmətə baş qoyub gəldi. |
| 7.Her neçük bolsa güzer taptılar<br>Atların su içide çaptılar | 7.Hər necə olur-olsun, keçid tapdılar; və atlarını su içində çapdırdılar. |
| 8.Ba'zı il eylediler sal xayal<br>Hamili- esliha kıldılar sal | 8.Bəzi adamlar sal düzəltməyi fikir-ləşdilər; və silahlarını sala yüklədilər. |
| 9.Ötkerip eslihanı sal bile<br>Kiçtiler özleri her hal bile | 9.Silahlarını salla keçirərək; özləri necə olur-olsun, keçdilər. |
| 10.Yaldap öz atını kiçti sultan<br>Kiçti barça çirigi emn ü eman | 10.Sultan, atının yüyənini tutub keçdi; bütün əsgəri sağ -salamat keçdi. |
| 11.Bir konup andın ögüzge yetti<br>Barça leşker iliğe ayıttı | 11.Bir (dəfə) dincini alıb oradan çaya çatdı; və bütün əsgərlərinə buyurdu: |

| | |
|---|---|
| 1.Kim Saray üstiğe cem' olsunlar<br>Sal bağlap yakada tursunlar | 1."Saray önündə toplaşsınlar; və sal(ları) bağlayaraq sahildə gözləsinlər!" -dedi. |
| 2.Bar imiş anda kamış asru kalın<br>İl kamış iv yasamış asru kalın | 2.Orada çox qamış varmış; və xalq qamışdan bir çox ev düzəltmiş. |
| 3.Sal bağlarğa münasib yer imiş<br>Köreli Hazreti- Hak ni dir imiş | 3.Sal bağlamaq (düzəltmək) üçün münasib yermiş; və Haqq-Təala görək, nə deyərmiş. |
| 4.Özi başlap yörüdi rast Saray<br>Kıldı ötmek yarağın zıllı- Xuday | 4.Özü başda olmaq üzrə Saraya doğru yeridilər; və Allahın kölgəsi, keçid hazırlığını gördü. |
| 5.Künni kün dimediler tünni tün<br>Tınmadılar su üçünde tün ü kün | 5.Gecə-gündüz demədilər; və su içində gecə-gündüz dincəlmədilər. |
| 6.Çünki bir kiçe bile bir kündüz<br>Ötti pamal sipah oldı ögüz | 6.Bir gecə və bir gündüz keçdikdə; çay başdan- başa əsgərlə doldu. |
| 7.Sal ile kiçti ögüzdin sultan<br>Sal u meh körmedi andak devran | 7. Çaydan sal ilə keçdi Sultan; illər və aylar görmədi belə dövran. |
| 8.Çünki leşker barı sudın ötti<br>Şah Kunduz yolını tuttı | 8.Əsgərin hamısı sudan keçincə; padşah, Kunduz yolunu tutdu. |
| 9.Tünle ok yetti uşol kurğanğa<br>Kildiler barça ulus sultanğa | 9. O kurqana gecə çatdı; və bütün xalq Sultanın hüzuruna gəldi. |
| 10.Kıldılar kal'a kilidin teslim<br>Boldılar barça anga xas u nedim | 10.Qalanın kilidini təslim etdilər; və hamısı onun xas və nədimi oldular. |
| **LXIV**<br>**Muzafferü'ddin Sultan Mahmud Bahadır Kunduzdın beka 'alemiğa kitkeni** | **LXIV**<br>**Müzəffərüddin Sultan Mahmud Bahadırın Kunduzdan əbədiyyət aləminə köçməsi (vəfat etməsi)** |

| | |
|---|---|
| 1.Subh çün urdı 'alem xaverdin<br>Rayeti- mihr yayıldı zerdin | 1.Sübh şərqdən aləm vurunca (şərqdən aydınlanınca); günəşin altında olan sancağı yayıldı (hər tərəfi bürüdü). |
| 2.Yene xurşidi- felek yaydı nur<br>Nur ile kıldı ulusnı mesrur | 2.Yenə günəş nur saçdı; və nur ilə xalqı sevindirdi. |
| 3.Nur tuttı barı afak yüzin<br>Zahir itti kara vü ak yüzin | 3.Bütün üfüqləri nur (aydınlıq) bürüdü; ağla qaranın üzünü ortaya çıxardı (seçdirdi). |
| 4.Barça afak münevver boldı<br>Kara vü ak musavver boldı | 4.Bütün üfüqlər aydınlandı; qara və ağ olan şeylərin şəkli ortaya çıxdı. |
| 5.Şahı- nurani Sultan Mahmud<br>Yüsufı- sani Sultan Mahmud | 5.Nurlar padşahı Sultan Mahmud; ikinci Yusif Sultan Mahmud, |
| 6.Kal'ayi- Kunduz ara kıldı nüzul<br>Erkige eyledi ahengi- duxul | 6.Kunduz qalasında nazil oldu; iç qalaya daxil oldu. |
| 7.Kal'adın könglini çün cem' itti<br>İl işi mal alurğa yitti | 7.Qaladan ötrü xatircəm olduqdan sonra; xalqın işi mal əldə etmək oldu. |
| 8.Didiler kal' a ara yoktur mal<br>Kal' a ehliğa perişandur hal | 8.Dedilər : “Qalada mal yoxdur; və qala xalqının halı pərişandır. |
| 9.Küçsiz il kal'ada kalıpturlar<br>Küçlüg il yolını alıpturlar | 9.Gücsüz xalq qalada qalmışdır; və güclü xalq yol almışdır (qaçıb getmişdir). |
| 10.Barça il tağ üze sakindürler<br>Barıp anda mutavattındurlar | 10.Bütün adamlar dağda otururlar; və gedib oranı yurd etmişdirlər. |
| 11.Maldın tağ irür mal-a-mal<br>Közlesün tağnı kim ister mal | 11.Dağ, malla dolmuşdur; kim mal istərsə, dağa baxsın” (yönəlsin). |

| | |
|---|---|
| 1.Çün bu söz boldı ulusdın ma`lum<br>Kıldılar tağ sarı xalk hücum | 1.Ulusdan bu söz məlum olanda; xalq dağa doğru hücum etdi. |
| 2.Lik sultan didi kim yarlığsız<br>Hiç ademni yibermesdür-biz | 2.Fəqət Sultan dedi: , “Fərmansız; heç kimi göndərmərik”. |
| 3.Her cema'atğa nişani biriben<br>Her bölekning ilini ayırıban | 3.Hər camaata bir tuğra verərək; və hər bulağın xalqını ayıraraq. |
| 4.Yibere birdi uşol şahı- zaman<br>Eyledi barçağa mundak ferman | 4.Zamanın padşahı göndərdi; və hər kəsə bu şəkildə fərman etdi: |
| 5.Kim sipahiğa ta'alluk emval<br>Bolur Özbek ulusığa pamal | 5. Ki, Sipahiyə aid mallar; Özbək xalqının ayağı altındadır. |
| 6.İşkimiş kişverige bardı Urus<br>Kim bar ol tigrede bisyar ulus | 6.Urus, çevrəsində bir çox xalqın olduğu; İşkimiş ölkəsinə çatdı. |
| 7.Bardı anıng bile ming çağlı kişi<br>Cür'et izharı barınıng işi | 7.Onunla birlikdə hamısının işi; cürət göstərmək olan minə qədər adam vardı. |
| 8.Can Vefa bardı Ferxar sarı<br>Dime Ferxar ki gülzar sarı | 8.Can Vəfa Fərxar tərəfinə; Fərxar demə, gülzar tərəfinə getdi. |
| 9.Gül ü Nevrüzda digen Ferxar<br>Uşbu Ferxardur u bu gülzar | 9. Gülü Novruzda Fərxar elə bu Fərxardır; və bu, gül bağçasıdır. |
| 10.Güli bisyardur u lalesi köp<br>Bülbülining şeğab u nalesi köp | 10.Gülü çox, laləsi çoxdur; bülbülünün fəryad və naləsi çoxdur. |
| 11.Koy kuzı birle tola sahrası<br>Gevher ü altun ile deryası | 11.Səhrası(çölü) qoyun, quzu ilə doludur; dəryası cövhər və qızıl ilə doludur. |

| | |
|---|---|
| 1.At bile tivesining sanı yok<br>Anda yok ol kişi kim ğani yok | 1.At və dəvəsi həddən ziyadə çoxdur; və orada zəngin olmayan heç kim yoxdur. |
| 2.Can Vefa eyledi zabtı- Ferxar<br>İşkimiş oldı Urusğa ser-kar | 2.Can Vəfa Fərxarı zəbt etdi; və İşkimiş Urusun idarəsinə girdi. |
| 3.İşkimiş dağı münevver yir idi<br>Asru pür-mive vü pür-zer yir idi | 3.İşkimiş də nurlu yer idi; meyvəsi və qızılı bol yer idi. |
| 4.Veli Big nökeri anda bisyar<br>Ayrılıp bigleridin xar u zar | 4.Vəli bəyin əsgəri orada çox idi; fəqət bəylərindən ayrıldıqları üçün pərişan halda idi. |
| 5.Kildiler barça Urus Big katığa<br>Boldılar çaker anıng xıdmetiğa | 5.Hamısı Urus bəyin hüzuruna gəldilər; və onun xidmətində nökər oldular. |
| **LXV**<br>**Sultan vefatıdın burun Veli Bigning kilgeni ve Xusrev Şahnıng vaki'ası** | **LXV**<br>**Sultanın vəfatından əvvəl Vəli bəyin gəlməsi və Xosrov Şah hadisəsi** |
| 6.Veli Big hem öte almay hayran<br>Tağ içinde yörümiş ser-gerdan | 6.Vəli Bəy də keçə bilmədiyi üçün çaşmış haldaydı; və dağda sərgərdan haldaydı. |
| 7.Bozulup nökeri aşufte bolup<br>Özi ol kıssadın alüfte bolup | 7.Adamları pozulub darmadağın olmuş; özü də bu hadisədən ötrü pərişan olub |
| 8.Turup irdi anga yetti bu xaber<br>Kim yetip hükmi- Xudayı-ekber | 8.Durar ikən uca Allahın; hökmünün gəldiyi xəbəri ona çatdı. |
| 9.Bardı Babur katığa Xusrev Şah<br>Tingri ol hırsnı kıldı gümrah | 9.Xosrov şah Baburun hüzuruna gəldi; və Tanrı o hərisliyi doğru yoldan ayrılmış qıldı. |
| 10.Kolıdın çıktı zimamı- takdir<br>Nökeri tüzdi közinçe bir bir | 10. İlahi təqdirin yüyəni əlindən çıxdı; və adamları baxışlarını bir yerə topladılar. |

| | |
|---|---|
| 1.Barça Babur nökeri boldılar<br>Baburung başıdın ivrüldiler | 1.Hamısı Baburun adamları oldular; və Baburun ətrafında toplandılar. |
| 2.Aldı Babur dağı bolğan malın<br>Niçe sanduk dağı emvalın | 2.Babur da onların; neçə sandıq mal və əşyalarını aldı. |
| 3.Tiledi la'l ü cevahir andın<br>Boldı ol dağı zahir andın | 3.Ondan sonra ləl və cəvahir dilədi; belə bir istəkdə də bulundu. |
| 4.Niçe yüz yılğı Bedaxşani la'l<br>Barçası reng ile zemani la'l | 4.Neçə yüz illik Bədəxşan ləli idi; hamısı rəng baxımından zamanın möhtəşəm ləli idi. |
| 5.Baburiler kolığa tüşti tamam<br>Boldılar la'l kibi ateş-fam | 5. O ləllərin hamısı tamamilə Baburluların əlinə keçdi; və hamısı ləl kimi atəş rəngli oldu. |
| 6.Tive vü atlarını aldılar<br>Canığa hasret otın saldılar | 6.Dəvə və atlarını aldılar; və canına həsrət odunu saldılar. |
| 7.Keydiler cibelerini köziçe<br>Didiler katl sözini yüziçe | 7. Gözlərinə qədər zirehlərini geydilər; və qətl sözünü üzlərinə dedilər. |
| 8.Yene Baki tilep aldı anı<br>Ta xalas oldı ölümdin canı | 8.Yenə Baki diləyərək onu aldı;və canı ölümdən qurtuldu. |
| 9.Biş kazak birle uzattılar anı<br>Boluban malları birle ğani | 9.Mallarıyla zəngin olaraq; beş kazak ilə onu göndərdilər. |
| 10.İmdi bilmes kişi kim hal nidür<br>Öldi tirildi mü ahval nidür | 10. İndi kimsə bilməz halı necədir; öldümü, dirildimi, əhvalı necədir?. |
| 11.Çün Veli Bigge yetişti bu xaber<br>Mütefekkir boluban kıldı nazar | 11.Vəli bəyə bu xəbər çatanda; düşünərək ətrafına baxdı. |

| | |
|---|---|
| 1.Nökeri ayrılıp irdi barı<br>Tüşti iş başığa bigning karı | 1.Adamlarının hamısı ayrılmışdı; və<br>Bəyin iş yadına düşdü. |
| 2.Aldı fi'l-hal kalem birle devat<br>Sıdkını eylegeli dip isbat | 2.Dərhal qələmlə davatını(mürəkkəbini);<br>əlinə alıb isbat üçün sədaqətini, |
| 3.Bitidi haletini sultanğa<br>Didi 'arzım bu şehi- devranğa | 3.Sultana əhvalını yazdı; və dedi ki:<br>"Dövranın bu padşahına ərzim budur ki: |
| 4.Kim sizing yaxşılığıngıznı bilip<br>Mestlık uykularıdın ayılıp | 4.Sizin yaxşılığınızı bilib; məstlik<br>yuxularından ayılaraq, |
| 5.Kaytıban sizge sığına kildim<br>Barçadın sizge tevella kıldım | 5.Geri dönüb sizə sığınmağa gəldim; və<br>hər kəsdən çox sizə güvəndim. |
| 6.Meni- bi-çareni zayi' kılmang<br>Meni- avareni zayi' kılmang | 6.Mən biçarəyə rütbə verməyin; yəni<br>mən avarəni zay etməyin! |
| 7.Xan kaşıda günehimni tilengiz<br>Afv ile ehli- günehni silengiz | 7.Xanın hüzurunda günahımın<br>bağışlanmağını diləyin; və əfv edərək bu<br>günahkarı məzur göstərin! |
| 8.Yiberingiz manga bir yaxşı kişi<br>Kim manga yaxşılık ok bolsa işi | 8.Mənə elə bir adam göndərin ki; işi<br>yaxşılıq etmək olsun! |
| 9.Meni ol kafileğa yitkürgey<br>Meni ol silsileğa yitkürgey | 9.Məni o qafiləyə yetirsin; məni o<br>silsiləyə yetirsin". |
| 10.Çün bu mektubnı kördi sultan<br>Didi ey Salihi- zar u hayran | 10.Sultan, bu məktubu görüncə dedi ki:<br>"Ey pərişan və heyran olan Salih, |
| 11.Sanga iş boldı barıp kiltür anı<br>Yaxşılık birle barıban kör anı | 11. Sənin üçün iş çıxdı, gedib onu gətir;<br>və yaxşı niyyətlə gedib onu gör"! |

| | |
|---|---|
| 1.Bende 'arz eyledim ol sultanğa<br>Serveri- kafıleyi- ihsanğa | 1.O Sultana, ehsan qafiləsinin rəisinə; mən qul ərz eylədim: |
| 2.Kim bu mektub bile min barmas-men<br>Şahnıng allıda bolsun ruşen | 2.“Bu məktub ilə mənim getməyəcəyim; Şahın nəzərində açıqca bəlli olsun! |
| 3.Kim dimiş yiberingiz yaxşı kişi<br>Kim manga yaxşı bolğay kilişi | 3.Yaxşı adam göndərin; çünki gəlişi mənim üçün yaxşı olacaq, . |
| 4.Min özümni ni kılıp yaxşı diyin<br>Min özümdin ni bilip yaxşı diyin | 4.Mən özümü necə; bilib də yaxşı deyim? |
| 5.Dünyide bar mu ikin minçe yaman<br>Yaxşı bolur mu yaman ey sultan | 5.Dünyada mənim qədər pis bir adam varmı; və ey Sultan; pis (olan) yaxşı olarmı?” |
| 6.Boldı bu söz bile sultan xoş-hal<br>Didi sin yaxşı-sin ü nik-xısal | 6.Sultan bu sözlə xoşhal oldu; və dedi ki: “Sən yaxşısan və gözəl xasiyyətlisən. |
| 7.Barıp anı ala kil bu sarı<br>Kitmesün vehm itip andın narı | 7.Gedib onu alaraq bu tərəfə gəl; qorxuya qapılıb oradan irəli getməsin! |
| 8.Biz anga lutf u 'inayet kılalı<br>Xanğa ayturğa dağı biz bileli | 8.Biz ona lütf və inayət edək; Xana nə söyləmək gərəksə onu biz bilək”! |
| 9.Uşbu mazmun bile yazıldı nişan<br>Bendege birdi icazet sultan | 9.Nişan (fərman) elə bu məzmunla yazıldı; və Sultan mən qula icazə verdi. |
| 10.Barıban Xast digen kişverge<br>Yettim ol Xastdağı serverge | 10.Xast deyilən ölkəyə çataraq; o Xastdakı sərvərin yanına getdim. |
| 11.Xast Kabilğa yakın bir yer imiş<br>Kim anı körse cehennem dir imiş | 11.Xast Kabilə yaxın bir yermiş; və onu görən cəhənnəmdir,- deyərmiş. |

| | |
|---|---|
| 1.Barıban anı kitürdüm andın<br>Hasıla anı yitürdüm andın | 1. Gedərək onu oradan gətirdim; və xülasə, o səbəblə onu çatdırdım. |
| 2.Olça vü mal manga köp tüşti<br>Çirki- dünya koluma yapuştı | 2.Mənə çox qənimət və mal düşdü; dünyanın pisliyi əlimə yapışdı. |
| 3.Lik min yudum andın kolnı<br>Tanıdım menzil sarı yolnı | 3.Fəqət mən ondan əlimi yudum; və mənzilə doğru yola çıxdım. |
| 4.Yanıban kildim ise sultanğa<br>Körüp ol bigni yiberdi xanğa | 4.Dönüb Sultana geri gəldikdə; görüb o Bəyi Xana göndərdi. |
| 5.Pir Veli dağı boluban rüsva<br>Yıraban kaldı bir tağ ara | 5.Pir Vəli də rüsvay olub; uzaqlaşaraq bir dağda qaldı. |
| 6.Anı hem bir niçe sultan nökeri<br>Yurtavul yolıdağı reh-güzeri | 6. Sultanın bir çox adamları; onu da süvari öncülərinin yolunda, |
| 7.Tutuban taladılar pak-a-pak<br>Boldılar olçasıdın 'işret-nak | 7.Yaxalayaraq tamamilə talan etdilər; və qənimətindən sərxoş oldular. |
| 8.Biglerige çü bu iş saldı kaza<br>Boldı nökerleri barça rüsva | 8.Bəylərinin başına bu qəza gəldiyi üçün; adamları da rüsvay oldu. |
| 9.Tağlardın iniben kildiler<br>Barçası maldın ayırdılar | 9.Dağlardan enib gəldilər; və hamısı mallarından oldular. |
| 10.Boldı sultan nökeri barça ğani<br>Ançа mal boldı ki dip bolmas anı | 10.Sultanın adamlarının hamısı zəngin oldu; və o qədər mal oldu ki, onu anlatmaq mümkün deyil. |
| 11.Çün Hisar ehliğa yetti bu xaber<br>Vehmdin su kılıban barça ciger | 11.Hisar xalqına bu xəbər çatdığı zaman; qorxudan bütün ciyərləri su kəsilərək (əriyərək), |

| | |
|---|---|
| 1.Birdiler kal'alarnı xanğa<br>Xan dağı Hamza digen sultanğa | 1.Qalalarını Xana verdilər; Xan da Həmzə deyilən Sultana verdi. |
| 2.Çiriğin xan çü perişan kıldı<br>Özi Tirmiz güzerige kildi | 2.Xan, əsgərini pərişan etdiyi üçün; özü Tirmiz keçidinə (yoluna) gəldi. |
| 3.Olturup anda kimeler tüzdi<br>İlge derya güzerin körgüzdi | 3.Orada məskən salıb gəmilər hazırlatdı; və xalqa dərya yolunu göstərdi. |
| 4.Xalk alıp olçaların öttiler<br>Keş ü Karşı yolını tuttılar | 4.Adamlar qənimətlərini alıb keçdilər; Keş və Karşı yolunu tutdular. |
| 5.Öte kaldı iki ay olça vü mal<br>Olça vü mal ile leşker xoş-hal | 5.İki ay keçdi; qənimət və malla əsgər xoşbəxt idi. |
| 6.Kitti başını alıp Xusrev Şah<br>Xar u mefluk bolup asru tebah | 6.Xor, miskin və çox xarab olaraq; Xosrov şah baş alıb getdi. |
| 7.Kaçtı Babur dağı Kabil sarı<br>Şehri- Bezbaz u Karanfil sarı | 7.Babur da qaçdı Kabil tərəfinə; Bezbaz şəhəri və Qərənfil tərəfinə. |
| 8.Yıraban kaldı vilayet barı<br>Yıradı xalk vilayet sarı | 8.Vilayət də uzaqda qaldı; və xalq vilayət tərəfindən uzaqlaşdı. |
| 9.Her vilayetde birev saldı vatan<br>Kıldı her birni bir Özbek mesken | 9.Hər vilayətdə biri vətən qurdu; və hər birini bir özbək məskən eylədi. |
| 10.Hem Bedaxşanğa yayıldı leşker<br>Hem Kuhistanğa yayıldı leşker | 10.Əsgər, həm Bədəxşana yayıldı; həm Kuhistana yayıldı. |
| 11.Battılar malğa leşker barça<br>Aldılar kal'a vü kişver barça | 11.Əsgərin hamısı mala batdılar; bütün qala və ölkələri aldılar. |

| | |
|---|---|
| 1.Özi Sultan Bahadır Mahmud<br>Hazreti- Haknı kılay dip xoşnud | 1. Özü, Sultan Bahadır Mahmud;<br>həzrəti-Haqqı edim xoşnud |
| 2.Koydı Kunduzda binayı-İslam<br>Köz tigürdi anga amma eyyam | 2.Kunduzda İslam binasını təsis etdi; fəqət zamanın ona gözü dəydi (nəzərə gəldi). |
| 3.Kıldı bisyar mesacid ma`mur<br>Eyledi fısk ilini rencur | 3.Bir çox abad məscidlər tikdirdi; və bu işlər düşməni üzüntüyə saldı. |
| 4.Sürdi meydanı- şeri'atğa semend<br>Eyledi payeyi- minberni bülend | 4.Şəriət meydanına at sürdü; və minbərin payəsini yüksəltdi. |
| 5.Kıldı ta'yin basa mukri vü imam<br>Eyledi aşlık u yarmak in'am | 5.Sonra təyin etdi mukri və imam; ərzaq və pul etdi ənam. |
| 6.Didi kim her kim olur mektebdar<br>Eylerem lutf u inayet bisyar | 6.Belə dedi: “Hər kim məktəbə gedərsə, çox lütf və yaxşılıq edərəm”. |
| 7.Tüzdi ol Xusrevi- sufi-meşreb<br>Her mahalle başıda bir mekteb | 7.O sufi məşrəbli padşah; hər məhəllə başında bir məktəb qurdurdu. |
| 8.Şah çün eyledi bu nev' irşad<br>Boldı Kur'an okumaklık bünyad | 8.Padşah xalqı bu şəkildə irşad etdikdə; Quran oxumaq əsas oldu (hər kəs Quran öyrənməyə başladı). |
| 9.Taptı bir niçe müselman anda<br>Muztar u zar u perişan anda | 9.Orada çarəsiz, inləyən və pərişan; tapdı bir çox müsəlman. |
| 10.'Aybdın mezheb ü milletleri pak<br>Özleri fakr bile işret-nak | 10.Ayıbdan məzhəb və millətləri pak; özləri kasıb olsa da işrətə düşkündü. |
| 11.Eyledi birini şeyxü'l-islam<br>Birige kıldı kazanı in'am | 11.Birini Şeyxülislam etdi; və birinə də məhkəməni təslim etdi. |

| | |
|---|---|
| 1.Birini muhtesib itti ol şah<br>Amir ü nahi xalkı- güm-rah | l.O padşah birini yolunu çaşmış xalqa; əmir və adlı-sanlı muhtəsib (vergi məmuru) etdi. |
| 2.Her çağır kim bar idi töktürdi<br>Muhtesib anı töke ok turdı | 2.Olan bütün şərabı tökdürdü; və muhtəsib də onu tökməyə başladı. |
| 3.Boldı Kunduz ara İslam ağaz<br>Xalkığa eyledi terğibi- namaz | 3.Kunduzda islamiyyət yayılmağa başladı; və namazı Hənəfi məzhəbinə görə qılmağa başladı. |
| 4.Kırk yıl Kunduz ara Xusrev Şah<br>Bolmamış hiç bu yandın agah | 4. Xosrov şah qırx il Kunduzda olduğu halda; bu xüsusda heç məlumatı yox idi (üstündə durmamışdı). |
| 5.İçkü yigü bile meşğul irmiş<br>Nukl ile mey anga makbul irmiş | 5.İçki və yeməklə məşğul imiş; onun üçün məzə ilə şərab məqbul imiş. |
| 6.Yok imiş din sarıdın pervayı<br>Bar imiş içkü bile ok rayı | 6.Din yönündən qorxusu yoxmuş; və düşüncəsi tək içki haqqındaymış (həmişə içkidəymiş). |
| 7.İmdi Hazreti- Sultanı- zaman<br>Kıldı İslam'nı ol tavr 'ayan | 7.İndi Zamanın həzrətləri Sultan; İslamı bu şəkildə etdi əyan. |
| 8.Ehli- İslam 'ayan boldılar<br>Fasık il barça nihan boldılar | 8.Müsəlmanlar bəlli oldular; və yolunu azmış xalqın hamısı ortadan itdilər. |
| 9.Kadiyi- şehr atağan molla<br>Kildi sultanğa vü kıldı ima | 9.Şəhər qazısı təyin edilən Molla;, Sultana gəldi və işarə vurdu: |
| 10.Kim bu şehr içre besi kafir bar<br>Din ü İslam sözidin bizar | 10. Ki,bu şəhərdə din və İslam sözündən rahatsız olan; bir çox kafir var. |
| 11.Kadı çün sözni anga yitkürdi<br>Tiletip barçasını kiltürdi | 11.Qazı bu sözü ona dediyi zaman; hamısını istədib gətirdi. |

| | |
|---|---|
| 1.Eyledi barçasığa iman 'arz<br>Didi sizlerge budur vacib ü farz | 1.Hamısına iman ərz etdi (hamısını imana dəvət etdi); və dedi ki: Sizlərə vacib və fərz olan budur. |
| 2.Saçlarını yülütüp taşlattı<br>Barçasın din yolığa başlattı | 2.Saçlarını kəsdirdi; və hamını din yoluna yönəltdi. |
| 3.Rafızilerni kiterdi andın<br>Her biri bir sarı bardı andın | 3.Rafıziləri oradan sürdü; və hər biri oradan bir tərəfə getdi. |
| 4.Mundak işlerni kılğaç sultan<br>Boldılar Kunduz ulusı hayran | 4.Sultan bu işləri etdikdə; Kunduz xalqı heyrət etdi. |
| 5.İlge yüzlendi besi cem'iyyet<br>Boldı ol mülkde besi emniyyet | 5.Xalqın hamısı toplaşdı; və o məmləkətdə çox əmniyyət oldu. |
| 6.Boldı Kunduz ili barça dil-şad<br>Mihnet ü tefrikalardın azad | 6.Kunduz xalqının hamısının könlü oldu şad; möhnət və təfriqədən oldu azad. |
| 7.Lik yüzlendi belalar bizge<br>Yetti ol yerde cefalar bizge | 7.Lakin, bizə o yerdə bəlalar üz verdi; və başımıza çox cəfalar gəldi. |
| 8.Bu sebebdin ki uşol şahı-kiram<br>Kim kavi bar idi andın İslam | 8.Elə bu səbəbdən özüylə İslamın qüvvət tapdığı; o uca Padşah, |
| 9.Ol vilayet ara boldı bimar<br>Kıldı bimarlığı canığa kar | 9. O vilayətdə oldu bimar(xəstə); və xəstəliyi canına etdi kar. |
| 10.Hasbe renciğa giriftar oldı<br>Cismiğa derd kavi yar oldı | 10.Qızılca dərdinə giriftar oldu; və həddən artıq cismi dərdə düşdü. |
| 11.Niçe kim boldı marazdın aciz<br>Kılmadı terk namazın hergiz | 11.Xəstəlikdən nə qədər gücsüz olsa da; namazını əsla tərk etmədi. |

| | |
|---|---|
| 1.Çün maraz kıldı teni içre makam<br>Kıldılar Hazreti- xanğa i'lam | 1.Xəstəlik bədənində yerləşincə; Xan həzrətlərinə (vəziyyəti) bildirdilər. |
| 2.Xan körüp derdlik andın cannı<br>Yibere birdi Timür Sultannı | 2.Xan canını dərdli görüb; Timur Sultanı göndərdi. |
| 3.Kilgüçe kaşığa Timür Sultan<br>Yitküçe başığa Timür Sultan | 3.Timur Sultan hüzuruna gəlincə; və baş ucuna varınca, |
| 4.Kildi canığa Xudadın peyğam<br>Xastağa darı- şifadın peyğam | 4.Canına Allahdan xəbər gəldi; xəstəyə şəfaxanadan xəbər gəldi: |
| 5.Kim bu zindanda niçe turğay-sin<br>Derd birle niçe olturğay-sin | 5. Ki, “Bu zindanda nə qədər duracaqsan; və dərdlə nə qədər oturacaqsan (gözləyəcəksən)? |
| 6.Sening üçün yasadım bağı-behişt<br>Kilsene bağınga ey hur-sirişt | 6.Sənin üçün cənnət bağı hazırladım; gəlsənə bağına ey huritəbiətli. |
| 7.Bar müheyya sanga bisyar kusur<br>Muntazır anda sanga yüz ming hur | 7.Sənə hazırlanmış bir çox qəsr var; və orada yüz min huri sənin üçün çəkir intizar. |
| 8.Aç közüngni vü yiringi körgil<br>Özni asli yeringe yitkürgil | 8.Gözünü aç və yerini gör; özünü əsl məkanına çatdır”! |
| 9.Çün bu peyğamnı taptı sultan<br>Körüp öz yerni boldı şadan | 9.Sultan bu xəbəri alınca; öz yerini görüb sevindi. |
| 10.Tingri peyğamı bile kıldı sefer<br>Eyledi mülki- beka sarı güzer | 10.Tanrı xəbəri ilə səfər etdi; və əbədiyyət aləminə güzər etdi. |
| 11.Cesedi kaldı canı bardı<br>Tire dünyadın özin ötkerdi | 11.Cəsədi qaldı, canı getdi; və qaranlıq dünyadan özünü xilas etdi. |

| | |
|---|---|
| 1.Hayf u yüz hayf uşol sultandın<br>Hayf ol merhameti- Yezdandın | 1.Heyf, yüz heyf o Sultandan; və Tanrının rəhmətinə qovuşan o Sultandan. |
| 2.Hayf kim bat sefer itti asru<br>Dehrdin bat güzer itti asru | 2. Çox tez (o biri aləmə) səfər etdiyi üçün heyf; və bu dünyadan çox tez köçdüyü üçün heyf. |
| 3.Hayf kim naxlı- 'adalet sındı<br>Hayf kim takı şeca'at indi | 3.Heyf ki ədalət fidanı qırıldı; heyf ki şücaət tağı devrildi. |
| 4.Hayf kim asru yigit bardı yigit<br>Özini dünyadın ötkerdi yigit | 4.Heyf ki çox gənc, gənc yaşda getdi; və özünü dünyadan gənc yaşda köçürdü. |
| 5.Hayf kim boldı yigitlik bi-tavr<br>Hayf kim boldı yigitlerge cevr | 5.Heyf ki igidlik bu tövr oldu (önəmi qalmadı), heyf ki igidlərə cövr(cəfa) oldu. |
| 6.Boldı eyvanı- sexavet viran<br>Dandı bağı- mürüvvetğa xazan | 6.Səxavət eyvanı oldu viran; və mürüvvət bağına yetişdi xəzan. |
| 7.Boldı sultanlık işi na-mazbut<br>Şahlık silsilesi na-merbut | 7.Sultanlıq işi möhkəm olmadı; və padşahlıq silsiləsi namərbut oldu. |
| 8.Kim bahadırlık işi boldı xarab<br>Hem bahadırlar anga barça kebab | 8.Qəhrəmanlıq işi oldu xarab; onun üçün bahadırların ürəyi oldu kabab (yandı). |
| 9.Hem şeri'at ili zar oldılar<br>Zar u bi-sabr u karar oldılar | 9.Həm də şəriət əhli pərişan oldu; zar və səbr ü qərarsız oldu. |
| 10.Hem tarikat ili kıldılar ah<br>Kim tarikat şehi irdi ol şah | 10.O şah təriqətin şeyxi olduğundan; bütün təriqət əhli ah u fəğan etdi. |
| 11.Hem hakikat ulusı kavruldı<br>Hem hakayık çemeni savruldı | 11.Həm həqiqət ulusu (yolunda olanlar) qovruldu; həm də həqiqət çəməni sovruldu. |

| | |
|---|---|
| 1.'İlmning defteri boldı berbad<br>Boldılar ilm ulusı na-şad | 1.Elmin dəftəri oldu bərbad; və elm sahibiəri oldular naşad. |
| 2.Fakr ili yer bile teng oldılar<br>Her biri bir sarı savruldılar | 2.Fakr əhli yerlə bir oldu; və hər biri bir tərəfə sovruldu. |
| 3.Na-murad oldılar asru şu'ara<br>Na-tüvan boldılar asru fuzala | 3.Bir çox şairlər muradsız oldular; və çox fazil adamlar gücsüz (dərdli) oldular. |
| 4.Kalmadı hiç kişi ğam yimegen<br>Ah u efsus bu ğamdın dimegen | 4.Heç kim qalmadı qəm yeməyən; heç kim qalmadı ah və əfsus deməyən. |
| 5.Her kişi kim körüp irdi anı<br>Köydi bu ğam bile mungluğ canı | 5.Onu görən hər kəsin; bu qəmlə dərdli canı yandı. |
| 6.Hem ra'iyyet kıla kaldı feryad<br>Kim birür imdi diben bizge dad | 6.Xalq fəryad etdi; və "İndi bizə ədaləti kim verəcək?" dedi. |
| 7.Bigleri barça kara kiydiler<br>Xil'atı- ehli- 'aza kiydiler | 7.Bəylərin hamısı qara (paltarlar) geyindilər; və matəm əhlinin hamısı matəm paltarı geyindilər. |
| 8.Saldılar barça boyunğa kara kiz<br>Aldılar barça boyunğa kara kiz | 8.Hamısı boyunlarına qara keçə doladılar; və hamısı boyunlarına qara keçə sarıdılar. |
| 9.Kaldı biçare Urus Big ögürüp<br>Yakasın çak kılıp ah urup | 9.Biçarə Urus Big, yaxasını yırtıb; ah edərək özünü itirdi. |
| 10.Nevha-saz boldı bu yanglığ miskin<br>Key şehi- millet ü ey Xusrevi-din | 10. O miskin bu şəkildə növhə deməyə başladı ki;"Ey millətin padşahı və ey dinin Xosrovu, |
| 11.Sin bolup Tingri visalıdın şad<br>Dehr zindanıdın oldung azad | 11. Sən tanrıya qovuşmaqla oldun şad; dünya zindanından oldun azad. |

| | |
|---|---|
| 1.Bizni koydung bu bela vü ğamda<br>Bı-nihayet elem ü matemde | 1.Bizi qoydun bu bəla və qəmdə; nəhayətsiz ələm və matəmdə. |
| 2.Sindin ayru ni kirek bizge hayat<br>Tilemes-biz bu cihan içre sebat | 2.Səndən ayrı bizə həyat nə gərək; və bu cahanda artıq qalmağı diləmərik. |
| 3.Kanı başıng üze biçare anang<br>Yaxşılık mülkide avare anang | 3.Hər zaman başının üzərində olan biçarə anan harada; yaxşılıq ölkəsində avara olan anan harada? |
| 4.Kanı oğlung şeh-i dlndar 'Ubeyd<br>Körmeyin kaldı sini zar 'Ubeyd | 4.Hanı dindar şah olan Übeyd;Görmədən səni inləyərək qaldı Ubeyd". |
| 5.Almaçuk bir sarıdın çikti ün<br>Ünidin il başığa çıktı tütün | 5.Almaçuk bir tərəfdən fəryada başladı; və fəryadından xalqın başına duman çıxdı (xalqa təsir etdi). |
| 6.Didi ey can bile ting sultanım<br>Köydile ta'ziye tingdin canım | 6.Dedi ki: "Ey can ilə bir Sultanım; təziyətindən yandı təndə canım. |
| 7.Yigit oğlungnı yetim itting la<br>Kayğu mülkide mukim itting la | 7.İgid oğlunu yetim qoydun; qayğı ölkəsində iqamət etdirdin. |
| 8.Yiberip irdi anı Türkistan<br>Kim tilep irdi Süyünçek Sultan | 8.Onu, Süyünçək Sultan dilədiyindən; Türküstana göndərmişdi. |
| 9.Ol barıp anda küyev bolup imiş<br>İstegen dil-berini kolup imiş | 9. O gəlib orada kürəkən olmuş (evlənmiş); və istədiyi dilbərini almış. |
| 10.Uşbu kün tangla yitip kilgüsidür<br>Matemingni işitip kilgüsidür | 10.Elə bu sabah erkəndən gələcəkdi; matəmini eşidib gələcəkdi. |
| 11.Niteli ni kılalı çare nidür<br>Çareyi- bir bölek avare nidür | 11.Nə edək, çarəsi nədir; və bir yığın avaranın çarəsi nədir? |

| | |
|---|---|
| 1.Toy başlap kiledür la oğlung<br>Ğamnı taşlap kiledür la oğlung | 1.Oğlun, məclisə başçılıq etməyə gələcəkdir;oğlun qəmi ataraq gələcəkdir. |
| 2.Tüzmeding toyını başlarğa sin ay<br>Köyedür-min bu elem birle min ay | 2 Məclisə başçılıq etmədiyin üçün; bu ələmlə mən yanmaqdayam". |
| 3.Bigleri her biri bir söz didiler<br>Her biri özgeçe kayğu yediler | 3.Bəylərinin hər biri bir söz söylədilər; və hər biri başqa şəkildə mütəəssir oldular. |
| 4.Çün yığı boldı vü nevha bisyar<br>Didiler imdi nidür çareyi- kar | 4.Hər kəs çox ağlayıb inləyincə; bu işin çarəsi nədir deyə soruşdular. |
| 5.Ğam bile bir niçe kavruldılar<br>Kılur işlerni kılur boldılar | 5.Bir çoxu qəmlə qovrulddular; və görülməli işləri görməyə başladılar. |
| 6.Birdiler ğasl anga düstur bile<br>Turuban xatırı- rencur bile | 6.Ona üsuluna görə qüsl verdilər; üzüntü ilə yudular. |
| 7.Kıldılar bat mükemmel kefenin<br>Yaptılar anıng ile pak tenin | 7.Dərhal mükəmməl şəkildə kəfənlədilər; və kəfənlə onun təmiz bədənini örtdülər. |
| 8.Saldılar cismini tabut ara<br>Kılıban nale bilen vaveyla | 8.Nalə və fəryad edərək; cismini tabuta qoydular. |
| 9.Kıldılar na'şığa ahrarı- namaz<br>eylep barısı suz u güdaz | 9.Hamısı yanıb yaxıldılar; nəşinə cənazə namazı qıldılar. |
| 10.Uşbu halet ara Timür Sultan<br>Yığlaban kirdi tartıp efğan | 10.Elə bu halətdə ikən Timur Sultan; İçəri girdi edərək fəryad və fəğan. |
| 11.Köterip urdı özini yirge<br>Kalmadı kuvveti bir söz dirge | 11.Özünü qaldırıb yerə vurdu; və bir söz deməyə qüvvəti qalmadı. |

| | |
|---|---|
| 1.İssi azdı vü özidin bardı<br>Digesin ol hem özin ötkerdi | 1.Ağlı başından çıxıb özündən getdi; sanki özünü öldürür deyərsən. |
| 2.Taze boldı yene dağı- matem<br>Yene il könglige kar itti elem | 2.Yenə matəm yarası təzələndi; və yenə xalqın könlünə ələm təsir etdi. |
| 3.Müddeti kilmedi sultan özige<br>Asru hayf eyledi ol can özige | 3.Bir müddət Sultan özünə gələ bilmədi; və o can özünə çox heyf etdi. |
| 4.İmdi kim kildi özige sultan<br>Asru köp yığladı vü kıldı fiğan | 4.Sultan, indi özünə gəldiyi vaxt çox ağladı; çox ağlayıb fəğan etdi. |
| 5.Lik sud itmedi ol efğan hiç<br>Anga rahm eylemedi devran hiç | 5.Fəqət o fəğanlar heç fayda etmədi; və dövran ona heç rəhm etmədi. |
| 6.Çün basıldı yığı bigler barı<br>Didiler niçe ğam olsa karı | 6.Bəylərin hamısı göz yaşına boğulduğu üçün dedilər ki; Nə qədər qəm olsa yeridir. |
| 7.Ğam yimeng bolmağalı bi-çare<br>Tingrining xastige ni çare | 7.Qəm yeməyin, biçarə olmayın; Tanrının istəyinə nə çarə? |
| 8.Gül eger barsa çemen bar olsun<br>Ornıda serv ü semen bar olsun | 8.Əgər gül varsa, çəmən (də) var olsun; özündə sərv və səmən var olsun. |
| 9.Xan tirig bolsun u Timür Sultan<br>Oğlı bar ornıda kılğay cevlan | 9.Xan sağ olsun, Timur Sultanın; yerini alacaq oğlu var. |
| 10.Kal'ada bir niçe big tursunlar<br>Derd ile 'ayşını tirig körsünler | 10.Qalada bir miqdar bəy qalsın; və bu dərd ilə yaşasın. |
| 11.Ağası na'şını Timür Sultan<br>Ala barsun ki niler boldı xan | 11.Timur Sultan böyük qardaşının nəşini alıb getsin; baxaq Xana nələr oldu? |

| LXVI<br>**Mağzu's-saltanat Timür Sultan Muzafferüddin Sultan Mahmud Bahadırnıng na'şını Kunduzdın Karşığa kiltürgeni ve Hazreti- İmamü'z-zaman ve xalifetü'r-rahman derd-mendane nevalar bile nevhasaz bolup Buxarağa anaları üçün ve 'Ubeyd Sultan üçün ilçi yibergenleri** | LXVI<br>**Səltənətin özü olan Timur Sultanın Müzəffərüddin Sultan Mahmud Bahadırın cənazəsini Kunduzdan Karşıya gətirməsi və Zamanın İmamı və Allahın Xəlifəsi həzrətlərinin dərdli -dərdli inləyib Buxaraya anaları üçün və Übeyd Sultan üçün elçi göndərmələri** |
|---|---|
| 1.Çün kingeş bigler ara taptı karar<br>Kıldılar na' ş yarağın tayyar | 1.Bəylər arasında istişarə qərarlaşdırıldığı zaman; cənazə hazırlığını gördülər. |
| 2.Çehre vü içki atlık barı<br>Tüzüben nevha vü ah ü zarı | 2.İgidlər və saray mənsubları hamısı; atlı olaraq növhə deyib, ahü-zarə başlayaraq; |
| 3.Çıktılar na'ş bile Kunduzdın<br>Kılıban barçası tün Kunduzdın | 3.Hamısı gecələyib; cənazə ilə Kunduzdan çıxdılar. |
| 4.Barçasını yığıp eylep efğan<br>Tipredi Xan sarı Timür Sultan | 4.Hamını toplayaraq, fəğan eyləyib; Timur Sultan Xan sarı hərəkət etdilər. |
| 5.Ol ögüzdin ötüben kilgünçe<br>Kime vü sal işin kılğunça | 5.O çaydan keçib gəlincə; gəmi və sal işini hazırlayınca; |
| 6.Xan uzap Karşığa barıp irdi<br>Leşkeri ol sarı darıp irdi | 6.Xan keçib Karşıya getmiş idi; və əsgəri də o tərəfə çatmış idi. |

| | |
|---|---|
| 1.Sin iding naxlı- hayatım semeri<br>Sin iding bergi- ümidim şeceri | 1.”Həyatımın fidanı, meyvəsi sən idin; ümidimin yarpağı, ağacı sən idin. |
| 2.Natüvan könglüme kuvvet sin iding<br>Şahı- erbabı- fütüvvet sin iding | 2.Qüvvətsiz könlümə səadət sən idin; fütüvvət ərbabının padşahı sən idin. |
| 3.Uşbu sa'atğaça hüccet kılmay<br>Çirigimde yörüdüng ayrılmay | 3.Bu saata qədər höccət qılmadan; əsgərimlə ayrılmadan yeridin. |
| 4.Bir yolı ayrılıban kitting la<br>Mini bir yolı ğarib itting la | 4.Sadəcə bir dəfə ayrılıb getdiniz; və məni sadəcə bir dəfə qərib etdiniz. |
| 5.Allah Allah bu ni ayrılmak idi<br>Allah Allah bu ni yakılmak idi | 5.Allah Allah, bu nə ayrılmaq idi; Allah Allah, bu nə yaxılmaq idi”. |
| 6.Çün bu sözlerni didi Hazreti-xan<br>Boldı bisyar xurüş u efğan | 6.Xan həzrətləri bu sözləri söylədikdə; çox hönkürtü və inləmələr oldu. |
| 7.Boldı ğavğayı- garibi peyda<br>Asmanğa yete bardı ğavğa | 7.Qəribə bir dava peyda oldu; və gurultu göyə yüksəldi. |
| 8.Yığı vü nevha çü taptı teskin<br>Kildi öz halığa xanı- miskin | 8.Göz yaşı və ölüyə səslə ağlama dayandıqda; zavallı Xan özünə gəldi. |
| 9.Didi takdirğa yoktur tedbir<br>Barçağa yitküsi hükmi- takdir | 9.Dedi: “Təqdirə tədbir yoxdur; və hökmü-ilahidir, hər kəsə çatacaqdır təqdir. |
| 10.Yibering imdi anamızge kişi<br>Kim kilip bir niçe ah olsun işi | 10.İndi anamıza bir adam göndərin ki; gəlib ah etsin,ağı desin. |
| 11.Körüp oğlını köngül savutsun<br>Tingrining hükmiğa boyun tutsun | 11.Oğlunu görüb könlünü təsəlli etsin; və Tanrının hökmünə boyun əysin. |

| | |
|---|---|
| 1.Oğlı vü köçleri kilsünler<br>Kılur işlerni barı kılsunlar<br>**LXVII**<br>**Ubeyd Sultan anaları bile**<br>**Karşığa kilgenleri**<br>2.Çün Buxarağa yetişti bu söz<br>Barça il ayta kirişti bu söz | 1.Oğlu və karvanları gəlsinlər; və hamı görüləcək işləri görsünlər”.<br>**LXVII**<br>**Übeyd Sultanın anaları ilə**<br>**Karşıya gəlmələri**<br>2.Bu söz Buxaraya çatdıqda; bütün xalq bu sözü danışmağa başladı. |
| 3.Anasığa didiler hazreti- xan<br>Kildi Karşı bile Sinçe sultan | 3.Anasına, "Xan həzrətləri; Sultan ilə birlikdə Karşıya gəldi." dedilər. |
| 4.Sizni kilsün didiler ol ikki şah<br>Köçlerni ala kilsün hem-rah | 4."Ö iki padşah sizin üçün; yanlarına köçlərini də alaraq gəlsin!" dedilər. |
| 5.Kim 'Ubeyd ivleniben kilgen üçün<br>Xan anıng kilgenini bilgen üçün | 5.Übeyd evlənib gəldiyi üçün; və Xan onun gəldiyini bildiyi üçün, |
| 6.Karşıda toy kılıptur engiz<br>Tiz kilsün barını diptür tiz | 6.Karşıda hər halda; toy hazırlığı başlamışdır; onun üçün hamı tez gəlsin, demiş. |
| 7.Uşbu sözler bile Şehzade 'Ubeyd<br>Kim anga tayiri- devletdür sayd | 7.Özünə dövlət quşunun ov olduğu (başına dövlət quşu qonan); Şahzadə Übeyd elə bu sözlərlə; |
| 8.Köçlerni alıban atlandı<br>Lik ğamğa kalıban atlandı | 8. Köçləri (eşlərini) alıb atlandı; lakin qəmə batıb atlandı. |
| 9.Kim 'aceb vakı'alar körüp idi<br>Anı ta'birçidin sorup idi | 9.Əcayib röyalar görmüşdü; və onu təbirçidən (yuxu yozan) soruşmuşdu. |
| 10.Bilmes irdi ki ne bolğay ahval<br>Bar idi xatırıda gerdi-melal | 10.Vəziyyətin nə olacağını bilməzdi; içində sıxıntı vardı. |

| | |
|---|---|
| 1.Yörüben Karşığa çün yittiler<br>Xanğa yitkenlerini ayttılar | 1.Yürüyüb Karşıya çatdıqları zaman;<br>Gəldiklərini Xana xəbər verdilər. |
| 2.Xan didi aytıng anağa halın<br>Eylengiz 'arz anga ahvalın | 2.Xan, əhvalatı anaya söyləyin ;və ona vəziyyətini ərz edin, dedi. |
| 3.Xan bu sözni digeç ol halet ara<br>Bardılar bigler uşol sa'at ara | 3.Xan bu halda o sözü söylədikdə; bəylər eyni saatda gəldilər. |
| 4.Toy dip kilgen anağa fi'l-hal<br>Didiler kim ne bolup-tur ahval | 4.Toy deyib gələn anaya; dərhal vəziyyətin nə olduğunu söylədilər. |
| 5.Toy matemğa mübeddel boldı<br>Karşı başığa cihan ivrüldi | 5.Toy matəmə çevrildi; və dünya Karşı başına yıxıldı. |
| 6.Kararıp kildi bölek matem ili<br>Mihnet ü ğussa vü derd ü ğam ili | 6.Matəm xalqı, möhnət, kədər, dərd və qəmli olan; bir bölük xalq üzülüb gəldi. |
| 7.Körgeç ol ilni karardı Bigim<br>Ömr bağıda kuvardı Bigim | 7. O xalqı gördükdə Bigimin dünyası qaraldı; və ömür bağında bənizi soldu. |
| 8.Gerçi bi-çare karardı amma<br>Ak saç yaptı anı ol il ara | 8.Baxmayaraq biçarə üzüldü amma; ağ saç onu o xalq arasında gizlədi. |
| 9.Yaydı ak saçını eylep feryad<br>Kararıp közi yıkıldı naşad | 9. Ağ saçlarını dağıtdı edib fəryad; və gözü qaralıb yıxıldı naşad. |
| 10.Oğlı hem eyledi derdin izhar<br>Yığlaban xalknı yığlattı zar | 10.Oğlu da dərdini göstərdi; və ağlayıb inləməklə xalqı ağlatdı. |
| 11.Boldı xanımları hem nağme-seray<br>Didiler barçası ey Barı- Xuday | 11.Xanımları da ağılar söylədilər; və hamısı: Ey Allahım!dedilər: |

| | |
|---|---|
| 1.Kaş Sultan kaşıda ölgey idük<br>O1 tirig bolğay idi bizler ölük | 1.Kaş ki Sultan hüzurunda ölsəydik; o, diri olaydı, bizlər ölsəydik”. |
| 2.Xan bu halet ara ferzaneliyin<br>İlge körgüzdi merdaneliyin | 2.Xan bu halət ilə fərzanəliyini; xalqa göstərdi mərdanəliyini. |
| 3.Matemiler başığa sürdi kadem<br>Didi Tingridin irür bu matem | 3.Matəmlilərin başına gəldi; və bu matəm tanrıdandır, dedi. |
| 4.Anasığa didi ey kıbleyi -can<br>Bu irür hükmi- Xudavendi-cihan | 4. Anasına dedi: “Ey can qibləsi; cahan hökmdarının (Allah) hökmü budur. |
| 5.01 barıp özge kişi kalğusı yok<br>Hiç kim mülki- ebed alğusı yok | 5. O gedib də başqasının qalacağı yox; və heç kimin əbədiyyət ölkəsini alacağı yox. |
| 6.İmdi ğamdın ayıra kör özni<br>Kan yaşıngdın ayıra kör közni | 6.İndi, özünü qəmdən ayırmağa bax; və gözünü qanlı yaşından ayırmağa bax (ağlamağı burax). |
| 7.Yitse ilning başıda hükmi-ezel<br>Bir zaman ilgeri song koymas ecel | 7.Xalqın başına  çatanda hökmi-əzəl; bir an olsun , nə irəli, nə də geriyə qoymaz əcəl”. |
| 8.Xan bu sözlerni diben koptı bat<br>Gerçi körgüzdi besi sabr u sebat | 8.Xan, çox səbir və səbat göstərdi; amma bu sözləri söyləyib dərhal qalxdı. |
| 9.Közini arıta çıktı vü revan<br>Didi kim yirige yitsün sultan | 9. Gözünü sildi və yeridi; və Sultan yerinə çatsın, dedi. |
| 10.Yükletip anı Semerkand sarı<br>Yibere birdi akıp yaşları | 10.Onu Səməqənd tərəfinə yüklədib; göz yasları içində göndərdi. |
| 11.Xan Semerkand ara med-reseyi<br>Asru mazbut bina medreseyi | 11.Xan, Səmərqənddə çox; abad bir mədrəsə binası |

| | |
|---|---|
| 1.Yasatıp-tur ki nişani bolğay<br>Eseri- devleti- xani bolğay | 1. Saldırmışdır ki, o Xanın dövlətinin göstəricisi olacaq. |
| 2.Didi ol medresening sahnı ara<br>Kılsun ol yaxşı karındaş me'va | 2.Dedi: O mədrəsənin həyətində; o gözəl qardaş məskən tutsun (oraya gömülsün). |
| 3.Xan sözi birle uşol yer medfen<br>Boldı Sultanğa ruşen mesken | 3.Xanın sözü ilə o dəfn edildiyi yer; Sultana işıqlı məskən oldu. |
| 4.Xan yibergeç anı medfen sarı<br>Saldı yol külbeyi- maxzen sarı | 4.Xan onu dəfn edincə; ailəsinə doğru yol aldı. |
| 5.Körüp oğlını ciger çak oldı<br>Yer ü kök başı üze ivrüldi | 5.Oğlunu görüb ürəyi parçalandı; yer və göy başına yıxıldı. |
| 6.Tileben yanığa aldı anı<br>Didi közüm közi canım canı | 6.Onu diləyərək yanına aldı; və dedi : “Gözümün gözü, canımın canı, |
| 7.Manga rahatğa atangdın yol idi<br>Manga dünyide körer köz ol idi | 7.Mənə rahatlıq yolu atandan idi; və mənə dünyada görən göz o idi. |
| 8.Felek 'ömride yulduz sin iding<br>Anga 'alemde körer köz sin iding | 8.Fələyin ömründə (yaşarkən) ulduz sən idin; və ona aləmdə görən göz sən idin. |
| 9.Çün manga ol idi çeşmi-ruşen<br>Bes közümning közi sin bolğay-sin | 9.Mənim gözümün işığı o olduğu üçün; artıq gözümün gözü sən olacaqsan. |
| 10.Şahım ol irdi vü sultanım ol<br>Natüvan cismim ara canım ol | 10.Padşahım və Sultanım o idi; gücsüz bədənimdə canım o idi. |
| 11.Çün manga can idi ol kanı-edeb<br>Canı- canım sini disem ni 'aceb | 11.O ədəb kanı (mədəni) mənə can olduğu üçün; sənə canımın canı desəm çox əcəb olar. |

| | |
|---|---|
| 1.Hasılı- ruhı- revanı sin iding<br>Belki 'alem ara canı sin iding | 1.Ruhi- rəvanın hasili sən idin; və bəlkə aləmdə bir can sən idin. |
| 2.Bar atang ornıda sultan bolğıl<br>Şahidi- feth ü zaferni kolğıl | 2.Get, atanın yerinə sultan ol; və fəth və zəfər gözəlini əldə et! |
| 3.Ger yırak sin manga öz oğlumdın<br>Yaxşırak sin manga öz oğlumdın | 3.Hərçənd uzaqsan, mənə öz oğlumdan; ancaq mənə daha yaxşısan öz oğlumdan. |
| 4.Ked-xudalık sanga kutluk bolsun<br>Padşalık sanga kutluk bolsun | 4.Sənə evlilik mübarək olsun; və sənə padşahlıq mübarək olsun. |
| 5.Urus irdi atang allıda uluğ<br>Anga Durmandin irür bes köp uruğ | 5.Urus (sənin)atanın nəzərində uca idi; və Durmandan çox soyu vardır. |
| 6.Her ne ol dise sözidin çıkma<br>Bir yıkıldı dağı anı yıkma | 6.O, hər nə desə sözündən çıxma ;və bir (dəfə) yıxıldı, onu bir  daha yıxma! |
| 7.Bu atang 'adet ü düşturı bile<br>Ruşen ol dayim anıng nurı bile | 7.Atanın bu adət və düsturu ilə; və onun nuru ilə daim parlaq ol"! |
| 8.Uşbu sözlerni diben sultanğa<br>Yibere birdi Suristanğa | 8. elə bu sözləri söyləyib Sultana; Xan göndərdi onu Suristana. |
| 9.Ya'ni kim mülki- Buxara sarı<br>Nemeki- cenneti- dünya sarı | 9.Yəni ki, Buxara şəhərinə doğru; dünya cənnəti ləzzətinə doğru, |
| 10.Bardı Sultan bile Bigim giryan<br>Özining ölmesi üçün hayran | 10.Sultan ilə Bigim ağlayaraq; və onun ölməsinə acıyaraq getdilər. |
| 11.Bardılar Bigim ile xanımlar<br>Ah u feryad kıla xanımlar | 11.Bigim ilə xanımlar; ah və fəryad edərək getdilər. |

| | |
|---|---|
| 1.Xan takı taxt sarı sürdi semend<br>Fikri- Xarezm sarı saldı kemend | 1.Xan da taxta doğru yol aldı; və Xarəzm fikri ilə yola çıxdı. |
| **LXVIII**<br>**Bende Salihning İmamü'z-zaman xıdmetiğa kilgeni ve İmamü'z-zaman vaki'ası bile ğazelin istima' kılğanı** | **LXVIII**<br>**Bəndə Salihin Zamanın İmamının xidmətinə gəlməyi və Zamanın İmamı hadisəsi ilə bir qəzəlini eşitməsi** |
| 2.Bende songrek kalıp irdim bimar<br>Bolup ol vaki'adın xan efğar | 2.Mən qul daha sonra, xəstələndim;o hadisəyə görə xan da xəsarət aldı |
| 3.Kaklik atlık irür yaylağı<br>Dime yaylağ ki xurrem bağı | 3.Yaylağın adı Kaklikdir; yaylaq demə cənnət bağıdır. |
| 4.Zineti-mülk Semerkand andın<br>Kemliki yok basa hiç bustandın | 4. Bu səbəbdən şəhər (lər)in bəzəyi Səmərqəndin; bustandan heç əksiyi yox. |
| 5.Hem Semerkand sevadığa tutaş<br>Hem Semerkandğa özi kardaş | 5.Kaklik şəhəri həm Səmərqəndin bitişiyindədir; və həm Səmərqəndə özü qardaşdır. |
| 6.Xan yitip anda makam itkendür<br>Ol gülistanğa makam itkendür | 6.Xan gəlib orada yerləşmişdir; və o gülüstanda məqam eyləmişdir. |
| 7.Min yetip anda körünüş kıldım<br>Xan kaşında yürekimni tildim | 7.Mən oraya çatıb hüzura çıxdım; və Xanın hüzurunda ürəyimi açdım. |
| 8.Lik xan bildi besi halımnı<br>Bilmedi hiç kişi ahvalımnı | 8.Heç kim anlamadığı halda; Xan halımı çox yaxşı anladı. |
| 9.Xanğa ma`lum idi kim ol sultan<br>Bendege eylep idi lutf a'yan | 9.Xana məlum idi ki, o Sultan; mən qula nə qədər lütf göstərib. |

| | |
|---|---|
| 1.Bir zaman il körünüşdin kitgeç<br>Derd ayturğa fursat yetkeç | 1.Bir zaman xalq hüzurdan gedincə; və dərd anlatmaq üçün fürsət gəlincə, |
| 2.Eyledi lutf u 'inayet izhar<br>Didi ey Salihi- sergeşteyi- zar | 2.Lütf və inayət göstərdi; və dedi : “Ey çaşqın Salih, |
| 3.Mülki- Kunduz sarı barğaç Sultan<br>Mini bir vaki'a kıldı hayran | 3.Sultan Kunduz şəhəri tərəfinə çatanda; məni bir hadisə heyrətə saldı. |
| 4.Min ferağat bile konuşumda<br>Bir kişi kildi mening tuşumda | 4.Mən fərağətlə oturduğum vaxt; bir nəfər qarşıma gəldi. |
| 5.Didi kopğıl ne yatıp-sin kopğıl<br>Ni töşek içre batıp-sin kopğıl | 5.Dedi: “Qalx, nə yatırsan, qalx; və nə döşək içinə batmısan, qalx! |
| 6.Kim bir atıngnı oğurlaydurlar<br>Sini uyku bile aldaydurlar | 6. Ki,bir atını oğurlayırlar; və səni yuxuyla aldadırlar”. |
| 7.Didim atım köp irür ey nadan<br>Birini alsalar axir ni ziyan | 7.Dedim: atım çoxdur, ey nadan,; və birini alsalar axı nə ziyan (var)? |
| 8.Yene didi mahal asraydurlar<br>Cibe atıngnı oğurlaydurlar | 8.Dedi;Yenə fürsət axtarırlar ki; sənin zirehli atını (savaş atını) oğurlasınlar. |
| 9.Min didim cibe atım bar bisyar<br>Biri yok bolsa ni pervayım bar | 9.Mənim bir çox zirehli atım var; biri itsə əndişəm yox, dedim. |
| 10.Kaytara didi sening cibe atıng<br>Kim alar birle sening bar ciheting | 10.Qayıdıb dedi: Sənin onlarla; bağlı olduğun zirehli atın; |
| 11.İkkidür birin alur boldılar<br>Könglünge fikr salur boldılar | 11.İki (dənə)dir, birini aldılar; və könlünə rəxnə saldılar. |

| | |
|---|---|
| 1.Min didim kaysını alur oğrı<br>Kim manga tefrika salur oğrı | 1.Mən, oğru hansını alar; və mənə üzüntü verər, dedim. |
| 2.Didi alur kongar atıngnı sening<br>Ol sözidin yürekim köydi mening | 2.Sənin qonur atını alar, dedi; və bu sözündən mənim ürəyim yandı. |
| 3.Uyğanıp kildim ise uykudın<br>Xatır aşufte idi kayğudın | 3.Yuxudan oyandıqda; qayğıdan könlüm darmadağın idi. |
| 4.Dir idim bu kim ikin ya ne ikin<br>Yene könglümde ni ot yana ikin | 4.Bu kim imiş,nə imiş əcəba; və yenə könlümdə nə atəş yanmaqda imiş, deyirdim. |
| 5.Çün xaber kildi ki Sultan Mahmud<br>Boldı ağrığ, başıma çıktı dud | 5.Sultan Mahmud xəstələndi deyə; xəbər gəldikdə başımdan tüstü çıxdı. |
| 6.Könglüme kildi ki oldur kongar at<br>Kim tüşümde didi bir 'ali-zat | 6.Ürəyimdən keçdi ki, yuxumda ulu bir zatın; söylədiyi qonur at elə odur". |
| 7.Çün bu tüşni didi ol xanı-büzurg<br>Kıbleyi- silsileyi- 'alemi- Türk | 7. O bütün Türk aləminin qibləsi olan; ulu Xan bu yuxunu söylədiyi vaxt; |
| 8.Közidin yaşğa icazet birdi<br>Könglidin bir niçe derd ayırdı | 8.Gözündən yaşlar axdı; və könlündən bir neçə dərdi ayırdı (apardı). |
| 9.Derd çün eyledi köp zur anga<br>Bu ğazelni çıkarıp birdi manga | 9.Dərd onu çox üzüncə; bu qəzəli çıxarıb mənə verdi. |
| 10.Ey dırığa kim karılık vaktıda boldum ğarib<br>Tigme bir nadan kolığa kaldım andın ayrılıp | 10.Eyvah ki, qoca vaxtımda qərib oldum; və ondan ayrılıb avara bir cahilin əlində qaldım. |
| 11.Çün ğazelni mini- mahzun okudum<br>Kaytara eyle ki mecnun okudum | 11.O qəzəli oxudum Mən məhzun; qayıdıb təkrar oxudum sanki məcnun |

| | |
|---|---|
| 1.Boldum aşüfte-dil ü xaste-ciger<br>Yangı baştın yene boldum ebter | 1.Aşuftə könüllü və xəstə ciyərli oldum; və təkrar daha betər oldum. |
| 2.Bir niçe derd bile ah urdum<br>Bir niçe nevha bile öğürdüm | 2.Bir çox dərdlə ah etdim; və bir çox nöhvə deyib hönkürdüm. |
| 3.Çünki bu derdğa yok hiç deva<br>Anga tekbir didim munga du'a | 3.Bu dərdə olmadığı üçün heç dəva; ona təkbir dedim, buna da dua. |
| 4.Kim ilahi yaşın efzun eyle<br>Anga ikbalnı makrun eyle | 4. Ki, ey Allahım, göz yaşını çox eylə; və onu iqbala yaxın eylə. |
| 5.Eyle kim bolmasun andın bu cüda<br>Ey Xuda eyle icabet bu du'a | 5.Yaxınlaşdır ki, ondan bu ayrılmasın; və ey Allahım, bu duanı qəbul et. |
| 6.Çün köngülde bu du'anı kıldım<br>Ah birle yığıdın yığrıldım | 6.Ürəyimdə bu duanı etdiyim üçün; ah ilə göz yaşından halsız qaldım. |
| 7.Didi kay sarı barur-sen Salih<br>Eyle-gin bizge mu'ayyen Salih | 7."Salih, hansı tərəfə gedirsən; bizə açıq söylə!" dedi. |
| 8.Min didim derd ile eylep zari<br>Ruhsatıng bolsa Buxara sarı | 8.Mən dərd ilə ağlayıb "İcazən olsa; Buxara tərəfinə gedəcəyəm." dedim. |
| 9.Didi barıp yarağ eyleng tayyar<br>Kim bolur cilve-gehim bat Buxar | 9."Gedib hazırlıq gör; və hərəkətim dərhal Buxara sarıdır." dedi. |
| 10.Min bu söz birle Buxara kildim<br>Öz anam kuyını menzil kıldım | 10.Mən bu söz üzərinə Buxaraya gəldim; və öz anamın məkanında yerləşdim. |
| 11.Kördüm oğlını anıng menzilide<br>Yarutup şem' anıng mahfilide | 11.Onun mənzilində oğlunu gördüm; və onun ocağında şam yandırdım (evini şənləndirdim). |

| | |
|---|---|
| 1.Secdeyi- şükr kitürdüm bisyar<br>Tingrige şükr ite turdum bisyar | 1.Mən çox şükür səcdəsinə getdim; və Tanrıya çox şükür etməyə başladım. |
| 2.Kim anıng ornıda yok bigane<br>Bar uşol şem' ü uşol pervane | 2.Onun yerində yad adam yoxdur; o həm şam, həm pərvanədir. |
| 3.Ta ebed şem'i münevver bolsun<br>Rum u Rey anga mukarrer bolsun | 3.Əbədiyyətə qədər şamı nur saçsın; Rum və Rey onun idarəsinə keçsin. |
| **LXVIX**<br>**Hazreti- İmamü'z-zaman ve Xalifetü'r-rahman Buxarağa kilip 'Ubeyd Sultannı toylağanı ve Xarezm vilayetiğa leşker tartıp barğanı ve Xarezm ilini kapap kurğan tigreside turğanları** | **LXVIX**<br>**Zamanın İmamı və Allahın Xəlifəsi həzrətləri Buxaraya gəlib Übeyd Sultana toy etməsi və Xarəzm vilayətinə əsgər sövq etməsi, Xarəzm ölkəsini mühasirə edib kurqanın çevrəsində durmaları** |
| 4.Hazreti- Xanı- veli-endişe<br>Veliyi- şuxi- şeca'at-pişe | 4.Xan Həzrətləri əndişəli; şuxluq və igidlik sahibidir. |
| 5.Taxtıda olturuban bir niçe kün<br>Taxt ilini körüben bir niçe kün | 5.Bir müddət yanında oturaraq; taxt xalqını bir müddət görərək; |
| 6.İnisi makberesin kıldı tavaf<br>Kıldı da'vet bile ol yerni mataf | 6.Kiçik qardaşının məqbərəsini təvaf edib; dəvət ilə o yeri ziyarətgah halına gətirdi. |
| 7.Da'veti eyledi bi-hadd ü kıyas<br>Da'vetin yip didiler barça sipas | 7.Bir çox dəvətlər eylədi; dəvətini bilərək hamısı mədh eylədi: |
| 8.Çünki da'vet işi bir yan boldı<br>Xanı- a`zam yene giryan boldı | 8.Dəvət işi tamamlandıqda; uca Xan təkrar ağladı. |

| | |
|---|---|
| 1.Didi çın dünyige bardı Sultan<br>Saldı bu dünyini kim bar yalğan | 1.Sultan, yalan olan bu dünyanı qoyub; gerçək dünyaya getdi, dedi. |
| 2.Kadri bisyar refi' olğusıdur<br>Bizge ol yerde şefi' olğusıdur | 2.Orada qədri çox uca olacaqdır; və o yerdə bizə şəfaətçi olacaqdır. |
| 3.Ta bu dünyide idi ol Sultan<br>Koymadı hergiz iligdin Kur'an | 3.O Sultan bu dünyada olduğu müddətdə; əsla əlindən Quranı buraxmadı. |
| 4.İşi Kur'an bile irdi dayim<br>Xah ka'id idi xahi kayim | 4.İstər kaid (oturan), istər olsun qaim; işi Quran ilə idi daim. |
| 5.İmdi hem bir niçe yaxşı hafız<br>Kim irür işleri ilge va'iz | 5.İndi işləri xalqa vəz etmək olan; bir çox yaxşı hafiz; |
| 6.Terbiyetde okusunlar Kur'an<br>Şad bolsun basa ruhı- Sultan | 6.Tərbiyə ilə Quran oxusunlar; və Sultanın ruhu beləcə şad olsun! |
| 7.Çün bu söz Xandın sadır oldı<br>Hafız ol türbet üze öküldi | 7.Xan bu sözü söyləyincə; hafizlər o türbədə toplaşdılar. |
| 8.Xan çıkıp eyledi ferman bile cer<br>Kim Buxarada yığılsun leşker | 8.Xan çıxıb fərman edərək; əsgərin Buxarada toplaşmasını xəbər verdi. |
| 9.Kim yörüp baralı Xarezm sarı<br>Mülki- pür-arbede vü rezm sarı | 9.Çox qarışıqlıq və savaş içində olan; Xarəzmə doğru yürüşlə gedək! |
| 10.Andicanda Cani Big sultandur<br>Moğol özi bile ser-gerdandur | 10.Əndicanda Canı Big sultandır; yanında olan moğollar ilə özü də sərgərdandır. |
| 11.Taşkend içre Süyünçek Sultan<br>Olturuban yörütedür ferman | 11.Daşkənddə də Süyüncək Sultan oturmaqdadır; və fərman yürütməkdədir. |

| | |
|---|---|
| 1.Yessi Savranda Küçüm sultandur<br>Kazak anıng işide hayrandur | 1.Besi və Savranda Küçüm Sultandır; və kazaklar onun işində heyrandır. |
| 2.Şehri- Xayye içidedür Ya'kub<br>Kim irür Kuşçığa özi mensub | 2.Özü Quşçı qəbiləsinə mənsub; Hayye şəhərindədir Yaqub . |
| 3.Haci Ğazidür Uratipe ara<br>Ol dağı anda irür mülk-ara | 3.Uratipe şəhərində Hacı Qazi olmaqdadır; o da orada, ölkəni düzənə qoymaqdadır. |
| 4.Bar Semerkand ara Ahmed Sultan<br>İmdi' alemde budur darü'l-eman | 4.Səmərqənddə Əhməd Sultan var; və indi aləmdə əmniyyətli yer budur (oradır). |
| 5.Hamza Sultan bu sarı taptı karar<br>Boldı der-best anga mülki- Hisa | 5.Həmzə Sultan bu tərəfə qərar qıldı; və Hisar şəhəri onun oldu. |
| 6.Tirmiz üstide kılıban cevlan<br>Olturur nakdı–Seyid Baba Xan | 6.Seyyid Baba xan, Tirmiz ətrafında; dolanaraq cəsurca oturur. |
| 7.Kunduz erkide irür Kanber Bey<br>Bolur ol anda besi server bey | 7.Qənbər Bəy, Kunduz qalasındadır; və orada bir çox ulu bəy olur. |
| 8.Mehdi Sultan hem anıng birle irür<br>Rezmğa kirse anıng birle kirür | 8.Mehdi Sultan da onunla birlikdədir; və döyüşə girsə onunla bərabər girər. |
| 9.Bar anıng birle Seyyid 'Aşık hem<br>Kal`anı kılğularıdur muhkem | 9.Onunla birlikdə Seyyid Aşiq də var; və o, qalanı möhkəmlədəcəkdir. |
| 10.Yok turur hiç tarafdın zahmet<br>Barça ilge yayalı emniyyet | 10.Heç bir tərəfdən yoxdur zəhmət; və bütün ölkəyə yayaq əmniyyət. |
| 11.Dimesün mülki- Xorasandağılar<br>Yığılıp yaxşı yaman andağılar | 11.Sadəcə Xorasandakılar deyil; pis, yaxşı orada olan hər kəs toplaşdı. |

| | |
|---|---|
| 1.Kim cihandın yörüş itti Sultan<br>Derdidin tefrikalık boldı xan | 1. Cahandan köçdükdə Sultan;<br>Üzüntüdən dərd-qəmə düşdü xan. |
| 2.Ol eger kıldı sefer 'alemdin<br>Bizge yok hiç xaber matemdin | 2.Əgər səfər etdisə aləmdən; bizə heç xəbər yox matəmdən. |
| 3.Oğlını ornıda olturğuzdük<br>Nökerini kaşıda turğuzdük | 3.Oğlunu yerinə oturtduq; və adamlarını hüzurunda durdurduq. |
| 4.Anı yoklatğusı yoktur bizge<br>Aklı vü fehmi tanuktur bizge | 4.Bizə onu unutduracaq bir şey yoxdur (unutdurmayacaqdır); və bizə ağlı və fəhmi şahiddir. |
| 5.Uşbu kış içide leşker çikeli<br>Toxmı- ihsan u mürüvvet ikeli | 5.Elə bu qış içində əsgər çəkək; ehsan və mürüvvət toxumunu əkək! |
| 6.Yitip Ürgenç sevadın köreli<br>Andağı xalk muradın köreli | 6.Gedib Ürgəncin qaraltısını görək; və oradakı xalqın məqsədi nəymiş anlayaq! |
| 7.Uşbu sözler bile atlandı xan<br>Yörütüp barça ulusğa ferman | 7.Xan, bütün xalqa fərman buyurub; elə bu sözlərlə atlandı. |
| 8.Altı künde vü Buxara kildi<br>Ka'besi allıda menzil kıldı | 8.Altı gündə Buxaraya gəldi; və Kəbəsinin önündə yerləşdi. |
| 9.Yene bir niçe saçıp közdin yaş<br>Matem içre didi toy sözin faş | 9.Yenə göz(ün)dən bir çox yaş saçıb; matəm içində toy sözünü açıqladı. |
| 10.Didi Şeh-zade Ubeyd ivlendi<br>Şahlık mesnediğa ilendi | 10.Dedi: “Şahzadə Übeyd evləndi; və padşahlıq məqamına çatdı. |
| 11.Toy layıktur anga imdi toy<br>Toydın boldı yene güft ü guy | 11.Ona indi toy yaraşar; və toydan ötrü yenə söz-söhbət oldu. |

| | |
|---|---|
| 1.Kıldılar asru mu`azzam toynı<br>Şadmanlık bile xurrem toynı | 1.Çox müəzzəm bir oy etdilər; şad-xürrəm və şən bir toy etdilər". |
| 2.Toy itip Hazreti- xan atlandı<br>Asru Xarezm üçün katlandı | 2.Xan Həzrətləri toy edib atlandı; və Xarəzm üçün bir çox zəhmətə qatlandı. |
| 3.Xanı- din-perver atlanğanda<br>Çirig ol xan bile katlanğanda | 3.Dinpərvər Xan atlandıqda; əsgər də Xanla əziyyətə qatlandıqda, |
| 4.Kar irdi vü hava asru savuk<br>Bar idi arz u sema asru savuk | 4.Qar vardı və hava çox soyuq idi; yer və göy çox soyuq idi. |
| 5.Takı yol hem bar idi asru yırak<br>Kim uşol şehr idi dünyağa kırak | 5.Yol da çox uzaqdı; çünki o şəhər dünyanın o bir ucundaydı. |
| 6.Yolda ma`muresi yok irdi hiç<br>Bar idi yolı besi pür-xam u piç | 6.Yolda heç abad yer yox idi (qonaqlayacaq uyğun bir yer yoxdu); və yolu da çox dərə-təpə idi. |
| 7.Savukı eyle ki xan didi öz<br>Barça leşker ara yayıldı sözi | 7.Xanın özü yolun soyuğu üçün belə dedi; və sözü bütün əsgər içində yayıldı. |
| 8.Kim kazaklıkda yörügen eyyam<br>Çünki Xarezm sarı bastuk ğam | 8. Ki quldurluq etdiyimiz günlərdə; Xarəzmə də ayaq basdıq. |
| 9.Eyle savuk idi kim yaxşı yaman<br>İlte almaslar idi otsız can | 9.Elə soyuq idi ki yaxşı, pis hər kəs; odsuz, istisiz canlarını qoruya bilməzdilər. |
| 10.Ot yakıp halkalap olturğanda<br>Geh tongup geh ısına turğanda | 10. Od yandıraraq dövrə vurub oturduqda; və gah donub, gah isindikdə; |
| 11.Niçe nevbet kiliben niçe koyın<br>Eylediler ot içinde mesken | 11.O əsnada ard- arda qoyun sürüləri gəldi; və alovun içinə girdilər. |

| | |
|---|---|
| 1.Biz alarnı ısıtıban koyduk<br>Ot kaşında iltiben koyduk | 1.(O qoyunları) biz; odda bişirdik. |
| 2.Ot eger bolmasa irdi bir dem<br>Savuk eyler idi ilini der-hem | 2.Əgər bu an od olmasaydı; soyuq xalqı müztərib edərdi. |
| 3.Xan bu sözni digeç il kavruldı<br>Postin fikri bile savruldı | 3.Xan bu sözü söylədikdə xalq qovruldu; və kürk fikri ilə sovruldu. |
| 4.Postinsiz kişige can yok idi<br>Can ni kim lezzeti-iman yok idi | 4.Kürksüz kimsədə can qalmazdı; can nə, iman ləzzəti olmazdı. |
| 5.Pöstin almak çün boldı ray<br>Pöstin-duzlar oldılar bay | 5.Kürk almaq düşüncəsi ağla gəldikdə; kürk tikənlər zəngin oldular. |
| 6.Savuk ilning başıdın aldı huş<br>Süsti yarmaknı kalpak-füruş | 6.Soyuq xalqın başından ağlını aldı; və papaq satanlar pul qazandı. |
| 7.Hasıla eylediler yaxşı yarağ<br>Barça leşker tüzüp esbabı- ferağ | 7.Nəticədə yaxşı hazırlıq gördülər; və bütün əsgərlər rahat oldular. |
